AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ
SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİ

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

## ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 35
(II HİSSƏ)

Bakı - 2024

ISSN 2409-0859

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

## BURAXILIŞ № 35

### İkinci hissə

BAKI – 2024

**ISSN 2409-0859**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, mətbu nəşrlərin reyestrinə daxil edilmə nömrəsi: **3885, 25.05.2014-cü il.**

**Ünvan:** 1148, Azərbaycan, Bakı, Z.Xəlilov, 23, Bakı Dövlət Universiteti, 2 korpus, otaq 904, tel. 012 438 14 47, sayt http://sociology.bsu.edu.az/
E-mail: q.abbasova@mail.ru

Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Buraxılış № 35, II hissə. Bakı, 2024, 166 s.

**Redaksiya heyəti**

**Rəbiyyət Nurullah qızı Aslanova**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Rəfail Musa oğlu Həsənov,** sosiologiya elmləri doktoru, professor, BDU
**Rəna Fuad qızı İbrahimbəyova**, psixologiya üzrə fəlsəfə doktoru, professor, BDU
**Kamilə Ramiz qızı Əliyeva**, psixologiya elmləri doktoru, professor, BDU
**Səxavət Nəsrulla qızı Əliyeva,** psixologiya üzrə fəlsəfə doktoru, dosent, BDU
**Tatyana İvanovna Bilenko**, fəlsəfə elmləri doktoru, professor, Droqobıç dövlət pedaqoji universiteti (Ukrayna)
**Sergey Nikolayeviç Volkov,** fəlsəfə elmləri doktoru, professor, Penza texnoloji akademiyası (Rusiya)
**Ləzifə Nağı qızı Qasımova**, pedaqogika elmləri doktoru, professor, BDU
**Qəmər Cəfər qızı Mürşüdlü**, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Kəmalə Həsən qızı Pənahova,** fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Qızılgül Yasin qızı Abbasova**, fəlsəfə elmləri doktoru, professor,baş redaktor, BDU
**Daxil Cahangir oğlu Vəliyev**, fəlsəfə üzrə fəlsəfə doktoru, redaktor müavini, BDU
**Vüsalə Kərəm qızı Musayeva,** fəlsəfə üzrə fəlsəfə doktoru, buraxılışa məsul redaktor, BDU

Topluda müasir dövrün aktual problemlərindən bəhs olunur. Məqalələrdə müəlliflər tərəfindən qaldırılan məsələlərin geniş çeşidi dünyamızın tarix, fəlsəfə, politologiya, sosiologiya, pedaqogika, psixologiya, iqtisadiyyat, mədəniyyətşünasliq, sənətşünaslıq və digər sosial-humanitar sahələrdə baş verən proseslərə bir çox yeni aspektlərdən nəzər salmağa imkan verir. Toplunun materiallarından elmi işçilər, ali və orta ixtisas məktəblərinin humanitar fənləri tədris edən müəllimlər, tələbələr və aspirantlar faydalana bilərlər. Məqalələr müəlliflərin redaktəsi ilə çapa verilmişdir.

# HUMANİTAR ELMLƏR

## SOSİOLOGİYA VƏ SOSİAL İŞ

## K. MARKS VƏ F. ENGELSİN ŞƏHƏRLƏRİN SOSİAL-EKOLOJİ VƏZİYYƏTİ İLƏ BAĞLI ELMİ-NƏZƏRİ YANAŞMALARI

***Əzizli Anar Oruc oğlu***
***BDU-nun II kurs magistrantı***
***azizlianar01@gmail.com***

***Açar sözlər*:** Şəhər, sosial-ekoloji tədqiqat, sənaye inqilabı, işçi sinfi, həyat mübarizəsi, kapitalizm, K. Marks, F. Engels, sinifsiz cəmiyyət.
***Ключевые слова:*** Город, социально-экологические исследования, промышленная революция, рабочий класс, жизненная борьба, капитализм, К. Маркс, Ф. Энгельс, бесклассовое общество.
***Keywords*:** City, socio-ecological research, industrial revolution, working class, life struggle, capitalism, K. Marx, F. Engels, classless society.

Demək olar ki, antik mədəniyyətlərin təşəkkülündən bəri şəhərlər gedərək artan bir dəyər qazanmış, hər tarixi dövrdə müəyyən özünəməxsus xüsusiyyətlərlə səciyyələnmişdir. Ancaq müasir şəhərləşmə anlayışı Sənaye İnqilabından sonra meydana çıxmışdır. Bu dövrdə şəhərlər əlavə və ya artıq dəyərin (artıq dəyər anlayışı xeyli əvvəldən, hələ Marksdan da öncə kəşf edilmiş və istifadə edilməyə başlamış bir anlayışdır, ümumiyyətlə, bu, lazım olandan daha çox istehsal etmək deməkdir [9]) yarandığı ərazilərə çevrilmiş, şəhərləşmə öz yerini xüsusilə qabaqcıl ölkələrdə və böyük şəhərlərdə urbanizasiyaya vermişdir.

Belə ki, sənayeləşmə dalğası ilə dünya şəhərlərinin bir çoxunda əmək gücünə (işçilərə) olan tələbat kəndlərdən və şəhərətrafı ərazilərdən şəhərlərə axına səbəb olmuşdur. Beləliklə də, şəhərlərin qeyri-nizami və “kor-koranə” şəkildə böyüməsi ilə formalaşan proletar mədəniyyət müasir sosial təbəqə anlayışının təməlini qoymuşdur.

Şəhərlər və şəhər həyatını araşdırma obyekti olaraq seçən tədqiqatlar o dövrdə mövcud olmasa da, sosioloqlar irəli sürdükləri sosial nəzəriyyələr çərçivəsində və əsasən qeyd olunan sosial problemlərlə bağlı olaraq şəhərləri tədqiq etməyə çalışmışlar. K. Marks, F. Engels və başqaları iqtisadi, siyasi və digər baxımdan bu anlayışın insan həyatındakı roluna və onun mahiyyətinə diqqət çəkmişdir [6, səh 2-3]. Qeyd olunan məsələlərin daha yaxşı anlaşılması baxımından onların yanaşmalarının tədqiqi kifayət qədər önəmli və aktual bir məsələdir.

Ümumilikdə, sosial bir varlıq olan şəhər XIX əsr sosioloqları tərəfindən ictimai hadisələr və onların səbəb olduğu dəyişikliklər kontekstində nəzərə alınmışdır [6, səh 2]. Qeyd olunan dövrdə şəhərlər hələ nə ekoloji, nə də sosial araşdırmaların obyektinə çevrilməmişdi. Tədqiqatçılar şəhərləri öz irəli sürdükləri nəzəriyyələr baxımından ələ alırdı ki, bu cəhətdən də onların fikirləri bir-birindən fərqlənirdi. Marks və Engelsin fikirlərində şəhərlər daha çox ictimai dəyişikliklərin baş tutduğu və beləliklə də yeni nizamın, quruluşun meydana gəldiyi yerlər olaraq dəyərləndirilirdi.

Şəhəri bir tədqiqat obyekti olaraq seçməyən, lakin gələcək araşdırmalara ciddi töhfələr verən ilk sosioloqlardan bəhs edərkən ilk öncə diqqətə çatdırmaq lazımdır ki, şəhərlər və onların sosial həyatı ilə bağlı ilk araşdırma və tədqiqatlar Karl Marks və Fridrix Engels tərəfindən aparılmışdır. Marksın görüşlərinin mərkəzində kapitalist istesalı (şəkli) və şəhər, eyni zamanda bunların qarşılıqlı əlaqəsi nəticəsində orataya çıxan sosial təbəqə anlayışı da-

yanır. İlk olaraq, Marks təbiət anlayışını izah edərkən bilavasitə təbiətin özünə yox, onun insanla olan əlaqəsinə diqqət çəkir.

Çünki onun fikrincə, insan cəmiyyətindən ayrı bir təbiətin mənası yoxdur. Həmçinin insanlıq tarixinin başlamasından öncəki təbiət də bu gün artıq heç bir yerdə mövcud deyildir. Təbiət - onunla əlaqə (insan əlaqəsi) baxımından tarixi bir "məhsuldur" və buna görə də insanlardan ayrı dəyərləndirilə bilməz. Onun bu barədə düşüncələrinin təməlini və özülünü aşkara çıxarmaq üçün təbiət məfhumunu "birinci təbiət" və "ikinci təbiət" şəklində ayırmaq faydalı olacaqdır. Burada birinci təbiət insanların xaricində var olan şeylərin dünyası, ikinci təbiət isə ilk növbədə dövlətdə və cəmiyyətdə, daha sonra isə hüququqda, iqtiasdiyyatda formalaşan insanların dünyasıdır. Lefebvre də öz növbəsində əsərlərində ikinci təbiət anlayışına diqqət çəkmişdir [5, səh 2-3].

Marks demək olar ki, özünün əsas fikirlərini və müddəalarını "Kapital" adlı əsərində ifadə etmişdir [7]. O, bu əsərdə əsasən kapitalizmin təməl daşı olan meta - əmtəə anlayışı (satılmaq üçün istehsal olunun mal, ticarət məhsulu) və sərmayənin (investisiyanın) istehsalı prosesini analiz etmişdir, ona görə, sosial təbəqə anlayışının formalaşması da bu prosesin davamıdır [8, 2020].

Beləliklə, Marksın şəhərlərin sosial aspetki ilə bağlı fikirləri bundan ibarətdir ki, sənayeləşmə prosesi ilə birlikdə kəndlərdən və şəhərətrafı ərazilərdən şəhərlərə köç ediləcək və şəhərlərdə bir "yığılma" meydana gələcəkdir. Ancaq bu, öz növbəsində həm müsbət, həm də mənfi bir prosesdir. Çünki ilk növbədə şəhərlərə axınlarla birlikdə bu kənd yerlərində işsizlik və şəhərlərdə yeni fürsətlərin və daha cəlbedici iş yerlərinin meydana çıxmasına səbəb olacaqdır. Daha yaxşı həyat şəraiti ümidi ilə şəhərlərə köç edən insanlar isə çox zaman gözlədiklərinin əksinə dəhşətli yaşayış şəraiti ilə qarşılaşırlar [1, səh 10].

Marks düşünür ki, feodalizmdən kapitalizmə keçilməsi ilə bərabər kəndlərdə toplanan bu insanlar həm də yuxarıda göstərildiyi kimi, yeni bir sosial təbəqə olan proletariyanı meydana gətirəcəkdir. O öz növbəsində, burjuaziya cəmiyyəti adlandırdığı kapitalizmin aşağı sosial təbəqəsi olan proletar (fəhlə) ilə feodalizmin və ondan əvvəlki dövrlərin aşağı sosial zümrəsini demək olar ki, (həyat şəraiti baxımından) eyniləşdirirdi:

"Romalı qullar öz sahibinə zəncilərlə bağlı idi; muzdlu işçi də görünməyən iplərlə bağlıdır. Muzdlu işçinin üzdəki (görünüşdəki) müstəqilliyi onu işlə təmin edən patronlarının (rəhbərlərinin) daimi dəyişməsilə və aralarındakı müqavilənin fiction jurisi ilə (hüquqi qüvvəsi ilə) təmin olunur" [3, səh 554].

Eyni zamanda, bütün bu göstərilən proseslərin müəyyən bir mərhələdə müsbət olaraq ifadə olunmasının səbəbi budur ki, Marksa görə, siniflər arası mübarizə daimi bir proses deyildir. Kapitalizmi sevməyən biri və sosializm tərəfdarı olaraq o qeyd edirdi ki, feodalizm insanları məkan baxımından ayrı salsa da, sənayeləşmə və şəhərlərə axın vasitəsilə kapitalizm onları yeni proletarlar ilə birləşdirir və onlar bir yerdə işləyib bir yerdə yaşayaraq əzilmişlik və xor görülmə duyğusunu da birlikdə hiss edirlər.

Bu səbəblə işçi sinfinin buna qarşı çıxması və birləşməsi baxımından ən uyğun məkan elə şəhərlərdir. Marks düşünür ki, sinfi mübarizə cəmiyyətin inkişaf şəkli olsa da, bu proses həmişəlik belə davam etməyəcək, çünki kapitalizm də özündən əvvəl gələn sosial sistemlər kimi kapitalizm də gərginlik yaradır və o hətta sinfi mübarizəni qüvvətləndirir. Buna görə də, gec-tez proletar-fəhlə sinfi birləşərək sosial ayrıseçkiliyə qarşı çıxacaq və onların da mübarizəyə qalxması ilə sinifsiz bir cəmiyyət, sosial sistem, daha dəqiq desək, sinifsiz kommunizm meydana gələcəkdir.

Nəhayət, Marks qeyd edir ki, orta əsrlərə qədər olan tarix kəndlərin tarixidir, orta əsrlərdə isə feodal istehsal prosesinin ortaya çıxması və ticarətin artması ilə bərabər şəhər və kəndlər arasında münasibətlər dəyişmiş və ayrım kəskinləşmişdir. Bununla yanaşı, əyalətlərin formalaşması ilə bərabər dünyanın müasir tarixi başlayır. Bu baxımdan, orta əsrlərdən sonrakı dövrü şəhərlərin tarixi də adlandırmaq olar [6, səh 4].

Yuxarıda göstərildiyi kimi, Marks və Engelsin elmi fəaliyyətində şəhərləri bir tədqiqat obyekti olaraq elə aldıqlarını, bilavasitə şəhərləri incələdiklərini görmək çətindir. Belə ki, Marks və Engels şəhərlərə iqtisadi-siyasi yanaşmanın təməlini qoyan şəxslərdir və onlar öz araşdırmalarında əsasən kapitalizmin inkişafı, sərmayə yığımı (xüsusilə ilkin sərmayə) və sosial təbəqələşmə kimi məsələlər zəmnində bu movzuya toxunmuşlar.

Ancaq xüsusilə Engelsin İngiltərənin Salford və Manchester şəhərlərindəki müşahidələri əsasında qələmə aldığı "İngiltərədə İşçi sinfinin Vəziyyəti" (Condition of the Working Class in England) adlı əsəri müasirləri, hətta daha sonra gələn sosioloqlarla müqayisədə şəhərlərin sosial strategiyalar baxımından önəmi haqqında yazılmış ən geniş və əhatəli əsərlərdən biridir. O bu əsərdə həmçinin kənd və şəhərlər arasında sənaye inqilabı ilə bərabər ortaya çıxan ziddiyyətlər və kapitalizmin inkişafı cəhətindən şəhərlərin rolunu da incələmişdir [5, səh 4-5].

Engels İngiltərədə qaldığı və bu müşahidə və incələmələri apardığı 21 ay ərzində işçi sinfinin iş və həyat şəraitini və mübarizəsini öz gözləri ilə görmüş və müşahidələrini bir sıra elmi sənədlərlə də qüvvətləndirmişdir. Ümumilikdə, onun vurğulamaq istədiyi məsələ olduqda barizdir: onun fikrincə, yeni şəhərlərdə işçi sinfinin belə səfil vəziyyətdə yaşamasının səbəbi bu və ya digər (xırda) çatışmazlıqlarla deyil, bütövlükdə kapitalist sistemi ilə bağlıdır. Bu çalışması ilə Engels hələ marksizmin təməl müddəaları oturuşmadan öncə fikirlərini inqilabi bir çərçivəyə sala bilmişdir [10, 2014].

Engelsin əsas fikirlərini belə ümumiləşdirə bilərik; sənaye inqilabı şəhərlərin ani böyüməsinə və inkişafına səbəb olmuşdur, ancaq sənaye inqilabının təməlləri çoxdan atılmışdır. Burada o, ilk yığım anlayışına diqqət çəkir. Bu anlayış sadəcə maddi sərvəti deyil (hansı ki, sənaye inqilabında olduqca önəmli bir faktor idi), həmçinin insanların yaşadığı ərazidə yeni quruluşun, yeni sistemin və yeni əlaqələrin formalaşmasını da ifadə edir.

Engels ilk yığımın yaranma səbəbi olaraq mülksüzləşdirmə, quldarlıq, əhali sayı ilə bağlı həyata keçirilən məcburi siyasətlər, çitləmə və s. göstərir. Bütün bu səbəblər insanları "azad əməkçilər" (işçilər) olaraq şəhərlərə yönəlməyə məcbur edir. Burada isə əhalinin yuxarı və aşağı sosial təbəqələri, yəni burjuaziya və proletariya arasında çox kəskin fərqlər meydana çıxır. London şəhəri haqqında o "varlıların möhtəşəm evlərinin yaxınlığında yoxsul məhəllələrinə asanlıqla rast gəlinə bilən yer" olaraq bəhs edir:

"Şəhərin köhnə hissələrində bir çox yer çirkli və baxımsızdır; O, kir yığınları və gölməçələrlə doludur. Birminghamda kifayət qədər çox olan həyətlərin sayı təqribən 2000-ə çatır və şəhər işçilərinin əksəriyyətini əhatə edir. Bu həyətlər, ümumiyyətlə, dar, palçıqlı, zəif havalandırılan və su təchizatı olmayan 8-20 evlə çevrələnib. Bu evlərin arxa divarları ümumi olduğu üçün quruluşu sadədir və yan tərəflərində pəncərələr var... Birmingemdə bir neçə zirzəmidən iş yeri kimi istifadə olunsa da, yaşayış yeri kimi zirzəmilər çox dəyil. Proletarların qaldığı bir çox yataqxana var və onlar həyətlərdə və ya şəhərin mərkəzində tikilir. Bunların demək olar ki, hamısı iyrənc və pis qoxuludur. Bu pansionatlarda yalnız rahatlıq və ya əxlaqı heç önəmsəmədən sadəcə bu səfil məxluqların dözə bildiyi atmosferdə yeyib-içən, siqaret çəkən, içki içən və yatan rahatlıq və əxlaqı nəzərə almadan dilənçilər, oğrular və s. məskunlaşıb" [2, səh 73].

Manchester şəhəri haqqında Engelsin düşüncələri isə çox da fərqli deyildir:

"Şəhər o qədər qəribə bir şəkildə qurulub ki, insan özünü iş və istirahətlə məhdudlaşdırsa, illərlə bu şəhərdə yaşayıb hər gün çölə çıxsa belə, fəhlə (proletar) məhəllələrinə, hətta işçilərə belə rast gəlməyə bilər. Bunun əsas səbəbi odur ki, dilə gətirilməmiş şüursuz bir uzlaşma (kompromis) ilə olduğu qədər, sözlə ifadə olunmuş şüurlu bir qətiyyətliliklə də zəhmətkeş xalqın məhəllələri orta təbəqə üçün ayrılmış şəhər məhəllələrindən bıçaqla kəsilmiş kimi ayrılmışdır, əks halda, bunun olmadığı yerlərdə isə, onlar yardımsevərlik pərdəsi altında gizlənmişdir" [10, 2014].

Lakin bütün bu mənfi cəhətlərə baxmarayaq, Marks kimi, Engels də bu prosesin özündə həm də müsbət bir proses olduğunu qeyd edir və əvvəlki dövrlərdə mülkədara zəncirlərlə bağlı olan ən aşağı sosial təbəqənin uzun bir müddət və ağır bir mübarizədən sonra belə olsa, sosial cəmiyyətlə əvəzlənəcəyinə ümidini bildirir və bunun üçün şəhəri ideal məkan olaraq görürdü.

## ƏDƏBİYYAT


1. Əhmədli C. T., Paşayev. V. Ə. "Sosiologiya və cəmiyyət problemləri". Bakı: "Ecoprint", 2023, 749 səh.
2. Engels F. "Condition of the Working Class in England". London: Progress Publishers, 1845 (2013), 206 səh.
3. Marx K. "Capital : A Critique of Political Economy Volume I". Germany: Verlag von Otto Meisner 1867 (2010), 1152 səh.
4. Güllüpınar F. "Kent sosyolojisi kuramları üzerine bir litaretür değerlendirmesi". Eskişehir: Çağdaş yerel yönetimler, 2012, 29 səh.
5. İncedere L. "Çağdaş Kentsel Teorilerde Marx'ı Neden Okuyoruz?" Istanbul: Kent Akademisi, 2020, 10 səh.
6. Turut H, Özgür E. M. "Klasik Kent Kuramlarından Eleştirel Kent Kuramlarına Geçiş Bağlamında Kentleri Yeniden Okumak". İzmir: Ege Coğrafya dergisi, 2018, 19 səh.
7. https://az.wikipedia.org/wiki/Karl_Marks
8. Karl Marx (Stanford Encyclopedia of Philosophy)
9. https://tr.m.wikipedia.org/wiki/Art%C4%B1_de%C4%9Fer
10. https://gelenek.org/engelsin-kentlerinden-kapitalizmin-ontolojisine-bir-gezinti/


## K. MARKS VƏ F. ENGELSİN ŞƏHƏRLƏRİN SOSİAL-EKOLOJİ VƏZİYYƏTİ İLƏ BAĞLI ELMİ-NƏZƏRİ YANAŞMALARI

***Əzizli Anar***


## XÜLASƏ

Şəhərlər müasir dövrdə bir çoxumuzun həyatını davam etdirdiyi, eyni zamanda, burada yaşayıb yaşamamasından asılı olmayaraq hər bir insanın həyatına bu və ya digər dərəcədə təsir edən mürəkkəb strukturlardır. Bu gün şəhərlərin mahiyyətini, buradaki sosial həyatı və ekoloji vəziyyəti araşdıran kifayət qədər tədqiqatçı olsa da, XIX əsrdə şəhərlər hələ bir tədqiqat obyektinə çevrilməmişdi. Qeyd olunan dövrdə K. Marks, F. Engels və digər sosioloqlar şəhərləri ictimai dəyişiklərin bir parçası olaraq görmüş, bu məfhumu sosial təbəqələşmə, proletariya, kapitalizm, sənayeləşmə, yadlaşma və s. kimi anlayışlar çərçivəsində tədqiq və təhlil etmişlər. Ümumilikdə isə Marks və Engelsin fikirləri kifayət qədər oxşarlıq təşkil edir. Marks daha çox kapitalizm, sərmayə yığımı, kapital, sinfi təbəqələşmə və proletariya, Engels isə işçi sinifi, onların sosial vəziyyəti və həyat mübarizəsi, həmçinin sənaye inqılabının şəhərlərə təsiri və ətraf-mühiti çirkləndirməsi kimi məsələləri tədqiq etsə də, onların hər ikisi sonda işçi sinfinin mübarizəsi ilə bərabər sinifsiz bir cəmiyyətin bərqərar olacağına inam duymuşdur.

XX əsrdən başlayaraq şəhər artıq müstəqil bir araşdırma mövzusuna çevrilmiş, XIX əsrin əvvəllərindən isə bu tədqiqatlar yeni bir mərhələyə qədəm qoymuş olsa da Marks və Engelsin fikirləri öz aktuallğını qorumuş və özündən sonra gələn sosioloqların fəaliyyətinə mühüm töfhələr vermişdir.

# НАУЧНО-ТЕОРЕТИЧЕСКИЕ ПОДХОДЫ К. МАРКСА И Ф. ЭНГЕЛЬСА К СОЦИАЛЬНО-ЭКОЛОГИЧЕСКОМУ СОСТОЯНИЮ ГОРОДОВ

*Азизли Анар*

**АННОТАЦИЯ**

Города представляют собой сложные структуры, в которых многие из нас проживают свою жизнь в современное время, и в то же время они в той или иной степени влияют на жизнь каждого человека, независимо от того, живет он здесь или нет. Хотя сегодня существует достаточно исследователей, изучающих природу городов, их общественную жизнь и экологическую ситуацию, в XIX веке города еще не стали объектом исследования. В указанный период К. Маркс, Ф. Энгельс и другие социологи рассматривали города как часть социальных изменений, и это понятие определялось как социальное расслоение, пролетариат, капитализм, индустриализация, отчуждение и т. д. изучали и анализировали в рамках таких концепций. В целом взгляды Маркса и Энгельса весьма схожи. Хотя Маркса больше интересовали капитализм, накопление капитала, капитал, классовое расслоение и пролетариат, тогда как Энгельса больше интересовал рабочий класс, его социальное положение и жизненная борьба, а также влияние промышленной революции на города и загрязнение окружающей среды. Оба они верили, что бесклассовое общество в конечном итоге будет создано в результате борьбы рабочего класса.

Начиная с XX века город уже стал самостоятельной темой исследований, и хотя с начала XIX века эти исследования вышли на новый этап, идеи Маркса и Энгельса сохранили свою актуальность и внесли важный вклад в деятельность социологов, пришедших после них.

# K. MARX AND F. ENGELS' SCİENTİFİC-THEORETİCAL APPROACHES TO THE SOCİO-ECOLOGİCAL CONDİTİON OF CİTİES

*Azizli Anar*

**SUMMARY**

Cities are complex structures in which many of us live our lives in modern times, and at the same time, they affect the lives of every person to one degree or another, regardless of whether they live here or not. Although today there are enough researchers studying the nature of cities, their social life and ecological situation, in the 19th century cities had not yet become an object of research. In the mentioned period, K. Marx, F. Engels and other sociologists saw cities as a part of social changes, and this concept was defined as social stratification, proletariat, capitalism, industrialization, alienation, etc. have studied and analyzed within the framework of such concepts. In general, the views of Marx and Engels are quite similar. Although Marx was more concerned with capitalism, capital accumulation, capital, class stratification and the proletariat, while Engels was more concerned with the working class, their social condition and life struggle, as well as the impact of the industrial revolution on cities and environmental pollution, both of them were concerned with the struggle of the working class, but ultimately believed that a classless society would be established with the struggle of them.

Starting from the 20th century, the city has already become an independent research topic, and although these studies have entered a new stage since the beginning of the 19th century, the ideas of Marx and Engels have maintained their relevance and made important contributions to the activities of sociologists who came after them.

# ƏLİLLİYİ OLAN GƏNCLƏRLƏ İŞ ÜZRƏ BEYNƏLXALQ TƏCRÜBƏ

***Məmmədova Zeynəb Rafail qızı***
***ADMİU-nun II kurs magistrantı***
***zeynebmemmmedova@gmail.com***

**Açar sözlər:** əlilliyi olan şəxs, Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya, İsveç, İtaliya, Estoniya
**Ключевые слова:** человек с инвалидностью, Конвенция о правах инвалидов, Швеция, Италия, Эстония
**Keywords:** a person with a disability, Convention on the Rights of Persons with Disabilities, Sweden, Italy, Estonia.

Dünyada əlilliyi olan gənclərin müalicəsi, reabilitasiyası və cəmiyyətə inteqrasiyası ilə bağlı həyata keçirilən mütərəqqi işlər artan tendensiya ilə davam edir. Yer kürəsində 1,3 milyard insan, yəni hər 6 nəfərdən 1-i müxtəlif dərəcəli əlilliyə sahibdir [1]. Əlillik şəxsin anadangəlmə və ya sonradan qazanılan fiziki, əqli, mənəvi və sosial bacarıqlarını müxtəlif dərəcədə itirməsi səbəbilə meydana gəlir. Əlilliyi olan şəxslər sırasına əlilliyi olan gənclər də daxildir. Gəncin sahib olduğu əlillik dərəcəsi onun ictimai həyata uyğunlaşması və gündəlik ehtiyaclarını ödəməsində qarşılaşdığı çətinliklərə bilavasitə təsir göstərir. Birləşmiş Millətlər Təşkilatına əsasən gənclər 15-24 yaşları əhatə edən, Azərbaycanda “ Gənclər siyasəti haqqında” qanuna əsasən isə gənclər 14-29 yaşları əhatə edən şəxslərdir [2]. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən əlilliyə səbəb olan xəstəliklərin siyahısı və onlara müvafiq olaraq ilk dəfə əlilliyi müəyyən edilən əlilliyi olan şəxslərin sayı, 14-29 yaşda olan gənclərin sayı üzrə hər il hesabat ictimaiyyətə təqdim olunur. Sinir sistemi xəstəlikləri, psixi pozuntular və davranış pozuntuları, göz və əlavə aparatın xəstəlikləri, qan dövranı sisteminin xəstəlikləri, vərəm, tənəffüs orqanlarının xəstəlikləri, endokrin sistemin xəstəlikləri, travmalar və xarici səbəblərin təsirinin bəzi digər nəticələri sözü gedən xəstəliklər sırasına daxildir. Bu hesabata əsasən 2020-ci ildə əlilliyi olan şəxslərin sayı 13567, onlardan 14-29 yaşda olanların sayı 1733, 2021-ci ildə əlilliyi olan şəxslərin sayı 18452, onlardan 14-29 yaşda olanların sayı 3388-dir [3].

Tarixin müxtəlif dövrlərində əlilliyi olan şəxslərə qarşı fərqli baxış və münasibətlər öz əksini tapmışdır. Neolit tayfaları əlilliyin ruhlar tərəfindən törədildiyinə inanırdılar və pis olduğuna inanılan şər ruhları azad etmək üçün kəllə əməliyyatları aparırdılar. Spartalılar isə öz kobud fərdiyyətçilikləri ilə həm gənc, həm də yaşlı əlilliyi olan şəxsləri ölümə tərk edirdilər. Qədim yunanların və romalıların əlilliyi olan şəxslərə münasibəti də fərqli deyildi. Qədim yunanlar əlilliyi olan şəxslərin insan olmadıqlarına və ölmək üçün tərk edilməli olduqlarına inanırdılar. Romalılar ağır əlilliyə malik uşaqları ölümə tərk edir və müxtəlif dərəcəli fiziki məhdudiyyəti olanları isə öz əyləncələri üçün istifadə edirdilər [4, s.6].

Elmi ədəbiyyatda əlilliyi olan gənclərə qarşı münasibətdə tibbi və sosial model xüsusilə fərqləndirilir. Əlilliyi olan gənclərə tibbi perspektivdən yanaşma ilkin dövrdə xüsusilə populyar idi. Bu yanaşmaya əsasən əlillik orqanizmin patologiyası olaraq görülürdü. Tibbi modelə əsasən əlillik gəncin sahib olduğu şəxsi məhdudiyyət olaraq qəbul edilir və bunun aradan qaldırılması tibbi müdaxilələr, müalicə və reabilitasiya ilə məhdudlaşdırılırdı. Əlilliyə sosial yanaşma modelində isə əlillik gəncin sahib olduğu müxtəlif dərəcəli əlillikdən deyil, gəncin yaşadığı cəmiyyətdə mövcud olan baryerlərlə bağlıdır.

Keçmişin çətin təcrübələrindən sonra bu gün əlilliyi olan şəxslər və onların hüquqları ilə bağlı beynəlxalq diskursda əsaslı işlər həyata keçirilir. Əlilliyi olan şəxslərin hüquqları və əlilliyin sosial modelinə əsasən beynəlxalq aləmdə qəbul edilən müstəsna əhəmiyyətə malik sənədlərdən biri Birləşmiş Millətlər Təşkilatının Əlilliyi olan şəxslərin hüquqları haqqında

Konvensiyası və onun Fakültativ protokoludur. Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya və onun Fakültativ protokolu Birləmiş Millətlər Təşkilatı tərərfindən 13 dekabr 2006-cı il tarixində qəbul edilmiş və 30 mart 2007-ci il tarixində imzalanmaq üçün açıq elan edilmişdir[5]. Azərbaycan Respublikası Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyanı və onun Fakültativ protokolunu 2009-cu ilin yanvar ayında ratifikasiya edərək regionda bunu edən ilk ölkələrdən biri olmuşdur. Konvensiya tərəf ölkələrin milli siyasətlərində əlillik və əlilliyi olan şəxslərin hüquqlarına dair qərarların qəbul edilməsinə təşviqedici və öyrədici təsirə malikdir.

Birləşmiş Millətlər Təşkilatının Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası İsveç tərəfindən 2008-ci ildə ratifikasiya olunmuşdur. Bu tarixdən etibarən qəbul edilən qərar və siyasətlərin Konvensiyada mövcud olan prinsiplərə uyğun olaraq hazırlanması və qiymətləndirilməsinə başlanmışdır. İsveçdə əhalinin təxminən 20 %-nin müxtəlif dərəcəli əlilliyə sahib olduğu təxmin edilir. İsveçdə mövcud olan siyasət bərabər dəyər və hüquqlara əsaslanan prinsipə əsasən həyata keçirilir. Bu prinsip əlilliyi olan gənclərin sağlam cəmiyətdə yaşamasını şərtləndirmişdir. İsveçdə Səhiyyə Nazirliyi başda olmaqla müxtəlif dövlət orqanları təhsil, məşğulluq və səhiyyə kimi sahələrdə əlilliyi olan şəxslərin bərabər imkana sahib olması üçün əsaslı işlər həyata keçirirlər. Ölkədə əlilliyi olan şəxslərlə bağlı siyasəti başlıca olaraq Səhiyyə Nazirliyi və Sosial məsələlər üzrə Nazirlik əlaqələndirir. 2011-ci ilin iyununda əlillik siyasəti üzrə 5 illik strategiya dövlət tərəfindən qəbul edildi. Strategiya qismən Birləşmiş Millətlər Təşkilatının Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyaya əsaslanır. Dövlət sayı 50-dən çox olan könüllü əlillik təşkilatlarına lazımi dövlət dəstəyini göstərir.

Uzun illər Avropada olduğu kimi, İtaliyada da əlilliyi olan şəxslərə münasibət tibbi model çərçivəsində olmuş, əlilliyi olan şəxs fiziki və əqli vəziyyətinə görə məhdud və ya tamamilə məhdud əmək qabiliyyətinə malik şəxs kimi görülmüşdür. Bu gün İtaliyada Məşğulluq, Səhiyyə və Sosial siyasət Nazirliyi və Nazirlər Şurasının Hüquqlar və bərabər imkanlar departamenti əlilliyi olan şəxslərlə bağlı siyasət və qanunvericilik proseslərinə cavabdeh olan əsas qurumlardır. Məşğulluq, Səhiyyə və Sosial siyasət Nazirliyi iş həyatında bərabər imkanların təmin edilməsi və məşğulluq sahəsində əlilliyi olan şəxsləri xüsusilə əlilliyi olan gəncləri əhatə edən qanunların tənzimlənməsinə cavabdehdir. Eyni zamanda sosial xidmətlərlə bağlı regionların və yerli özüünidarəetmə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi və sosial təminat fondlarını idarə etmək üçün də məsuliyyət daşıyır. Əlilliyi olan şəxslərin insan hüquqları və bərabər imkanların inkişaf etdirilməsi, ayrı-seçkiliyin bütün formalarının qarşısının alınması üzrə qanunvericilik və icra təşəbbüslərinin planlaşdırılması və onun əlaqələndirilməsi Hüquqlar və bərabər imkanlar departamentinin səlahiyyətləri daxilindədir. 1999-cu ildə qəbul edilən "Əlilliyi olan şəxslərin əmək hüquqlarına dair" qanunun 18-ci maddəsinə əsasən 15-dən çox işçisi olan işəgötürən işçi kvotasına uyğun olaraq əlilliyi olan şəxsi işlə təmin etməlidir. 16-35 işçisi olan iş yerlərində 1 əlilliyi olan şəxs, 50-yə qədər işçisi olan iş yerləri 2 əlilliyi olan şəxs işlə təmin olunmalı, 50-dən çox işçisi olan iş yerlərində isə əlilliyi olan şəxslər ümumi işçilərin 7 %-ni təşkil etməlidir. Dövlət tərəfindən əlilliyi olan şəxslərin sosial sığorta haqlarının ödənilməsində işəgötürənə maliyyə dəstəyi həyata keçirilir [6].

Estoniyada əlilliyi olan şəxsləri əhatə edən qanunvericilik və siyasət proseslərinin həyata keçirilməsindən cavabdeh olan qurum Sosial Məsələlər Nazirliyidir. Nazirlik əlilliyi olan şəxslər üçün strategiyalar hazırlayır və milli səviyyədə resurslarla təmin edir. Birləşmiş Millətlər Təşkilatının Əlilliyi olanşəxslərin hüquqları haqqında Konvensiyası 2007-ci ildə Estoniya tərəfindən imzalanıb, 2012-ci ildə rəsmi olaraq qəbul edilmişdir. Əlilliyi olan şəxslərin də daxil olduğu müxtəlif əsaslı ayrı-seçkiliyin qarşısının alınması və bərabər imkanların yaradılması üçün 2008-ci ildə qəbul olunan Bərabər münasibət qanunu məşğulluq, peşə hazırlığı və işə hazırlıq quruluşlarına üzvlük, işə qəbul məsələləri də daxil olmaqla,

ayrı-seçkiliyin qadağan olunması prinsipinə əsaslanır. İşəgötürənlər əlilliyi olan şəxslər üçün iş yerində lazımi tənzimlənmələrin aparılmasını və uyğun şəraitin yaradılmasını təmin etməlidir[7]. İş yerində əlilliyi olan şəxslər üçün lazımi tənzimlənmələrin aparılması və uyğun şəraitin yaradılması Bərabər münasibət qanunu ilə yanaşı Əməyin mühafizəsi və təhlükəsizliyi qanununda da öz əksini tapmışdır.

Nəticə olaraq, görünür ki, əlilliyi olan şəxslərə olan müsbət münasibət keçmiş dövr ilə müqayisədə müsbət tendensiyaya malikdir. Dövlətlər daxili və xarici siyasətlərində əlilliyi olan şəxsləri xüsusilə əlilliyi olan gəncləri əhatə edən qanunların hazırlanmasına daha maraqlıdır. Dünyada əlilliyi olan gənclərlə bağlı həyata keçirilən siyasətlərin təcrübələrini öyrənib ümumiləşdirmək, ən faydalı olanlardan istifadə olunması Azərbaycanda bu sahənin dinamik inkişafı üçün zəruridir.

## ƏDƏBİYYAT


1. Disability
https://www.who.int/news-room/fact-sheets/detail/disability-and-health
2. Gənclər siyasəti haqqında
https://youthfoundation.az/wp-content/uploads
3. İlk dəfə əlilliyi müəyyən edilən şəxslərin sayı
https://www.stat.gov.az/source/healthcare/az/002_2_2.xls
4. Romel W.Mackelprang, Richard O.Salsgiver, Ryan C.Parrey “ Disability. A Diversity Model Approach in Human Service Practice”. Oxford University Press, 2021, p: 664.
5. Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya
https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/optional-protocol-convention-rights-persons-disabilities
6. Inclusion of people with disability in Italy
https://epic-org.eu/wp-content/uploads/2021/09/Preliminary-Analysis_Italy.pdf
7. Equal Treatment Act
https://www.riigiteataja.ee/en/eli/530102013066/consolide


## ƏLİLLİYİ OLAN GƏNCLƏRLƏ İŞ ÜZRƏ BEYNƏLXALQ TƏCRÜBƏ

***Məmmdəova Zeynəb***

## XÜLASƏ

Məqalədə İsveç, İtaliya və Estoniya kimi dövlətlərin əlilliyi olan şəxslərlə bağlı həyata keçirdikləri siyasəti araşdırdıq. Dövlətlərin həyata keçirdikləri siyasətdə Birləşmiş Millətlər Təşkilatının Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası mühüm təsir göstərmişdir. Məqalənin əsasını əlilliyi olan şəxslər və dövlətlərin əlilliyi olan şəxslərlə bağlı həyata keçirdikləri siyasət çərçivəsində qəbul etdikləri qərarlar təşkil edir.

## МЕЖДУНАРОДНЫЙ ОПЫТ РАБОТЫ С МОЛОДЫМИ ЛЮДЬМИ С ОГРАНИЧЕННЫМИ ВОЗМОЖНОСТЯМИ

***Мамедова Зейнаб***

## АННОТАЦИЯ

В статье мы рассмотрели политику, реализуемую такими странами, как Швеция, Италия и Эстония в отношении людей с ограниченными возможностями. Конвенция Организации Объединенных Наций о правах инвалидов оказала важное влияние на политику, проводимую государствами. Основу статьи составляют люди с ограничен-

ными возможностями и решения, принимаемые государствами в рамках своей политики в отношении людей с ограниченными возможностями.

## INTERNATİONAL EXPERİENCE İN WORKİNG WİTH YOUNG PEOPLE WİTH DİSABİLİTİES

*Mammadova Zeynab*

**SUMMARY**

In the article, we examined the policies implemented by countries such as Sweden, Italy and Estonia regarding persons with disabilities. The United Nations Convention on the Rights of Persons with Disabilities has had an important impact on the policies implemented by the states. The basis of the article is people with disabilities and the decisions made by states within the framework of their policies regarding people with disabilities.

# MÜASİR DÖVÜRDƏ AİLƏ ZORAKILIĞININ SOSİAL PROBLEMLƏRİ

***Asini Cümşüd Şamo oğlu***
***ADMİU-nun II kurs magistrantı***
***cumsudhesen@gmail.com***

***Açar sözlər:*** məişət zorakılığı, sosial profilaktik tədbirlər, məişət zorakılığının qarşısının alınması, formaları və tədbirləri, sosial xidmət.
***Ключевые слова:*** домашнее насилие, меры социальной профилактики, профилактика домашнего насилия, формы и меры, социальное обслуживание.
***Keywords:*** domestic violence, social preventive measures, prevention of domestic violence, forms and measures, social service.

Elmi ədəbiyyatda ailə zorakılığı anlayışının müxtəlif tərifləri var. Ailə zorakılığı yaxın adamlar üzərində nəzarət və hakimiyyət əldə etmək məqsədilə onlara münasibətdə artan tezliklə təkrarlanan müxtəlif xarakterli (iqtisadi, psixoloji, cinsi, şifahi, fiziki) hərəkətlər silsiləsidir [4, s.172]. Ailə zorakılığı eyni ailə üzvlərinin və ya bir-birinə yaxın olan şəxslərin tabeçilik, habelə zərərçəkmişin zərərinə təqsirkarı razı salmaq məqsədi ilə davranışlarında aqressiya növlərindən biridir [10, S.250]. Ailədaxili zorakılıq qurbanın iradəsini boğmaq, hakimiyyət əldə etmək məqsədi ilə ailənin bəzi üzvlərinin/üzvlərinin başqalarına və ya digər ailə üzvünə qarşı fiziki zor tətbiqini, o cümlədən iqtisadi və psixoloji təzyiqi, cinsi zorakılığı nəzərdə tutur [6, s.26]. Ailə zorakılığının təriflərində daha çox məcbur etmə, tabeçilik, təzyiq, sui-istifadə, hakimiyyətin əldə edilməsi və s. kimi terminlərdən istifadə olunur. Bütün bu xüsusiyyətlər bir şəxsə qarşı ayrı-seçkilik, onun hüquqlarının pozulması və ya məhdudlaşdırılması ilə bağlıdır. Ailə zorakılığının müxtəlif növləri və formaları var. Əsas olanlar: fiziki, psixoloji, cinsi, iqtisadi zorakılıqdır.

Zorakılığa məruz qalan ailələr risk altındadır. Məişət zorakılığının nəticələri isə ağırdır. Sui-istifadə halları xüsusilə uşaqlara kəskin təsir göstərir. Uşaqların qayğıya, diqqətə, məhəbbət və sevgiyə ehtiyacı var və uşağa qarşı sərtliyin təzahürləri onların rifahına, psixologiyasına xeyli ziyan vurur [9, s.3]. İstənilən zorakılıq növü onun törədildiyi insana mənfi təsir göstərir. Bu da öz növbəsində aqressiyaya və ikinci dərəcəli zorakılığa səbəb ola bilər. Zorakılıq uzun müddət davam edərsə, onun təsiri şəxsiyyətin "məhv edilməsinə" və ya uşaqlardan danışırıqsa, onun inkişafında pozuntulara səbəb ola bilər.

Ona görə də zorakılığın qarşısını almaq vacibdir ki, onun ailənin və onun bütün üzvlərinin rifahına mənfi təsir göstərməsin. Məişət zorakılığı ilə bağlı profilaktika problemi hələ də tam həllini tapmamışdır. Bizim cəmiyyətdə məişət zorakılığı faktlarını son ana qədər gizlətmək adətdir. Eyni zamanda, belə bir vəziyyətdə ailəyə kömək etməli olan orqanlar da heç də həmişə adekvat reaksiya və kömək göstərmir. Zorakılığa məruz qalmış ailələrə yardıma yönəlmiş kifayət qədər ixtisaslaşmış sosial xidmətlər hələ də mövcud deyil ki, bu da profilaktik tədbirlərin həyata keçirilməsinə əngəl törədir.

Məişət zorakılığının miqyasını müəyyən etmək və qiymətləndirmək olduqca çətindir. Bunu aşağıdakı amillərlə izah etmək olar: ailənin cəmiyyətdən və sosial işçilərdən müəyyən yaxınlığı, hüquq-mühafizə orqanlarından və tibb müəssisələrindən məlumatın olmaması. Zorakılıq hadisəsini qeydə almaq da olduqca çətindir. Məişət zorakılığının qurbanı, bir qayda olaraq, qorxur və öz problemini ictimaiyyətə çatdırmaq istəmir, cinayət törədən şəxsə mərhəmət hissi aşılayır, hüquq-mühafizə orqanlarına etibar etmir [8, s.99]. Bütün bunlar həm zorakılıq qurbanları ilə sosial işin təşkilini, həm də məişət zorakılığının qarşısının alınmasını çətinləşdirir. Ailədə bu hadisənin ilkin təzahür mərhələsini müəyyən etmək xüsusilə çətindir, çünki bu, birdəfəlik xarakter daşıyır və zorakılığa məruz qalan ailə üzvləri heç bir quruma müraciət edərək bu faktı qeydə almırlar.

Sosial profilaktika risk qrupları, fərdlər arasında mümkün psixoloji, fiziki, sosial-mədəni toqquşmaların aradan qaldırılmasına yönəlmiş elmi əsaslı və vaxtında başlanmış tədbirləri nəzərdə tutur. Sosial profilaktika həm də layiqli həyat səviyyəsinin saxlanmasına, o cümlədən qorunmasına, insana zərər verə biləcək psixososial vəziyyətin yaranmasının şərtlərini və səbəblərini aradan qaldırmaqla qarşısının alınmasına yönəlmiş sosial tədbirlərin strukturu kimi də şərh edilə bilər.

Elmi ədəbiyyatda mövcud olan sosial profilaktikanın təriflərinə əsaslanaraq, "ailə zorakılığının qarşısının alınması" anlayışını müəyyən edə bilərik - bu, dövlət, ictimai, təşkilati, təhsil, sosial-tibbi xarakterli tədbirlər sistemidir. Zorakılığın qarşısının alınması, habelə ailədə zorakılıq hallarının və səbəblərinin aradan qaldırılması və ya zərərsizləşdirilməsi, insanların optimal həyat səviyyəsinin və sağlamlığının qorunması profilaktit tədbirlərin əsas məqsədidir.

Sosial texnologiya və sosial iş texnologiyası zorakılığın qarşısının alınması, effektivlik və səmərəlilik nöqteyi-nəzərindən qiymətləndirildikdə həyata keçirilməsi ən çətin olanlardan biridir. Bu onunla əlaqədardır ki, ümumi profilaktik tədbirlərlə yanaşı, fərdi yanaşmaya ehtiyacı olan ailələri müəyyən etmək çətindir. İndiyə qədər sosial iş sistemində, ailə zorakılığı aspektində daha çox zorakılığa məruz qalmış qurbanlara kömək etmək əsas götürülür. Yəni ailə üzvlərinə yardım yalnız zorakılıq faktı artıq baş verdikdə göstərilməyə başlayır. Bu məqsədlə ixtisaslaşmış böhran mərkəzləri, sosial xidmətlər yaradılır.

Buradan belə nəticə çıxır ki, sosial işin prioritetlərindən biri də ailə zorakılığının qarşısının alınmasına yönəlmiş səmərəli və vaxtında olacaq texnologiyaların inkişafıdır. Sosial xidmət mütəxəssislərinin fəaliyyət istiqamətlərindən biri də ailədaxili adekvat münasibətlərin formalaşması olmalıdır [1, s.2].

Razılaşmaq olmaz ki, ailə zorakılığı probleminin həlli üsulları sektorlararası xarakter daşımalı, hüquqi, sosial, təşkilati, tibbi, psixoloji komponentləri nəzərdə tutmalı, həmçinin yerli və xarici sosial xidmətlərin artıq toplanmış təcrübəsini nəzərə almalıdır [2, s.9]. Məişət zorakılığının səbəbləri çox vaxt mürəkkəb olduğundan, qarşısının alınması da müxtəlif xidmət və qurumların mütəxəssislərinin cəlb edilməsi ilə müxtəlif sahələri və aspektləri əhatə etməlidir. Onların ailə zorakılığının qarşısının alınması üzrə fəaliyyəti sistemli və qarşılıqlı fəaliyyətə əsaslanmalıdır. Ailə sferasında insan hüquqlarının müdafiəsi və ailə zorakılığının qarşısının alınması üçün kompleks tədbirlər sistemi işlənib hazırlanmalıdır.

Həmçinin, ailə zorakılığının qarşısının alınması üçün sosial xidmətlərin və böhran mərkəzlərinin iş formalarına bunlar daxildir: ailələrin risk qrupuna münasibəti ilə bağlı monitorinq; sosial xidmətlərin, qurumların, mərkəzlərin birgə səyləri ilə risk altında olan ailələrə hərtərəfli dəstək; mobil psixoloji dəstək xidmətlərinin işinin təşkili; məişət zorakılığı mövzusunda bukletlərin, sosial reklamların hazırlanması və yayılması; məişət zorakılığı mövzusunda söhbətlər və açıq masalar aparan mütəxəssislər.

Valideynlərin pedaqoji mədəniyyətini yüksəltməyə və valideynlərə uşaqlarla qarşılıqlı əlaqəni təşkil etməyə kömək etməyə yönəlmiş profilaktik işin forma və üsulları da həyata keçirilir: uğurlu ailədaxili münasibətlərin formalaşmasına dair sosial-pedaqoji konsultasiya [5, S.286]; sosial xidmət mütəxəssisləri tərəfindən nağıl terapiyası üsullarından istifadə [3, s.55]; valideynləri pedaqoji ünsiyyət mədəniyyətinə öyrətmək [7, s.6]; uşaq tərbiyəsi mövzusunda valideyn təlimlərinin keçirilməsi.

İstifadə olunan profilaktikanın forma və üsulları yenilənməli və təkmilləşdirilməlidir. Bunun üçün ailələrlə sosial işdə profilaktik fəaliyyət üçün yeni innovativ texnologiyalar hazırlamaq lazımdır. Zorakılıq qurbanları ilə iş üzrə ixtisaslaşmış xidmətlər və mərkəzlər hələ yetərli olmadığından, ailələrə sosial yardım mərkəzləri və ailə xidmətləri ailə zorakılığının qarşısının alınmasında müəyyən rol oynaya bilər.

**Nəticə**

Ailə zorakılığı aktual sosial problem olaraq qalmaqda davam edir. Ailələrlə işləməyə yönəlmiş mövcud sosial xidmətlər onların qarşısında duran vəzifələrin daha geniş spektri və müəssisələrdə işçilərin sayının az olması səbəbindən bu təhlükəli sosial hadisənin qarşısını almaq imkanlarına tam malik deyil. Ailə zorakılığının qarşısının alınması üçün bütün maraqlı qurumların və xidmətlərin qarşılıqlı fəaliyyətini əks etdirən effektiv model yoxdur. Bizdə zorakılıq qurbanları üçün böhran mərkəzləri də az inkişaf edib. Buna görə də onun qarşısının alınması üçün effektiv vasitələrin axtarışını davam etdirmək lazımdır. Sosial xidmətlər və bütövlükdə sosial iş sistemi bu prosesdə aparıcı rol oynamalıdır.

## ƏDƏBİYYAT

1. Ткачева В.В. Гармонизация внутрисемейных отношений: папа, мама, я – дружная семья / В.В. Ткачева. – М.: Издательство Гном и Д, 2000. – 160 с.
2. Еруcланова Р.И. Насилие в семье / Р.И. Еруcланова, К.В. Милюхин. – М.: Издательско-торговая корпорация «Дашков и К», 2010. – 208 с.
3. Овчаренко Л.Ю. Система психологической помощи детям беженцев / Л.Ю. Овчаренко // Системная психология и социология. – 2014. – № 4 (12). – С. 54-56.
4. Шкурихина Н.В. К вопросу о понятии «семейное насилие» / Н.В. Шкурихина // Правовые проблемы укрепления российской государственности: сборник статей по итогам Всероссийской научно-практической конференции. – Томск: Национальный исследовательский Томский государственный университет, 2017. – С. 170-172.
5. Кузнецова Н.В. Профилактика семейного насилия (российские и зарубежные практики) / Н.В. Кузнецова // Социально-психологические аспекты практики социальной работы: сборник научных трудов. – М.: «Перо», 2016. – С. 279-287.
6. Рогулина Л.И. Терпимость россиян к домашнему насилию / Л.И. Рогулина // Социальные и экономические системы. – 2019. – № 4 (10). – С. 24-36
7. Морева Н.А. Тренинг педагогического общения: учебное пособие для вузов / Н.А. Морева. – М.: Просвещение, 2003. – 304 с.
8. Холостова Е.И. Социальная работа с семьей / Е.И. Холостова. – М.: Издательско-торговая корпорация «Дашков и К», 2010. – 244 с.
9. Москалюк О.В. Педагогика взаимопонимания: занятия с родителями / О.В. Москалюк, Л.В. Погонцева. – Волгоград: Учитель, 2010. – 123 с.
10. Зубков В.И. Опыт изучения семейного насилия в современной России / В.И. Зубков // Социально-гуманитарные знания. – 2012. – № 5. – С. 250 - 266.

## MÜASİR DÖVÜRDƏ AİLƏ ZORAKILIĞININ SOSİAL PROBLEMLƏRİ

*Asini Cümşüd*

## XÜLASƏ

Məqalədə məişət zorakılığının fərqli xüsusiyyətləri sosial fenomen kimi nəzərdən keçirilir. Məişət zorakılığının qarşısının alınması problemlərini, onun səbəblərini təhlil edir və bu anlayışın mahiyyətini əsaslandırır. Məqalədə məişət zorakılığının qarşısının alınması üçün zəruri olan tədbirlərin forma və üsulları təsvir edilmişdir. Məqalədə məişət zorakılığı və onun qarşısının alınması məsələlərinə münasibəti və maarifləndirilməsi təqdim olunub. Ailədə zorakılığa qarşı profilaktik tədbirlərin həyata keçirilməsi problemləri xarakterizə olunur. Məişət zorakılığının qarşısının alınmasının səmərəliliyini artırmaq üçün sosial işin təkmilləşdirilməsi yolları təklif edilir.

## СОЦИАЛЬНЫЕ ПРОБЛЕМЫ СЕМЕЙНОГО НАСИЛИЯ В СОВРЕМЕННОЕ ВРЕМЯ

***Асини Джумшуд***

### АННОТАЦИЯ

В статье рассматриваются различные характеристики домашнего насилия как социального явления. Анализируются проблемы профилактики домашнего насилия, его причины и обосновывается сущность этого понятия. В статье описаны формы и методы мер, необходимых для предотвращения домашнего насилия. В статье представлены отношение и осведомленность о домашнем насилии и его предотвращении. Охарактеризованы проблемы реализации профилактических мер против насилия в семье. Предлагаются пути совершенствования социальной работы для повышения эффективности профилактики домашнего насилия.

## SOCIAL PROBLEMS OF FAMILY VIOLENCE IN THE MODERN TIME

***Asini Jumshud***

### SUMMARY

The article examines the different characteristics of domestic violence as a social phenomenon. Analyzes the problems of domestic violence prevention, its causes and justifies the essence of this concept. The article describes the forms and methods of measures necessary to prevent domestic violence. The article presents the attitude and awareness of domestic violence and its prevention. The problems of implementing preventive measures against violence in the family are characterized. Ways to improve social work are suggested to increase the effectiveness of domestic violence prevention.

# AİLƏNİN SOSİAL İNSTİTUT KİMİ ÖYRƏNİLMƏSİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTİ

***Şekiliyev Ümman Kamal oğlu***
***BSU-nun II kurs magistrantı***
***ummansekiliyev@gmail.com***

***Açar sözlər:*** institut, ailə, cəmiyyət, valideyn, ər-arvad
***Ключевые слова:*** институт, семья, общество, родитель-супруга.
***Keywords:*** institution, family, society, parent-spouse

Ailə çoxaspektli sosial qurumdur. Ailə cəmiyyətin özəyi hesab olunur. Cəmiyyəti ailəsiz hesab etmək mümkün olmaz.

Ər-arvad cütlüyü ailənin özəyi hesab edilir və ailə ər-arvadsız mümkün deyildir. Ailənin formalaşmasının da özünün bir sıra mərhələləri vardır. Biz bu mərhələlərə aşağıdakıları aid edə bilərik. 1.nikahın bağlanması-ailənin meydana gəlməsi. 2.uşaq doğumunun başlaması-ilk uşağın dünyaya gəlməsi. 3.uşaq doğumunun sonlanması-sonuncu uşağın doğulması. 4. boş yuva – axırıncı uşağın evi tərk etməsi. 5.ailənin mövcudluğunun sonlanması- ər arvadın vəfat etməsi.

Ailə sosial institut kimi cəmiyyətin yaranması ilə eyni bir vaxta meydana gəlmişdir. Dövlətin meydana gəlməsi ilə artıq ailə münasibətləri hüquqi xarakter almağa başladı. Artıq ailələrin dağılmasının qarşısının alınmasında dövlət əhəmiyyətli dərəcədə rol oynadı [4, s.280].

Ailənin sosial institut kimi əsas xüsusiyyəti odur ki, birinci olaraq o, qan qohumluğu və nikah əsasında iki və daha çox adamı bir yerdə birləşdirir, ikinci olaraq o özünü tənzimləyən sistem kimi çıxış edir, üçüncü olaraq isə onun cəmiyyətlə məhdudiyyətləşdirilmiş əlaqəsi vardır.

İnsanlar arasındakı ilk sosial institut - ailə olmuşdur. Nəsildən –nəsilə keçən ailə və nikah davranışları cəmiyyətdəki başqa institutlar kimi kollektiv vərdiş, adət və nikah davranışları müəyyən bir ənənəyə çevrildi [1, s.90-91].

Ailə bütün cəmiyyətlərdə var olan təməl bir qurumdur. Bu var oluşma, zaman içərisində keçirilən dəyişmə və ailələr arasındakı fərqlər müəyyən bir cəmiyyətlər arasında fərqlənsə də mahiyyət edibarilə ailənin modeli, yəni onun nüvəsi bütün cəmiyyətlər üçün eynidir.

Ailə iqtisadi, din, əxlaq, siyasət və təhsilin təməl sosial təşkilatıdır. Tərifə əsasən, sosial institutun əsas elementlərini aşağıdakı kimi sıralamq olar.

Təşkilatlar müəyyən bir məqsədi həyata keçirməyə yönəldilmişdir.

Bu məqsədin qazanmış olduğu ehtiyac davamlılıq qazanmışdır.

Təşkilatlar strukturlaşdırılır, təşkil edilirlər. Onlar alt institutlarla, həm də digər təşkilatlarla əlaqələndirilirlər.

Təşkilatlar dəyər yüklüdürlər və normativ mədəniyyət kodları ehtiva edirlər.

Sosial institutunun daxilində ailə institutu nəzərdən keçirildikdə, onun bioloji-psixoloji-tərbiyə funksiyaları, iqtisadi funksiya, dini funksiya, asudə vaxtın dəyərləndirilməsi funksiyası, digər sosial institutlarla mütəşəkkil və əlaqələndirilmiş qarşılıqlı əlaqə və ailəyə verilən dəyər və əhəmiyyət cəmiyyətdən cəmiyyətə dəyişsə də ailə ən əsas sosial institut kimi cəmiyyətə təqdim edilir [6].

Sosial institut kimi ailənin formalaşması və fəaliyyət göstərməsi dəyərlilik-normativlik prinsipləri ilə tənzimlənir.

Sosial institut kimi ailə bunlardan ibarətdir. Birincisi, ailə qan qohumluğu və nikah ilə bir-birinə bağlı olan iki və ya daha çox adamdan ibarət olan sabit bir təşkilə malikdir. İkincisi, ailə özünü tənzimləşdirən bir sistem kimi çıxış edir. Üçüncüsü ailə cəmiyyət tərəfindən sanksiya almış sosial birlikdir.

Sosial institut kimi ailənin rahat şəkildə fəaliyyət göstərməsi o zaman mümkün ola bilər ki, ailə cəmiyyətdəki digər institutlarla ən əsası dövlətlə, dinlə, təhsillə, hüquqla, mədəniyyətlə sıx şəkildə qarşılıqlı əlaqədə olsun. Ailə cəmiyyətin normativ və struktur-funksional sistemlərinə daxil olaraq öz üzvlərinin davranış formalarını tənzimləyir. Onlara aid olan sosial status və rolları müəyyənləşdirir.

Biz əgər ailəni sosial institut kimi nəzərdən keçiririksə ailədəki münasibətlərə xüsusi diqqət yetirməliyik. Ailə rolları-şəxsiyyətin cəmiyyətdəki sosial rollarından biri kimi valideyn, uşaq ər-arvad nəsillərdaxili və nəsillərarası rollarına ayrılır. Ailədaxili rolların icrası bir sıra şərtlərdən asılıdır. Ən əsası isə düzgün rol obrazı formalaşdırılmalıdır. Fərd öz davranışını dəqiq və aydın təsəvvür etməlidir [3, s.211-213].

Ailə üzərinə edilən çalışmalar və müzakirələr həm ailədəki, həm də cəmiyyətdəki dəyişmə və çevrilmələri anlamağa, təhlil etməyə və şərhə əhəmiyyətli qatqıları təmin edir. Cəmiyyətin sahib olduğu dəyər mühakimələri, normativ qaydalar və ictimailəşmənin ən ciddi və sıx olaraq yaşandığı ictimai quruluş ailədir. Cəmiyyətlərin sahib olduqları fərqlilikləri ailə baxımından ələ aldığımızda hər cəmiyyətin özünə xas bir ailə quruluşunun var olduğunu rahatlıqla söyləyə bilərik.

Müddət içində, ailənin quruluşunda, vəzifələrində və üzvlərinin sayında davamlı dəyişmələr olmuşdur. Hətta eyni ölkənin şəhər və region seqmentlərində belə ailə strukturları arasında böyük fərqlər vardır. Ailə quruluşlarındakı bu fərqliliyin ən əhəmiyyətli səbəblərindən biri fərqli ictimai dəyərlər və əlaqələrdir. Cəmiyyətin sahib olduğu normativ strukturlar evlilik növləri və evliliklə qazanılan statusları müəyyən edir.

Dini təlimlərdə ailəyə olan güclü vurğunun səbəbi onun cinsi əlaqəni qanuni edən əhəmiyyətli bir təşkilat olması və insan növünün davamını təmin etməsi olduğu irəli sürülmüşdür. Ailə eyni zamanda mədəniyyətin çıxarılıb bir sonrakı nəslə öyrənmə yolu ilə köçürüldüyü və buna bağlı olaraq da bir ictimai təşkilatın konkretləşdiyi bir sahədir. Bu əhəmiyyətindən ötəri də ailə ictimai elmlərin üzərində xüsusilə dayandığı bir mövzu olmaqdadır. İctimai dəyişikliklə birlikdə ictimai quruluşdakı sosial-iqtisadi fərqliliklər ailə quruluşunun zamanla dəyişməsini də özü ilə gətirmişdir. Lakin ailənin sosial həyatın davamı üçün lazımlı və universal xarakterinin yanında, ailə üzvlərinin romantik bir təməldə formalaşan əlaqələri, üzvlərinə müxtəlif məsuliyyətləri yükləməsi, fərdlərini şəkilləndirici xüsusiyyəti və özünə xas qaydalarla əhatəli olması da dərhal hər ailə tipində görülən ortaq xüsusiyyətlərdən bəziləridir. Məlumdur ki, ailə haqqında ədəbiyyatlarda çox müxtəlif təriflər verilmişdir. Bu təriflərin fərqli olmasına baxmayaraq təriflərin hamısındakı ortaq vurğu ailənin ictimai həyat üçün əhamiyyətli bir fakt olduğudur. Məhz buna görə də "Ailə cəmiyyətin təməlidir." deyilməkdədir. Cəmiyyətdə ailəyə böyük əhəmiyyət verilir. Çünki uşağın ilk təlimçiləri olan ana-atanın fərdin ehtiyacı olan psixoloji, sosioloji, bioloji, iqtisadi və mədəni mövzularda kafi səviyyədə məlumata sahib olması, gələcəyin ictimai əsasının sağlamlığı baxımından imtina edilməz bir şərtdir. Uşaq inkişafında ailə mühitində əldə edilən bu ön və təməl biliklərin geriyə qalan həyat prosesinin bütün mərhələlərinə təsiri həqiqəti elmi bir bilgi kimi məlumdur. Ictimai quruluşun digər bütün vahid təşkilat və quruluşlarına istiqamət verən, hal olaraq ən kiçik, lakin xüsusiyyət olaraq ən böyük mərkəzi ailədir. Cəmiyyətimizdə evlilik və ailə mövzusunda bəlkə də heç dəyişməyən təməl fikir bu institutlar qarşısında xalqın göstərdiyi müsbət münasibət mövcuddur. Son illərdə cəmiyyətdə edilmiş olan dəyər araşdırmaları cəmiyyətin evlilik, ailə, din və dövlət kimi təşkilatlara böyük əhəmiyyət verdiklərini göstərməkdədir. ASAGEM tərəfindən edilən Ailə Dəyərləri Araşdırmasına görə ailədə ər-arvad arasındakı sədaqət əhəmiyyətlidir. Evliliyin davam etdirilməsi üçün bərabər olaraq qadın ya da kişinin yoldaşını aldatması evlilik təməlini dərindən sarsıdan bir vəziyyətdir [5].

Psixoloji və sosioloji ədəbiyyatlarında ailə institutunun müxtəlif funksiyaları göstərilir:

1. Cinsi funksiya: Ailə, cəmiyyətdə insanların cinsi tələbatlarının ödənilməsini tənzimləyən əsas sosial institutdur. Bununla birlikdə, cinsi tələbatların ödənilməsinin alternativ yolları da mövcuddur.

2. Reproduktiv funksiya: Ailənin nəsilartırma funksiyası, övladlarının sağlam inkişafını və sosiallaşmasını təmin edir. Bu, cəmiyyətdə demoqrafik göstəricilərin dəyişməsinə nəzarət edir.

3. Sosiallaşma funksiya: Ailə, fərdin sosial mühitə adaptasiyasını təmin edir və sosial dəyərləri, davranış modellərini mənimsəməsində əsas rol oynayır. İlkin sosiallaşma və şəxsiyyət formalaşmasının əsası məhz ailədə qoyulur.

4. Emosional məmnunluq funksiya: Ailədə sevgi çatışmazlığı və emosional tələbatların ödənilməməsi nəticəsində insanlar arasında davranış pozuntuları və psixosomatik xəstəliklərin yaranmasının qarşısını almaq üçün əhəmiyyətli bir rola malikdir.

5. Müdafiə funksiya: Ailə, üzvlərinin fiziki, iqtisadi və psixoloji müdafiəsini təmin edir.

6. İqtisadi funksiya: Ailə üzvləri arasında sıx iqtisadi əlaqələrin olması və bir-birinə dəstək olmaları, ailədəki iqtisadi funksiyaları tənzimləyir.

Beləliklə, ailə, ənənəvi və ya müasir olsun, cəmiyyətin əsas qüvvəsi kimi fərdlərin inkişafı və şəxsiyyətlərin formalaşmasında vacib bir rol oynayır. Ailə, vətəndaşlar yetişdirir, milli-mənəvi dəyərlər sistemini formalaşdırır və sosial münasibətləri tənzimləyir. Müasir dövr Azərbaycan Respublikası, dünya birliyinə inteqrasiya edərək cəmiyyətdə gedən yeniləşmələrə uyğunlaşır. Bu yeniləşmə prosesi, insanların dünyagörüşündə və ailəyə münasibətində yeni çərçivələrin meydana gəlməsinə səbəb olur. Bu bağlamda, milli-mənəvi və dini-mədəni dəyərlərin qorunması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi, yaşanması əhəmiyyətli bir məsələdir [2. s,211].

## ƏDƏBİYYAT

1. Cavadova. H.Q. Ailə sosial institut kimi. Bakı Universitetinin xəbərləri. Bakı,2006.
2. Əliyev B.H. Mədəniyyətlərarası münasibətlərə milli identikliyin təsirinin sosial-psixoloji xüsusiyyətləri. Psixologiya jurnalı, 2018 № 2, s.11.
3. Qolenkova Z.T., Akuliç M.M., Kuznetsov V.N. Ümumi sosiologiya / Tərcüm edən fəl.e.d.,prof. İzzət Rüstəmov, Bakı, Diplomat, 2007.-492 səh.
4. Vahidov F.Q. Ağayev T.B. Sosiologiya. Ali məktəblər üçün dərs vəsaiti. Bakı. "Zərdabi LTD" MMC. 2013. 352 səh.
5. Konferans mekaleleri. Din, gelenek ve modernite bağlamında bir değer olarak aile.
6. https://dergipark.org.tr/tr/download/article-file/198199

# AİLƏNİN SOSİAL İNSTİTUT KİMİ ÖYRƏNİLMƏSİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTİ

***Şekiliyev Ümman***

## XÜLASƏ

Məqalədə sosial institut kimi cəmiyyətdə ailənin mahiyyətinin olduqca böyük olduğundan bəhs edilir. Ailə bəşəridir. ailə bütün sosial institutlar, sosial münasibətlər içərisində ən çox bəşəri xüsusiyyətləri ilə nəzərə çarpmaqdadır. Ailə formalaşdırma xüsusiyyətinə sahibdir. Uşağın şəxsiyyəti ailə içərisində formalaşır. Ailə üzvləri fərdin həm zehni fəaliyyət vərdişlərini, həm də fiziki və sosiallaşmasını həyata keçirir. Ailə sabit bir bünovrəyə söykənir və bu sabit bünövrə nəticəsində sosial institut olan ailə uzun müddətdir ki, cəmiyyətdə mövcuddur. Ailə kişini və daha çoxda qadını ağır məsuliyyətlərlə yükləyən bir sosial qurumdur. Ailə emosianal əsasa dayanır və onun emosianal əsasa dayanması onun məsuliyyətini artırır.

## ОСОБЕННОСТИ ИЗУЧЕНИЯ СЕМЬИ КАК СОЦИАЛЬНОГО ИНСТИТУТА

***Шеклиев Умман***

**АННОТАЦИЯ**

В статье упоминается, что сущность семьи как социального института общества очень велика. Семья – это человек. Семья выделяется наиболее человеческими чертами среди всех социальных институтов и общественных отношений. Имеет свойство образовывать семью. Личность ребенка формируется в семье. Члены семьи осуществляют привычки личности к умственной деятельности, а также к физической и социализации. Семья покоится на прочном фундаменте, и вследствие этого прочного фундамента в обществе долгое время существует семья как социальный институт. Семья – это социальный институт, который обременяет мужчину, а тем более женщину, тяжелыми обязанностями. Семья основана на эмоциях, а то, что она основана на эмоциях, повышает ее ответственность.

## SPECIFIC CHARACTERISTICS OF STUDYING THE FAMILY AS A SOCIAL INSTITUTION

***Shekliyev Umman***

**SUMMARY**

The article mentions that the essence of the family as a social institution in society is very large. Family is human. family is noticeable with the most human features among all social institutions and social relationships. It has the property of forming a family. The child's personality is formed in the family. Family members carry out the individual's habits of mental activity, as well as physical and socialization. The family rests on a stable foundation, and as a result of this stable foundation, the family, a social institution, has existed in society for a long time. The family is a social institution that burdens a man, and more so a woman, with heavy responsibilities. A family is based on emotions, and its being based on emotions increases its responsibility.

# ŞƏHƏRLƏRİN TARİXİ TƏKAMÜLÜ PROSESİ

***Əzizli Anar Oruc oğlu***
***BDU-nun II kurs magistrantı***
***azizlianar01@gmail.com***

***Açar sözlər*: Şəhər, inkişaf, bazar, qala divarları, kənd, oturaq həyat tərzi, Mesopotomiya, Böyük Coğrafi Kəşflər, sənaye inqilabı, müasir dövr, metropolis, meqaşəhər, meqapolis.
***Ключевые слова*: Город, застройка, рынок, крепостные стены, деревня, оседлый образ жизни, Месопотамия, Великие географические открытия, промышленная революция, новое время, метрополитен, мегагород, мегаполис.
***Keywords*: City, development, bazaar, castle walls, village, sedentary lifestyle, Mesopotamia, Great Geographical Discoveries, industrial revolution, modern era, metropolitan, megacity, megapolis.

Göydələnlərin buludlara yüksəldiyi və həyatın həddən artıq dinamikləşdiyi müasir meqaşəhərlərdə insanların təbiətlə olan münasibət və əlaqələri önəmli ölçüdə dəyişikliyə uğramışdır. Lakin bu dəyişiklik sadəcə şəhərlərin fiziki mənzərəsinə deyil, eyni zamanda, insanların davranışına, sosial əlaqələrinə və ətraf mühitə qarşı münasibətinə və həssaslığına da təsir etməkdədir. Günümüzdə dünya əhalisinin böyük bir hissəsi müxtəlif sosial və iqtisadi imkanlar əldə etmək ümidi ilə böyük şəhərlərə axın edir. Qeyd olunan bu və digər problemlərin həlli baxımından isə bu problemlərin tarixi köklərinin öyrənilməsi kifayət qədər aktual bir məsələdir.

Hər şeydən öncə, gündəlik ünsiyyətdə sıx-sıx istifadə etdiyimiz "şəhər" - fars sözüdür (şehr) və "əmək qabiliyyətli əhalinin əksəriyyətinin ticarət, sənaye və idarəçilik kimi işlərlə məşğul olduğu böyük yaşayış məntəqəsi" mənasını verir [12, 2010]. Bundan başqa, ingiliscə "city" şəklində ifadə olunan şəhər kəliməsi də orta ingiliscədəki ( ingilis dilinin orta əsrlərdə - 12-ci əsrin sonlarından 15-ci əsrin sonlarına qədər istifadə olunan daha qədim variantı) “citie” sözündən götürülmüşdür və “citie” sözü “şəhər” və ya “şəhər-dövlət” mənasını verən latın dilindəki “civitas” sözündən gəlməkdədir. Orijinal tərcümədə city daha çox sivilizasiya, mədəniyyət, citizen (sakin) isə sivil şəxs mənalarını verir. Beləliklə, “city” sözü “civitas” kəlməsindən əmələ gəlməklə bərabər, aydın olur ki, Qərbdə “şəhər” daha geniş mənaları ifadə edən əhəmiyyətli bir termin olaraq istifadə olunmuşdur [13].

Ümumiyyətlə, ilk şəhərin harada formalaşması və ya şəhərləşmənin nə zaman başlaması mübahisəli bir mövzudur və bu mövzuda tam və dəqiq qəbul olunan bir yanaşma yoxdur. Sadəcə olaraq qeyd edə bilərik ki, şəhərlərin formalaşması və tarixi inkişafı ilə bağlı 2 təməl və başlıca görüş mövcuddur. İlk olaraq, birinci və əsas olaraq görülən və əksəriyyət alim və tədqiqatçılar tərəfindən qəbul edilən görüşə görə şəhərlər kəndlərdən sonra formalaşmışdır. Şəhərlərdən öncə daha kiçik yaşayış məntəqələri olan kəndlər meydana gəlmiş, sonralar yavaş-yavaş bu ərazilər şəhərlərə çevrilmişdir.

Şəhərlərin formalaşmasi ilə bağlı irəli sürülən ikinci görüş bunun demək olar ki, əksini təşkil edir. Bu yanaşmaya görə ən başda şəhərlər mövcud idi və onlar ovçu qruplarının bir araya gələrək mübadilə və ticarət etməsi nəticəsində, yəni hələ oturaq həyata keçmədən, əkinçilik və maldarlığa keçid etmədən öncə meydana gəlmişdir. Bu yaşayış məskənlərində və həyat tərzində heyvan mənşəli qidaların istifadəsinin və artıq qalan heyvanların sonraya saxlanılmasının rolu çox böyükdür. Bu ehtiyacların qarşılanması üçün yaşayış məskənlərində uyğun ərazilər formalaşdırılmış və digər yaşayış məntəqələri bu şəkildə ortaya çıxmışdır. [4, səh 745].

Qeyd olunan məlumatları ümumiləşdirsək belə bir nəticəyə gələ bilərik ki, şəhərlər müxtəlif səbəblərdən (ticarət, hərbi, dini və s.) meydana çıxmışdır və əslində yer üzündəki bütün şəhərlər üçün keçərli olan vahid bir formalaşma motivi axtarmaq kifayət qədər mürəkkəb bir prosesdir. Bu yaşayış məskənləri müxtəlif dövrlərdə və müxtəlif məqsədlərlə formalaşdırılmışdır.

Bilinən ilk şəhərlər min illər əvvəl Mesopotamiya kimi tanınan tarixi bölgədə, torpağın münbit olduğu Ur, Uruk, Eridu kimi ərazilərdə meydana çıxmışdır. Bu şəhərlər ("Bərəkətli Aypara" adlanan) Fərat və Dəclə çayları arasında çoxsaylı əhalinin yaşadığı ərazilərdən biri idi [11, 2023]. Dünya tarixində ilk şəhərlər Cənubi Mesopotamiyada görülsə də, təsərrüfata əsaslanan ilk daimi yaşayış məntəqələri Mesopotamiya ilə sərhəddə yerləşən və kifayət qədər yağıntı alan Anadolu və Levant bölgələrində yaranmışdır. Misirdə Nil çayı, Hindistan yarımadasında Hind çayı vadisi və Çində Sarı (və ya Huanq) çayı boyunca insanlar məhsul becərməyə və icmalarda məskunlaşmağa başladıqca da müxtəlif şəhərlər formalaşmağa başlamışdır [6, səh 1-3].

İndi isə bütün bu amilləri bir kənara qoyaraq şəhərlərin formalaşması üçün vacib olan amillərə diqqət yetirək. Burada bir sıra faktorları sadalaya bilərik: ərazi, əhali və s. Eyni zamanda, hesab olunur ki, bəşər tarixində bütün şəhərlərin formalaşmasının çıxış nöqtəsini və özəyini "bazarlar" təşkil edir: "Çin və Hindistandan İspaniya və Şotlandiyaya qədər bütün qədim şəhərlər bir vaxtlar divarlarla əhatə olunmuş bazarlardan ibarət idi. Yaxın Şərq, Aralıq dənizi hövzəsində və Avropa şəhərlərində bazara və qala divarlarına üçüncü bir xüsusiyyət əlavə olunur: bu, şahzadənin və ya şəhər ağasının bürc və ya qala adlanan möhkəmləndirilmiş mövqeyidir (sarayıdır)." [5, səh 2].

Beləliklə, bu mövzudaki müxtəlif mənbələrdə qeyd olunan əsas fikirləri və əksəriyyət elm adamları tərəfindən qəbul olunan görüşləri ümumiləşdirsək, hesab etmək olar ki, ən qədim zamanlardan neolit inqilabına qədər şəhərlər çox sadə bir formul üzərində qurulmuşdu; insanların ticarət və mübadilə etdikləri bir bazar yeri, bazar ətrafında insanların yaşadığı evlər və xüsusilə Qərb və Yaxın Şərq üçün xarakterik olan burada yaşayan insanların müdafiəsi məqsədilə yüksəldilən qalın divarlar [4, səh 744]. Məhz elə buna görədir ki, bu gün demək olar ki, dünyanın heç bir hissəsində bazarsız bir şəhər yoxdur [5, səh 2].

Sonralar isə insanlar arasında münasibətlərin mürəkkəbləşməsi və sadə ticarət münasibətlərini geridə qoyaraq kompleksləşməsi burada olduqca mürəkkəb idarəetmə və idarə olunma problemlərini ortaya çıxardı. Bu nöqtədə müxtəlif amillərin təsiri altında, dünyanın fərqli bölgələrində bir sıra proseslər özünü göstərməyə başladı. Belə ki, bəzi ərazilərdə şəhərlər güclənərək və varlanaraq inkişaf etməyə davam etdi və bu inkişafın müəyyən bir nöqtəsində artıq öz idarəetmə orqanlarını formalaşdıraraq öz-özünü idarə edən strukturlara, yəni şəhər dövlətlərə çevrildi. Digər ərazilərdə isə, insanlar arası münasibətlər lokal müstəvidən çıxaraq "milli" səciyyə daşımağa başladı, bu da öz növbəsində dövlətlərin və ya dövlətə bənzər quruluşların formalaşması ilə nəticələndi. Qeyd etmək lazımdır ki, tarixən hesab edilir ki, dövlət və hüquq da eyni vaxtda yaranmışdır. Dövlət və hüququn kökünü təşkil edən xüsusiyyətlər və onların sosial və tipoloji kökləri üst-üstə düşür [1, səh 120].

Lakin odlu silahların kəşfi və yayılması təxminən 17-ci əsrdən etibarən şəhərlərin xarakterik xüsusiyyətlərindən biri olan divarların əhəmiyyətini yavaş-yavaş itirməsinə səbəb oldu. Bu prosesə dünya şəhərləri 3 şəkildə cavab verdilər; bir qisim şəhərlər hələ uzun bir müddət divarları saxlamağa və onları bərpa etməyə davam etdi, digər şəhərlər isə divarları onlar qədər funksional olmasa belə, şəhərlərin ətrafında, köhnə divarların yerində və ya onların yaxınlığında xəndəklər, siparlər və s. ilə doldurmağa çalışdıç və nəhayət sonuncular isə divarların artıq öz əvvəlki əhəmiyyətini itirdiyini qəbul edərək şəhərləri divarlarla çevrələməkdən, hətta onları bərpa etməkdən vaz keçdilər. Günümüzdə isə qədim şəhərlərin əzəmətli divarları sadəcə estetik və turistik əhəmiyyət daşıyır.

Ümumilikdə, şəhərlərin formalaşma və inkişafına, onların insanların həyatında bu qədər aktiv rol oynamasına təsir edən, eyni zamanda şəhərləşmə prosesi baxımından inqilab hesab oluna biləcək bir neçə tarixi hadisə mövcuddur. Bu tarixi hadisələri tarixi ardıcıllıq baxımından bu şəkildə sıralaya bilərik:

**1. Neolit İnqilabı.** Neolit inqilabı insanların ovçu və toplayıcı həyat tərzindən əl çəkərək oturaq həyata keçməsi ilə xarakterizə olunur. Neolit dövrü olaraq da bilinən bu dövr təxminən eramızdan əvvəl 10.000 ilə 4.000 illəri arasında mövcud olmuşdur. Bu dövr bitki və heyvanların əhliləşdirilməsi, əkinçilik texnikasının inkişafı və insanların qida istehsalı üçün oturaq həyata keçməsi ilə də səciyyələnir. Bu dövrdə insanlar daha çox ərzaq istehsal edə bilmişlər və əhalinin artması ilə ilk yaşayış məntəqələri və yuxarıda da qeyd olunduğu kimi tədricən şəhərlər yaranmışdır.

Yenə yuraxıda qeyd olunduğu kimi, torpaq və iqlim faktorlarının təsiri ilə oturaq həyata keçən insanların əkinçilik və maldarlıqdan əldə etdikləri məhsul artmış, əlavə məhsul ortaya çıxmış və bu əlavə məhsulun saxlanması, formalaşan yeni tələbatların təmin olunması, ticarətin və şəhərləşmənin inkişafı və yeni texnologiya və daha modern alətlərin kəşfi ilə dulusçuluq kimi sənətkarlığın yeni növləri, mədənçilik kimi yeni tələblərdən doğan müxtəlif peşələr ortaya çıxmışdır [10].

**2. Böyük Coğrafi Kəşflər dövrü.** 15-16-cı əsrlərdə baş tutan Böyük Coğrafi Kəşflər - Avropa dənizçilərinin yeni qitələrə yelkən açmasına, yeni kəşflərə və xarici ticarətin genişlənməsinə səbəb olmuşdur. Bu dövrdə avropalı dənizçilər Amerika, Afrika və Asiyanın tədqiqi ilə "dünya xəritəsini yenidən çəkiblər" [7, səh 1-2]. Bu kəşflər ticarətin artmasına, yeni ticarət yollarının açılmasına və liman bölgələrində şəhərlərin inkişafına kömək etdi. Ancaq öz növbəsində bu dövr uzun sürəcək qanlı bir tarixin, İngiltərə və Fransa başda olmaqla Avropa ölkələrinin dünyanı idarə etmək uğrunda mübarizə apararaq onlarla ölkəni və diyari müstemləkəyə çevirməsinin də təməlini qoymuşdur. Bu tarix o qədər əhəmiyyətlidir ki, İngiltərə və digər ölkələrin müstəmləkələrin hesabına varlanaraq senaye inqilabına şahid olmasının və bəzən "Qərbləşmə" olaraq da görülən Qloballaşmanın da təməlləri bu dövrdəki piratların Qərb dövlətləri tərəfindən maliyyələşdirilərək saysız-hesabsız səyahətlərə çıxması nəticəsində atılmışdır.

**3. Sənaye İnqilabı.** Sənaye İnqilabı 18-19-cu əsrlərdə İngiltərədə başlayan və sonralar bütün dünyaya yayılan bir prosesdir. Bu dövrdə sənaye istehsalına və fabriklərin yaranmasına səbəb olan əl əməyindən maşın istehsalına keçid baş verdi. Sənaye İnqilabı kənd təsərrüfatı və sənətkarlıqdan manufaktura və fabrik istehsalına keçidi də sürətləndirdi. Fabriklərin şəhərlərdə cəmləşməsi işçi miqrasiyasına və şəhərlərin sürətli böyüməsinə səbəb oldu.

Şəhərlərin inkişafı baxımından xüsusilə birinci sənaye inqilabını qeyd etmək lazımdır, ancaq sənaye inqilabı sadə və bir pilləli proses olmamışdır. O dörd mərhələdən ibarətdir. Bu mərhələlər və ya dövrlər sənaye istehsalında və texnoloji tərəqqidə əhəmiyyətli dəyişikliklərə əsaslanır. Bu dörd mərhələnin hər biri sənaye inqilabının müxtəlif mərhələlərində texnoloji və iqtisadi dəyişiklikləri əks etdirir [8].

**4. Qloballaşma.** 20-ci əsrin ikinci yarısından etibarən sürətlənən qloballaşma prosesi beynəlxalq ticarətin artması, iqtisadi inteqrasiyanın dərinləşməsi və mədəni qarşılıqlı əlaqələrin artması ilə xarakterizə olunur. Qloballaşma şəhərlərin iqtisadi mərkəz kimi meydana çıxmasını sürətləndirdi. Beynəlxalq ticarətin artması ilə liman şəhərləri və ticarət mərkəzləri əhəmiyyət qazanmış, şəhərlər qlobal şəbəkələrə daha çox inteqrasiya etmiş, mədəni müxtəliflik isə artmişdir. Belə ki, dünya əhalisi artıq öz milli mədəniyyətləri xaricində digər mədəni xüsusiyyətləri mənimsəməyə daha meyilli hala gəlmiş, ancaq xüsusilə inkisaf etməkdə olan ölkələrin Qərbə və ABŞ-a bənzəmək, inteqrasiya etmək arzusu baxımında milli mədəni xüsusiyyətlərin dəyəri azalmışdır.

**5. Texnoloji Tərəqqi və Rəqəmsal İnqilab.** 20-ci əsrin ikinci yarısından etibarən texnoloji tərəqqi, xüsusən də kompüterlər, kommunikasiya texnologiyaları və internetin yayılması yeni bir dövrün başlanğıcını qoymuşdur. Rəqəmsal İnqilabın təsiri ilə mövcud 4-cü Sənaye İnqilabı dövründə kompüter texnologiyalarının inkişafı informasiyaya çıxışı asanlaşdırdı, rabitəni sürətləndirdi və qlobal əlaqələri artırdı. Bu dövrdə şəhərlər demək olar ki, tamamilə qloballaşdı (xüsusilə qabaqcıl ölkələrin böyük və paytaxt şəhərləri), rəqəmsal infrastrukturlar inkişaf etdi, bilik iqtisadiyyatı çox daha böyük əhəmiyyət kəsb etməyə başladı.

Hər bir dövr şəhərlərin inkişafına mühüm töhfələr vermiş və tarix boyu şəhərlərin təkamülünü istiqamətləndirmişdir. Eyni zamanda, bu dövrlərin hər biri bəşər tarixində əsas dönüş nöqtələrini təmsil edir və bu gün şəhərlərin formalaşmasında həlledici rol oynamışdır.

Şəhərləşmə tarix boyunca davam edən bir proses olsa da, o daha spesifik və zaman baxımından daha yeni olan digər bir anlayışla qarışdırılır - urbanizasiya. Bu iki anlayış çox vaxt bir-biri ilə əlaqələndirilsə də, fərqli mənalar daşıyır. Belə ki, urbanizasiya ümumiyyətlə, demoqrafik prosesə aiddir və ilk növbədə əhalinin yerdəyişməsi ilə əlaqədardır. Şəhərləşmə isə daha geniş bir anlayışdır və təkcə əhalinin hərəkəti ilə dəyil, həm də iqtisadi, sosial və mədəni dəyişikliklər kimi digər aspektlər ilə də əlaqədardır. Bunu şəhərlərin tədrici yaranması prosesi olaraq da başa düşmək olar. Ümumilikdə, urbanizasiya - əhalinin və iqtisadiyyatın kənd yerlərindən şəhərlərə dorğu hərəkətini və şəhərlərin əhalisinin və onların fiziki ərazisinin genişlənərək mürəkkəbləşməsini ifadə edən bir prosesdir. Bu artan əhali sıxlığı şəhərlərdə iqtisadi fəaliyyətlərin cəmləşməsinə təkan verir və infrastruktur ehtiyaclarını artırır. Urbanizasiya Jane Jacobsun da qarşı çıxdığı plansız və nizamsız şəhərləşmənin də əsas səbəblərindən biridir. [3, səh 10-13]

Günümüzdə şəhər əraziləri əhalinin artımı və iqtisadi aktivlik ilə bərabər böyüməyə davam edir. Bu artım iri, hətta nəhəng ölçülü şəhər tipli yaşayış məntəqələrinin yaranmasına və inkişafına səbəb olur. Bu kontekstdə metropolislər, meqaşəhərlər və meqapolislər kimi böyük şəhər kompleksləri müasir cəmiyyətin önəmli bir parçasına çevrilmişdir. *Metropolislər* 19-cu əsrin sonlarından böyük sənaye transformasiyaları və urbanizasiya proseslərinin təsiri ilə meydana çıxmağa başlamışdır. Böyük əhali sıxlığına sahib və iqtisadi əhəmiyyəti olan şəhərlər metropolis hesab oluna bilər. Onlar çox vaxt bir ölkənin və ya bölgənin ən mühüm iqtisadi, mədəni və siyasi mərkəzi hesab olunur. Metropolislərə ümumiyyətlə bir neçə böyük şəhər və bu şəhərlərin ətrafındakı şəhər əraziləri daxildir.

*Meqaşəhərlər* 20-ci əsrin ortalarından, xüsusən də sənaye və texnoloji inqilablarla birlikdə sürətlə böyüməyə və inkişaf etməyə başlamışlar. Bu şəhərlər adətən bir və ya bir neçə böyük metropolis və ətraf şəhər əraziləri özündə ehtiva edən və əhalisinin sayı ən azından 10 milyon (bəzən 8 milyon) nəfər olan nəhəng şəhərlərdir. Meqapolislər şəhərlərin genişlənməsi və urbanizasiya prosesləri nəticəsində yaranır və çox vaxt genişmiqyaslı miqrasiya, sənayeləşmə və iqtisadi artımla əlaqələndirilir. Meqapolislər çox vaxt mühüm ticarət, maliyyə, mədəniyyət və təhsil mərkəzləri olur. Bu şəhərlər əhalinin sıxlığı səbəbindən infrastruktur, nəqliyyat və ekoloji problemlərlə də üzləşə bilər.

Lakin eyni zamanda, onlar bu problemləri innovativ həllər və davamlı inkişaf strategiyaları ilə həll etmək potensialları da vardır. *Meqapolislər isə* 20-ci əsrin sonu və 21-ci əsrin əvvəllərində qloballaşmanın və beynəlxalq ticarətin yüksəlişi ilə məşhurlaşdılar. Meqapolis böyük bir coğrafi əraziyə yayılmış bir-biri ilə əlaqəli şəhər ərazilərini təsvir edən bir termindir. Bu şəhər bölgələri birdən çox metropoliten ərazinin birləşməsi ilə formalaşır və bir neçə böyük şəhəri, şəhərətrafı əraziləri və kənd yerlərini də əhatə edə bilir. Meqapolislər ümumiyyətlə böyük əhaliyə, intensiv iqtisadi fəaliyyətə və mürəkkəb infrastruktura sahibdir. Meqaşəhərlərdən fərqli olaraq meqapolislər tək və böyük bir şəhər dəyil, meqapolislər qədər böyük olan və ya olmayan bir neçə nəhəng şəhərin birləşməsidir və müəyyən bir ərazini əhatə edir. [9].

Sadəcə iki əsr əvvəl hər on adamdan sadəcə biri şəhərlərdə yaşayırdı. Bu gün isə dünyada inkişaf etmiş ölkələrdə əhalinin 75%-i, inkişaf etməkdə olan ölkələrdə isə 45%-dən artığı məhz şəhərlərdə yaşayır [2, səh 17]. Müasir dövrdə texnoloji tərəqqi, qloballaşma və əhalinin artımı kimi amillər şəhərlərin daha da böyüməsinə və bir-biri ilə əlaqəli nəhəng şəhər ərazilərinin formalaşmasına səbəb olur. Bu dövrdə şəhərlər iqtisadi, siyasi və mədəni cəhətdən daha çox qarşılıqlı əlaqədə olur və bir-birindən daha çox asılı olur. Bu, müasir metropolislərin, meqaşəhərlərin və meqapolislərin əhəmiyyətini və yayılmasını daha da artırır.

## ƏDƏBİYYAT

1. Qurbanov H. “Cəmiyyət və sosio-hüquqi problemlər”. Bakı: ”Elm” nəşriyyatı, 2018, 272 s.
2. Bairoch P. “Cities and economic development from the down of history to the present”. Chicago: The University of Chicago Press, 1988, 541 s.
3. Makat İnternational LTD. “An Analysis of Jane Jacobs’s The Death and Life of Great American Cities”. London: Coda Centre, 2017, 17 s.
4. Duman T. “Şehir tarihi ve Kentleşme”. Antalya: Imuco proceedings book, 2016, 967 s.
5. Şükrü R., Kessler G. “Şehrin tarihi ve sosyal fonksiyonu”. İstanbul: İÜ Hukuk fakültesi, İktisat ve İçtimaiyat Enstütüsü komün bilgileri konferansı, 2000, 11 s.
6. Tekin M. “Dünya Tarihi’nde İlk Şehir Ve Şehir Devletinin Ortaya Çıkışı”. Gaziosmanpaşa Üniversitesi Sosyal Bilimler Araştırmaları Dergisi, 2017, 30 s.
7. Uğur Y. “Şehir Tarihi ve Türkiye’de Şehir Tarihçiliği: Yaklaşımlar, Konular ve Kaynaklar”. İstanbul: Türkiye araştırmaları literatür dergisi, 2005, 18 s.
8. https://az.m.wikipedia.org/wiki/S%C9%99naye_inqilab%C4%B1
9. https://az.m.wikipedia.org/wiki/Metropolis
10. https://en.wikipedia.org/wiki/History_of_cities
11. The History of Cities (nationalgeographic.org)
12. https://islamansiklopedisi.org.tr/sehir
13. https://dergipark.org.tr/tr/

## ŞƏHƏRLƏRİN TARİXİ TƏKAMÜLÜ PROSESİ

***Əzizli Anar***

## XÜLASƏ

Bu məqalə həm sosiologiya, həm də bütövlükdə insan həyatı üçün xüsusi əhəmiyyət kəsb edən bir məsələyə - milyonlarla insanın həyatını davam etdirdiyi məkan olan şəhərlərin tarixi inkişaf probleminə həsr olunmuşdur. Bu strukturlar zamanın axışına, tarixin irəliləyişinə, imperiyaların quruluşu və çöküşünə şahidlik etmiş olsalar da, təəssüf ki, əlimizdəki mənbələrin yetərsizliyi, qeyri-dəqiqliyi və digər səbələr ucbatından onlarla bağlı bir çox nüans bizə hələ də məlum deyil. Ancaq bütün bu qeyd olunanları ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, şəhərlərin tarixi təkamülü bəşər tarixində özünəməxsus yer tutan mühüm bir prosesdir. Kiçik yaşayış məskənlərindən tutmuş, nəhəng meqapolislərə qədər şəhərlər insanların bir araya gəldiyi, həyat tərzlərini və mədəniyyətlərini paylaşdıqları mərkəzlərə çevrilmişdir.

Müxtəlif şəkillərdə və məqsədlərlə də olsa, sadəcə kiçik bir bazar və onu çevrələyən divarlarla başlayan bu proses zamanla evlər, saraylar, anbarlar, ictimai binalar, dövlət orqanlarına aid ərazilər və s. kimi ən müxtəlif amilləri də öz tərkibinə qataraq tədricən həm insan həyatı üçün hədsiz əhəmiyyətli olan, həm də ona kifayət qədər təsir edən və özündə

milyonlarla ailəni, fərdi, kollektivi və s. özündə ehtiva edən xaotik və mürəkkəb strukturlara çevrilməsi ilə öz pik nöqtəsinə çatmışdır, ancaq şəhərlərin tarixi inkişafı bununla da yekunlaşmır, qloballaşmanın təsiri ilə şəhərlər sürətlə dünyaya inteqrasiya edir.

Beləliklə, şəhərlərin tarix boyu yaşadığı inkişaf və dəyişmə prosesi bəşəriyyətin tərəqqisində mühüm rol oynamışdır. Bununla belə, gələcəkdə daha yaşana bilən, dayanıqlı və inklüziv şəhərlərin qurulmasına çalışmaq vacibdir. Bu yolla şəhərlər insanların həyat keyfiyyətini yaxşılaşdıra, iqtisadi artımı stimullaşdıra və qlobal problemlərin həllinə töhfə verə bilər.

## ПРОЦЕСС ИСТОРИЧЕСКОЙ ЭВОЛЮЦИИ ГОРОДОВ

***Азизли Анар***

## АННОТАЦИЯ

Данная статья посвящена вопросу, имеющему особое значение как для социологии, так и для жизни человека в целом, - проблеме исторического развития городов, в которых продолжают свою жизнь миллионы людей. Хотя эти структуры были свидетелями хода времени, хода истории, создания и распада империй, к сожалению, многие нюансы, связанные с ними, нам до сих пор неизвестны в силу недостаточности, неточности имеющихся у нас источников и других причин. Однако, суммируя все вышесказанное, можно прийти к выводу, что историческая эволюция городов – это важный процесс, занимающий уникальное место в истории человечества. От небольших поселений до огромных мегаполисов, города стали центрами, где люди собираются вместе и делятся своим образом жизни и культурой.

Этот процесс, начавшийся с небольшого базара и окружающих его стен, пусть и разной формы и назначения, со временем перерос в дома, дворцы, склады, общественные здания, территории, принадлежавшие государственным учреждениям и т. д. путем добавления к ее составу постепенно самых разнообразных факторов, что чрезвычайно важно для жизни человека и оказывает на нее достаточное влияние и включает в себя миллионы семей, отдельных лиц, коллективов и т. д. достиг своего пика с превращением в хаотичные и сложные структуры, которые его содержат, но историческое развитие городов на этом не заканчивается, под влиянием глобализации города стремительно интегрируются в мир.

Таким образом, процесс развития и изменений, переживаемый городами на протяжении всей истории, сыграл важную роль в прогрессе человечества. Однако важно работать над созданием более пригодных для жизни, устойчивых и инклюзивных городов в будущем. Таким образом, города могут улучшить качество жизни людей, стимулировать экономический рост и внести свой вклад в решение глобальных проблем.

# HISTORICAL EVOLUTION PROCESS OF CITIES

***Azizli Anar***

## SUMMARY

This article is devoted to an issue of particular importance for both sociology and human life as a whole - the problem of the historical development of cities, where millions of people continue their lives. Although these structures have witnessed the passage of time, the progress of history, the creation and collapse of empires, unfortunately, many nuances related to them are still unknown to us due to the insufficiency, inaccuracy of the sources we have and other reasons. However, by summarizing all these mentioned, we can come to the conclusion that the historical evolution of cities is an important process that has a unique place in human history. From small settlements to huge metropolises, cities have become centers where people come together and share their lifestyles and cultures.

This process, which started with just a small bazaar and its surrounding walls, albeit in different shapes and purposes, eventually grew into houses, palaces, warehouses, public buildings, areas belonging to government agencies, etc. by adding the most diverse factors to its composition, gradually, which is extremely important for human life, and which has a sufficient influence on it, and includes millions of families, individuals, collectives, etc. has reached its peak with the transformation into chaotic and complex structures that contain it, but the historical development of cities does not end there, with the influence of globalization, cities are rapidly integrating into the world.

Thus, the process of development and change experienced by cities throughout history has played an important role in the progress of mankind. However, it is important to work towards building more livable, sustainable and inclusive cities in the future. In this way, cities can improve people's quality of life, stimulate economic growth and contribute to solving global problems.

# ЭЙДЖИЗМ – ГЛОБАЛЬНАЯ ПРОБЛЕМА СТАРЕНИЯ

***Гурбанова Айдан Ильхам кызы***
***магистр II курса БГУ***
***gaydan123@gmail.com***

***Ключевые слова***: возраст, старение, общество, дискриминация
***Açar sözlər***: yaş, qocalmaq, cəmiyyət, diskriminasiya
***Key words***: age, aging, society, discrimination

Активное вовлечение пожилых людей в жизнь общества является одной из главных задач социальной политики любого государства. Такая деятельность имеет не только гуманистические, но и положительные экономические последствия. Однако есть определенные проблемы мешающие к полноценной интеграции пожилых людей в жизнь общества. Одной из таких проблем, получившая в последнее время широкое распространение – эйджизм.

Эйджизм — это вид дискриминации, в основе которой лежат стереотипы и предрассудки, связанные с людьми определенной возрастной категории. Как правило, термин «эйджизм» применяется к людям старшего возраста, хотя предвзятое отношение может ощущать на себе и молодежь. Самый масштабный опрос, который проводился на сегодняшний день в рамках 6-й волны Всемирного исследования ценностей и затрагивал 83 034 человек в 57 странах, показал, что каждый второй человек придерживается эйджистских взглядов в той или иной степени. Это, в свою очередь, приводит к ухудшению физического и психического здоровья пожилых людей, снижению качества их жизни, социальной изоляции, финансовой незащищенности. По оценкам специалистов, эйджизм является одной из причин депрессии среди людей старшего поколения.

Согласно новому докладу Организации Объединенных Наций о проблеме эйджизма, опубликованному Всемирной организацией здравоохранения (ВОЗ), Управлением Верховного комиссара по правам человека (УВКПЧ), Департаментом ООН по экономическим и социальным вопросам (ДЭСВ ООН) и Фондом ООН в области народонаселения (ЮНФПА), призывает предпринять незамедлительные действия по борьбе с эйджизмом, более точно оценивать масштабы этой проблемы и распространять информацию о ней, тем самым разоблачая истинную сущность эйджизма, незаметного на первый взгляд, но настоящего бедствия для общества.

Меры реагирования на пандемию COVID-19 показали, насколько широко распространен эйджизм: люди более старшего возраста и молодые люди подвержены стереотипам в публичных дискуссиях и в социальных сетях. В некоторых случаях возраст используется в качестве единственного критерия, на основе которого принимаются решения об оказании медицинской помощи, применении спасающих жизнь методов лечения и физической изоляции.

Эйджизм имеет серьезные и далеко идущие последствия для здоровья и благополучия людей. Среди пожилых людей с эйджизмом связаны ухудшение физического и психического здоровья, социальная изоляция и одиночество, финансовая незащищенность, снижение качества жизни и преждевременная смерть. По оценкам, причиной 6,3 миллиона случаев депрессии во всем мире является эйджизм. Он пересекается с другими формами предвзятости и ущемления в правах, в том числе связанными с полом, расой и инвалидностью, и усугубляет их, что отрицательно сказывается на здоровье и благополучии людей.

Эйджизм может проявляться неочевидными способами. В личных отношениях это могут быть шутки о возрасте, оскорбительные обобщения о конкретном поколении, игнорирование чьих-либо проблем или желаний из-за их возраста. Ниже преведено несколько примеров эйджизма в повседневной жизни.

**Пренебрежение врачей**

Эйджизм наглядно проявляется в отношениях врач — пациент. Врачи порой принимают симптомы серьезных заболеваний за возрастные изменения и на этом основании отказывают в лечении. В итоге пожилые люди часто страдают от боли только потому, что их недолечивают. Многие врачи разговаривают с пожилыми как с детьми. Или наоборот относятся агрессивно, не оказывают должного внимания. Серьезный резонанс вызвала история, произошедшая в 2018 году Новом Уренгое. Там бригада скорой помощи отказалась везти в больницу 92-летнего ветерана Великой Отечественной войны. Родственникам пациента медработники заявили, что не хотят, чтобы он «умер в машине».

**Социальное неприятие**

В 1980-х годах в Англии провели эксперимент, где детям предложили поиграть по очереди с двумя людьми: с молодым (35 лет) и зрелым (75 лет) человеком. Во втором случае дети садились от собеседника дальше, избегали зрительного контакта и меньше говорили с ним. На бытовом уровне происходит то же самое, когда внуки избегают общения с престарелыми родственниками. Причины могут быть разными: от непонимания, о чем с ними говорить, до опасений, что их «опять начнут учить».

**Ущерб оценивается в миллиарды**

Эйджизм обходится обществу в миллиарды долларов. Результаты исследования, проведенного в Соединенных Штатах Америки в 2020 г., показали, что из-за эйджизма в виде негативных возрастных стереотипов и самовосприятия расходы на восемь заболеваний, связанных с самыми высокими затратами, увеличились на 63 млрд долл. США. Это составляет 1 долл. США из каждых 7 долл. США, израсходованных на эти заболевания в расчете на всех американцев старше 60 лет в течение одного года.

Согласно оценкам по Австралии, если бы на 5% больше людей в возрасте 55 лет и старше работали, это приносило бы пользу национальной экономике в размере 48 млрд австралийских долларов в год. В настоящее время недостаточно данных и информации об экономических издержках эйджизма, и необходимы дополнительные исследования, чтобы лучше понять его экономические последствия, особенно в странах с низким и средним уровнем дохода

«Эйджизм приносит вред всем – и пожилым, и молодым. Но часто это явление является настолько распространенным и общепринятым во всем – в том, как мы мыслим и действуем, в политике, законах и институтах, — что мы даже не осознаем, насколько негативно оно влияет на наше достоинство и права, — сказала Мишель Бачелет, Верховный комиссар Организации Объединенных Наций по правам человека. — Нам нужно решительно бороться с эйджизмом, представляющим собой глубоко укоренившееся нарушение прав человека».

**Как бороться с эйджизмом**

ВОЗ отмечает, что борьба с эйджизмом невозможна без повышения осведомленности об особенностях взросления и старения человека. Например, о том что молодые и пожилые люди могут работать на равных, а эмоциональный интеллект ребенка формируется с рождения. Знание поможет расстаться с многочисленными стереотипами, которые становятся серьезным препятствием на пути к организации «общества для всех возрастов». Кроме того, стоит отказаться от оценочного суждения и начать уважительно относиться к другим людям, даже если ваши взгляды не совпадают.

Сложившуюся ситуацию невозможно исправить исключительно мерами административного воздействия и средствами социальной поддержки. Необходимо, ясно определить базовые социальные права и средства их реализации.

Необходимо добиться изменения информационной политики ведущих СМИ, прежде всего, развлекательных. Найти средства и способы заставить компании, выпускающие продукцию массовой культуры, отказаться от использования стереотипов в отношении представителей старшего поколения. Создать духовные, правовые и социальные условия для укрепления солидарности и сотрудничества между различными поколениями.

Нужно, чтобы нынешние представления, во многом обусловленные «эйджизмом», сменились в общественном сознании пониманием того, что пожилой возраст — это не болезнь, не наказание и не расплата за грехи молодости, а естественный и важный этап в жизни каждого человека. Может быть, самый важный период в нашей жизни. Да, в этом возрасте слабеет здоровье, и с этим необходимо и можно бороться средствами современной медицины. Но эти процессы имеют строго индивидуальный характер. И это совершенно не означает, что все граждане, достигшие пожилого возраста, являются отсталыми и нетрудоспособными. В интересах общества и государства, чтобы представители старшего поколения получили возможность заниматься общественной работой и трудовой деятельностью. Их мнение обязательно должно учитываться при принятии всех важных решений как на государственном, так и на уровне местного самоуправления. Те же, кто хотел бы уйти на заслуженный отдых, должны иметь возможность получать достойную пенсию, которая является вовсе не пособием по нетрудоспособности, а выражением заслуженной ими благодарности за многолетний труд со стороны общества.

## ЛИТЕРАТУРА


1. https://www.forbes.ru/forbeslife/487674-ejdzizm-ustarel-kak-diskriminacia-po-vozrastu-otrazaetsa-na-ekonomike
2. https://www.who.int/ru/news/item/18-03-2021-ageism-is-a-global-challenge-un
3. https://trends.rbc.ru/trends/social/625805e69a7947aa74dfe07a
4. https://news.un.org/ru/story/2021/03/1399072
5. https://plus-one.ru/manual/2022/09/23/eydzhizm-kakim-on-byvaet-i-kak-s-nim-borotsya
6. http://pensioner.party/borba-s-diskriminatsiej.html


# ЭЙДЖИЗМ – ГЛОБАЛЬНАЯ ПРОБЛЕМА СТАРЕНИЯ

***Гурбанова Айдан***

## АННОТАЦИЯ

В данной статье раскрыто понятие эйджизма. В статье рассматриваются причины данного явления, дискриминация по отношению к пожилым, способы борьбы с эйджизмом, а так же, то как оно влияет, не только на пожилых, но и на некоторые сферы жизнедеятельности общества.

## EYDJİZM- QLOBAL YAŞLANMA PROBLEMİ

***Qurbanova Aydan***

**XÜLASƏ**

Bu məqalədə ageizm anlayışı təhlil olunur. Məqalə bu fenomenin yaranma səbəblərin, yaşlılara qarşı ayrı-seçkilik, yaş fərqinə görə diskriminasiya problemi ilə mübarizə yolları, eləcə də onun təkcə yaşlılara deyil, cəmiyyətin bəzi sahələrinə necə təsir etməsindən bəhs edilir.

## AGEİSM- GLOBAL PROBLEM OF AGİNG

***Gurbanova Aydan***

**SUMMARY**

This article defines the concept of ageism. The article discusses the causes of this phenomenon, discrimination against the elderly people, ways to overcome ageism and also reveals how it affects not only the elderly people, but also some areas of society.

# ФОРМЫ СОЦИАЛЬНОЙ РАБОТЫ С МИГРАНТАМИ

***Амирова Айлен***
***Магистрант II курса БГУ***
***aayylen01@gmail.com***

***Ключевые слова:*** формы, мигранты, миграция, социальная работа.
***Açar sözlər:*** növlər, miqrantlar, miqrasiya, sosial iş.
***Keywords:*** forms, migration, migrants, social work.

**Введение**

Основное назначение социальной работы с мигрантами состоит в обеспечении поддержки социальной среды, которая дополняет их потребности и способствует их активной адаптации к новым условиям. Это включает в себя не только помощь мигрантам в преодолении трудностей, но и изменение общественных отношений и связей, чтобы укрепить их вовлеченность в новую среду и восстановить потери в социальной активности. Социальная работа также направлена на блокирование негативного воздействия среды на мигрантов, связанного с экономическими факторами, ограничениями в доступе к здравоохранению, образованию, трудовому рынку и другими аспектами. Таким образом, через социальную работу происходит одновременное улучшение статуса мигрантов и воздействие на социальную среду, в которой они находятся. Акцент делается на изменении отношений между мигрантами и новой социальной средой, что является основой для определения целей и направлений социальной работы с ними.

Социальная работа с мигрантами включает два основных аспекта: практическую помощь в решении личных, экономических и правовых вопросов, а также организационную деятельность, направленную на установление и поддержание социальных отношений [1].

Практическая социальная работа с мигрантами охватывает различные сферы, включая социальную, социально-психологическую, социально-педагогическую, социально-правовую, медико-социальную, финансовую, социально-экономическую, материальную, социально-информационную и социально-трудовую. Эти направления включают в себя проведение консультаций, реабилитационные мероприятия, помощь в получении пособий и пенсий, организацию досуга, профилактику бездомности и детской беспризорности, а также взаимодействие с государственными и общественными учреждениями. Важную роль также играет социально-информационное направление, включающее информирование мигрантов о доступных услугах, сбор и систематизацию информации о них, а также просвещение общественности по вопросам миграции и социальной интеграции мигрантов.

Социально-психологическое направление в работе с мигрантами включает психологическое консультирование, коррекцию и помощь в социальной адаптации, а также работу с кризисными ситуациями и посттравматическим стрессом, психологические тренинги и диагностику детей и подростков из семей мигрантов. Социально-педагогическое направление включает консультации по семейным вопросам, работу с детьми и подростками, контроль за образованием, профессиональное консультирование и досуговые мероприятия для адаптации в новых условиях [2].

Материальное направление включает предоставление продуктовой, вещевой и другой натуральной помощи через общественные организации. Социально-трудовое направление предполагает содействие в получении работы, открытии собственного

дела, консультирование по трудовым вопросам и профессиональной подготовке через службы занятости.

Практические формы социальной работы с мигрантами представляют собой конкретные методы и механизмы, направленные на оказание помощи и поддержки этой категории населения в процессе их адаптации к новой социальной среде. Согласно исследованию Акмаловой и Капицына, в рамках классических форм социальной работы выделяются три основных направления [1].

Первое направление - это индивидуальная помощь, которая включает в себя оказание индивидуальных консультаций, разработку персональных планов поддержки и помощь в решении индивидуальных проблем мигрантов.

Второе направление - работа с группами мигрантов, а также с принимающим обществом. Это включает в себя организацию групповых мероприятий, тренингов, семинаров для мигрантов с целью обмена опытом, поддержки и социальной адаптации, а также проведение образовательных мероприятий для принимающего общества с целью повышения их культурной компетенции и понимания проблем мигрантов.

Третье направление - меры воздействия на государственную политику. Это включает в себя лоббирование интересов мигрантов на уровне государственных структур, предложение изменений и улучшений в законодательстве и политике, направленных на улучшение условий жизни и адаптации мигрантов.

Таким образом, эти классические формы социальной работы с мигрантами представляют собой комплексный подход, включающий как индивидуальные, так и коллективные меры поддержки и интеграции данной категории населения.

Процесс эволюции социальной работы с мигрантами сопровождается развитием неклассических форм и методик, которые учитывают широкий спектр социальных и психологических аспектов адаптации в новой среде. Этот прогресс отражает общую тенденцию включения социальных факторов в генезис трудных жизненных ситуаций, заболеваний и дезадаптированности, что подчеркивает необходимость интегративного подхода к помощи мигрантам [2].

Согласно исследованию И. Нойфельда, начиная примерно с середины 1980-х годов, классические методы социальной работы, такие как индивидуальная помощь и групповая терапия, дополняются более современными психологическими и техническими приемами, такими как диагностика и изучение клиента и его семьи, а также разработка специализированных методик и терапевтических подходов.

Одной из форм современной социальной работы с мигрантами является поддержка создания групп самопомощи и организаций. Эти организации предоставляют площадку для взаимодействия, обмена опытом и поддержки между мигрантами, что способствует их адаптации и социальной интеграции. Даже после решения собственных проблем, многие мигранты остаются активными членами таких организаций, чтобы помогать новым приезжим.

При предоставлении государственных социальных услуг мигрантам особое внимание уделяется индивидуальным потребностям каждого человека, его состоянию здоровья и специфике жизненной ситуации. Решения о предоставлении социальных услуг должны быть основаны на долгосрочном понимании и учете интересов мигрантов, их потребностей и возможностей адаптации в новом обществе.

В рамках миграционных программ для вынужденных переселенцев часто применяются различные меры социальной поддержки, такие как материальная помощь, пособия и субсидии, предоставление жилья как временного, так и постоянного, а также выделение земельных участков под жилищное строительство. Эти меры осуществляются через социальные службы, взаимодействующие с миграционными учрежде-

ниями, организациями здравоохранения, образования и правоохранительными органами.

Однако социальная работа с мигрантами требует не только предоставления материальной поддержки, но и организации взаимодействия с различными институтами и организациями, занимающимися проблемами миграции и социальной защитой. Специалисты по работе с мигрантами должны обеспечить связь с международными организациями, разработать оптимальные структуры и нормативы деятельности учреждений социальной помощи, а также подготовить и повысить квалификацию специалистов в этой области.

Важными аспектами социальной работы с мигрантами также являются проведение социологических исследований, организация социальной рекламы, разработка правовых основ выдачи пенсий и пособий, а также контроль за их выполнением. Организация центров и курсов по профессиональной подготовке и повышению квалификации мигрантов также играет важную роль в интеграции этой категории населения [3].

В настоящее время социальная работа с мигрантами в Азербайджане только начинает активно развиваться и становиться систематизированной. Социальные работники оказывают помощь каждому индивидууму, столкнувшемуся с трудной ситуацией, включая и мигрантов, путем восстановления социальных связей и помощи в решении различных правовых, социальных и экономических проблем.

Через социальную работу компенсируются утраты, смягчается негативное воздействие окружающей среды. Социальные работники способствуют повышению статуса и улучшению положения мигрантов, оказывая влияние на адаптацию в новой среде и поддерживая восстановление социальных ролей и связей. Это в свою очередь сказывается на их материальном положении, трудоустройстве и самооценке.

Основной задачей социальных служб, работающих с мигрантами, является минимизация отрицательных последствий миграции и ее социальных аспектов. Для этого необходимо накапливать информацию о различных формах и методах работы, уметь управлять миграционными процессами и развивать компетенции, необходимые для эффективного управления этим сложным социальным явлением.

## ЛИТЕРАТУРА

1. Акмалова А.А., Капицын В.М. Социальная работа с мигрантами и беженцами: Учеб. пособие / Отв.ред. П.Д. Павленок. — М.: ИНФРА-М, 2008. – 220с. – (Высшее образование).
2. Юдина Т.Н. Социология миграции: Учебное пособие для вузов. М: Академический Проект, 2006. — 272 с.
3. Технология социальной работы.: учеб. пособие для студ. высш. учеб. заведений [Текст]/под ред. И.Г. Зайнышева. – М.: ВЛАДОС, 2000.

# ФОРМЫ СОЦИАЛЬНОЙ РАБОТЫ С МИГРАНТАМИ

***Амирова Айлен***

## АННОТАЦИЯ

Социальные работники осматривают миграцию населения как явление, влекущее за собой различные противоречия для мигрантов в новой социальной среде, а также отклонения от общепринятых норм, такие как дезадаптация, дезинтеграция и девиация. Социальная работа с мигрантами нацелена на нахождение методов, которые могли бы компенсировать и корректировать эти отклонения, применяя разнообраз-

ные подходы как к мигрантам, так и к принимающему населению. Мигранты рассматриваются как субъекты, нуждающиеся в социальной поддержке для успешной адаптации и интеграции. Оптимальным подходом к изучению миграции является рассмотрение ее как процесса одновременного разрыва с привычными экологическими, социокультурными и производственными структурами идентичности и вхождения в новые структуры идентичности на новой территории. Это представление миграции включает не только территориальную мобильность, но и состояние примирения с новой средой. Социальные работники рассматривают миграцию в контексте изменения и формирования отношений между различными группами людей или индивидами в принимающей социальной среде, которые затрагивают универсальные взаимодействия различных идентичностей в обществе.

## MİQRANTLARLA SOSİAL İŞ FORMALARI

***Əmirova Aylen***


### XÜLASƏ

Sosial işçilər əhalinin miqrasiyasını yeni sosial mühitdə miqrantlar üçün müxtəlif ziddiyyətlər, eləcə də uyğunlaşmama, parçalanma və sapma kimi ümumi qəbul edilmiş normalardan kənara çıxan fenomen kimi qəbul edirlər. Miqrantlarla sosial işin məqsədi bu sapmaları kompensasiya etmək və onları düzəltmək üsullarını taparaq həm miqrantlara, həm də qəbul edən əhaliyə müxtəlif yanaşmaların tətbiq etməkdir. Miqrantlara uğurlu adaptasiya və inteqrasiya üçün sosial dəstəyə ehtiyacı olan subyektlər kimi baxılır. Miqrasiyanın öyrənilməsinə optimal yanaşma onu eyni zamanda ənənəvi ekoloji, sosial-mədəni və istehsal strukturlarından kənarlaşma və yeni ərazidə yeni identikliyə daxil olması prosesi kimi nəzərdən keçirməkdir. Miqrasiyaya bu baxışa təkcə ərazi hərəkətliliyi deyil, həm də yeni mühitlə uzlaşma vəziyyəti daxildir. Sosial işçilər miqrasiyanı qəbul edən sosial mühitdə müxtəlif insan qrupları və ya fərdlər arasında münasibətlərin dəyişməsi və formalaşması kontekstində nəzərdən keçirirlər ki, bu da cəmiyyətdəki müxtəlif idetikliyin universal qarşılıqlı əlaqəsinə təsir göstərir.


## FORMS OF SOCIAL WORK WITH MIGRANTS

***Amirova Ailen***


### SUMMARY

Social workers perceive the population migration as a phenomenon that brings various contradictions for migrants in a new social environment, as well as deviations from commonly accepted norms such as maladjustment, disintegration, and deviation. -Social work with migrants aims to find methods that could compensate these deviations and correct them-,applying diverse approaches to both migrants and the host population. Migrants are viewed as subjects in need of social support for successful adaptation and integration. An optimal approach to studying migration is considering it as a process of simultaneous disruption of familiar ecological, sociocultural, and production structures of identity and entry into new identity structures in a new territory. This view of migration includes not only territorial mobility but also a state of reconciliation with new environment. Social workers consider migration in the context of changing and forming relationships between different groups of people or individuals in the receiving social environment, which affect the universal interactions of various identities in society.

# SOSİAL XİDMƏT PROQRAMINDA SOSİAL MÜDAFİƏ MƏSƏLƏLƏRİNƏ YENİ ÇAĞIRIŞLAR

***İmanova Gözəl Raqif qızı***
***BDU-nun II kurs magistrantı***
***gzl.imanova@gmail.com***

***Açar sözlər:*** Sosial xidmət, sosial müdafiə, Dövlət Proqramı, postmüharibə dövrü, sosial islahatlar
***Ключевые слова:*** Социальное обслуживание, социальная защита, Государственная программа, послевоенный период, социальные реформы
***Keywords:*** social service, social protection, State Program, post-war period, social reforms

Müasir dövrdə baş verən sürətli inkişaf, informasiya- kommunikasiya texnologiyalarının tərəqqisi, ayrı-ayrı sahələrdə həyata keçirilən innovasiyalı proseslər sosial xidmət sahəsində də müasir dövrün tələblərinə cavab verən yeni yanaşmaların mövcudluğunu tələb edir.

Sosial xidmət - çətin həyat şəraitində yaşayan şəxsin (ailənin) sosial problemlərinin aradan qaldırılması və ictimai həyatda digər insanlarla bərabər iştirak imkanlarının yaradılması istiqamətində həyata keçirilən kompleks tədbirlərdir.

Sosial xidmətin məqsədi vətəndaşların həyat səviyyəsini ağırlaşdıran, sosial-psixoloji vəziyyətini çətinləşdirən, cəmiyyətdən təcrid olunmasına gətirib çıxaran halların qarşısını almaqdan, çətin həyat şəraitinin əmələ gəldiyi hallarda ehtiyacı olan şəxslərə sosial xidmətin göstərilməsini təmin etməkdən ibarətdir [1].

XXI əsrin ilk illərindən etibarən Azərbaycan Respublikasında dayanıqlı sosial-iqtisadi inkişafı stimullaşdıran genişmiqyaslı islahatlar reallaşdırılmış, çətin həyat şəraitində olan şəxslərin cəmiyyətə inteqrasiyasını təmin edən sosial xidmət sisteminin yaradılması və müvafiq sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində əhatəli işlər görülmüşdür.

Azərbaycan Respublikasının ratifikasiya etdiyi bir sıra beynəlxalq sənədlərin və milli qanunvericiliyin müvafiq müddəalarında mütərəqqi sosial xidmət sisteminin yaradılması, sosial xidmətlərin daim yenilənən müasir tələblərə uyğunlaşdırılması kimi əhəmiyyətli məsələlərin həlli nəzərdə tutulmuşdur. Bu məqsədlə növbəti mərhələdə sosial xidmət sisteminin təkmilləşdirilməsi və daha da gücləndirilməsi istiqamətində dövlət siyasətini müəyyən edən "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı" hazırlanmışdır.

Dövlət Proqramı Azərbaycan Respublikasının sosial xidmət sisteminin, o cümlədən qanunvericiliyin və institusional mexanizmlərin təkmilləşdirilməsi və sosial xidmətlərin təminatı üçün zəruri şəraitin yaradılması üzrə dövlət siyasətinin əsaslarını müəyyən edir. Dövlət Proqramında əhalinin bütün həssas qruplarına göstəriləcək sosial xidmətlərin kəmiyyət və keyfiyyətinin artırılması, xidmətlərə əlçatanlığın təmin edilməsi və sosial səmərəlilik prinsiplərinin gerçəkləşdirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi hədəf kimi nəzərdə tutulmuşdur.

Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində 2026-cı ilin sonunadək sosial xidmət sisteminin inkişafında aşağıdakılara nail olunacaqdır:

4.1.1. hamı üçün bərabər iştirak imkanını təmin edən sosial xidmətlər sisteminin formalaşması;

4.1.2. çətin həyat şəraitində olan şəxslərə göstərilən sosial xidmətin əhatəsinin genişlənməsi və əhalinin göstərilən xidmətlərdən məmnunluq səviyyəsinin artması;

4.1.3. sosial xidmətlərin ünvanlılığının və keyfiyyətli xidmətlərə əlçatanlığın təmin edilməsi;

4.1.4. sosial xidmət sahəsində ixtisaslı kadr potensialının formalaşması [2].

2026-cı ilə kimi ölkəmizdə sosial xidmətin inkişafı sahəsində kifayət qədər ciddi işlər planlaşdırılır. Həmin proqram qəbul olunmazdan əvvəl də ölkədə sosial dövlət və inklüziv cəmiyyət prinsipləri əsas götürülərək əhalinin sosial cəhətdən həssas təbəqəsi, o cümlədən cəzaçəkmə müəssisələrindən azad edilmiş, valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olan xüsusi internat məktəblərini bitirmiş şəxslərin sosial müdafiəsi diqqət mərkəzində olub və bu istiqamətdə ardıcıl məqsədyönlü tədbirlər həyata keçirilib. Lakin Dövlət Proqramında da qeyd edildiyi kimi, son illərdə ölkədə ahıl, sağlamlıq imkanları məhdud şəxslərin, valideyn himayəsindən məhrum olan uşaqların sayının çoxalması sosial xidmətlərə tələbatı da yüksəldib. Sosial xidmətlərin sayının artmasına baxmayaraq, bu artım daha sürətlə baş verir.

Dövlət Proqramında 7 məqsəd və 7 prioritet qeyd edilib. Proqramın əsas məqsədlərindən biri sosial xidmətlərin təşkilində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davam etdirilməsi və sosial xidmət sahəsində dövlət-özəl tərəfdaşlığının genişləndirilməsidir.

Eyni zamanda, layihə çərçivəsində hamı üçün bərabər iştirak imkanını təmin edən sosial xidmətlər sisteminin formalaşması, çətin həyat şəraitində olan şəxslərə göstərilən sosial xidmətin əhatəsinin genişlənməsi və əhalinin göstərilən xidmətlərdən məmnunluq səviyyəsinin artması, sosial xidmətlərin ünvanlılığının və keyfiyyətli xidmətlərə əlçatanlığın təmin edilməsi və sosial xidmət sahəsində ixtisaslı kadr potensialının formalaşması hədəf indikatorları müəyyən edilib.

Qəbul olunmuş Dövlət Proqramı sosial xidmətlərin əhatəsinin genişlənməsi və keyfiyyətinin yüksəldilməsi baxımından olduqca əhəmiyyətli sənəd hesab oluna bilər və proqramın icrası bu sahədə bir çox müsbət dəyişikliklərin yaranmasına gətirib çıxaracaq. Dövlət Proqramı çərçivəsində sosial xidmət müəssisələrinin fəaliyyətinə nəzarətin vahid mexanizminin müəyyən edilməsi və sosial xidmət sahəsində fəaliyyətin əlaqələndirilməsi məqsədilə Koordinasiya Şurasının yaradılması nəzərdə tutulub. Həmçinin proqramın icrası nəticəsində 2026-cı ilə kimi sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 400 məzunu mənzillə təmin ediləcək, 6 şəhər və rayonda ahıl şəxslərin cəmiyyətə inteqrasiyasını hədəfləyən layihələr həyata keçiriləcək. Bundan başqa, azı, 120 uşağın himayədar ailəyə verilməsi və 220 uşağın ailəyə qaytarılması istiqamətində iş aparılacaq, ailədaxili mübahisələrin həlli ilə bağlı mediasiya xidmətlərinin tətbiqi genişləndiriləcək, dövlət sifarişi ilə sosial xidmət sahəsində həyata keçirilən layihələrin sayının hər il 10 faiz artmasına nail olunacaq [3].

Sosial xidmət sahəsində dövlət sifarişlərinin qeyri-hökumət və qeyri-kommersiya təşkilatlarına verilməsi nəticəsində 482 layihə icra edilmiş, layihələr çərçivəsində ümumilikdə 35 mindən artıq çətin həyat şəraitində olan şəxsə və onların ailələrinə sosial-psixoloji, sosial-hüquqi, tibbi-sosial, sosial-məişət xidmətləri, sosial-məsləhət yardımı göstərilmiş, sosial reabilitasiya və müalicələrinin təşkili, reinteqrasiya xidmətlərinin göstərilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir [2].

Dövlət Proqramında səhiyyəyə, insan sağlamlığına dair bir sıra məsələlərə də toxunulur. Belə ki, proqramın "Qlobal trendlər" bölümündə qeyd olunur ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) Əhali Fondunun hesablamalarına əsasən, 2050-ci ildə dünya əhalisinin sayının daha 2 milyard nəfər artaraq 9,7 milyard nəfərə çatacağı proqnozlaşdırılır. Son onilliklər ərzində tibbin inkişafı, səhiyyə xidmətlərinin keyfiyyətinin artması nəticəsində dünyada insanların sağlamlıq və uzunömürlülük səviyyəsi yüksəlmiş, ümumilikdə dünya əhalisinin yaş strukturunda ahıl şəxslərin sayı əvvəlki dövrlərə nisbətən xeyli artmışdır.

Dövlət Proqramının icrası nəticəsində sosial xidmət sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi və sosial xidmətin göstərilməsinə nəzarət mexanizminin müəyyən edilməsi də hədəflənir.

Tarixi Zəfərimizlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə isə dövlət başçısının göstərişi ilə icra olunan sosial dəstək proqramı çərçivəsində şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib.

2003-cü ildən ötən dövrdə əməkhaqları, pensiya və digər sosial ödənişlərin mütəmadi olaraq artırılması, regionların və özəl sektorun inkişafı şəraitində yeni iş yerlərinin açılması, məşğulluq imkanlarının artmasının daimi xarakter alması, əhalinin gəlirlərində ilbəil artım, sosial müdafiə və reabilitasiya əhəmiyyətli yeni müəssisələr şəbəkəsinin qurulması, sosial təminat sisteminin əhəmiyyətli dərəcədə genişləndirilməsi təmin edilib. Dövlət başçısının qeyd etdiyi kimi, "Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik".

Prezident cənab İlham Əliyevin uğurlu sosial islahatlar proqramının əsas hədəflərindən biri də dövlət sosial xidmətlərinin innovativ yanaşmalar, müasir texnologiyalar üzərində qurulması, sosial sahədə vətəndaşlara şəffaf və çevik, keyfiyyətli, əlçatan, vətəndaş məmnunluğuna uyğun xidmətlər sisteminin qurulmasıdır. Bu istiqamətdə DOST Konsepsiyasının davamı olaraq, sosial xidmətlərin geniş miqyasda elektronlaşdırılması proqramı icra olunub və bu gün nazirliyin 159 xidmətindən 140-dan çoxu (90 faizdən çoxu) artıq rəqəmsal platformadan təqdim edilir. 30-dan çox e-arayış xidməti, həmçinin 2019-cu ilin əvvəlindən sosial ödənişlərin elektron sistem üzərindən proaktiv təyinatı mexanizmləri, həmin il ölkənin sosial reyestri olan e-sosial.az portalı, 2020-ci ildə fərdi hesabların e-qaydada proaktiv şəkildə açılması xidməti, 2022-ci ildə "Əmək və Məşğulluq" altsistemi işə salınıb [4].

Sosial dövlət olan Azərbaycanın dövlət büdcəsində bu sahəyə vəsaitlər prioritet qaydada yönəldilir. Belə ki, ölkəmizin dövlət büdcəsi həmişə sosialyönümlü olması ilə fərqlənir. Biz büdcədə sosial məqsədlər üçün ayrılan vəsaitlərin ildən-ilə artırıldığının şahidi oluruq. Sosialyönümlü xərclər 2022-ci il dövlət büdcəsi xərclərinin 36,1 faizini və ya 11576,9 milyon manatını təşkil edib ki, bu da 2021-ci illə müqayisədə 1280,3 milyon manat və ya 12,4 faiz çoxdur. Dövlət büdcəsində sosial sferanın prioritetliyi 2023-cü ildə də təmin edilir.

Son dörd ildə ölkədə həyata keçirilən sosial məzmunlu islahatlar Azərbaycan dövlətinin sosial təminat sisteminin daha da möhkəmləndirilməsinə necə ciddi önəm verdiyinin daha bir ifadəsidir. 2018-2023-cü illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial islahat paketi icra olunmaqla, bu islahatlar üzrə əlavə olaraq illik 6,8 milyard manat vəsait yönəldilib. Prezident İlham Əliyevin tapşırıqları əsasında həyata keçirilən köklü sosial islahatlar nəticəsində bəhs olunan dövrdə ölkəmizdə sosial ödənişlərdə ciddi artım dinamikasına nail olunub. Belə ki, son dörd ildə minimum aylıq əməkhaqqı 2,7 dəfə artırılaraq 130 manatdan 345 manata çatdırılıb. Orta aylıq əməkhaqqında 65,3 faiz, median əməkhaqqında 2,1 dəfə, əməkhaqqı fondunda 2,5 dəfə, sosial müavinət və təqaüdlər üzrə ayrılan illik vəsaitdə 5 dəfəyədək, ünvanlı sosial yardımın orta aylıq məbləğində 2,9 dəfə artım baş verib. Dövlət Sosial Müdafiə Fondunun (DSMF) məlumatına əsasən, bu ilin birinci yarısında da sosial ödənişlərdə artım qeydə alınıb. Artımlar ümumilikdə 810 min nəfəri əhatə edib, əlavə vəsaitin illik həcmi isə 310 mln. manat təşkil edib [5].

Ölkəmizdə dərin sosial islahatlar uğurla həyata keçirilməkdədir. İndiyədək 6,8 milyard manatlıq illik büdcəsi olan 4 islahat zərfi qəbul olunub və bu proses davam etdirilir. 2024-cü ilin büdcəsi pensiya və müavinət alan vətəndaşlarımızın sosial rifahının yaxşılaşması üçün etibarlı təminat yaradacaq.

Milli Məclis tərəfindən 2024-cü ilin dövlət büdcəsi təsdiq edilib. 2024-cü il üçün yaşayış minimumu ölkə üzrə 270 manat, əmək qabiliyyətli əhali üçün 287 manat, pensiyaçılar üçün 222 manat, uşaqlar üçün 235 manat məbləğində müəyyən olunub.

Beləliklə, Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu və Prezident cənab İlham Əliyevin yeni müasir və qlobal çağırışlara uyğun yüksək səviyyədə davam etdirdiyi müdrik və uzaqgörən milli inkişaf strategiyası son 20 ildə Azərbaycanın böyük tarixi uğurlara, möhtəşəm Zəfərə, eyni zamanda mühüm sosial irəliləyişlərə nail olmasını təmin edib. Bu müdrik və uzaqgörən siyasət bundan sonra da ölkəmizi dinamik inkişaf yolunda hər zaman qələbələrə, zirvələrə doğru aparacaq.

**ƏDƏBİYYAT**

1. https://e-qanun.az/framework/23195
2. https://e-qanun.az/framework/55044

3. https://xalqqazeti.az/az/sosial-heyat/136838-sosial-xidmet-dovlet-proqrami-hedefinde
4. https://sosial.gov.az/media/xeberler/qalib-dovlet-guclu-sosial-siyaset
5. https://www.yeniazerbaycan.com/xeberlenti_e88931_az.html
6. https://sosial.gov.az/media/xeberler/yeni-dovlet-proqrami-sosial-xidmetler-sisteminde-yeni-inkisaf-merhelesine-kecidi-sertlendirir
7. https://www.researchgate.net/publication/362482101_SOSIAL_XIDMT_SAHSININ_INKISAF_TARIXI

## SOSİAL XİDMƏT PROQRAMINDA SOSİAL MÜDAFİƏ MƏSƏLƏLƏRİNƏ YENİ ÇAĞIRIŞLAR

***İmanova Gözəl***

### XÜLASƏ

Məqalədə Azərbaycanın sosial xidmət proqramı, onun inkişafı, inkişafı baxımından atılan addımlar araşdırılır. Vətəndaşların layiqli həyat səviyyəsini təmin etmək üçün dövlətin reallaşdırdığı bir sıra tədbirlər məqalədə təhlil olunur. İnsanların sosial rifah halının yaxşılaşdırılması yönündə qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar uğurla həyata keçirilir. Sosial xidmətlər sistemi bu sahədə mühüm yer tutur və insanların həyat şəraitinin yaxşılaşdırılmasına xidmət edir. Hal-hazırda aparılan sosial siyasət cəmiyyətin hər bir fərdini əhatə edir. Həmçinin yoxsulluğun aradan qaldırılması üçün mühüm işlər görülür. Bu da minlərlə ailənin sosial vəziyyətinin yaxşılaşması yolunda bir təkandır.

## НОВЫЕ ВЫЗОВЫ ПО ВОПРОСАМ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ В ПРОГРАММЕ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ

***Иманова Гёзал***

### АННОТАЦИЯ

В статье рассматривается программа социального обслуживания Азербайджана, ее развитие, а также шаги, предпринятые в рамках ее развития. В статье анализируется ряд мер, принимаемых государством для обеспечения достойного уровня жизни граждан. Успешно реализуются законы, указы и распоряжения, принятые в направлении улучшения социального благосостояния народа, коренные реформы в сфере социальной защиты населения. Система социальных услуг занимает важное место в этой сфере и служит улучшению условий жизни людей. Действующая социальная политика охватывает каждого члена общества. Также ведется важная работа по ликвидации бедности. Это толчок к улучшению социального положения тысяч семей.

## NEW CHALLENGES TO SOCIAL PROTECTION ISSUES IN THE SOCIAL CARE PROGRAM

***Imanova Gozel***

### SUMMARY

The article examines the social service program of Azerbaijan, its development, and the steps taken in terms of its development. The article analyzes a number of measures taken by the state to ensure a decent standard of living for citizens. Laws, decrees and orders adopted in the direction of improving people's social well-being, fundamental reforms in the field of social protection of the population are being successfully implemented. The system of social services occupies an important place in this field and serves to improve people's living conditions. The current social policy covers every individual of the society. İmportant work is also being done to eliminate poverty. This is an impetus to the improvement of the social situation of thousands of families.

# YETKİNLİK YAŞINA ÇATMAYANLARIN VƏ GƏNCLƏRİN FORMALAŞMASINDA AİLƏNİN ROLU

***İsmayılova Günel Vüqar qızı,***
***BDU-nun II magistrantı***
***gunka.ismayilova098@gmail.com***

***Açar sözlər:*** ailə, uşaq, inkişaf, şəxsiyyət, münasibətlər, valideyn, tərbiyə.
***Ключевые слова:*** семья, ребенок, развитие, личность, отношения, родитель, воспитание.
***Keywords:*** family, child, development, personality, relationships, parent, upbringing.

Ailə elə bir təməl qurumdur ki, uşaq dünyaya göz açdığı andan həyatı, özünü və digər fərdləri tanımağa başlayır. Uşağın ilk təcrübələri də məhz ailədə qazanılır. Ailə daxilində baş verən proseslər uşağın gələcək həyatının fraqmentidir və onun necə bir şəxsiyyət olacağı ailədaxili münasibətlərdən asılıdır. Uşağın cəmiyyətdə, çevrəsində nümayiş etdirəcəyi davranışların təməlini ailə qoyur. Neqativ ailə mühitində böyüyən uşaqla sevgi və hüzur dolu bir evdə böyüyən uşağın həyata baxışlar sistemi eyni ola bilməz. Yetkinlik dövründə yaşanan problemlərin əksəriyyətinin kökü insanın doğulduğu ailədə yaşadığı hadisələrə dayanır. Bu da sağlam ailə mühitinin zəruriliyini bir daha sübut edir [1].

Uşaqlarda şəxsiyyətin formalaşmasına müxtəlif amillər təsir göstərir, lakin bu mövzuda ən böyük öhdəlik ailənin üzərindədir, uşaqların tərbiyəsi məsələsi ailənin əsas funksiyalarından birincisi hesab olunur [2]. ABŞ Siyahıyaalma Bürosunun verdiyi tərifə əsasən, ailə - qan qohumluğu, evlilik və ya övladlığa götürmə əsasında baş tutan, bir damın altında yaşayan 2 və daha artıq insanın nisbətən daimi qrupudur. Ailə elə bir ideal mühitdir ki, uşaq o mühitdə güvənli formada böyüyə bilir. Ailə öz uşağının ehtiyaclarını vaxtında və yetərincə qarşılayaraq gələcəkdə cəmiyyət üçün sağlam şəxsiyyətlər formalaşdıra bilər. Uşaqlar çox vaxt ailə üzvlərindən birini rol model olaraq təyin edərək getdikcə özlərin həmin şəxsə bənzətməyə cəhd edirlər. Bu rol model əsasən ata və ya ana olur, bəzən isə geniş ailələrdə xala, dayı, bibi, bacı, qardaş və sair ola bilər. Əgər uşağın kumir kimi gördüyü şəxs sağlam olmayan davranış və düşüncə tərzinə sahibdirsə, bunlar həmin ailədə böyüyən uşağın sağlam inkişafına maneə törədir. Ailə sadəcə eyni evdə yaşayan insanlar toplusu deyildir. Ailə bir sistemdir və onun bir üzvünün problemi əslində bütün ailənin problemidir [3].

Ailədaxili münasibətlər uşağın sağlam şəxsiyyət kimi formalaşmasında böyük əhəmiyyət daşıyır. Ailədaxili münasibətlər dedikdə ailənin bütün üzvlərinin bir-birilə qarşılıqlı münasibəti nəzərdə tutulur: valideyn-övlad, ər-arvad, bacı-qardaş və sair. V.A. Suxomlinskinin fikrincə, valideynlərin bir-birinə olan münasibəti uşağın əsas tərbiyə məktəbidir. Bundan əlavə valideynlərin öz övladlarına olan münasibətləri də uşağın ailədəki yerini müəyyənləşdirməsinə, öz qabiliyyət və bacarıqlarını inkişaf etdirməsinə təsir göstərir. Ailə tərbiyəsində ən önəmli məqam uşağı bir şəxsiyyət olaraq görmək və ona hörmət etməkdir. Valideynin uşağa qarşı işlətdiyi kobud ifadələr, təhqir və alçaldılmalar onun xarakterinə ağır zərbə vurur, sərt nizam-intizam, ağır cəzalar verilməsi uşağın daim qorxu içində yaşamasına səbəb olur [4].

Uşaqların formalaşmasına onların mənsub olduğu ailə modelinin, ailə növünün də mühüm rolu vardır. Ailə üzvlərinin sayına görə ailələr 2 qrupa ayrılır: nuklear və geniş ailələr. Nuklear ailə - ana, ata və uşaqlardan ibarət olur. Geniş ailədə isə ana, ata, uşaqlarla yanaşı nənə, baba, digər qohumlar da birlikdə yaşayır. Nuklear ailələrlə müqayisədə geniş ailələrdə böyüyən uşaqlar gələcəkdə paylaşmağı sevən, qrup daxilində ünsiyyət qurmağı bacaran və sosial əlaqələri güclü olan şəxsiyyətlərə çevrilirlər [5].

7 ailə modelinə nəzər salaq:

- Avtoritar ailə modelinin əsas xüsusiyyətlərinə sərt nizam-intizam, uşağın azadlığının məhdudlaşdırılması, istək və ehtiyaclarının nəzərə alınmaması, təzyiq və ağır cəza sistemi daxildir. Bu cür ailələrdə tərbiyə görən uşaqların əksəriyyəti gələcəkdə deviant davranışlı, antisosial hərəkətlərə meyilli, insanlarla ünsiyyətdə uğursuz şəxslərə çevrilirlər [6].
- Avtoritar ailələrin əksinə demokratik ailə modelində valideynlər üçün övladlarının fikir və istəkləri əsasdır. Bu cür ailələrdə valideynlər uşaqlara müəyyən qədər yol göstərərək istiqamət verirlər, lakin onların sərbəst seçiminə də mane olmurlar. Uşaq sadəcə uğur qazandıqda, valideynin istəyini yerinə yetirdikdə deyil, hər zaman, bütün xüsusiyyətləri ilə birgə - olduğu kimi qəbul edilir. Ailədaxili qaydalar ailə üzvlərinin birgə müzakirələri əsasında qəbul olunur. Bu cür uşaqlar gələcəkdə problemə deyil həllə yönəlirlər, özləri üçün faydalı olan hər növ inkişafa və yeniliyə açıq olurlar.
- Liberal ailələrdə uşaqlar valideynləri tərəfindən yönləndirilmir. Bu cür ailə modelində sərbəstliklə etinasızlıq bir-birilə qarışdırılır. Valideyn uşağın fiziki ehtiyaclarını ödəsə də, çox zaman emosional ehtiyaclarını nəzərə almır. Bunun nəticəsində uşaq emosional tənhalığa sürüklənir. Bu cür ailələrdə böyüyən uşaqlara dəqiq müəyyən olunmuş qaydalar qoyulmadığına görə onlar zərərli vərdişlərə daha çox meyil edir, şəxsi münasibətlərində bağlanma problemi yaşayır, valideynlərini rol model kimi seçə bilmədiklərindən, ailədən kənar biri ilə, daha çox mənfi modellə özlərini eyniləşdirirlər [6].
- Xaotik ailələrdə valideynin uşağın davranışına verdiyi reaksiya dəyişkən, daha çox o ankı psixoloji durumu ilə əlaqədardır. Belə olan halda, uşaq harada necə davranmalı olduğunu ayırd edə bilmir, çaş-baş qalır, nəyin doğru, nəyin yanlış olduğunu anlamaqda çətinlik çəkir [6]. Bu ailələrin uşaqlarında əsasən diqqət problemi olur. Ailədə valideynlər sabit fikirli və davranışlı olmadıqlarına görə uşaqlar da zaman-zaman gah aqressiv, gah da özünə qapanıq ola bilirlər [7].
- Ölkəmizdə geniş yayılmış ailə modellərindən biri də həddindən artıq qoruyucu ailələrdir. Onların əsas xüsusiyyətlərindən biri yaranan problemi uşağın əvəzinə valideynin həll etməyə çalışması, uşağın səhv etməsinə, bundan təcrübə qazanmasına, icazə verilməməsidir. Həqiqət budur ki, valideyn övladını "qorumağa" çalışarkən, onun azad bir şəxsiyyət kimi formalaşmasına mane olur. Bu cür ailələrdə böyüyən uşaqlar yetkinləşən zaman öz işlərini təkbaşına, heç kəsin köməyi olmadan görə bilmirlər, daim başqalarından asılı olan şəxslərə çevrilirlər.
- Həddindən artıq tolerant və ya "elastik" ailələrdə nizam-intizam və qaydalar olmur. Ona görə də bu cür mühitdə böyüyən uşaqlar hər istədiyini etsələr də, valideyn tərəfindən uşağa xəbərdarlıq edilmir, heç bir önləyici tədbir görülmür. Belə uşaqlar böyüyəndə cəmiyyətdə qoyulan sosial norma və qadağalara laqeyd münasibət bəsləyir, qanuna zidd olan davranışlar nümayiş etdirirlər.
- Mükəmməlliyyətçi ailə həm uşağa həddən artıq sevgi göstərildiyi, həm də sərt qaydaların qoyulduğu ailə modelidir. Bu ailə modelində valideynlər övladlarının xüsusilə təhsil sahəsində qüsursuz və mükəmməl olmalarını, daim uğur qazanmalarını gözləyirlər. Bu gözlənti qarşılanmadıqda və ya uşaq öz istək və arzularını reallaşdırmağa cəhd etdikdə bu cəhdlər valideyn tərəfindən nəzərə alınmır və ya dəstəklənmir. Beləliklə bu cür uşaqlar gələcəkdə özgüvəni aşağı olan və səhv etməkdən qorxan yetkinlərə çevrilirlər [6].

Hiperqəyyumluq, başqa sözlə desək "uşağa pərəstiş" düzgün aparılmayan tərbiyə növlərindən biridir. Diqqət mərkəzində olmağa adət edən uşaq daim təriflənir, onun bütün istəkləri qeydsiz-şərtsiz qarşılanır. Bu cür uşaqlar gələcəkdə öz eqosentrizmlərini dəf edə bilmirlər, belə olan halda isə cəmiyyət onları müsbət qarşılamır [4].

Uşağın tərbiyə prosesində hər iki valideynin iştirakı mühüm əhəmiyyət kəsb edir. Belə bir sual ortaya çıxır: uşağın sağlam böyüməsinə atanın yoxsa ananın təsiri daha böyükdür?

Adətən analar uşaqları ilə daha çox vaxt keçirdiklərinə görə onların emosional cəhətdən inkişaf etməsində böyük rol oynayırlar. Ana sevgi, şəfqət və diqqət kimi uşağa lazım olan təməl ehtiyacları, sosial bacarıq və məsuliyyət hissini ona ötürür. 0-3 yaş arası uşağın ana ilə olan emosional bağı çox önəmlidir. Atalar isə uşaqların əsasən fiziki inkişafına dəstək olur, onlara oyun, idman, macəra tipli məşğuliyyətləri öyrədirlər, onlarda özgüvən, cəsarət, qərarlılıq kimi bacarıqların formalaşmasına zəmin yaradırlar. Nəticə olaraq uşağın sağlam inkişafı üçün ana və atanın fəaliyyətləri vəhdət təşkil edir [8]. Lakin bəzən müəyyən səbəblərə görə uşaqların tərbiyə prosesində valideynlərdən biri iştirak etmir. Belə ailələrə natamam ailələr deyilir. Tək ana ilə böyüyən uşaqlar atanın yoxluğunu qəbullanmaqda çətinlik çəkirlər, atasızlığı oğlanlar qızlara nisbətən daha gec qəbullanırlar. Uşaq atasını doğulandan bəri heç görməyibsə, bu zaman o daha aqressiv olur. Ana ilə böyüyən oğlanlarda feminizm, sakittəbiətlilik daha çox müşahidə olunur, bəzən isə bunun tam əksi ilə qarşılaşmaq mümkündür - onlar dəcəl olurlar, ananın sözünü dinləmirlər. Atasız böyüyən qızlarda əsasən həyəcan səviyyəsi yüksək olur, çətin situasiyalarda özlərini tez itirirlər. Atanın olmadığı ailələrdə ana müəyyən qədər atanı əvəz edə bilirdisə, anasız ailələrdə bu nisbətən çətin olur, ananın yoxluğu uşaqlar tərəfindən daha çox hiss edilir.

Uşağın şəxsiyyətinə ağır təsir göstərən hadisələrdən biri də boşanma halıdır. Əsasən sosiomədəni səviyyədə dünyagörüş və əqidələrin uyğunlaşmaması nəticəsində ailədaxili konfliktlər yaranır və bu bəzən boşanma ilə nəticələnir. Boşanmaların əsas 3 səbəb var: maddi-məişət problemləri, şəxsi münaqişələr və üçüncü şəxslərin müdaxiləsi. Valideynlərin boşanma prosesində adətən uşağın akademik göstəriciləri aşağı düşür, həmyaşıdları ilə münasibəti pisləşir. Natamam ailələrdə böyüyən uşaqların əksəriyyəti cinayətə meyilli, deviant davranışlı yeniyetmələrdir . Bugünün uşaqları gələcəyin valideynləridir və onlar bu xüsusiyyətlərin təməlini böyüdükləri ailədən götürürlər. Buna görə də valideynlər istənilən halda hər hansı bir addım atmadan öncə uşağının gələcək taleyi barədə dərindən düşünməli, onun psixikasını əsas götürməlidir [9].

Müasir dövrün uşaqları öz valideynləri ilə fərqli dönəmdə yaşadıqları üçün onların istək və ehtiyacları da valideynlərinin istək və ehtiyaclarından fərqlənir. Valideynlər uşaqları onların dövrünə uyğun tərbiyə etməli, zəmanə ilə ayaqlaşmağı bacarmalıdırlar. Valideynləri tərəfindən daim dəstəklənən, uğurları təqdir edilən uşaqlar gələcəyin sağlam şəxsiyyətlərinə çevriləcəklər [10].

## ƏDƏBİYYAT

1. https://dergipark.org.tr/tr/download/article-file/227831
2. https://herbiand.az/post.php?id=21568
3. https://mutlucocuklar.biz/ailenin-onemi
4. https://nuhcixan.az/news/cemiyyet/20402-usaq-sexsiyyetinin-formalasmasinda-ailedaxili-munasibetlerin-rolu
5. https://neurosound.com.tr/aile-yapisinin-cocuk-uzerindeki-etkisi
6. https://npistanbul.com/aile-universitesi/aile-tipleri-nelerdir
7. https://www.onceokuloncesi.com/bilincli-anne-baba-olma-rehberi/cocuk-egitiminde-aile-tipleri-ve-sosyal-etkileri-nelerdir-19410.html
8. https://www.mesuthayat.com/cocuk-egitiminde-anne-mi-baba-mi-etkilidir-konulu-ogrenci-konusma-metni/#:~:text=Asl%C4%B1nda%2C%20anne%20ve%20babalar%C4%B1n%20%C3%A7ocuk,bir%20%C5%9Fekilde%20b%C3%BCy%C3%BCmeleri%20i%C3%A7in%20gereklidir.
9. http://psixologiyajurnali.az/content_files/psixologiya_2010-3.pdf
10. https://dergipark.org.tr/tr/download/article-file/227831

# YETKİNLİK YAŞINA ÇATMAYANLARIN VƏ GƏNCLƏRİN FORMALAŞMASINDA AİLƏNİN ROLU

**İsmayılova Günel**

## XÜLASƏ

Məqalə yetkinlik yaşına çatmayanlar və gənclərin inkişafında ailənin mühüm roluna əsaslanmışdır. Yeniyetmə və gənclərin şəxsiyyətinin formalaşmasına bir çox amillər təsir etsə də, ailənin rolu danılmazdır və bu prosesin özəyidir. Məqalədə ailə modelləri və növlərindən, ailədaxili münasibətlərdən, uşağın düzgün tərbiyə üsullarından bəhs edilir.

# РОЛЬ СЕМЬИ В СТАНОВЛЕНИИ НЕСОВЕРШЕННОЛЕТНИХ И МОЛОДЕЖИ

***Исмаилова Гюнель***

## АННОТАЦИЯ

В основе статьи лежит важная роль семьи в развитии несовершеннолетних и молодежи. Хотя на формирование личности подростков и молодых людей влияет множество факторов, роль семьи неоспорима и является стержнем этого процесса. В статье говорится о моделях и типах семьи, внутрисемейных отношениях, правильных методах воспитания ребенка.

# THE ROLE OF THE FAMILY IN THE FORMATION OF MINORS AND YOUNG PEOPLE

***Ismailova Gunel***

## SUMMARY

The article is based on the important role of the family in the development of minors and youth. Although many factors influence the formation of the personality of teenagers and young people, the role of the family is undeniable and is the core of this process. The article talks about family models and types, intra-family relations, and correct methods of raising a child.

# İDARƏETMƏ PROSESİNDƏ İNFORMASİYA SİSTEMİNİN ROLU

***Mürşüdov Sarif Vaqif oğlu***
***BDU-nun II kurs magistrantı***
***murshudovsariff13@gmail.com***

***Açar sözlər:*** Texniki təminat, interfeys, proqram təminatı, axtarış blokları, qeyri-mərkəzləşdirilmiş sistemlər, texniki infrastruktur, kompleks informasiya sistemləri, kommunikasiya şəbəkəsi.
***Ключевые слова:*** Интерфейс, программное обеспечение, блоки поиска, децентрализованные системы, техническая инфраструктура, сложные информационные системы, сеть связи.
***Keywords:*** Technical support, interface, software, search blocks, decentralized systems, technical infrastructure, complex information systems, communication network.

İnformasiya sistemi idarəetmə proseslərini təmin edən, informasiyanın dövriyyəsini və təqdimini həyata keçirən sistemdir. Bu sistem informasiyanın verilməsi, dövriyyəsinin təmin edilməsi, texniki təminatı, aktuallaşdırılması və proqram təminatı kimi elementləri özündə saxlayır. Struktur baxımından sadə və mürəkkəb formalarda olabilən informasiya sistemlərinə avtomatlaşdırılmış proseslərlə işləyən mürəkkəb sistemlər də daxildir. Müəssisələrdə informasiyanın saxlanması və ötürülməsi kimi proseslər insan əli vasitəsilə həyata keçirilə bilər, lakin mürəkkəb sistemlərdə bu proseslər avtomatlaşdırılmışdır. Müəssisələrin effektivliyini artırmaq üçün informasiya bazası zəruridir və bunun üçün informasiya massivləri təşkil edilir.

İnformasiyanın verilməsi informasiyanın istifadəçilərə, sistemdə iştirak edənlərə və ya digər sistemlərə təqdim edilmə prosesini ifadə edir. Bu proses, informasiyanın müəyyən formatda hazırlanması, təyin edilmiş təhlükəsizlik standartlarına uyğun şəkildə ötürülməsi və istifadəçilərə çatdırılması ilə həyata keçirilir. Bu, məlumatların elektron yollarla, məsələn, e-poçt, fayl paylaşım sistemləri və ya web interfeysləri ilə təqdim olunması ilə də ola-bilir. İnformasiya dövriyyəsinin təmin edilməsi informasiyanın istifadəçilər və sistem komponentləri arasında düzgün və səmərəli şəkildə hərəkət etməsinin təmin edilməsi prosesini ifadə edir. Bu, informasiyanın mənsub olduğu bölmələr və sistemlər arasında təhlükəsiz və effektiv şəkildə ötürülməsi, saxlanılması və yenilənməsi deməkdir. Bu prosesə məlumatların güvənli şəkildə hərəkət etməsini təmin etmək üçün təhlükəsizlik tədbirləri daxilində şifrələnmə və monitorinq də daxildir. Sistemin texniki təminatı informasiya sistemində istifadə olunan texniki alətlərin, infrastrukturun və digər texniki resursların təmin edilməsi və idarə olunması prosesini ifadə edir. Bu, informasiya işləmək üçün lazım olan hardware (cihaz təminatı) və software (proqram təminatı) ilə bağlıdır[1, səh. 28]. Sistemin texniki təminatı, serverlər, kompüterlər, şəbəkə alətləri, kommunikasiya sistemləri, proqramlar və digər texniki vasitələrin quraşdırılması, konfiqurasiyası, təhlükəsizliyi və dəstəkləməsi ilə bağlı işləri əhatə edir. İnformasiyanın aktuallaşdırılması sistemdə saxlanılan məlumatların yenilənməsi, dəyişdirilməsi və güncəllənməsi prosesini ifadə edir. Bu proses, informasiyanın müəyyən bir müddət aralığında təkrar dəyərləndirilməsini, yenilənməsini və yenilənmələrə uyğun olaraq təkmilləşdirilməsini təmin edir. Aktuallaşdırma, yeni məlumatların əlavə olunması, köhnə məlumatların silinməsi, dəyişdirilməsi və ya düzəliş edilməsi ilə bağlı prosesləri daxil edir. Bu, informasiya bazasının daimi olaraq yenilənməsini və istifadəçilərə ən son və güncəl məlumatların təqdim edilməsini təmin edir. İnformasiyanın proqram təminatı informasiya sisteminin effektiv şəkildə idarə olunmasını təmin etmək üçün istifadə olunan proqram və tətbiqləri ifadə edir. Bu, məlumatların yığılması, saxlanılması, emal edilməsi, ötürülməsi və analiz edilməsi üçün lazım olan proqramlar və tətbiqləri əhatə edir. Proqram

təminatı, müxtəlif funksiyaları yerinə yetirən məlumat bazaları, məlumat emal etmə proqramları, iş flow təminatı, şəbəkə əlaqəsi və digər texniki alətləri daxil edir. Bu təminat, informasiya sistemində məlumatın effektiv şəkildə idarə olunmasını və istifadəçilərə məlumatın sürətli və dəqiq şəkildə çatdırılmasını təmin edir.

İnformasiya sistemləri sadə və mürəkkəb formalarda olur. Sadə informasiya sistemləri, məsələn, məlumatların əlavə olunması, saxlanılması və ötürülməsi kimi əsas funksiyaları həyata keçirən sadə proqramlar və prosedurlardan ibarətdir [3, səh. 58]. Mürəkkəb informasiya sistemləri isə müxtəlif bölmələri və funksiyaları əhatə edən, geniş və təkmilləşdirilmiş proqramlar, texniki infrastruktur və tətbiqləri daxil edir. Bu mürəkkəb sistemlər, məsələn, müəssisələrin maliyyə, idarəetmə, məhsul planlaşdırması, insan resursları və s. kimi bölmələri üçün təminat təşkil edir və informasiya dövriyyəsini avtomatlaşdırır. Hər iki formada informasiya sistemlərinin funksional və operativ olaraq istifadəyə uyğun olaraq qurulmasını təmin edir.

Dəyişikliklərin qeyd edilə biləcəyi, hər bir departmentin işləri haqqında ətraflı məlumatları qoruyan bir informasiya bazasına sahib olmaq, menecmentin təşkil edilməsi və tətbiqi proseslərinin həyata keçirilməsi üçün əsasən vacibdir. Bu bazada, təhlükəsizlikdən maliyyəyə qədər müxtəlif sahələrə aid məlumatlar yer alır. Bu məlumatlar müəssisənin və təşkilatın effektivliyini artırmaq, qərarların düzgün verilməsini təmin etmək və həyata keçirilən proseslərin nəzarətini mümkün qədər yüksək səviyyədə saxlamaq üçün istifadə olunur. Bu informasiya bazası müəssisənin əsas sənədləri, iş prosedurları, məlumat analizi, performans metrikaları və digər kritik məlumatları əhatə edir. Menecer bu bazaya əsaslanaraq qərarlarını daha məlumatlı şəkildə verə bilər və proseslərin daha effektiv şəkildə idarə olunmasını təmin edə bilər. Başlanğıc informasiya massivləri menecmentin təşkil edilməsi və tətbiqi proseslərinin həyata keçirilməsi üçün əsas məlumat mənbəyi olaraq xidmət edir. Bu massivlər, müxtəlif formada hazırlanır və müəssisənin tələblərinə uyğun şəkildə təmin edilir. Cari massivlər müəssisənin günlük fəaliyyətlərini və dəyişikliklərini əhatə edir. Normativ massivlər müəssisənin tətbiqi prosedurlarını, standartlarını və qaydalarını təsvir edir. Axtarış blokları informasiya bazasında məlumatların axtarılması və toplanması üçün qurulan xüsusi bloklardır. Bu informasiya massivləri, müəssisənin effektivliyini artırmaq üçün kritikdir və menecerin qərarlarını daha məlumatlı şəkildə verə bilər. Bu məlumat əsasında informasiya sistemlərini təsnif etmək üçün bir neçə kriteriya var [5, səh. 39]:

1.Əhatə dairəsinə görə: Lokal informasiya sistemləri məlumatları müxtəlif məsələlər və idarəetmə funksiyaları üçün, əsasən yerli tətbiqlər üçün istifadə edir. Kompleks informasiya sistemləri isə bütün məlumatları idarəetmə prosesində zəruri görür.

2.İdarəetmə səviyyəsinə görə: Mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş sistemlərə əsasən informasiyanın alınma və təqdim edilməsinin səviyyəsini qiymətləndirirlər.

3.Emalının avtomatlaşdırılması və mexanikləşdirilməsi dərəcəsi: Bu kriter informasiya işləmə prosesində avtomatlaşdırma və ya mexanikləşdirilmə dərəcəsinə əsaslanır. Avtomatlaşdırılmış sistemlər, mexanikləşdirilmiş və əl ilə işləyən sistemlərdən fərqlənir.

4.Təyinatına görə: Texniki informasiya sistemləri və istehsalat informasiya sistemləri olmaqla iki əsas kateqoriyaya bölünür.

5.Sistemin mürəkkəbliyinə görə: Sadə və mürəkkəb informasiya sistemləri olaraq təsnif olunurlar, mürəkkəb sistemlər daha çox funksiya və məlumat emal edir.

İnformasiya sisteminin dəqiq icrası və bütün halqalardakı dəyişməz informasiyanın miqdarı iki əsas parametrdən ibarətdir. İnformasiya sisteminin dəqiq icrası, sistemdə yerləşən məlumatların düzgün və səmərəli bir şəkildə emal olunması və təqdim edilməsi ilə bağlıdır. Buna məsələn, işlədilən alqoritmlər, məlumatların saxlanması və qaytarılması prosesi, və ya informasiyanın təhlili və raporlaşdırılması daxildir. Bütün halqalardakı dəyişməz informasiyanın miqdarı isə sistemdə saxlanan, lakin dinamik olmayan məlumatların miqdarını ifadə edir. Bu, əsasən mövzu ilə əlaqəli daimi məlumatlar, standartlar, və ya idarəetmə prosesləri-

nə dair qaydalar və tənzimləmələr kimi məlumatları əhatə edir. Bu məlumatlar informasiya sisteminin işləməsində istifadə olunur, lakin əsasında dəyişməzdir və sistemdə daimi yenilənmir.

İşlədikləri məlumatların sahələrinə və məqsədlərinə görə informasiya sistemləri lokal və kompleks olmaqla iki əsas kateqoriyaya bölünür [7, səh. 43].

1.Lokal informasiya sistemləri: Bu sistemlər müxtəlif məsələlər və ya idarəetmə funksiyaları üçün məlumatların yerli tətbiqləri üçün istifadə edilir. Öz əhatə dairələrində olan məlumatlar üzərində işləyirlər. Bir şirkətin maliyyə hesabatları sistemi və ya bir müəssisənin insan resursları tənzimləmə sistemi, lokal informasiya sistemlərinin nümunələri olaraq göstərilə bilər.

2.Kompleks informasiya sistemləri: Bu sistemdə idarəetmə prosesində bütün məlumatların olması zəruridir. Kompleks informasiya sistemləri, organizasiyanın bütün fəaliyyət sahələrini əhatə edir və geniş bir əhatə dairəsinə sahibdir. Bu sistemlər, bir şirkətin bütün iş proseslərini, müştəri məlumatlarını, satış və marketinq operasiyalarını idarə etmək üçün istifadə oluna bilər. Misallar arasında Müştəri Əlaqələri İdarəetmə (CRM) sistemləri və İş Prosesləri Avtomatlaşdırma (BPM) sistemləri göstərilə bilər [7, səh. 56].

İdarəetmə səviyyəsinə görə informasiyanın təsnifatı informasiya sistemlərinin məlumatın alınması və idarə edilməsi dərəcəsinə əsasən aparılır. Bu təsnifat mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş sistemlərə bölünür:

1.Mərkəzləşdirilmiş sistemlər: Bu sistemlər məlumatların təkcə mərkəzi bir məkanda toplanması və idarə olunması ilə fərqlənir. Məlumatlar bir mərkəzi serverdə saxlanılır və bütün proseslər və departamentlər bu mərkəzi serverə qoşularaq məlumatlara giriş edirlər. Mərkəzləşdirilmiş sistemlər geniş şirkətlərdə və ya böyük təşkilatların məlumat idarə etmələri üçün geniş istifadə olunur.

2.Qeyri-mərkəzləşdirilmiş sistemlər: Bu sistemlər isə məlumatların fərqli mərkəzlər və departamentlər tərəfindən saxlanılması və idarə edilməsi ilə fərqlənir. Hər bir departament öz məlumat bazasına malikdir və öz proseslərini qeyri-mərkəzi bir şəkildə idarə edir. Bu sistemlər adətən daha kiçik və ya orta ölçülü şirkətlərdə və ya bölmələrdə istifadə olunur. Bu təsnifat, məlumatların təyin edilmiş idarəetmə strukturları və səviyyələri vasitəsilə necə idarə olunduğuna əsaslanır. Mərkəzləşdirilmiş sistemlər daha birləşmiş və qlobal bir tənzimləməyə malikdir, əksəriyyəti bir şirkətin əsas iş proseslərini əhatə edir. Qeyri-mərkəzləşdirilmiş sistemlər isə daha spesifik və bölmələr arasında məlumat bölüşümünə daha çox imkan verir.

İnformasiya emalının avtomatlaşdırılması və mexanikləşdirilməsi dərəcəsi, informasiya sistemlərində məlumatların emalının dərəcəsini təyin edir. Bu iki konsept informasiya proseslərinin avtomatik olaraq icra edilməsi və ya əl ilə insan tərəfindən icra edilməsi arasındakı fərqi ifadə edir [8, səh. 19].

1.Avtomatlaşdırılmış sistemlər: Bu sistemlər məlumatların emalının çoxluğunu və ya tamamını avtomatik olaraq icra edir. Bu, informasiya işləmə proseslərinin avtomatik alqoritmlər və proqramlar vasitəsilə icra edilməsi ilə mümkündür. Məsələn, bir işəgötürmə mərkəzinin avtomatik CV filtrləmə sistemi, gəlir və xərclərin avtomatik hesablanması üçün istifadə olunan maliyyə proqramı, və ya bir istehsalat sahəsində avtomatik istehsalat monitorinq sistemi, avtomatlaşdırılmış informasiya sistemlərinin nümunələri ola bilər.

2.Mexanikləşdirilmiş sistemlər: Bu sistemlər isə məlumatların əsasən əl ilə insan tərəfindən emal edildiyi və ya icra edildiyi sistemlərdir. Bu sistemlər, informasiya işləmə proseslərinin insan tərəfindən idarə olunduğu və avtomatlaşdırılmadığı proseslər üçün istifadə oluna bilər. Məsələn, bir maliyyə şirkətinin məlumat analitiki komandası, əl ilə hesabatların yoxlanması və maliyyə analizi üçün məlumatlarını manuallaşdırma prosesində istifadə edilə bilər. Bu dərəcələndirmə, informasiya sistemlərinin effektivliyini və təşkilatların məlumat işləmə proseslərini necə idarə etdiklərini göstərir.

## ƏDƏBİYYAT

1. S.Q.Kərimov,Y.B.Sərdarov "Kompüter elminin nəzəri əsasları" Bakı, 2009.
2. S.Q. Kərimov "İdarəetmənin informasiya texnologiyaları və korporativ informasiya sistemləri". Bakı, 2010, 426 s.
3. T.Q. Əliyev "İnformasiyanın iqtisadiyyatı". Bakı, 2008, 220 s.
4. Ə. Ələkbərov, M. Vəliyev, S. Pürhani "Menecment". Bakı, 2013, 600 s.
5. S.Q. Kərimov "İnformasiya sistemləri". Bakı, 2008, 676 s.
6. Ə.M.Abbasov, V.Ə.Qasımov, R.H.Quliyev "İntellektual informasiya istemlərində qərar qəbuletmə üsulları". Bakı, 2003, 254 s.
7. V.Ə. Qasımov "İnformasiyanın qorunmasının müasir texnologiyaları". Bakı, 2011, 110 s.
8. Saak A.E., Paxomov Y.V., Tuşnyakov V.N. – Спб: Piter, 2013. – səh. 320.
9. И.Б. Гурков "Стратегический менеджмент организации." М.,2004
10. В.Н. Кузнецов, И.Н. Громова "Информационный менеджмент: учебное пособие." – Тверь: ТГТУ, 2004.

## İDARƏETMƏ PROSESİNDƏ İNFORMASİYA SİSTEMİNİN ROLU

***Mürşüdov Sarif***

## XÜLASƏ

Bu məqalədə informasiya sisteminin idarəetmə prosesində əhəmiyyəti öyrənilir. Bu sistemlər, məlumatların toplanması, işlənməsi, saxlanılması və paylaşılmasını təmin edir. İdarəçilərə işlərin nə qədər effektiv həyata keçirildiyini müşahidə etmək, məlumatlara əsaslanaraq qərarlar almaq və strateji planlar hazırlamaq imkanı verir. Həmçinin, informasiya sistemləri, məlumatların təhlükəsizliyini təmin edir və əməkdaşlar arasında əlaqələrin inkişafını dəstəkləyir. Bu bütün proseslərə kömək edərək müəssisənin səmərəliliyini və rəqabət gücünü artırır. Bu əhəmiyyəti aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Effektivliyi artırır: İnformasiya sistemləri, məlumatların toplanması, işlənməsi və paylaşılması proseslərini avtomatlaşdırır və sürətli bir şəkildə məlumatlara çatmağı təmin edir. Bu da iş proseslərinin daha effektiv şəkildə idarə olunmasına imkan verir.

2.Strateji qərarların verilmədə yardımçı olur: İdarəçilər informasiya sistemləri vasitəsilə ən son məlumatlara çataraq strateji qərarlar ala bilərlər. Məlumat analitikası və raporlar, idarəçilərə müəssisənin mövqeyini qiymətləndirmək və optimal strateji planlarını hazırlamaq imkanı verir.

3.Məlumatların qorunması və təhlükəsizliyi təmin edir: İnformasiya sistemləri məlumatların saxlanılması və qorunması üçün təhlükəsizlik tədbirləri təmin edir. Bu, müəssisənin rəqabət gücünü və səmərəliliyini artırır və mövcud məlumatların müdafiəsini təmin edir.

4. Əlaqələrin və təşkilat daxili əməkdaşlığın inkişafını təmin edir: İnformasiya sistemləri, əməkdaşlar arasında məlumatların asanlıqla paylaşılmasını və işbirliyinin artırılmasını təmin edir. Bu da əməkdaşlar arasında əlaqələrin qurulmasını və iş proseslərinin daha səmərəli şəkildə icrasını təmin edir. Bu əhəmiyyətlər göstərir ki, informasiya sistemləri müəssisələrin effektivliyini artırmaq, strateji qərarlar almaq, məlumatların qorunması və işbirliyini təmin etmək üçün əsas rol oynayır.

## РОЛЬ ИНФОРМАЦИОННОЙ СИСТЕМЫ В ПРОЦЕССЕ УПРАВЛЕНИЯ

***Муршудов Сариф***

## АННОТАЦИЯ

В данной статье исследуется значение информационной системы в процессе управления. Эти системы обеспечивают сбор, обработку, хранение и обмен данными. Это позволяет руководителям наблюдать за тем, насколько эффективно выполняются задачи, принимать решения на основе данных и разрабатывать стратегические планы. Также инфор-

мационные системы обеспечивают безопасность информации и поддерживают развитие отношений между сотрудниками. Это повышает эффективность и конкурентоспособность предприятия, помогая всем процессам. Это значение можно сгруппировать следующим образом:

1.Повышает эффективность: информационные системы автоматизируют процессы сбора, обработки и обмена информацией и обеспечивают быстрый доступ к информации. Это также позволяет более эффективно управлять бизнес-процессами.

2.Он помогает в принятии стратегических решений: руководители могут принимать стратегические решения, получая доступ к последней информации через свои информационные системы. Аналитика данных и отчеты дают руководителям возможность оценить позицию предприятия и разработать оптимальные стратегические планы.

3.Обеспечивает защиту и безопасность данных: Информационные системы обеспечивают меры безопасности для хранения и защиты данных. Это повышает конкурентоспособность и эффективность деятельности предприятия и обеспечивает защиту имеющихся данных.

4. Обеспечивает развитие взаимоотношений и внутреннего сотрудничества организации: Информационные системы обеспечивают легкий обмен информацией между сотрудниками и расширение сотрудничества. Это также обеспечивает установление связей между сотрудниками и более эффективное выполнение бизнес-процессов. Эти значения показывают, что информационные системы играют ключевую роль в повышении эффективности предприятий, принятии стратегических решений, защите данных и обеспечении сотрудничества.

## THE ROLE OF THE INFORMATION SYSTEM IN THE MANAGEMENT PROCESS

***Murshudov Sarif***

**SUMMARY**

This article studies the importance of the information system in the management process. These systems provide data collection, processing, storage and sharing. It allows managers to observe how effectively the work is carried out, make decisions based on information and develop strategic plans. Also, information systems ensure the security of information and support the development of relations between employees. This increases the efficiency and competitiveness of the enterprise by helping all processes. This importance can be grouped as follows:

1.Increases efficiency: information systems automate the processes of collecting, processing and sharing information and provide quick access to information. This also allows business processes to be managed more effectively.

2.Assists in strategic decision - making: managers can make strategic decisions by accessing the latest information through information systems. Data analytics and reports provide managers with the opportunity to assess the position of the enterprise and develop its optimal strategic plans.

3.Provides data protection and security: information systems provide security measures for storing and protecting information. This increases the competitiveness and efficiency of the enterprise and ensures the protection of available information.

4. Ensures the development of relations and internal cooperation of the organization: Information Systems ensure easy sharing of information and increased cooperation between employees. This ensures the establishment of relations between employees and the more efficient execution of work processes. These importance shows that information systems play a key role in increasing the effectiveness of enterprises, making strategic decisions, protecting information and ensuring cooperation.

# NATAMAM AİLƏNİN ŞƏXSİYYƏTİN FORMALAŞMASINA TƏSİRİ

**_Rüstəzadə Vüsalə Vaqif qızı_**
**_BDU-nun II kurs magistrantı_**
**_vslrustemzade98@gmail.com_**

## ВЛИЯНИЕ ПАНДЕМИИ COVID-19 НА СОЦИАЛЬНЫЕ ОТНОШЕНИЯ

***Рзаева Хадиджа***

### АННОТАЦИЯ

Пандемия COVID-19 оказала значительное влияние на социальные отношения во всем мире. Во-первых, карантинные меры и правила физического дистанцирования изменили способы взаимодействия людей друг с другом. Для многих людей традиционные личные встречи стали виртуальными. Это привело к развитию новых форм общения в работе, учебе и личных отношениях.

Во-вторых, усиление чувства социальной изоляции и изоляции во время пандемии создало серьезные проблемы для психологического здоровья. Среди людей наблюда-

лось увеличение чувства одиночества, стресса и заботы. Эта ситуация также привела к увеличению спроса на услуги в области психического здоровья.

В-третьих, пандемия вызвала больше внимания и заботы во взаимоотношениях людей друг с другом. Он предоставил помощь и меры поддержки многим людям, особенно пожилым людям и людям с высоким риском заболеваний. Это способствовало укреплению в обществе чувств сотрудничества и взаимопомощи.

В-четвертых, во время пандемии изменилась форма обмена информацией и идеями между людьми. Социальные сети и другие онлайн-платформы сыграли еще более важную роль в качестве основного источника информации. Данная ситуация также способствовала распространению дезинформации и дезинформации.

## IMPACT OF THE COVID-19 PANDEMIC ON SOCIAL RELATIONS

***Rzayeva Khadija***

## SUMMARY

The COVID-19 pandemic has had a significant impact on social relations around the world. First, quarantine measures and physical distancing rules changed the way people interacted with each other. For many people, traditional face-to-face meetings have become virtual meetings. This led to the development of new forms of communication in work, education and personal relationships.

Second, increased feelings of social isolation and isolation during the pandemic created serious problems for psychological health. An increase in feelings of loneliness, stress and care was observed among people. This situation has also led to an increase in demand for mental health services.

Third, the pandemic has caused more attention and care in people's relationships with each other. It provided assistance and support measures for many people, especially the elderly and those at high risk of illness. This helped to strengthen the feelings of cooperation and mutual assistance in the society.

Fourthly, during the pandemic, the form of exchange of information and ideas between people has changed. Social media and other online platforms have played an even more important role as a primary source of information. This situation also facilitated the spread of disinformation and misinformation.

# AZƏRBAYCANDA SOSİAL DÖVLƏT KİMİ MÜASİR XİDMƏTLƏRİN TƏŞKİLİ

***Məsmalıyev Əlixan Fəxrəddin oğlu***
***BDU-nun II kurs magistrantı***
***alixan_mesmaliyev@mail.ru***

***Açar sözlər:*** Sosial Dövlət, ’’DOST’’ agentliyi, Müasir sosial xidmət, Əhalinin rifahı, Dövlət siyasəti
***Ключевые слова*:** Социальное государство, Агентство “DOST", Современная социальная служба, Благосостояние населения, Государственная политика
**Keywords*:*** Social State, "DOST" agency, Modern social service, Welfare of the population, State policy

Sosial dövlət ideyası 19-cu əsrdə yaranmış, lakin XX əsrin birinci yarısında qanuni əsaslarını tapmış, həm 20-ci əsrin sonu, həm də 21-ci əsrin əvvəllərində həyata keçirilməyə başlamışdır. Sosial dövlət nədir bəs? **Sosial dövlət** — vətəndaşların rifahını başlıca vəzifə qəbul edən dövlət anlayışı olub, onların iqtisadi və sosial əmin-amanlıqlarının qorunması və irəli çəkilməsində dövlətin əsas rol oynamasını təklif edir. Bu sistem sosial ədalət təmin olunmuş, maddi sərvətlər, nemətlər, istehsal resursları qanun daxilində hamıya əlçatan olan və hər bir vətəndaşın layiqli həyat şəraiti əldə etməsinə təminat verən hüquqi, demokratik, müasir ictimai-siyasi quruluşdur. Sosial dövlət üçün inkişaf strategiyası balanslaşdırılmış şəxsi və cəmiyyətin inkişafına yönəlmişdir. Sosial dövlət vətəndaş cəmiyyətinin inkişafına yönəlib və burada sosial bərabərsizlik - etnik, mədəni, dini, cinsi, siyasi və ya digər ayrı-seçkilik yoxdur və vətəndaşlar cəmiyyətin sosial, siyasi, iqtisadi, mədəni sahələrində bərabər şəkildə iştirak edirlər.

Ümumilikdə sosial bir dövlətin iki növ siyasi və sosial yanaşması ola bilər:

Bu modelə görə dövlət vətəndaşların firavan həyat şəraitinin yaradılmasında əsas məsuliyyət daşıyan qurumdur. Bu modeldə dövlətin vəzifəsi daha geniş əhatəli olur, çünki bir vətəndaşın rifahının hər bir yönü üçün məsuliyyət dövlətin üzərinə düşür və bu məsuliyyət heç bir fərq qoyulmadan ölkənin bütün vətəndaşları üçün ümumilik daşıyır.

İkinci növ yanaşmada isə bir sosial dövlət vətəndaşlarının həyat səviyyələrinin əvvəlcədən müəyyən olunmuş minimum standartların altına enməməsi üçün bir “sosial təhlükəsizliyi təmin etmə şəbəkəsi” yaradılması nəzərdə tutulur.

**Ölkəmizdə həyata keçirilən siyasət ilk növbədə vətəndaşın rifahının yaxşılaşdırılmasına yönəlib. Müxtəlif resurslardan əldə edilən gəlirlər ilk növbədə əhalinin sosial xərclərinə yönəldilir. Bu da** Azərbaycanın sosial dövlət olmasını göstərir. Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq sosial siyasət Azərbaycan dövlətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirilib. Ölkədə aparılan məqsədyönlü siyasətin mərkəzində vətəndaşların maraqları dayanır. Azərbaycanda sosial sahədə elektron texnologiyaların geniş tətbiqi bu sahədə maksimum şəffaflığı təmin etməyə imkan verir. Ölkəmiz bu sistemi daim yeniləyir və təkmilləşdirir. Bu amil özü də beynəlxalq qurumlar tərəfindən yüksək dəyərləndirilir. Ötən il Beynəlxalq Sosial Təminat Assosiasiyası tərəfindən 20 ölkədən 76 sosial layihənin iştirak etdiyi müsabiqənin nəticəsinə əsasən, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin ünvanlı dövlət sosial yardımı üzrə elektron sisteminin xüsusi mükafata layiq görülməsi də məhz bu sahədə şəffaf, elektron sistemin qurulmasının nəticəsi idi.

Azərbaycanın sosial siyasətini fərqləndirən daha bir cəhətə diqqət yetirək. Biz ayrı-ayrı ölkələrin timsalında əhalinin bir sıra hallarda iqtisadi islahatlardan əziyyət çəkdiyinin şahidi oluruq. Azərbaycanın tətbiq etdiyi model isə ölkə vətəndaşlarını, ələlxüsus da həssas qruplardan olan aşağı gəlirli insanları iqtisadi islahatlar nəticəsində baş verən də-

yişikliklərin mənfi təsirlərindən qoruyur. Bunu diqqətə çatdıran Prezident İlham Əliyev vurğulayıb: "İqtisadi və sosial sahə həmişə paralel getməlidir. O ölkələrdə ki, ancaq iqtisadi sahəyə diqqət verilir və sosial sahə kənarda qalır, orada insanlar iqtisadi islahatlardan çox böyük əziyyət çəkirlər. Bizim isə məqsədimiz ölkəni gücləndirmək və hər bir vətəndaşın həyatını daha da yaxşı etməkdir" (3).

"QÜDRƏTLİ DÖVLƏT VƏ YÜKSƏK RİFAH CƏMİYYƏTİ" (2) Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Ölkənin bütün təbəqələri cəmiyyətin ayrılmaz hissəsidir və dövlət onların qayğısına qalmalıdır. Ölkədə yoxsulluq səviyyəsinin minimuma endirilməsi və aşağı işsizlik səviyyəsi, eləcə də yoxsul təbəqənin ehtiyaclarının qarşılanmasına yönələn ünvanlı yardımların əhatə dairəsinin genişləndirilməsi vətəndaşların sosial müdafiəsinə əlavə imkanlar yaradır.

Sosial təminat sisteminin daha effektiv və ədalətli olması hesabına aşağıgəlirli və yoxsulluğa həssas təbəqənin, əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların sosial müdafiəsi və sosial təminatı gücləndirilməlidir. Bu məqsədlə ölkədə pensiya, müavinət, təqaüd və digər sosial ödənişlərin minimum məbləğlərinin layiqli səviyyəsinə nail olunmalıdır. Pensiya təminatı sisteminin uzunmüddətli inkişafı üçün onun maliyyə dayanıqlığı gücləndirilməli, pensiya məbləğinin ödənilən sığorta haqqına mütənasibliyi artırılmalıdır.

Əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar üçün tələb olunan sosial reabilitasiya infrastrukturu əlçatan olmalı, bu şəxslərin məşğulluğuna dəstək proqramları genişləndirilməli, sosial təminatı gücləndirilməlidir. Sosial cəhətdən həssas əhali qruplarının maraq və mənafelərinə cavab verən, onlara bərabər iştirak imkanları yaradan sosial xidmətlər sistemi təmin olunmalıdır.

Prezident İlham Əliyev əhalinin bütün təbəqələrinə əlçatarlığı təmin etmək üçün bir çox dövlət proqramları qəbul etmişdir. DOST agentliyi həmin proqramların ən müasir yolla xidmətlərin göstərilməsi üçün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 229 nömrəli 9 avqust 2018-ci il tarixli Fərmanı ilə yaradılıb. DOST Agentliyinin missiyası əhalinin rifah halının yaxşılaşdırılması, həssas qruplara dövlət qayğısının artırılması və vətəndaş məmnunluğunun təmin edilməsidir. DOST Agentliyinin missiyası Azərbaycan Respublikası əhalisinin dövlət tərəfindən təklif edilən əmək, məşğulluq və sosial müdafiə xidmətlərinə Xidmət Mərkəzləri şəbəkəsi vasitəsilə müasir, operativ və elektron xidmətlərin tətbiqi ilə rahat çıxışını təmin etməkdir

DOST agentliyində göstərilən xidmətlərin kompleksliyi və müxtəlifliyi əhalinin ehtiyaclarının ödənilməsində birbaşa təsirə malikdir. Burada ən müasir sosial xidmətlər göstərilir. Texnologiya və biliklərə əlçatanlığın təmin edilməsi, həmçinin həssas qrupların hüquqlarının təbliğ edilməsi yolu ilə davamlı inkişafa nail olmaq üçün Agentlik BƏT, BMT-nin Əhali Fondu, BMT-nin İnkişaf Proqramı, Beynəlxalq Sosial Təhlükəsizlik Assosasiyası və Avropa Sosial Şəbəkəsi kimi beynəlxalq institutlarla əməkdaşlıq edir. "DOST" mərkəzlərində aşağıdakı istiqamətlər üzrə xidmətlər göstərilir:

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətlərinə dair arayışlar verilməsi

- Əmək münasibətləri
- Əlillik
- Məşğulluq
- Əmək pensiyası və sosial müavinətlər
- Ünvanlı dövlət sosial yardımı
- Azərbaycan Respublikası Prezidentinin təqaüdləri
- Sosial sığorta
- Dövlət icbari şəxsi sığorta ödənişləri
- Sosial xidmət
- Övladlığagötürmə
- Funksional yardımçı xidmətlər

Agentlik həm özündə müasirliyi, həm də beynəlxalq standartları birləşdirir. İnnovasiyaların tətbiqini təmin etməklə "bir pəncərə", operativ sosial sahədə xidmətlərin həyata keçirilməsi, struktur bölmələr arasında koordinasiyanın düzgün təşkil edilməsi fəaliyyətini həyata keçirən Agentlik İSO 26000:2010 Sosial Məsuliyyət standartının tətbiq edilməsini bəyan edərək aşağıdakı prinsipləri əsas tutur: Şəffaflıq;Hesabatlılıq;Etik davranış;Maraqlı tərəflərin maraqlarına hörmət;Maraqların toqquşmasının qarşısının alınması; Qanunun aliliyinə hörmət;Beynəlxalq davranış normalarına hörmət;İnsan hüquqlarına hörmət;Regionların xüsusiyyətlərinə hörmət;Korporativ idarəetmə sisteminin təkmilləşdirilməsi;

**"Azərbaycan sosial dövlətdir və bizim atdığımız bütün addımlar bunu təsdiqləyir" (6).**

Azərbaycan sosial dövlətdir. 2013-cü ildə Prezident İlham Əliyev bunu rəsmi olaraq elan edib. Azərbaycan dövlətinin sosial siyasəti daim Azərbaycan vətəndaşının müdafiəsinə, sosial rifahının yüksəlməsinə yönəlib. Heç də təsadüfi deyil ki, ölkə başçısı bütün çıxışlarında''Bizim siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır''(6) deyir. Bunu Prezident İlham Əliyev etdiyi bütün gördüyü işlərdə çox aydın şəkildə göstərir.

## ƏDƏBİYYAT


**1.** https://www.researchgate.net/publication/336579967_SOSIAL_DOVLT_MODELLRI_bzi_inkisaf_etmis_olklrin_numunsind
**2.** https://president.az/az/articles/view/50474
**3.** https://az.wikipedia.org/wiki/Sosial_d%C3%B6vl%C9
**4.** %99thttps://www.yeniazerbaycan.com/Iqtisadiyyat_e79360_az.html
**5.** https://dost.gov.az/page/sosial-mesuliyyet-haqqinda-siyaset
**6.** https://president.az/az


# AZƏRBAYCANDA SOSİAL DÖVLƏT KİMİ MÜASİR XİDMƏTLƏRİN TƏŞKİLİ

*Məsmalıyev Əlixan*

## XÜLASƏ

Məqalə sosial dövlət nədir, necə təşkil olunmalı haqq;nda məlumat verir. Azərbaycanda olan sosial dövlət modeli haqqında qısa məlumat, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sosial siyaəsti, siyasətin nəticəsi və vətəndaş yönümlü planlarından danışılır. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı hansı beş Milli Prioritet

reallaşdırılmalıdır "DOST" agentliyi yaranma tarixi, yaradılmasındakı məqsəd, gördüyü işlər barəsində də məlumat verir

## ОРГАНИЗАЦИЯ СОВРЕМЕННЫХ УСЛУГ КАК СОЦИАЛЬНОЕ ГОСУДАРСТВО В АЗЕРБАЙДЖАНЕ

***Масмалиев Алихан***

**АННОТАЦИЯ**

В статье представлена информация о том, что такое социальное государство и как оно должно быть организовано. Обсуждаются краткие сведения о модели социального государства в Азербайджане, социальной политике Президента Азербайджанской Республики господина Ильхама Алиева, результатах этой политики и планах, ориентированных на граждан. Согласно указу Президента Азербайджанской Республики от 2 февраля 2021 года, какой из следующих пяти Национальных приоритетов социально-экономического развития страны должен быть реализован в ближайшее десятилетие.

## ORGANIZATION OF MODERN SERVICES AS A SOCIAL STATE IN AZERBAIJAN

***Masmaliyev Alikhan***

**SUMMARY**

The article provides information about what a social state is and how it should be organized. Brief information about the social state model in Azerbaijan, the social policy of the President of the Republic of Azerbaijan Mr. Ilham Aliyev, the results of the policy and citizen-oriented plans are discussed. According to the decree of the President of the Republic of Azerbaijan dated February 2, 2021, which of the following five National Priorities regarding the socio-economic development of the country should be realized in the next decade

# SOSİAL XİDMƏTLƏRİN GÖSTƏRİLMƏSİNDƏ KOMPLEKS YANAŞMALAR

***Mehdiyeva Aytən Baloğlan qızı***
***BDU-nun II kurs magistrantı***
***mehdiyevaayten37@gmail.com***

***Açar sözlər:*** sosial xidmət, sosial xidmətin növləri, sosial xidmət müəssisələri, sosial işçi, kompleks yanaşma, tibbi-sosial xidmət, sosial-psixoloji xidmət
***Ключевые слова:*** социальное обслуживание, виды социального обслуживания, учреждения социального обслуживания, социальный работник, комплексный подход, медико-социальное обслуживание, социально-психологическая служба.
***Keywords:*** social service, types of social service, social service institutions, social worker, complex approach, medical-social service, social-psychological service

Sosial xidmət hər bir dövlətin və cəmiyyətin siyasətində, gündəlik həyatında aparıcı sahələrdən biridir. O, təkcə elm və tədqiqat sahəsi deyil, həm də sosial həyatın və siyasətin tərkib hissəsidir. Bu gün hər bir ölkədə sosial xidmətlərə geniş diqqət yetirilir və inkişaf etdirilir. Bu sahə dünyada həmişə mühüm əhəmiyyət kəsb etsə də, sosial xidmət və sosial siyasət ötən əsrin ortalarında daha geniş vüsət almağa başlayıb. Başda Avropa ölkələri olmaqla İkinci Dünya müharibəsini görən bəşəriyyətin mütərəqqi xalqları 1940-cı illərdən başlayaraq sosial dövlət modelləri ilə bağlı siyasi müzakirələrə başladılar. Artıq 1960-cı illərdə bunun nəticələri Mərkəzi və Şimali Avropada görünməyə başlamış, sosial yönümlü "rifah dövləti" modeli sonralar bəzi Asiya və Amerika ölkələrinin diqqətini cəlb etmiş, uyğun modellər formalaşmışdır. Bundan əlavə, müvafiq qanunvericiliyin, beynəlxalq konvensiyaların və qərarların qəbulu üçün sosial xidmətin fəlsəfəsini düzgün başa düşmək və fərdlər və qruplarla səviyyələrdə işləmək də çox vacibdir. Avropa bu sahədə qabaqcıl olduğu üçün sosial xidmət modelləri də qabaqcıl Avropa ölkələrinin təcrübəsinə əsaslanır [1] .

Sosial xidmət dedikdə çətin həyat şəraitində yaşayan şəxsin (ailənin) sosial problemlərinin aradan qaldırılması və ictimai həyatda digər insanlarla bərabər iştirak imkanlarının yaradılması istiqamətində həyata keçirilən kompleks tədbirlər nəzərdə tutulur. Çətin həyat şəraiti - şəxsin (ailənin) sosial xidmətə götürülməsi üçün əsas yaradan və həyat fəaliyyətini obyektiv surətdə pozan, təkbaşına aradan qaldıra bilmədiyi haldır. Sosial xidmətin məqsədi vətəndaşların həyat səviyyəsini ağırlaşdıran, sosial-psixoloji vəziyyətini çətinləşdirən, cəmiyyətdən təcrid olunmasına gətirib çıxaran halların qarşısını almaqdan, çətin həyat şəraitinin əmələ gəldiyi hallarda ehtiyacı olan şəxslərə sosial xidmətin göstərilməsini təmin etməkdən ibarətdir. Sosial xidmət haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən və digər normativ hüquqi aktlardan ibarətdir. Bu Qanun sosial xidmətə ehtiyacı olan Azərbaycan Respublikası vətəndaşlarına, Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə şamil olunur. Sosial xidmət sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

5.0.1. insan hüquq və azadlıqlarına riayət olunması;

5.0.2. humanizm, könüllülük, məxfilik, tolerantlıq, ünvanlılıq, ədalətlilik və əlçatanlıq;

5.0.3. diskriminasiyaya və stiqmatizasiyaya yol verilməməsi;

5.0.4. çətin həyat şəraitində olan şəxslərin (ailələrin) sosial xidmətə götürülməsində bərabər imkanların təmin edilməsi;

5.0.5. sosial inteqrasiya və əhalinin yaşayış keyfiyyətinin yaxşılaşdırılması;

5.0.6. ictimai iştirakçılığın təmin olunması.

Sosial xidmət göstərilməsi üçün müraciət edilməsi. Çətin həyat şəraitində olan şəxs sosial xidmət göstərilməsi üçün yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanına ərizə və ərizəyə əlavə olunmaqla, bu Qanunun 7-ci maddəsində nəzərdə tutulmuş müvafiq əsası təsdiq edən digər sənədlərlə müraciət edir. Çətin həyat şəraitində olan ailəyə sosial xidmət göstərilməsi üçün ailənin yetkinlik yaşına çatmış üzvlərindən biri müraciət edə bilər. Sosial xidmət göstərilməsi üçün müraciət edilməsi ilə əlaqədar tələb olunan sənədlərin və ya məlumatlarin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar müraciət edəndən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciət edənin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciət edən tərəfindən təmin edilir.

Çətin həyat şəraitində olan şəxsin (ailənin) maraqları çərçivəsində şəxsin valideynləri, digər qanuni nümayəndəsi (qəyyumu, himayəçisi), bələdiyyələr, qeyri-hökumət təşkilatları, habelə həmin şəxsin razılığı ilə digər şəxslər sosial xidmət göstərilməsi üçün müvafiq icra hakimiyyəti orqanına müraciət edə bilər. Dövlət hakimiyyəti orqanları, bələdiyyələr çətin həyat şəraitində olan və sosial xidmətə ehtiyacı olan şəxslərin müəyyən edilməsi və bu şəxslərin sosial xidmətə götürülməsi üçün onlar barəsində məlumatları müvafiq icra hakimiyyəti orqanına göndərirlər. Bu Qanunun 10.2-ci və 10.3-cü maddələrinə uyğun olaraq çətin həyat şəraitində olan şəxsə (ailəyə) sosial xidmət göstərilməsi barədə digər şəxslərin müraciətləri zamanı bu Qanuna uyğun olaraq sosial xidmət göstərilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir. Sosial xidmətin formaları aşağıdakılardır:

1. evdə (səyyar) sosial xidmət;
2. yarımstasionar (günərzi) sosial xidmət;
3. stasionar sosial xidmət;
4. sosial-məsləhət yardımı.

Sosial xidmət sahəsində fəaliyyət göstərən fiziki şəxslər həm sosial işçilər, həm də sosial xidmətçilər ola bilər. Bəs bu iki anlayış arasında fərq nədən ibarətdir? Ali təhsili və uyğun peşə hazırlığı olan şəxslər sosial işçi qismində sosial xidmət sahəsində peşəkar fəaliyyətlə məşğul olmaq hüququna malikdirlər. Ümumi orta təhsili olan şəxslər sosial xidmətçi qismində fəaliyyətə cəlb oluna bilər. Sosial xidmət müəssisələri. Çətin həyat şəraitində olan şəxslərə sosial xidmətin ayrı-ayrı formalarına və növlərinə uyğun sosial xidmətin göstərilməsi məqsədilə qanunla müəyyən edilmiş qaydada sosial xidmət müəssisələri (ahıllar, əlilliyi olan şəxslər üçün internat evləri, psixonevroloji internat, insan alveri qurbanları üçün yardım mərkəzləri, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün sosial adaptasiya mərkəzləri, günərzi qayğı mərkəzləri, yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələri, sosial-psixoloji yardım mərkəzləri, müvəqqəti sığınacaqlar, peşə istiqamətləndirmə mərkəzləri, palliativ yardım mərkəzləri, hospislər, icma əsaslı reabilitasiya mərkəzləri,kiçik qrup evləri, müvəqqəti qayğı xidmətləri, sosial mağazalar və yeməkxanalar və digər müəssisə və xidmətlər) yaradılır və fəaliyyət göstərir. Xeyriyyəçilik məqsədilə sosial xidmətlərə vəsait ayıran fiziki və hüquqi şəxslər və bu fəaliyyəti ödənişsiz şərtlərlə həyata keçirən sosial xidmət müəssisələri üçün qanuna uyğun olaraq güzəştlər müəyyən edilə bilər [2], [3].

Sosial xidmətin növləri. Təyinatından asılı olaraq sosial xidmətlər aşağıdakı növlərə bölünür:

- sosial-məişət xidmətləri - şəxslərin (ailələrin) məişət şəraitinin, yaşayış vəziyyətinin yaxşılaşdırılmasına yönəlmişdir;
- tibbi-sosial xidmətlər – şəxslərin sağlamlıq vəziyyətinin yaxşılaşdırılmasına yönəlmişdir;

- sosial-psixoloji xidmətlər – şəxslərin cəmiyyətə adaptasiyası məqsədilə psixoloji vəziyyətinin reabilitasiyasını nəzərdə tutur;
- sosial-pedaqoji xidmətlər – yetkinlik yaşına çatmayanların inkişafındakı geriliklərin və davranışındakı pozuntuların profilaktikasına, onlarda müsbət maraqların yaranmasına, o cümlədən asudə vaxtlarının təşkilinə və ailədə tərbiyəsinə dəstəyə yönəlmişdir;
- sosial-iqtisadi xidmətlər – şəxslərin həyat səviyyəsinin qorunmasına və möhkəmlənməsinə yönəlmişdir;
- sosial-hüquqi xidmətlər – hüquqi yardım göstərilməsi, şəxslərin hüquqlarının qorunmasına yönəlmişdir;
- palliativ xidmətlər – müalicəsi mümkün olmayan şəxslərin və onların ailə üzvlərinin fiziki, psixoloji, mənəvi və digər problemlərinin müəyyən edilməsi, qiymətləndirilməsi və bu şəxslərə yardımın göstərilməsinə yönəlmişdir [4].

Sosial xidmətlərin göstərilməsində kompleks yanaşmalar əhəmiyyətli rol oynayır. Bəzən elə hallar olur ki, bu zaman müraciət etmiş şəxsə bir yox, bir neçə sosial xidmətlərin göstərilməsinə ehtiyac yaranır. Bu cür hallara nümunə olaraq bir keys götürə bilərik. Belə ki, maddə asılılığından əziyyət çəkən yeniyetmə müraciətçi ilə iş apararkən, bu zaman ona sosial-tibbi, sosial-psixoloji, sosial-hüquqi və sosial- pedaqoji xidmət göstərilməlidir. Tibbi-sosial xidmət – yeniyetməni stasionar tibbi-narkoloji müəssisələrə istiqamətləndirmək, sosial-psixoloji xidmət – psixoloji məsləhətləşmələr ( fərdi, qrup), ailəvi psixoloji məsləhətləşmələr aparmaq, psixoterapevtik metodlardan istifadə etmək, soial-hüquqi – yeniyetmənin hüquq və maraqlarının müdafiəsi ilə bağlı sənədlərin yazılmasına və tərtib edilməsinə kömək göstərmək, şəxsi maraqlarının hüquqi müdafiəsində iştirak etmək və s. digər xidmətlərin göstərilməsini kompleks yanaşmalara nümunə kimi göstərə bilərik. Bu zaman biz həm müraciətçi ilə, həm də onun ailə üzvləri, dostları, sinif yoldaşları ilə də sosial iş aparmalıyıq. Sosial xidmətlərin göstərilməsində kompleks yanaşmaların tətbiqi çətin həyat şəraitində olan şəxslərin problemlərinin hərtərəfli həllində və rifah halının yaxşılaşdırılmasında effektiv üsullardan biri hesab olunur [5],[6], [7].

## ƏDƏBİYYAT

**1.** https://www.researchgate.net/publication/362482101_SOSIAL_XIDMT_SAHSININ_INKISAF_TARIXI
**2.** https://e-qanun.az/framework/23195
**3.** http://socialwork.health.ankara.edu.tr/istihdam-alanlari/
**4.** https://khanahmadli.wordpress.com/2019/01/26/sosial-xidm%C9%99t-n%C9%99dir/
**5.** Pirainen.T, Koivula.U, (Bakı 2007, Azərbaycanda sosial iş. Hissə 2:Keys menecment yanaşması, 183-185s)
**6.** https://adpuquba.edu.az/wp-content/uploads/2020/12/SOSIAL-IS-N%C6%8FZ%C6%8FRIYY%C6%8FSI.pdf
**7.** https://americanaddictioncenters.org/blog/social-workers-and-their-role-in-addiction-treatment

## SOSIAL XİDMƏTLƏRİN GÖSTƏRİLMƏSİNDƏ KOMPLEKS YANAŞMALAR

***Mehdiyeva Aytən***

## XÜLASƏ

Məqalədə sosial xidmətlərin göstərilməsində kompleks yanaşmaların tətbiqinin yaratdığı imkanlardan bəhs olunur. Sosial xidmətin məqsədi vətəndaşların həyat səviyyəsini ağırlaşdıran, sosial-psixoloji vəziyyətini çətinləşdirən, cəmiyyətdən təcrid olunmasına gətir-

ib çıxaran halların qarşısını almaqdan, çətin həyat şəraitinin əmələ gəldiyi hallarda ehtiyacı olan şəxslərə sosial xidmətin göstərilməsini təmin etməkdən ibarətdir. Sosial xidmət sistemi sosial xidmət sahəsində fəaliyyət göstərən müvafiq icra hakimiyyəti orqanından, dövlət, bələdiyyə və özəl sosial xidmət müəssisələrindən, sosial işçilərdən və sosial xidmətçilərdən, eləcə də öz vəsaitləri və ya cəlb edilmiş vəsaitlər hesabına sosial xidmət göstərən qeyri-hökumət təşkilatlarından, könüllülərdən ibarətdir. Sosial xidmət sahəsində kompleks yanaşmaların tətbiqi çətin həyat şəraitində olan şəxslərin rifah halının yaxşılaşdırılmasına yönəlib. Ölkəmizdə də həyata keçirilən sosial siyasət dövlət siyasətinin əsas tərkib hissələrindən biridir. Kompleks yanaşmalar da bu siyasətin uğurla həyata keçirilməsində başlıca amil rolunu oynayır.

## КОМПЛЕКСНЫЕ ПОДХОДЫ К ПРЕДОСТАВЛЕНИЮ СОЦИАЛЬНЫХ УСЛУГ

***Мехтиева Айтан***

**АННОТАЦИЯ**

В статье рассматриваются возможности применения комплексных подходов к оказанию социальных услуг. Повысить уровень жизни малообеспеченных граждан социальной службы, предотвратить возникновение социальных ситуаций, осложняющих их психологическое состояние, приводящих к их изоляции от общества, защитить социальную службу тех, кто нуждается в определенных веществах в тяжелых жизненных условиях. . Системные меры социального обслуживания, действующие в сфере социального обслуживания со стороны органа исполнительной власти, государственных, муниципальных и частных учреждений социального обслуживания, социальных работников и социальных служб, частных фондов или привлекаемых фондов, негосударственных организаций социального обслуживания. Применение комплексных подходов в сфере социального обслуживания направлено на улучшение благосостояния людей со сложными жизненными проблемами. Социальная политика, реализуемая в нашей стране, является одной из основных частей государственной политики. Комплексные подходы также являются фактором продвижения этой политики.

## COMPLEX APPROACHES TO THE PROVISION OF SOCIAL SERVICES

***Mehdiyeva Aytan***

**SUMMARY**

The article discusses the possibilities of applying complex approaches for social services. To increase the standard of living of the poor civilians of the social service, to prevent the social situations that complicate their psychological condition, which lead to their isolation from the society, to protect the social service to those who need certain substances in difficult life conditions. Social service system measures operating in the field of social service from the executive power body, state, municipal and private social service institutions, social workers and social services, private funds or funds involved, non-governmental organizations for social services. The application of complex approaches in the field of social services is aimed at improving the well-being of people with difficult life problems. The social policy implemented in our country is one of the main parts of the state policy. Comprehensive approaches are also a factor in advancing this policy.

# ПСИХОЛОГИЧЕСКАЯ И СОЦИАЛЬНАЯ АДАПТАЦИЯ К ПЕНСИОННОМУ ВОЗРАСТУ

***Гурбанова Айдан Ильхам кызы***
***магистр II курса БГУ***
***gaydan123@gmail.com***

***Ключевые слова***: пенсионный возраст, социальная адаптация, образ жизни, самореализация
***Açar sözlər***: pensiya yaşı, sosial adaptasiya, həyat tərzi, özünü təkmilləşdirmə
***Key words***: retirement age, social adaptation, lifestyle, self-realization

Пенсионный возраст - это возраст гражданина, установленный государством, с момента, наступления которого он имеет право на получение пенсии по старости. Одна из важнейших задач пожилых людей - эффективная адаптация в новых условиях жизни после выхода на пенсию. Самочувствие человека после выхода на пенсию во многом зависит от того, действительно ли он хотел прекратить трудовую деятельность, был вынужден это сделать под давлением обстоятельств: преклонный возраст, появление нового младшего специалиста, сокращение рабочих мест.

Выход на пенсию - наиболее важное изменение статуса в период старости. Профессиональная деятельность организует жизнь человека, определяет ежедневный распорядок. Работа - это сотрудники (коллеги) и многие другие, которые являются источником общения. Трудовая активность способствует распределению социальных ролей и функций, поддерживая личностную идентичность.

Выход на пенсию не сразу ставит перед человеком проблему появления свободного времени. Человек должен сделать выбор, наработать методы преодоления препятствий и способы поведения в новой ситуации. Каждый пожилой человек конструирует собственную социальную реальность выхода на пенсию. Если человек отходит от дел внезапно или его идентичность тесно связана с профессиональной ролью, то выход на пенсию для него может оказаться чрезвычайно сложным.

Многими психологами период пенсионного возраста рассматривается как кризисный период. Это связано, прежде всего, с тем, что с прекращением своей трудовой деятельности у человека сразу же изменяется социальный статус, образ жизни и состояние здоровья, а также снижается уровень защищённости и уровень доходов. После ухода с работы у человека происходит изменение поведения, формируются новые отношения с окружающими людьми, переосмысливаются ценности и отношение к действительности. И, в связи с этим, пенсионерам необходимо адаптироваться к новым сложившимся условиям жизнедеятельности и начать по-новому выстраивать свою жизнь.

Так, в зависимости от характера деятельности, которой заполнена жизнь пенсионера, И.С. Кон выделяет 4 типа старости:

1. Активная, творческая старость. Этот тип старости характеризуется тем, что люди после выхода на пенсию продолжают участвовать в общественной жизни, живут полнокровной жизнью, не ощущая какой либо ущербности.
2. Второй тип старости отличается хорошей социальной и психологической приспособленностью, но энергия этих людей направлена главным образом не на общественную жизнь, а на устройство собственной жизни - материальное благополучие, отдых, развлечение и самообразование, на что раньше у человека не хватало времени.

3. Третий тип старости, в котором преобладают женщины, характеризуется тем, что человек направляет все свои силы и энергию на семью. Людям данного типа старости некогда хандрить или скучать, так как всё своё свободное время они посвящают своей семье, но удовлетворенность жизнью у них обычно ниже, чем у представителей первых двух типов.

4. К четвёртому типу относятся люди, смыслом жизни для которых стала забота о здоровье, которая стимулирует достаточно разнообразные формы активности и даёт определенное моральное удовлетворение. Однако эти люди склонны преувеличивать значение своих действительных и мнимых болезней.

Все эти 4 типа старости И. Кон считает психологически благополучными, но отмечает, что есть и отрицательные типы развития. К таким он относит агрессивных старых ворчунов, недовольных состоянием агрессивного мира, критикующих всё кроме себя. Другой вариант негативного проявления старости – разочарование в себе и собственной жизни, одинокие и грустные неудачники. Они винят себя за действительные и мнимые упущенные возможности

Одной из актуальных проблем современного мира является проблема социальной адаптации лиц пожилого возраста.

Как известно, социальная адаптация — это процесс активного приспособления человека к условиям социальной среды. Пожилые люди в меньшей степени, чем другие возрастные категории могут приспособиться к быстроменяющимся условиям жизни, которая выдвигает новые требования к старшему поколению, меняет диапазон и содержание социальных ролей. Необходимость сохранения активной жизни людей пожилого возраста является одной из ведущих тем современных научных исследований.

Человек с позитивным взглядом на жизнь и после выхода на пенсию продолжает личностное развитие, ведение здорового образа жизни, приобретение новых знаний и умений, что позволяют замедлить процессы старения. Для того чтобы помочь людям пожилого возраста, справиться с их возрастным и социальным кризисом, необходимо знать, какие проблемы он испытывает в этот период, как меняются ценности, нормы, самовосприятие, ритм жизни.

Людям пожилого возраста характерно увеличение чувства беспокойства, тревожности, и усиление таких черт, как мнительность, неуживчивость, раздражительность. Происходят изменения на биологическом уровне — это изменения внешности, подвижности, работы сенсорных систем.

Также изменения эмоционально-волевой сферы личности, здесь снижается инициативность, возрастает пассивность. У многих пожилых людей наблюдаются и положительные изменения, появляется умиротворённость, осмысление главных ценностей в жизни, переоценка своих возможностей.

Выход на пенсию изменяет роль человека в обществе, что сказывается на его мотивационной сфере. Мотивацией для пожилого человека должна быть потребность в самореализации, передаче опыта и умений и поддержании состояния здоровья.

Таким образом, изучение процесса социальной адаптации пожилых людей представляет одну из насущных проблем современной социологии, так как изменения в жизни требуют приспособления, адаптации к ним.

Существуют различные факторы, которые влияют на процесс социальной адаптации пожилых людей к пенсионному периоду жизни.

Адаптации к пенсионному периоду жизни зависит от многих факторов. Доцент биологических наук Н.А. Прокопенко одними из основных факторов, влияющих на процесс адаптации к пенсионному периоду жизни, называет такие, как резкое уменьшение доходов и состояние здоровья человека. По её мнению, всю совокуп-

ность лиц предпенсионного возраста можно разделить на две основные группы: ориентированных на прекращение работы или на её продолжение. И для успешной адаптации каждой из них необходимы определённые условия: хорошая материальная база, нормальные взаимоотношения с родственниками (доброжелательное общение, взаимопомощь), рациональный образ жизни, ориентированный на физическую, социальную, творческую активность и культурный досуг.

Процесс адаптации к прекращению трудовой деятельности у всех происходит поразному. Женщинами данное явление воспринимается легче, чем мужчинами. Это объясняется тем, что до выхода на пенсию женщина, помимо работы, занималась домашними делами и всё своё свободное время посвящала своей семье, поэтому после выхода изменения в её жизни не столь сильно ощутимы. Мужчина же, всю жизнь посвятил работе, был добытчиком, и поэтому он больше всего ощущает на себе смену социального статуса, у него может возникать чувство утраты авторитета в собственной семье и ему становится сложнее приспособиться к новому образу жизни.

Особенно тяжело приходится женщинам, которые отказались ради своей карьеры от семейного счастья, или, которые по каким-либо причинам остались одни и после ухода с работы им некому посвятить свободное время.

«Для таких женщин пенсионный возраст фактически превращается в период ожидания конца жизни».

Одним из основных факторов по мнению Н.А. Прокопенко будет являться резкое уменьшение уровни дохода и состояния здоровья. Н.А. Прокопенко считает, что всю совокупность лиц предпенсионного возраста можно разделить на две основные группы, одна из них ориентирована на прекращение работы, а вторая на ее продолжение. И для того, чтобы процесс адаптации прошел более успешно, для каждого необходимы определенные условия. В первую очередь, это хорошая материальная база, далее доброжелательные взаимоотношения с семьей, также это рациональный образ жизни, который ориентирован на физическую, социальную, творческую активность и культурный досуг [3].

По мнению Т.Г. Киселева успешная адаптация, прежде всего связана с поддержанием физической, умственной активности пожилого человека и его занятием продуктивными видами деятельности. Исследования показывают, что интенсивная творческая работа человека дольше сохраняет активность ума, тем самым превосходит других по интеллектуальным возможностям, и способствует продлению жизни больше, чем физическая активность. Поэтому актуальным решением будет являться создание благоприятной психоэмоциональной сферы средствами культуры, образования, общения, ценностей и норм в процессе вторичной социализации.

Образ жизни старшего поколения во многом зависит от того, как они проводят свое свободное время, и какие возможности создаются обществом. Активно занимаясь общественной деятельностью, люди пожилого возраста делают свою жизнь более полной, насыщенной, интересной. В связи с этим необходимо привлечь пожилых граждан к различному роду деятельности: трудовой, творческой, спортивной и т. д. Этому будет способствовать организация досуговых центров, клубов, кружков, секций по интересам. Следовательно, благополучная старость – это во многом результат работы самого человека над самим собой.

Основной задачей для успешного принятия им новой роли и адаптации к пенсионному периоду жизни является рациональное заполнение своего свободного времени.

В зарубежных странах имеется богатый опыт в оказании помощи в решении возникающих проблем, связанных с социальной адаптацией пенсионеров. В настоящее время там развиваются различные общественные движения, организации для пенсионеров, где они активно участвуют в жизни общества, занимаются волонтёрской дея-

тельностью, также создаются различные группы взаимопомощи. Пожилой возраст рассматривается как ресурс развития общества.

В качестве примера можно привести «Американскую Ассоциацию пенсионеров». История возникновения организации связана с инициативой основательницы Этель Андрус, которая после выхода на пенсию продолжала активный образ жизни, тем самым призывая остальных. Далее была создана Ассоциация, которая объединяла всех пенсионеров Америки, и которая существует по сей день. Были разработаны различные программы помощи, но большое внимание уделяется программе «Поколение вместе», где пожилые люди привлекаются к работе с молодежью. Целью этой программы является создание возможности для совместного времяпровождения, расширения взаимопонимания, передачи опыта и умений пожилых людей.

## ЛИТЕРАТУРА


1. https://scienceforum.ru/2015/article/2015009706
2. https://hmkpnb.ru/news/1881/
3. https://son-net.info/socialnaya-adaptaciya-pozhilyx-grazhdan-k-statusu-pensionera/


## ПСИХОЛОГИЧЕСКАЯ И СОЦИАЛЬНАЯ АДАПТАЦИЯ К ПЕНСИОННОМУ ВОЗРАСТУ

***Гурбанова Айдан***

## АННОТАЦИЯ

В данной статье проанализирована социальная и психологическая адаптация пожилых людей в пенсионном возрасте, а так же изучены проблемы и факторы психологической адаптации.

## PENSİYA YAŞINA PSİXOLOJİ VƏ SOSİAL ADAPTASİYA

***Qurbanova Aydan***

## XÜLASƏ

Bu məqalədə pensiya yaşına çatmış ahıl insanların sosial və psixoloji adaptasiyası təhlil edilir, həmçinin psixoloji və sosial adaptasiyanın problem və amilləri təhlil olunub.

## PSYCHOLOGİCAL AND SOCİAL ADAPTATİON AT RETİREMENT AGE

***Gurbanova Aydan***

## SUMMARY

This article analyzes the psychological and social adaptation of older people at retirement age, and also studies problems and factors of psychological and social adaptation.

# CİNAYƏT TÖRƏTMİŞ ŞƏXSLƏRİN CƏZA MÜDDƏTİ BİTDİKDƏN SONRA CƏMİYYƏTƏ YENİDƏN İNTEQRASİYASI

***Cabbarova Dərya***
***ATMU-nun II kurs magistrantı***
***daryajabbarova@gmail.com***

***Açar sözlər:*** Cinayət, reinteqrasiya, sosial dəstək, adaptasiya, psixoloji yardım, sosiallaşma, cəmiyyət.
***Ключевые слова:*** Преступность, реинтеграция, социальная поддержка, адаптация, психологическая помощь, социализация, общество.
***Keywords:*** Crime, reintegration, social support, adaptation, psychological assistance, socialization, society.

Cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin yeni həyat şəraitinə uyğunlaşması prosesi olduqca mürəkkəbdir. Bu problemlərə maliyyə çətinlikləri, insanların onlara qarşı inamsızlığı və digər bənzər narahatlıqlar daxildir. Bu və digər şəkildə müxtəlif stress amillərinə məruz qalma həmin fərdlərin sosial-psixoloji rifahına əhəmiyyətli təsir göstərə bilər və cəmiyyətin məhsuldar üzvlərinə çevrilməsinə mane ola bilər.

Müzakirə etdiyimiz bu amilin ilkin əlamətləri narahatlıq və sosial təcrid hissləridir. Nəticə etibarilə, islah müəssisələrindən buraxılan şəxslər məyusluq, çaşqınlıq, əsəbilik və ümidsizlik yaşayırlar. Müasir cəmiyyətdə cəzadan azad edilmiş şəxslərin sosial-psixoloji uyğunlaşmasının asanlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər onların cəmiyyətin müxtəlif sahələrində əldə etdiyi nailiyyətlərə, ailə modelinin formalaşmasına, nəticədə gələcək nəslin tərəqqisinə müsbət təsir göstərir.

Effektiv strukturlaşdırılmış uyğunlaşma prosesi həm də fərdin cəmiyyətə uğurlu inteqrasiyası və öz dəyərlərinin inkişafı üçün əlverişli mühit yaradır. Cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin cəmiyyətə inteqrasiyası prosesinə üstünlük verilməsi mühüm əhəmiyyət kəsb edir. Həbsdən azad edilmiş şəxslərin yeni mühitə uyğunlaşması çox vaxt müxtəlif sosial-psixoloji problemləri ortaya qoyur. Əsas problemlər mövcud sosial əlaqələrin pozulması, qeyri-adekvat mənzil və məşğulluq imkanları və həll edilməmiş məişət məsələlərindən qaynaqlanır.

Aparılan tədqiqatların təhlilinə əsasən məlum olur ki, cəzaçəkmə müəssisələrindən çıxan insanların sosiallaşmasının əsas addımı onların məhdudiyyətsiz həyata birbaşa uyğunlaşmasıdır. Bu məsələnin effektiv həlli üçün aşağıdakı narahatlıqları prioritetləşdirmək vacibdir.

- Məhkumların azadlığa çıxmadan öncə mənəvi-psixoloji cəhətdən hazırlamaq;
- Cəza çəkən şəxslər üçün hüquqi statusunun bərpası və sosial faydalı münasibətlərin qurulması;
- Cəzaların icrasının səmərəliliyinə nəzarət etmək;
- Yeni sosial rola uyğunlaşması üçün cəza çəkən şəxslərin şəraitin təmin edilməsi.

Bir qayda olaraq, yuxarıda qeyd olunan amillərdən hər hansı birinin olmaması cəzadan azad edilmiş şəxslərin uyğunlaşma qabiliyyətinə birbaşa və mənfi təsir göstərir. Əksər hallarda, onlar həbsdən çıxdıqdan sonra ilk il ərzində başqa bir cinayət törətməyə meyllidirlər. Psixoloji nöqteyi-nəzərdən uyğunlaşma fərd və ətraf mühit arasında tarazlığın və qarşılıqlı əlaqənin qurulmasını nəzərdə tutur. Uyğunlaşma sosial mühit və cəmiyyət daxilində fərdin və ya qrupun iyerarxik strukturu arasında baş verən unikal qarşılıqlı əlaqə növünə aiddir. Bu qarşılıqlı əlaqə fərdin özünü müəyyən etmə mövqeyindən asılıdır.

Şəxsiyyətin sosial adaptasiyasının öyrənilməsi digər sosial və psixoloji amillərlə yanaşı, ətraf mühiti qəbul etmək, yeni sosial rollar qəbul etmək və həvəsləndirici çərçivənin yaradılması kimi mürəkkəb prosesi başa düşməkdən ibarətdir [2].

Keçmiş məhkumlar həbsdən çıxdıqdan sonra cəmiyyətə inteqrasiyası zamanı çətinliklərlə üzləşə bilərlər. Geniş cinayət fəaliyyəti tarixçəsi olan və riskli davranışlarda iştirak etmək ehtimalı yüksək olan şəxslər xüsusi diqqət tələb edir. Effektiv cinayətlərin qarşısının alınması üsulları keçmiş məhbusların cəmiyyətə sosial inteqrasiyasını hədəfləyən müdaxilələrin yaradılmasına üstünlük verməli və onların yenidən cinayət törətmə ehtimalını azaltmağa çalışmalıdır.

Bu strategiyalar məhkəmə sistemi tərəfindən maliyyə cəhətdən dəstəklənən və digər icma qurumları və qrupları ilə əməkdaşlığı nəzərdə tutan hərtərəfli yanaşmanı əhatə edir. Cinayətkarın reinteqrasiya proqramları nəzarətə əsaslanan keçid proqramlarını, yardıma əsaslanan keçid proqramlarını və həbsin istənilən mərhələsində həyata keçirilə bilən inteqrasiya olunmuş qayğı proqramlarını əhatə edir. Bu proqramlar xüsusi olaraq cinayətkarların xüsusi qruplarının narkomaniya, işsizlik və digər əlaqədar problemlər kimi üzləşdiyi problemləri hədəfləmək və həll etmək məqsədi daşıyır.

Cinayət törətdikdən və cəza müddətini başa vurduqdan sonra fərdin cəmiyyətə reinteqrasiyası prosesi bir sıra müdaxilələr və proqramları əhatə edir ki, bu da “sosial reinteqrasiya” adlanır. Bu yanaşmalar fərdləri həm həbsdə olarkən, həm də azadlığa çıxdıqdan sonra bərpaedici terapiyaya yönəltməyi əhatə edir. Həbsxanaya əsaslanan islah proqramları və sonrakı dəstək müdaxilələri bu prosesin ayrılmaz tərkib hissəsidir.

Son bir neçə il ərzində cinayətkarların səmərəli şəkildə reinteqrasiyasına kömək etmək üçün "sonra baxım", "keçid qayğısı", "yenidən giriş", "yenidən giriş dəstəyi" və ya "reinteqrasiya" kimi tanınan müdaxilələrin istifadəsində artım müşahidə edilmişdir. Bu müdaxilələr cinayət etmiş şəxslərə cəmiyyətə yenidən inteqrasiya etmək və qanuni həyat tərzini saxlamaqda köməklik etmək məqsədi daşıyan təşəbbüslərə daxildir.

Səmərəli proqramlar və xidmətlər cinayət fəaliyyəti ilə məşğul olan şəxslərin müvəffəqiyyətlə geri qayıtmasını və reinteqrasiyasını təşviq etmək üçün mühüm əhəmiyyət kəsb edir. Reinteqrasiyaya hazırlıq prosesinə erkən mərhələdə başlamaq çox vacibdir, eyni zamanda buraxılışdan sonrakı dəstək müdaxilələrinin həyata keçirilməsi cinayət davranışına yenidən düşmə ehtimalını effektiv şəkildə azalda bilər [1].

Cinayətlərin qarşısının alınması sahəsində həyata keçirilən yenidən sosiallaşma proqramlarına sosial-iqtisadi, pedaqoji və hüquqi xarakter daşıyan tədbirlər daxildir. Bu proqramlar cinayət cəzasını çəkmiş şəxslərin cəmiyyətə reinteqrasiyasını asanlaşdırmaq üçün nəzərdə tutulub. Azadlıqdan məhrum etmə və ya digər cinayət-hüquqi tədbirlərə məhkum edilmiş şəxslərin bu tədbirlərə uyğun olaraq cəmiyyətə reinteqrasiyasına köməklik göstərilir.

Cinayətkarlığın artması nəticəsində cəmiyyətin mənfi təsirinə məruz qalan bir çox aspektlər var. Bu mənada dövlət humanizm və tolerantlıq idealları əsasında öz sakinlərinin təhlükəsizliyinə təminat verməkdə maraqlıdır. Bunun cəza tədbirlərinin görülməsi ilə deyil, cinayət törədənlərə sosial dəstəyin göstərilməsi ilə həyata keçirilməsi daha məqsədəuyğundur. Məhkum edilmiş şəxslərin cəmiyyətə yenidən inteqrasiyası prosesi dövlətlərin qarşısında duran ən aktual və problemli məsələlərdən biridir.

Uğurlu sosial reablitasiya tədbirləri nəticəsində təkrar cinayətlərin nisbətində azalma tendensiyası müşahidə olunur və bu tendensiyanın daha da davam edəcəyi gözlənilir. Digər tərəfdən, müxtəlif dövlətlərdə iki və daha çox məhkum olunmuş şəxslər kateqoriyası məhkum olunmuşlar arasında daha çox üstünlük təşkil edir ki, bu da hələ sosial reablitasiya fəaliyyətlərində görüləcək işlərin çox olduğunu göstərir [4].

Həbsxanadan çıxdıqdan sonra cəmiyyətə reinteqrasiya çox vaxt fərdlər üçün çoxsaylı çətinliklər yaradır. O cümlədən işlə təmin edilməsi, mənzil hüquqlarının qorunması və

əvvəlki ailə əlaqələrinin bərpası. Bu, onların cəmiyyət daxilində əhəmiyyətsizlik və təcrid hissinin yaranmasına gətirib çıxarır. Həbsdən sonra effektiv sosial yardımın olmaması insanın xarakterinin pisləşməsinə, intiharla nəticələnir və ya yenidən cinayət davranışına çevrilir. Yenidən sosiallaşma bu səbəbləri aradan qaldırmaq və qarşısını almaq məqsədi daşıyır.

İslah prosesinin əsas komponenti məhbusların sosiallaşmasıdır ki, bu da iki fərqli mərhələni əhatə edir: Həbs cəzasını çəkən müddət ərzində və onların cəzadan azad edilməsindən sonrakı müddət ərzində reablitasiya tədbirləri.

Cəzaçəkmə müəssisələrindən sərbəst həyat vəziyyətlərinə keçən fərdlərin uğurlu reinteqrasiyası azadlığa buraxıldıqdan sonra onlara əsas dəstək və fəal nəzarətin təmin edilməsindən asılıdır. Bu xüsusi qrupdan olan şəxslərə kömək etmək yenidən sosiallaşmanın əsas komponentidir və mühüm əhəmiyyət kəsb edir. Fərdlər üçün yeni həyat şəraitinə uyğunlaşmaq və sosial əlaqələrin böyüməsini təşviq etmək çox vacibdir.

Həbsdən azad edilmiş şəxslərə yardımın göstərilməsi təkrar cinayətlərin qarşısının alınması sisteminin əhəmiyyətini nümayiş etdirir. Yenidən sosiallaşma cinayət davranışının ilkin mərhələlərinin aradan qaldırılması və reabilitasiyasına yönəlmiş mühüm prosesdir. Bu prosesin əsas komponentləri fərdlərlə cəmiyyət arasında faydalı əlaqələrin qurulmasını, habelə ictimai dəyərlərin təbliğini əhatə edir.

Reinteqrasiya prosesinə fərdlərin öz sosial mühitlərinə uğurla alışması üçün zəruri olan əsas elementlərin, o cümlədən maliyyə yardımı, psixiatriya yardımı, hüquqi məsləhət, təhsil imkanları, iş perspektivləri və sosial əlaqələrin bərpası daxildir. Azadlıqdan məhrum edilmiş şəxslər üçün bu yardım və xidmətlərin əhəmiyyətinin qanunla müəyyən edilməsi çox vacibdir. Sosial yardım tədbirləri və xidmətlərini həyata keçirmək üçün müəyyən edilmiş prinsiplərə riayət etməklə sosial müdafiə orqanları və sosial xidmət təşkilatları birgə fəaliyyət göstərməlidirlər [3].

Məhkumların cəmiyyətə reinteqrasiyası çoxşaxəli prosesdir və islah müəssisələri ilə əməkdaşlıqdan başlayır və onların cəmiyyətə tam assimilyasiyası ilə yekunlaşır. Hüquq-mühafizə orqanları məhkumların cəmiyyətə reinteqrasiyasını asanlaşdırmaq üçün islah psixologiyası üzrə praktiki rəhbərlik təklif etməli və təcrübə mübadiləsi apararaq islah müəssisələri ilə əlaqə və əməkdaşlıq qurmalıdır. Bu proses məhkumların uyğunlaşmasını asanlaşdırmaq üçün psixoloji üsullardan istifadə edən islah psixologiyasının tətbiqi ilə baş verir. Məhkumların həbsdə olduqları müddətdə şəxsiyyətlərinin təhlükəsizliyinin təmin edilməsi təkrar cinayətlərin qarşısını almaq üçün çox vacibdir. Çünki, qaad edildikdən sonra onların normal sosial həyat şəraitinə uyğunlaşa bilmələri ilə bağlı problemlər yaranır. Cəzaçəkmə müəssisələrində məhbuslarla əməkdaşlığın qeyri-adekvat əlaqələndirilməsi şəxslərin bu müəssisələrdən azad edildikdən sonra yenidən cinayət törətməsi ilə nəticələnə bilər.

İslah müəssisələrinin təcrübi sübutları məhkumların yeni şəraitə uyğunlaşmasını asanlaşdırmaq üçün onlara psixoloji hazırlığın təmin edilməsinin vacibliyini nümayiş etdirir. Psixoloji hazırlıq cinayət törətmiş şəxslərin transformasiyası və cəmiyyətə uğurlu reinteqrasiyasının asanlaşdırılmasında mühüm əhəmiyyət kəsb edir. Cəzaçəkmə müəssisələrində sertifikatlı psixoloqların əsas məqsədi məhkumların reabilitasiyasına və cəmiyyətə uğurlu inteqrasiyasına kömək etmək olmalıdır. İslah müəssisələrinin cəmiyyətə reinteqrasiyası, islah orqanının yenidən qurulması və məhkumların dini və mənəvi tələblərinə uyğun dəstək təklif edilməsi çox vacibdir.

Məhkumların yenidən sosiallaşması prosesi onların sosial məqsədlərinin formalaşmasını, prinsiplərinin yetişdirilməsini və psixoloji narahatlıqlarının həllini nəzərdə tutur. Məlumdur ki, həbsdən azad edilmiş şəxslər hərtərəfli tibbi, reabilitasiya və psixoloji yardıma ehtiyac duyurlar.

Azad edilmiş şəxsin yenidən sosiallaşması prosesi tamamilə yeni və çətin şərtlər daxilində baş verir. Bu şəraitdə mənzil, məşğulluq, sosial təcrid, yenidən nizamlanma ilə bağlı məsələlər ortaya çıxır. Bu şəxslər həyatlarında yeni bir səhifə açmaq və yeni ictimai şəraiti qəbul etmək üçün psixoloji yardım və dəstəyə ehtiyac duyurlar. Cəmiyyət daha ağır həbs şərtlərini tətbiq etməkdənsə, ictimai yardımın göstərilməsinə və əfv praktikasına üstünlük verməlidir.

Məhkumun əhəmiyyətli təqsiri olmasına baxmayaraq, onun azad edilməsi və cəmiyyətə inteqrasiyası üçün imkanlar mövcuddur. Məhkumun daxili psixoloji durumu və təcrübəsi onun bu prosesdə yenidən sosiallaşmasına mane olan həlledici amillərdir. Hökm vermək insanın keçmişini, sosial əlaqələrini və cəmiyyət daxilində davranışını qiymətləndirməyi əhatə edir. Psixoloqun məhbusla əlaqəsi məhbusun dəyərlərinin yenidən qiymətləndirilməsini, şəxsi transformasiyasının asanlaşdırılmasını və onun həyatını yaxşılaşdırmaq istəyinə dəstək verilməsini nəzərdə tutur [5].

*Nəticə.* Cinayətkarların cəzalarını çəkdikdən sonra cəmiyyətə reinteqrasiyası, cinayətkarların adi həyat şəraitinə uyğunlaşması, ictimai fəaliyyətlə məşğul olması cəmiyyətin qarşısında duran əsas məsələlərdəndir. Bu proses üçün əhəmiyyətli miqyasda kömək və yardım tələb olunur. Məqsəd məhkum edilmiş şəxslərin başqa cinayətlər törətmə riskini azaltmaq və onları cəmiyyətin məhsuldar və uyğun üzvləri olmaq imkanı əldə etmək üçün lazım olan resurslarla təchiz etməkdir. Bu məslədə sadəcə islah müəssisələrinin üzərinə məsuliyyət düşmür. Bu məsələnin effektiv həlli kompleks tədbirlərin görülməsini zəruri edir.

## ƏDƏBİYYAT


**1.** Griffiths C. T., Dandurand Y., Murdoch D. The social reintegration of offenders and crime prevention. Ottawa, ON. National Crime Prevention Centre. 2007. T. 4. s.35.

**2.** Hüseynova S. "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin cəmiyyətə ınteqrasiyasında sosial adaptasiyanın rolu." "Psixologiyanın aktual problemləri: yeni perspektivlər, yeni mülahizələr və yeni düşüncələr" adlı beynəlxalq elmi konfransın materialları. Qərbi Kaspi Universiteti. 2021. s.234-238.

**3.** Ресоциализация лиц, освободившихся из мест лишения свободы. Тематический доклад Уполномоченного по правам человека в Российской Федерации. М. : Издательский центр Университета имени О.Е. Кутафина (МГЮА). 2022. 122 с.

**4.** Черепашкин А. С., Абрамовская О. Р. Ресоциализация лиц, освобождённых из мест лишения свободы как профилактика рецидивной преступности //Вестник экономики, управления и права. 2020. №. 1 (50). С. 34-42.

**5.** Чернышова Н. Д. Ресоциализация лиц, освободившихся из мест лишения свободы. Человек и его ценности в современном мире. 2016. С. 104-112.


## CİNAYƏT TÖRƏTMİŞ ŞƏXSLƏRİN CƏZA MÜDDƏTİ BİTDİKDƏN SONRA CƏMİYYƏTƏ YENİDƏN İNTEQRASİYASI

***Dərya Cabbarova***

## XÜLASƏ

Cinayət törətmiş şəxslərin cəza müddəti başa çatdıqdan sonra cəmiyyətə inteqrasiyası mühüm məsələdir. Bu proses məhkumların sosial və psixoloji dəstəyə ehtiyacı olduğu bir vaxtda başlayır. Azad edilmiş şəxslərin mənzilə, işə və sosial dairələrə qayıtması, yenidən sosiallaşması üçün sosial dəstəyə ehtiyacı var. Bu proses məhkumların cəmiyyətə adaptasiyası və yenidən tərbiyəsi ilə bağlıdır. Həmin şəxslərin normal həyat şəraitinə

qayıtmasında psixoloji dəstək, məşğulluq imkanları və sosial yardımlar əsas rol oynayır. Reinteqrasiya prosesi məhkumların cəmiyyətdə mövcudluğunu və sosial faydalı münasibətlərini bərpa etməklə cinayət törətmə riskini azaldır və onların sosial fəaliyyətini bərpa edir. Bu prosesdə cəmiyyətin də dəstəyi vacibdir.

## РЕИНТЕГРАЦИЯ ЛИЦ, СОВЕРШИВШИХ ПРЕСТУПЛЕНИЯ, В ОБЩЕСТВО

***Дарья Джаббарова***

### АННОТАЦИЯ

Интеграция преступников в общество после отбытия наказания является важным вопросом. Этот процесс начинается в тот момент, когда заключенным необходима социальная и психологическая поддержка. Освобожденные лица нуждаются в социальной поддержке, чтобы вернуться к жилью, работе и общественным кругам, а также для ресоциализации. Этот процесс связан с адаптацией и перевоспитанием осужденных к обществу. Психологическая поддержка, возможности трудоустройства и социальная помощь играют ключевую роль в возвращении этих людей к нормальным условиям жизни. Процесс реинтеграции снижает риск совершения преступлений и восстанавливает социальное функционирование осужденных за счет восстановления их присутствия в обществе и общественно полезных связей. В этом процессе также важна поддержка общества.

## REINTEGRATION OF PERSONS WHO HAVE COMMITTED CRIMES INTO THE SOCIETY

***Darya Cabbarova***

### SUMMARY

The integration of criminals into society after the end of their sentence is an important issue. This process begins at a time when prisoners need social and psychological support. Released persons need social support to return to housing, work and social circles, and to re-socialize. This process is related to the adaptation and re-education of convicts to society. Psychological support, employment opportunities and social assistance play a key role in the return of those persons to normal living conditions. The process of reintegration reduces the risk of committing crimes and restores the social functioning of convicts by restoring their presence in society and socially beneficial relationships. The support of society is also important in this process.

# AHILLARIN HÜQUQLARININ QORUNMASININ VƏ SOSİAL MÜDAFİƏSİNİN AKTUALLIĞI

***Rüstəmov Ayxan Yaqub oğlu***
***ATMU-nun II kurs magistrantı***
***rustamovaykhan@gmail.com***

***Açar sözlər:*** ahıl, sosial müdafiə, qorumaq, hüquq, aktuallıq, yaş
***Ключевые слова:*** умный, социальная защита, защищать, закон, актуальность, возраст
***Keywords:*** elder, social protection, protect, law, relevance, age.

Məlumdur ki, xarici siyasətlə dünya birliyinə uğurla inteqrasiya edən müasir Azərbaycanın sosial yönümlü daxili siyasəti prioritet məsələ olaraq ölkə ictimaiyyətinin geniş dəstəyini qazanıb. Yəni dövlətin ən ümdə vəzifəsi ölkə vətəndaşlarının sosial rifahını yüksəltməkdir. Və sözsüz ki, burada tənha ahıllarla bağlı dövlət siyasəti necədir və bu siyasət nəyə söykənir məsələsi də mühüm əhəmiyyət kəsb edir. İlk öncə onu qeyd edək ki, cəmiyyət dövlətdən daha qabaq təşəkkül tapdığı üçün ahıllar, o cümlədən tənha ahıllarla bağlı dövlət siyasəti hər hansı keçici prinsiplərə yox, əsrlərin süzgəcindən keçmiş və yaşama hüququ qazanmış milli-mənəvi dəyərlərə söykənir [1].

Bildiyimiz ki, əksər dövlətlərdə mövcud olan ahıllarla bağlı qanunlar məhz həmin cəmiyyətlərdə qocalara olan biganə münasibətlərin nəticəsi kimi qəbul edilmişdir. Vətəndaşların layiqli sosial müdafiəsindən qaynaqlanaraq ahıl şəxslərlə bağlı ölkəmizdə dövlət siyasətinin mövcudluğu sosial siyasətin əsas prioriteti kimi çıxış edir.

Respublikamızın qanunlarına əsasən, ahıl şəxs dedikdə yaşı yetmişi ötmüş insanlar nəzərdə tutulur. Ölkəmizdə ahıl vətəndaşların sayı Avropa ölkələrinə nisbətən aşağıdır. Statistikaya baxdıqda görürük ki, Azərbaycanda ahılların həm sayında, həm də ümumi əhali sayına nisbətdə azalma var. Amma 1990-cı illə müqayisə etsək görərik ki, ahıl vətəndaşların sayı və nisbəti artıb. 1990-cı ildə ölkəmizdə olan vətəndaşların 220,5 min nəfəri və ya 3,1 faizi ahıl olub. 2000-ci ildə onların sayı 226,7 minə qədər artsa da, ahılların ümumi əhali sayına nisbəti 2,8 faizə enib. Lakin 2011-ci ildə ahılların sayı 406,8 minə (4,46 faiz) yüksəlib. 2011-ci ildə qeydə alınan göstərici Azərbaycanda ahılların əhali sayına nisbətində ən yüksək göstərici hesab olunur [2 səh.9].

2014-cü ilin əvvəlinə olan rəsmi statistikaya əsasən, ölkəmizdə 390,3 min ahıl var. Son 3 ildə ahıl vətəndaşların sayında azalma müşahidə edilir. 2012-ci ildə ölkəmizdə ahılların sayı ən yüksək həddə - 408,4 minə yüksəlib. Ötən ilin əvvəlində ahılların sayı 401,8 minə, bu ilin əvvəlində isə 390,3 minə enib.

2014-cü ilin əvvəlində əhalinin ümumi sayı 9,477 milyon nəfər olub. Deməli, bu dövrdə Azərbaycan əhalisinin 4,11 faizi ahıl vətəndaşlar olub. 2013-cü ildə bu göstərisi 4,3 faiz, 2012-ci ildə 4,42 faiz təşkil edib. Qeyd edək ki, ölkəmizdə ahılların sayının son illərdə artmamasının əsas səbəblərindən biri ölkəmizdə təbii artımın yüksəlməsidir. Son 10 ildə Azərbaycan vətəndaşlarının sayı 13 faizdən çox artıb ki, bu da yüksək artım göstərici sayılır. Göründüyü kimi, istər dünya ölkələrində, istərsə də ölkəmizdə yaşlı təbəqənin sayı getdikcə artmaqdadır. Onu da əlavə edək ki, ahılların sayının artmasına baxmayaraq xarici ölkələrin əksəriyyəti ilə müqayisədə Azərbaycanda yaşı 70-dən yuxarı olan insanların xüsusi çəkisinin yüksək olmadığı məlumdur. Çünki Azərbaycan əhalisi gənc olan ölkələrdən sayılır [2 səh.9].

Dövlətimizin əsasları milli dəyərlərdən təşkil olunmuşdur, çünki cəmiyyətimizin tarixi kökləri çox möhkəm dayaqlara əsaslanır. Cəmiyyətimizdə yaşlı nəslə, ağsaqqallara, ağbirçəklərə böyük hörmət zamanın bütün dövrlərində mövcud olmuşdur. Qədimlərdən bəri əsl Azərbaycan ailəsinin ən müqəddəs və ali dəyərlərindən biri məhz ata-anaya hörmət, ağsaq-

qala, ağbirçəyə dərin ehtiram hissi təşkil etmişdir. Biz bu müqəddəs adət- ənənələrimizi təbii ki yaşatmalıyıq və elə etməliyik ki, gənc nəsillərdə bu milli ruhda böyüsün, ahıl şəxslərdən nümunə götürərək, milli dəyərlər əsasında öz həyatlarını qursunlar.

Ahıl şəxslər həyata rəng qatan, onu mənalandıran, ona örnək verən, nümunə olan insanlardır. Onlarsız həyatı təsəvvür etmək mümkün deyil. Hər bir ailənin möhkəmliyi, sarsılmazlığı həmin ailədə yaşayan ahıl insanların mövcudluğundan, varlığından asılıdır. Həmçinin cəmiyyətimiz üçün də ahıl insanların varlığı əvəzolunmazdır. Onların həyatda qazandıqları təcrübədən, bilik və bacarıqlardan bəhrələnmək isə nəsillərarası körpü qurmaq, əlaqə yaratmaq, mövcud varislik əlaqəsini yenidən bərpa etmək baxımından çox vacib və zəruridir.

BMT-nin Baş Məclisi 1992-ci ildə Ahılların müdafiəsi ilə bağlı Qətnamə qəbul edib. Həmin Qətnamənin prinsiplərinə uyğun olaraq hər il oktyabrın 1-i Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur. Bu məsələyə Respublikamızda da ciddi diqqət yetirilir. Dünyada olduğu kimi, ölkəmizdə də 1993-cü ildən başlayaraq, hər il oktyabrın 1-i Beynəlxalq Ahıllar günü silsilə tədbirlərlə qeyd edilir. Həmin günün keçirilməsində məqsəd ahıl vətəndaşların sosial problemləri ilə tanış olmaq, ehtiyaclarını müəyyənləşdirərək, imkanlı müəssisələr, təşkilatlar və qeyri-hökumət təşkilatları ilə birlikdə əməli tədbirlər görməkdən ibarətdir [12].

Ahılların məşğulluğu, onların inkişaf prosesinə cəlb edilməsi, həm də sosial-iqtisadi durumun yaxşılaşması deməkdir. BMT-nin inkişaf proqramında da son illər ahıllar problemi geniş yer tutur. 2002-ci ilin aprelində İspaniyanın paytaxtı Madrid şəhərində BMT-nin ahıllar üzrə 2-ci Ümumdünya Məclisinin keçirilməsi də buna misaldır. Bu Ümumdünya tədbirində belə bir fikir səsləndi ki, yaşlılar da cəmiyyətin bərabərhüquqlu vətəndaşlarıdır, onlara ehtiram göstərmək yüksək insani keyfiyyətdir [3].

Azərbaycan dövləti tərəfindən ahıllara həmişə xüsusi diqqət və qayğı göstərilir. Xalqımızın ümummilli lideri Heydər Əliyev 22 iyun 2001-ci il tarixində "Ahıllara sosial xidmət haqqında" qanunu imzalamışdır. Qanuna əsasən, ölkədə 70 yaşına çatmış vətəndaşlar, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ahıl hesab olunur.

Azərbaycanda ahıllarla bağlı milli və ümumbəşəri dəyərlərə söykənən dövlət siyasətinin əsası məhz ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub və son 10 ildə Prezident İlham Əliyevin layiqli səviyyədə davam və inkişaf etdirdiyi bu humanist siyasətin əsasında ahıl vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, onlara dövlət qayğısının artırılması, maddi və mənəvi tələbatlarının ödənilməsi dayanır [4].

Ahıl vətəndaşların hüquqlarının qorunması, onların sosial müdafiəsinin gücləndirilməsi, sosial və digər həyati tələbatlarının ödənilməsi hər bir sosialyönümlü dövlətin sosial-iqtisadi siyasətinin prioritet istiqamətlərindən birinə çevrilməlidir.

Ahıl vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması və onlara dövlət qayğısının artırılması məqsədilə Azərbaycan Prezidentinin 2006-cı il 17 aprel tarixli sərəncamı ilə "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı" təsdiq edilib. Mövcud proqramın qanunvericilik əsasları beynəlxalq normalara uyğun şəkildə hazırlanmışdır. Belə ki, proqram "Yaşlaşma üzrə Madrid Beynəlxalq Fəaliyyət Planı"nın prinsiplərinə əsaslanaraq təsdiq olunmuşdur. Bu prinsiplərə əsasən ahıl vətəndaşlar sosial xidmət sahəsində aşağıdakı hüquqlara sahibdirlər:

- Sosial xidmət sahəsində ahıllar aşağıdakı hüquqlara malikdirlər:
- müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada sosial xidmət müəssisəsini və sosial xidmət növünü seçmək;
- sosial xidmət müəssisələrində sanitariya-gigiyena tələblərinə cavab verən şəraitlə təmin olunmaq;
- sosial xidmət müəssisələrinin işçiləri tərəfindən şərəf və ləyaqətlərinə hörmət olunmasını və humanist münasibət bəslənilməsini tələb etmək;

- daxili qaydalar pozulmamaq şərtilə dini ayinlərin icra edilməsi üçün ayrıca yerlə təmin olunmaq;
- sosial xidmət göstərilməsi qaydaları, habelə öz hüquq və vəzifələri barədə məlumat almaq;
- kütləvi informasiya vasitələri ilə təmin olunmaq;
- sosial xidmət göstərilməsinə razılıq vermək və ya sosial xidmətdən imtina etmək;
- sosial xidmət göstərilən zaman şəxsi xarakterli məlumatların məxfi saxlanılmasını tələb etmək.

Dövlət Proqramının əsas məqsədi ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə hərtərəfli nail olmaqdır. Proqrama uyğun olaraq icrası vacib olan məsələlər aşağıdakılardan ibarətdir:

- Tənha və başqasının köməyinə ehtiyacı olan ahıllar üzrə ərazi informasiya bazasının yaradılması,
- Ahıl və tənha vətəndaşların sosial müdafiəsinin yaxşılaşdırılması üçün tənha, hərəkət qabiliyyəti məhdudlaşmış ahıllara sosial xidmətlərin, o cümlədən evdə xidmət işinin təkmilləşdirilməsi,
- İnternat evləri və pansionatlarda yaşayan ahıl vətəndaşlar üçün sosial-məişət və tibbi xidmət səviyyəsinin yüksəldilməsi,
- Dövlət təminatında, internat evlərində, pansionatlarda yaşayan ahılların ayrı-ayrı imkanlı hüquqi və fiziki şəxslər tərəfindən himayəyə götürülməsi təcrübəsinin genişləndirilməsi,
- Ahıl vətəndaşlar üçün sosial müdafiə məsələləri ilə bağlı hüquqi məsləhət xidmətinin təşkili və inkişafı,
- Tənha ahıl vətəndaşların mənzillərinin yanğın və s. təhlükəsizliyinin təmin edilməsi,
- Ali, orta ixtisas təhsili müəssisələrinin tələbələri və ümumtəhsil müəssisələrini yuxarı sinif şagirdləri tərəfindən ahıl vətəndaşlara evlərində, həmçinin ictimai yerlərdə qayğı və xidmət göstərilməsi işinin təşkili,
- Ahıl vətəndaşların sağlamlığının qorunması məqsədilə xüsusi profilaktik tədbirlərin hazırlanması və həyata keçirilməsi, bu məqsədlə rayon və şəhər səhiyyə xidməti müəssisələrində gerontoloji xidmətin təşkil edilməsi və gerontologiya üzrə müvafiq tədris kurslarının təşkil edilməsi,
- Ahıllar üçün ixtisaslaşdırılmış psixoloji tibbi xidmətlərin təşkili,
- Ahılların sağlamlığının təmin edilməsi məqsədilə onların idmana cəlb edilməsi,
- Ahılların asudə vaxtlarını səmərəli keçirmələri üçün müvafiq tədbirlərin həyata keçirilməsi [8 / səh. 334]

Hal-hazırda paytaxtımıza yaxın bir ərazidə - Bilgəhdə Müharibə və Əmək Əlilləri üçün Pansionat fəaliyyət göstərir. Pansionatda 166 ahıl şəxs yaşayır. Ahıl vətəndaşlar burada tam olaraq dövlət təminatı ilə əhatə olunsalarda, onların ən çox doğma, əziz adamların sevgisinə, məhəbbətinə ehtiyacı var. Demək olar ki, hazırda dünyada bir çox ahıllar var ki, bu sevgidən məhrumdur. Səbəbinə gəldikdə isə onların sırasında yaxınlarını itirərək tənhalığa məhkum olan yaşlılarla yanaşı, övladları tərəfindən tərk edilərək yalnız qalanlar da var.

Hal-hazırda ölkəmizdə ahılların demək olar əksəriyyətinin mədəni kapital səviyyəsi aşağı vəziyyətdədir. Bunun olmaması üçün ahıl vətəndaşların asudə vaxtlarının səmərəli təşkil olunması vacibdir. Məsələn, ahıl vətəndaşların asudə vaxtlarının mənalı və səmərəli təşkilinə kömək məqsədilə müəyyən mərkəzlər yaradıla bilər, parklarda, mədəniyyət ocaqlarında ahıllar üçün xüsusi guşələr təşkil oluna bilər. Təbii ki, istirahət və asudə vaxt anlayışlarının tərkibinə ahıl yaşlı insanların turizmi məsələsi də daxildir. Alman yazıçısı Höte deyirdi ki, insan qocaldıqca yaşamaq istəyi daha da artır. Əslində ahıl vətəndaşlar üçün turizm imkanlarının yaradılması və genişləndirilməsi bu baxımdan çox əhəmiyyətlidir. Çünki ahıl yaşlı

insanlarında səyahət etmək ehtiyacları var və yeni, fərqli yerlər görmək onlara özlərini daha yaxşı hiss etmələrinə kömək edə bilər.

İsveç və Norveçdə ahıl insanların turizmi məsələləri ilə məşğul olan mərkəzlər fəaliyyət göstərir. Onlar daha çox 75 yaşdan yuxarı insanların səyahətlərini təşkil edirlər. Təbii ki bu səyahətlər zamanı sosial xidmətçilər də ahıllarla bərabər olurlar. Onlara təkbaşına edə bilməyəcələri işləri etməkdə köməklik göstərirlər.

Mədəni kapitalın əldə edilməsi uzun və məşəqqətli bir prosesdir. Burda işlədilən "kapital" məhfumu iqtsadiyyata aid edilməməlidir. Bu məhfum məşhur fransız sosioloqu Pierre Bourdieu tərəfindən işlənən "mədəni kapital" konsepsiyasının bir hissəsidir.

P. Burdiyeö deyirdi ki, cəmiyyətin hər üzvü əslində mədəni kapitalı toplamaq potensialına sahibdir. Bunun üçün gərəkli olan şeylər təbii ki, yatırım etməkdir. Yəni, oxumaq, incəsənət nümunələri ilə tanış olmaq, teatrlara getmək, sərgilərdə iştirak etmək və s. bu kimi fəaliyyətlər insanın mədəni kapitalının artmasına səbəb olur (9. Cəmiyyətin struktursuzluğu; 10.09.2014). Məsələn, bir insanın bir neçə dili bilməsi, o insanın həmin dildə mədəni kapital əldə etməsinə töhvə verə bilər.

P. Burdiyeö hər bir insanı "kapital" daşıyıcısı kimi görürdü. O, bildirirdi ki, həyatda uğur qazanmaq, nəyəsə nail olmaq üçün insan gərəkli bacarığa – "kapitala" sahib olmalıdır. P. Burdiyeönun məktəblilərlə bağlı apardığı araşdırmada gəldiyi nəticə belə idi ki, yüksək mədəni kapitala sahib olan ailələrin övladları təhsil göstəricilərinə görə daha yüksəkdə dayanırlar.

Ahıl vətəndaşlar arasında özfəaliyyət bədii yaradıcılıq üzrə respublika festivalının keçirilməsinin təşkil edilməsi və onların beynəlxalq bədii yaradıcılıq festivallarında iştirak etmələrinə şərait yaradılması, ahılların asudə vaxtlarını səmərəli keçirmələri üçün müvafiq tədbirlərin hazırlanması və həyata keçirilməsi, Respublikanın mədəniyyət ocaqlarında ahıllar üçün dərnək, bədii özfəaliyyət kollektivləri və maraqlar üzrə klubların yaradılması, işləmək arzusunda olan ahıl vətəndaşların yeni peşələrə yiyələnməsi üçün hazırlıq və yenidən hazırlıq tədris kurslarının təşkil edilməsi vacibdir.

Son dövrlərdə yaşlıların təhsilinin təşkilinə həm ölkəmizdə, həm də beynəlxalq miqyasda böyük diqqət yetirilir. Elmi-texniki tərəqqi insanların bilik və vərdişlərinin daim artırılması tələbini zəruriləşdirmiş, ixtisasartırma və yenidənhazırlanma təhsilinin əhəmiyyətini daha da aktuallaşdırmışdır. Elə bu səbəbdən də hələ Almaniyanın Hamburq şəhərində keçirilmiş beynəlxalq konfransda "Yaşlıların təhsili XXI əsrin açarı" adlandırılmışdır.

Cəmiyyətdə, iqtisadi həyatda, elm və mədəniyyətdə, təhsil sistemində və bir çox sahələrdə hər il yeniliklərlə zəngin olan sürətli inkişaf baş verir. Bu səbəbdən də yaşlıların təhsili ölkəmizdə fasiləsiz təhsil sistemi kimi qiymətləndirilir. Onların həyat fəaliyyətini müasir dövrün tələblərinə uyğunlaşdırmaq üçün təhsil xidmətlərinin yeni keyfiyyətlə təşkilinə ehtiyac yaranır [Xalq qəzeti. 2011.- 5 iyun.- Səh.3]

## ƏDƏBİYYAT


**1.** http://m.baki-xeber.com/3078.html 2014-05-17 "Tənha ahıllarla bağlı dövlət siyasəti milli-mənəvi dəyərlərə əsaslanır" [21/05/2014]

**2.** Ekspress qəzeti. "Ahıllara qayğı hər zaman dövlətin diqqətindədir" [24/10/2014]

**3.** http://vetennamine.az/ "1Oktyabr — Beynəlxalq Ahıllar günüdür" [02/10/2015],

**4.** http://news.milli.az/society/71786.html 1 Oktyabr 2011

**5.** http://news.milli.az/health/290224.html "Gerontofobiya - qocalıq qorxusu" [22/08/2014]

**6.** https://sosialish.wordpress.com/ "Yaşlı nəslin psixoloji problemləri nədən qaynaqlanır?" [18/05/2011]

**7.** Смагин В. А. Геронтология и теория надежности о долговечности человека
**8.** Hadi Rəcəbli: "Azərbaycan Respublikasının sosial müdafiə sistemi".
**9.** http://www.sosyalhizmetuzmani.org

## AHILLARIN HÜQUQLARININ QORUNMASININ VƏ SOSİAL MÜDAFİƏSİNİN AKTUALLIĞI

***Ayxan Rüstəmov***

### XÜLASƏ

Bu məqalə ahılların cəmiyyətdə rolunu, yaş xüsusiyyətlərini, aktiv təbəqə kimi əsas xarakteristik cəhətlərini nəzərdən keçirir. Ahıllara verilən əsas təriflər, eyni zamanda, onların həyat tərzi, dünyagörüşü müəyyən normalar kontekstində araşdırılır. Belə bir təbəqənin sosial müdafiəsi məsələsi də xüsusi olaraq vurğulanır. Ahılların üzləşdiyi sosial, iqtisadi, psixoloji, tibbi, məişət və digər əsas problemləri nəzərdən keçirilərək ümumiləşdirilib. Eyni zamanda ahılların yaşam tərzini yaxşılaşdırmaq və onları diqqət mərkəzində saxlayaraq dövlətlərin, xüsusilə də ölkəmizin bu sahədə icra etdiyi layihələr, proqramlar, qəbul edilmiş qanunlar aktual məsələlərdən biri kimi nəzərdən keçirilir. Ahılların asudə vaxtlarını səmərəli dəyərləndirmələri, onların təcrübələrinin yeni nəsillərə ötürmələrinin vacibliyi və insan kapitalının layiqli qiymətləndirilməsi məqalədə vurğulanan əsas məsələlərdəndir. Həmçinin sağlam həyat tərzi, sağlam qidalanmanın ahıllar arasında da təbliğinin olduqca mühim olması bildirilir. Yekun olaraq ahıl vətəndaşlarımızın daha sağlam, daha produktiv olması üçün ilk öncə onlara verilən diqqət daha da artırılmalı, onların önünü kəsən maneələr mümkün olduğu qədər aradan qaldırılmalı və daim dövlət bu sahədə qayğısını göstərməlidir.

## ВАЖНОСТЬ ЗАЩИТЫ ПРАВ И СОЦИАЛЬНОЙ ЗАЩИТЫ ПОЖИЛЫХ ЛЮДЕЙ

***Айхан Рустамов***

### АННОТАЦИЯ

В данной статье рассматривается роль пожилых людей в обществе, их возрастные особенности, а также их основные характеристики как активного класса. Основные определения, данные пожилым людям, при этом их образ жизни и мировоззрение рассматриваются в контексте определенных норм. Особо подчеркнут также вопрос социальной защиты такого класса. Рассмотрены и обобщены социальные, экономические, психологические, медицинские, бытовые и другие основные проблемы, с которыми сталкиваются пожилые люди. При этом улучшение образа жизни пожилых людей и удержание их в центре внимания, проекты, программы и принятые законы, реализуемые государствами, особенно нашей страной, в этой области рассматриваются как одна из актуальных задач. Важность пожилых людей эффективно оценивать свой досуг, важность передачи своего опыта новым поколениям, правильная оценка человеческого капитала входят в число основных вопросов, освещенных в статье. Также констатируется, что очень важно пропагандировать здоровый образ жизни и здоровое питание среди пожилых людей. В заключение, для того, чтобы наши пожилые граждане были здоровее и продуктивнее, прежде всего, необходимо повысить внимание, уделяемое им, максимально устранить препятствия, стоящие на их пути, а государство всегда должно принимать во внимание уход в этой области.

## THE İMPORTANCE OF PROTECTİNG THE RİGHTS AND SOCİAL PROTECTİON OF THE ELDERLY

***Aykhan Rustamov***

**SUMMARY**

This article considers the role of the elderly in society, their age characteristics, and their main characteristics as an active class. The main definitions given to the elderly, at the same time, their way of life and outlook are examined in the context of certain norms. The issue of social protection of such a class is also specially emphasized. The social, economic, psychological, medical, domestic and other main problems faced by the elderly have been reviewed and summarized. At the same time, improving the lifestyle of the elderly and keeping them in the center of attention, the projects, programs and adopted laws implemented by the states, especially our country, in this field are considered as one of the urgent issues. The importance of the elderly to effectively evaluate their leisure time, the importance of passing on their experiences to new generations, and the proper assessment of human capital are among the main issues highlighted in the article. It is also stated that it is very important to promote a healthy lifestyle and healthy nutrition among the elderly. In conclusion, in order for our elderly citizens to be healthier and more productive, first of all, the attention given to them should be increased, the obstacles that stand in their way should be removed as much as possible, and the state should always take care in this area.

# SOSİAL XİDMƏTİN TARİXİ VƏ ƏHATƏ DAİRƏSİ

***Bayramova Ləman Ədalət qızı***
***ATMU-nun II kurs magistrantı***
***leman.bayramli92@mail.ru***

***Açar sözlər:*** sosial xidmət, həssas qruplar, sosial iş, sosial qayğı, çətin həyat şəraiti
***Ключевые слова:*** социальное обслуживание, уязвимые группы населения, социальная работа, социальная помощь, тяжелые условия жизни.
***Keywords:*** social service, vulnerable groups, social work, social care, difficult living conditions.

Soisal müdafiənin idarəedilməsi və əhalinin rifahının yaxşılaşdıırlmasında mühüm sahələrdən biri sosial xidmət sahəsidir. Sosial xidmət dövlət dəstəyinə ehtiyacı olması haqqında müəyyənləşdirilmiş katiqoriyadan olan insanlara sosial dəstəyin təmin edilnəsini, onların hüquq və azadlıqlarının təminaçısı olaraq çıxış edir. Sosial xidmətin vacib elementlərindən biri də məhz ünvanlılığın təminidir ki, burada real olaraq ehtiyaclı olan insanların hər birinin sosial xidmətlə təmin edilməsi, rifah xidmətlərinin təmin edilərkən cəmiyyətin maraqlarına uyğun olması mühimdir [5, s 11-15].

Sosial xidmət cəmiyyətdə dezavantajlı qrupların çətinliklərinə rəğmən digərləri ilə bərabər şəkildə yaşamaları, rifah səviyyəsinin yüksəlməsini dəstəkləməkdədir. Sosial xidmət sosial ədaləti təmin etmək, sosial siyasəti yaxşılaşdırmaq, rifahı təmin etmək kimi məqsədləri əhatə edir.

Sosial xidmətin inkişaf tarixinin real olaraq cəmiyyətdə təzahürünün ilkin addımları məhz Sənaye İnqilabından sonrakı dövrdə meydana gəlmiş həyat tərzi ilə bağlıdır. Belə ki, sənayeləşmənin təzahürü və nəticəsi kimi insan qruplarının əksəriyyəti şəhərlərə axın etmiş, özü ilə bərabər isə bir sıra sosial problemlərin meydana gəlməsinə səbəb olmuşdur. Qeyd olunan sosial problemlər içərsində xüsusi dayanılmalı hissə məhz ailə-məişət zəmnində sosial münasibətlər zəncirində qoparılan, əlaqələrin itməsini qeyd edə bilərik. Sosial xidmətin ilkin təzahürləri məhz XIX əsrdə İngiltərədə təşkilatlar səviyyəsində formalaşmışdır. Bu təşkilatlardan "Xeyriyyə cəmiyyəti" xüsusilə imkanlı təbəqənin yoxsullara yardım etməsinə şərait yaratmışdır. Görülən tədbirlər yoxsullara münasibəti kökündən dəyişmiş, burada yeni yanaşmaların formalaşmasına imkan yaratmışdır. Yardım edilən şəxslər özlərindən aslı olmadan həmin vəziyyətə düşmüş, vəziyyətdən çıxa bilmədikləri üçün bu şəkildə həyatlarına davam edənləri dəstəyə layiqli hesab edilirdisə, seçimləri nəticəsində yoxsulluğa düçar olanlara isə dəstək göstərilmirdi [4, s 38].

Sosial xidmət sahəsinin formalaşması sosial iş peşəsinin formalaşması ilə qarşılıqlı əlaqəyə malikdir. Xüsusən diqqət çəkilməsi vacib olan inkişaf tendensiyası 1930-cu illərdə bütün dünyanı əhatə edən Böyük böhranın nəticələrindən irəli gələn tələblər təkan vermişdir. Belə ki, həmin dövlərdə cəmiyyəti əhatə edən kütləvi aclıq, həmçinin II Dünya Müharibəsinin nəticələri bu sahədə qanunvericiliyin formalaşmasında rol oynadı. 1960-cı illərdə isə fərdi şəkildə fəaliyyət göstərən sosial xidmmət qurumlar 3 yerə ayrılmışdır [6].

- Uşaqlara xidmət;
- Əlilliyi olanlara;
- Maddi təminatlarla bağlı.

Beləliklə sosial xidmət sahəsinin ilk cücərtilərinin yarandığı Böyük Britaniyada komitənin formalaşması, 1970-ci illərdə "Sosial xidmət Aktının" qəbulu həyata keçirilmişdir. 1989-cu ildə Uşaqlar, 1990-cı ilə "İcma Qayğısı" adlı aktlar qəbul edilmiş, siyasi mexanizmlər qurulmuşdur.

XX əsrin ikinci yarısı "post-sənaye" dövründə sosial xidmət məşğulluq sahəsində bütün inkişaf etmiş ölkələrdə təşkil edilməyə başladı. Repreduktiv xidmətlər və sosial xidmətlərin təmin edilməsinin sosial rifah, sosial ədalət baxımdan uğurlu olması, sosial xidmətin əssası olması fərziyyəsi ilə bağlı fikirlərini alt-üst etdi. Sosial xidmətlərdə növbəti çətin mərhələni isə sosial xidmətin müəyyən edilməsi prosesi və burada vahid standartların qəbul edilməsidir.

Sosial xidmətə geniş və dar yanaşmalar mövcuddur. Belə ki, geniş konspetdə sosial xidmət sosial rifahın təmin edilməsi məqsədi ilə əhatə etdiyi qayğıya ehtiyac olan qurpların xidmətlərlə əhatələnməsidir. Həmin sosial xidmətlərin şəxsin çətin həyat fəaliyyətindən çıxarılmasına dəstək xüsusiyyəti daşıyır. Belə ki, buraya mənzil, təhsil, səhiyyə, idman və digər sosial fəaliyyətlərin əlçatan təşkili aiddir. Sosial xidmət anlayışına dar yanaşmaya əsasən isə müəyyən komponentə diqqət yetirilərək həssas əhali qrupunun cəmiyyətə inteqrasiyası nəzərədə tutulur [ 2, s 3-4].

Sosial xidmətlər ictimai xarakter daşıyır və əsasən mövcud dövrdə sosial xidmətlər dövlət tərəfindən təşkil edilir. XX əsrin ikinci yarısında artıq Avropa ölələrində bu sahədə fəaliyyət dövlət tərəfindən təşkil edilməyə başlamışdır. Sosial xidmətlərin məqsədi sosial ədalətə nail olmaqdır.

Sosial xidmət sosial dövlətin komponenti kimi əsas vasitədir və özündə sosial inteqrasiya və bərabərliyi əhatə edir. Qeyd edilən komponentlərin təmin edilməsi isə fərdə uyğun olaraq universal prosesdir. Sosial xidmət eyni zamanda rifah konsepsiyası, sosial dövlət, sosial siyasətin də tərkib hissəsi kimi rol oynayır.

Sosial xidmət tarixində sosial xidmət departamentlərinin formalaşması və departamentin burada koordinasiya xidmətləri etməsi xüsusi rol oynamışdır. Xüsusən həmin zamanlarda bazar iqtisadiyyatının inkişafı nəticəsində özəl sahədə sosial xidmətlər formalaşdı. Dövlətin burada yükünü azaltdı.

Beynəlxalq inkişaf kontekstində sosial müdafiə sistemində dörd əsas funksiya mövcuddur ki, bunlar əsasında sosial xidmətlər göstərilir:

- Minimum həyat səviyyəsinin təmini və qorunmasının təşkili;
- \- Zəruri yaşayış vasitələrinin cəmiyyət tərəfindən əlçatanlığı və davamlılığı;
- Sosial deprivasiya və sosial dezaptasiyanın cəmiyyətdə qarşısının alınması üçün humanist fəaliyyətlərin təmini;
- Sosial təminat hüququnun tətbiqində ünvanlılığın təmini [6].

Sosial xidmətin növləri və formaları mövcuddur. Aşağıdakı dörd forması mövcuddur:

- Səyyar sosial xidmət( evdə)- evdə göstərilən xidmətlər üçün əsas olan bir neçə amillər vardır. Bunlar şəxsin tənha ahıl, əlilliyi olan şəxs, ahıl ər-arvad, xəstəliyin terminal mərhələsində olan yaxın qohum, qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamayan şəxslər üçün təyin edilir. Xüsusən evdə səyyar xidmətdə əsasən sosial-məişət xidmətləri göstərilir;
- Stasionar sosial xidmət fiziki və səhhətinə görə reabilitasiya və tibbi xidmətlər göstərilən qurumlarda göstərilir bu xidmətlər və psixi pozuntusu olan şəxslər xüsusi stasionar müəssisələrdə yerləşdirilir;
- Yarımstasionar (günərzi)- günün müəyyən hissəsində xidmət göstərən xidmətlər hesab edilir. Burada ahıl, əlilliyi olan şəxslərə, yetkinlik yaşına çatmayanlara tibbi, mədəni, sosial-məişət, digər xidmətlər göstərilməsidir;
- Sosial-məsləhət yardımı qanunların, problemlərin həllinə, həllində QHT-lərin, qurumların dəstəyi haqqında məlumatlandırma məqsədləri daşıyır [1, s 1, 5-6];

Sosial xidmətin aşağıdakı növləri mövcuddur;

1. Sosial-məişət xidmətləri;
2. Sosial-tibbi xidmətlər;
3. Sosial-pedoqoji xidmətlər;

4. Sosial-psixoloji xidmətlər;
5. Sosial-hüquqi xidmətlər;
6. Sosial-iqtisadi xidmətlər;
7. Palilativ xidmətlər [1, s 1, 5-6].

Sosial məişət xidmətləri evdə səyyar göstərilən xidmətlərdir. Bu xidmət həm sosial xidmətin növünü, həm də formasını özündə əks etdirir. Ölkəmizdə ahıl şəxslərə göstərilən sosial xidmətlər statistik hesabla evdə səyyar xidmətin əsasını təşkil edir. Ahıl şəxslər qanuna yaşı 70-ə çatan şəxslərdir. Evdə qismən ödənişli, tam ödənişli, ödənişsiz olaraq təşkil edilir. Ödənişsiz sosial xidmətlərə aşağdakı xidmətlər aiddir:

- Yemək hazırlamaq;
- Zəruri məhsulların alınması
- Mənzillərin yığışdırılması;
- Kommunal xərclərin ödənməsi;
- Adiyyati qurumlarla əlaqədə dəstək;
- Evə həkim çağırmaq, dərmanları almaq, həkimə aparmaq;
- Vətəndaş vəfat etdiyi zaman dəfni prossesində köməklik göstərilməsi.

Səyyar sosial xidmətin göstərilməsi aşağıdakı hallardan ən azı biri baş verdiyi zaman dayandırılır:

- Qismən ödənişli və ya tam ödənişli xidmətlərin bağlanılmış müqavilədə əksini tapması halları yaşandığı zaman;
- Əlilliyi olanlar müəssisəyə yerləşdirilərsə;
- Tənha ahıllar müəssisəyə yerləşdirildikdə;
- Şəxs vəfat etdikdə [7].

Aşağıdakı istisna hallar sosial-məişət xidmətinə aiddir:

1. Birgə yaşayan tənha ahıl ər-arvada sosial məişət xidməti bir sosial xidmətçi tərəfindən göstərilir.
2. Sosial reabilitasiya əlilliyi olan şəxslər üçün müəyyən olunan evdə xidmətdir.

Sosial xidmətlərin göstərilməsində beynəxalq təcrübə göstərir ki, sosial xidmətlərin təşkilində dövlət qrumları ilə yanaşı, qeyri hökümət təssislatlarınının, qeyri-kommersiya qrumlarının fəal iştirakını görməkdəyik.

Şəxs və ya ailə çətin həyat şəraitində o zaman hesab edilir ki, aşağıda əksini tapan əsaslardan azı biri olsun:

1. Uşağın valideynlərini itirməsi yaxud valideyn himayəsindən məhrum olması;
2. Əlilliyi olan uşaq;
3. Yetkinlik yaşına çatmayan baxımsız, sosial təhlükəli vəziyyətdə olma;
4. Xəstəlik, əlillik, ahıllıqla əlaqədar özünə qulluq qabiliyyətinin olmaması, eyni zamanda qulluq və köməklik göstərə biləcək qohumların və ya qanuni nümayəndələrin olmaması;
5. Şəxsin ictimai təhlükəli xəstəliyi tutulması nəticəsində həyat fəaliyyətinin məhdudlaşması halı;
6. İnsan alveri qurbanı;
7. Məişət zorakığından zərər çəkməsi;
8. Yaşayış yerinin olmaması;
9. Müəssisə sakinləri olan valideyn himayəsindən məhrum, valideynlərini itirmiş şəxslərin müəssisəni tərk etməsindən sonra yaşayış yerinin olmaması;
10. Şəxsin sosial yadırğama və sosial məhrumiyyət vəziyyətində olması.

Sosial xidmət sahəsi üçün aşağıdakı xidmət sahələrini xüsusiləşdirərək qeyd edə bilərik:

1. Yaşlılar və əlilliyi olan şəxslər üçün pansionatlar, sosial xidmət mərkəzləri;
2. Əhaliyə inteqrasiya olunması üçün dəstək göstərən sosial xidmət mərkəzləri;
3. Ailələrə, uşaqlara sosial dəstək üzrə ərazi mərkəzləri;

4. Yetkinlik yaşına çatmayanlar üçün mərkəzlər;
5. Təcili telefon məsləhət xidmətləri;
6. Evdə sosial yardım təminatı;
7. Müharibə qaziləri və əmək veteranları üçün ponsionatlar;
8. Mərhəmət ponsionatları;
9. Əlilliyi olan uşaqlar üçün reabilitasiya mərkəzləri;
10. Qadınar üçün böhran mərkəzləri;
11. Əhali üçün sosial-psixoloji reabiliyasiya mərkəzləri.

Bu kimi mərkəzlərdə gerentoloji xidmələrin, qəyyum məsələləri, psixoloji, pedoqoji, loqopedik, motor bacarıqların inkişafı üşün telefonla məsləhət, üz-üzə məsləhət, stasionar və yarımstasionar xidmətlərin təşkilini əhatə edir [ 5, s 11-15].

Yaşlılar üçün nəzərdə tutulan gerentoloji xidmətlərdə səyyar tibb bacılarının olması prosesisi də eyni zamanda ahıl şəxslərin tez-tez xəstələnə bilmə ehtimalını, onların tibbi ehtiyaclarınnı təmin etmək üçün dəstək xidmətlərini əhatə etməlidir. Gerentoloji xidmətlərdə ahıl şəxslərin asudə zamanını təşkil etmək üçün mədəniyyət mərkəzlərinin, kitabxanalar, ahıllar üçün klubların təşkili də eyni zamanda sosial xidmətin tərkib hissəsi olaraq qiymətləndirilməkdədir.

Keyfiyyətli sosial xidmətlərin tətbiqi həssas əhali qrupu üçün həyati əhəmiyyət kəsb edir. Bunun üçün əlaqələndirilmiş, koordinasiyalı, çoxsektorlu cavab tədəbirlərinin təşkili çətin həyat şəraitində olan şəxsləri hüquqlarının qorunması, təhlükəsizliyinin təmini ehtiyaclarının əldə edilməsində dəstək mexanizmləri, rifahının yüksəldilməsində mühim əhəmiyyət kəsb edir. Çətin həyat şəraitində olan şəxslərin qarşılaşdıqları problemlərin həllində onlara dəstək olmaq üçün ilk olaraq qarşılaşdıqları problemlərlə dərindən tanış olmaq, problemlərin əsas səbəblərini müəyyənləşdirmək lazımdır. Bunun üçün isə tədqiqat və təhlillərin təşkili xüsusi rol oynayır.

Sosial xidmətlərin uğurlu təşkilində koordinasiya mərkəzi element hesab edilir və çoxşaxəli, əlaqələndirilmiş, sistemli və davamlı fəaliyyət vacibdir. Bu qanunlarla, sosial siyasi proseslər əsasında fəaliyyət göstərən sistmedir. Eyni zamanda sosial xidmət sahəsində fəaliyyət göstərən komandaların və personalın sektorlar üzrə ixtisaslaşdırılmış fəaliyyəti, bölgüsünün uyğun təşkili olunmalıdır [3, s 6-7].

Sosial xidmətin təşkilində əsas subyekt olaraq dövlət, hakim elita çıxış edir. Sosial xidmətin təşkilində dövlət çətin həyat şəraitində olan şəxslərə təmənnasız sosial xidmətlərin təşkili üçün büdcə ayırmalıdır. Eyni zamanda vətəndaş cəmiyyətlərinin sosial xidmət sahəsində göstərdikləri fəaliyyətdə dövlət maliyyə dəstəyi ilə yardım etməlidir.

Sosial xidmət fərdə bir sıra xidmət seçimləri verir. Lakin bu seçimləri fərd müstəqil şəkildə etməsi və burada müstəqil seçimlər bacarığının formalaşması sosial xidmətin missiyalarından biridir. Şəxsin seçim bacarığının olması onu gücləndiriR və cəmiyyətə inteqrasiyasında xüsusi rol oynayır. Hətta Sosial iş məktəbinin nümayəndələri Markus və Franfurt qeyd edir ki, müasir texnologiyalar obyektin daxili azadlığını, seçim haqlarını "uddu və ləğv etdi, bir ölçülü cəmiyyət yarandı". Onun fikrincə cəmiyyətdə marginallaşma nəticəsində insanlar tənqidi düşünmə qabiliyyətini itirir, dar ixtisaslaşma meydana gəlir.

Sosial xidmətin uğurlu təşkili və təmini məhz hüquqi sistemin uğurlu təşkili ilə əlaqədardır. Sosial xidmətin prinsiplərindən olan sosial ədalətin ilk prinsipi hüuquqda təmin edilməsidir. İstər sosial xidmət sahəsində, istərsə də digər sahələrdə hüquqi təminatın tam, səmərəli təşkili nəticəyə təsir göstərir. Eyni zamanda davamlı uğurun əldə edilməsi üşün islahatların aparılması və bu islahatların davamlılığının təmin edilməsi nəticəyə təsir göstərən amillərdəndir.

Sosial xdimət sahəsində əfsuslanacaq məsələlərdən biri əhalinin əhəmiyyətli hissəsi bu məsələlərdən xəbərsizdir. Çətin həyat şəraitində olan şəxslərin bir qismi onlara aid olan

dəstək xidmətləri haqqında məlumatlı deyil, eyni zamanda məlumat əldə etməyə çalışmırlar.

Sosial xidmət zamanı şəxsin çətin həyat şəraitinə düşməsinə təsir göstərən səbəblərin aradan qaldırılması üçün aşağıdakı resurslara ehtiyac var:

1. Sosial yardım;
2. Sosial reabilitasia;
3. Sosial korreksiya;
4. Sosial sığorta;
5. Digər tədbirlər sistemi

Xüsusilə beynəlxalq təcrübədə sosial xidmət göstərən qeyri-kommersiya dəstəyi vermiş qurumlar içərisində QHT-lər seçilir. Almaniyada sosial xidmətlərin göstərilməsində, Böyük Britaniyada rifah dövləti ideyasının geniş yayılmaslnın ikinci mərhələsindən sonra kavzi-bazalar sisteminin tətbiqi inkişaf etmişdir. Polşada rəqabət yolu iə, Xorvatiyada yazılı razılaşmalarla sosial xidmətlərin göstərilməsində QHT-lər rol oynaya bilir [9, s 17].

## ƏDƏBİYYAT

1. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı. 5-6 s
2. Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə dəstək Agentliyi. Sosial xidmətlər: Qanunvericilik, tətbiqi və praktikası Bakı: 2014. 17 s.
3. Jean-Phillippe D. Social Justice, The international Encyclopedia of Political Communication. 2016. 323 p.
4. National Institute of Social Work. "Social workers: their role and tasks. Warwick University Press. 1997 38 p.
5. Зуева.Н. Л. Социальное Обслуживание Населения: Административно-Правовое Регулирование Монография Издательство Воронежского Государственного Университета. 2013. 11-15 с
6. https://gsdrc.org/professional-dev/social-protection-systems/
7. https://dost.gov.az/services/social-services/?kt=38

## SOSİAL XİDMƏTİN TARİXİ VƏ ƏHATƏ DAİRƏSİ

***Ləman Bayramova***

### XÜLASƏ

Sosial müdafiə insanların yoxsulluqla mübarizəsində zəifliyə və yoxsulluğa qalib gəlməkdə başlıca mənbə hesab edilir, insan inkişafına təşviqdə rol oynayır. Sosial müdafiə sistemində sosial xidmətlərin rolu mühümdür. Belə ki, çətin həyat şəraitində olan, həssas qrupdan şəxslərin digərləri ilə bərabər imkanlara sahib olması və həyat şəraitinin yaxşılaşdırılmasında dəstək xidmətlərinin rolu mövcuddur.

Məqalədə sosial xidmətn növü, formaları, hədəf qrupları, istiqamətləri əksini tapmışdır. Eyni zamanda sosial xidmətin formalaşma tarixi əksini tapmışdır.

## ИСТОРИЯ И СФЕРА СОЦИАЛЬНОЙ СЛУЖБЫ

***Ламан Байрамова***

### АННОТАЦИЯ

Социальная защита считается основным источником преодоления слабости и бедности в борьбе людей с бедностью и играет роль в содействии человеческому разви-

тию. Роль социальных служб в системе социальной защиты важна. Таким образом, существует роль служб поддержки в улучшении условий жизни уязвимых людей, находящихся в трудных жизненных условиях и имеющих равные возможности с другими.

В статье отражены вид, формы, целевые группы и направления социального обслуживания. При этом была отражена история становления социальной службы.

## HISTORY AND SCOPE OF SOCIAL SERVICE

***Laman Bayramova***

## SUMMARY

Social protection is considered to be the main source of overcoming weakness and poverty in people's fight against poverty, and plays a role in promoting human development. The role of social services in the social protection system is important. Thus, there is a role of support services in improving the living conditions of vulnerable people in difficult living conditions and having equal opportunities with others.

The type, forms, target groups and directions of social service are reflected in the article. At the same time, the history of the formation of social service was reflected.

# AZƏRBAYCANDA SOSİAL SİYASƏT SAHƏSİNDƏ PROBLEMLƏR VƏ HƏLLİ İSTİQAMƏTLƏRİ

***Əhmədov Asəf Məmmədağa oğlu***
***ATMU-nun II kurs magistrantı***
***ahmadov.asaf@bk.ru***

***Açar sözlər:*** sosial siyasət, Azərbaycanın sosial siyasəti, təhsil, səhiyyə, sosial xidmət, sosial-iqtisadiyyat.
***Ключевые слова:*** социальная политика, социальная политика Азербайджана, образование, здравоохранение, социальное обслуживание, социальная экономика.
***Keywords:*** social policy, social policy of Azerbaijan, education, healthcare, social services, social economy.

Azərbaycan müstəqlillik əldə etdikdən sonra siyasi, sosial-iqtisadi, mədəni və digər sahələrdə qısa dövr ərzində böyük inkişaf yolu keçmişdir. Ölkəmizdə 1991-ci il suverenliyin bərpasından sonra keçid dövrü qədəm qoymuşdur. Bu dövrdə məhz sosial-iqtisadi, ictimai-siyasi, münasibətlər formalaşmışdır.

Sosial siyasətin həyata keçirilməsi prosesləri mədəni sahənin inkişafına da təsir göstərir. Bunun səbəbi sosial siyasətin uğurlu təşkili insanın həyat səviyyəsinə təsir göstərir, bir sıra təminatlara əlçatanlıq yüksəlir və mədəni səviyyənin formalaşmasında yaxından iştirak edir.

Müstəqillikdən əvvəlki dövrdə də müəyyən problemlərin olması müstəqilliyin ilkin dövrlərində daha dərinləşmiş formada özünü göstərmişdir. Bu hadisələrlə bərabər Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğalı, ərazi bütövlüyünün pozulması, qaçqın və məcburi köçkün axını qarşıya bir sıra həll edilməli məsələlər qoyurdu. Ölkənin iqtisadi və sosial vəziyyəti isə ağır olduğundan məsələlərin həlli özü ilə yeni problemlər qarşıya çıxarırdı. Ölkəni bürüyən xaos dövlətin sosial müdafiə və ya digər sistemləri gücləndirmək üçün atacağı addımları arxa planda qoymaya sövq edirdi.

Məhz haqqında danışılan problemlərin aradan qaldırılmasında Ümumilli lider Heydər əliyevin hakimiyyətə gəlməsi ilə addımlar atılmağa başladı.

Hal-hazırda ölkəmizdə sosial siyasətin və mədəni sahənin inkişafında Ümumilli liderimizin adını daşıyan Heydər Əliyev Fondunun gördüyü işlər əvəzsiz rol oynamaqla, təhsil, mədəniyyət, incəsənət, sahələrində böyük layihələr keçirilir.

Məhz sosial sahədə tarzlığın təmin edilməsi üçün qarşıya bir sıra məqsədlər qoyulmuşdur. Bu məqəsədlərə çatmaq istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi üçün addımlar atılır:

- Güclü sosial müdafiə sisteminin qurulması;
- Ərzaq təhlükəsizliyinin təmin edilməsi;
- Vətəndaşların tibbi və səhiyyə sahəsində tələbatlarının ödənilməsi;
- Təbii fəlakətlərin qarşısının alınması;
- Vətəndaşların həyat rifahının yaxşılaşdırılması [9, s 45].

Ölkəmizdə sosial müdafiə sahəsində əsas subyektlərdən biri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyidir. Nazirlik sosial siyasət tədbirləri sırasında aşağıdakıların həyata keçirilməsində icraedici rol oynayır:

- Əməyin mühafizəsi və məşğulluq;
- Sosial təminat məsələləri;
- Demoqrafiya məsələləri
- Sosial hüquqların müəyyənləşməsi, tətbiqi, icrası, qorunması.

Sosial siyasətin mühüm sferalarından olan yoxsulluq, xəstəlik, əmək qabiliyyətinin itirilməsi kimi və digər bu kimi iztirablar sosial siyasətin prediment sahəsinin mühüm sferaları olmaqla sosial sabitliyin pzoulmasına bilavasitə təsir göstərirlər.

Sosial müdafiənin komponentləri sırasında sosial yardım, sosial sığorta, pensiya təminatı yoxsulluğun qarşısının alınmasında mühüm yer tutur. Sosial yardımlar və ya dövlətin sosial təminat sistemi əhalinin yoxsulluq vəziyyətindən çıxarlıması üçün nəzərdə tutulmuşdur. Sosial sığorta əməyin mühafizəsi, kompensasiyası məqsədi ilə həyata keçirilir. Sosial yardımlar iki qrupa bölünür. Bir qismində şəxsin əmək fəaliyyəti nəzərə alınmadan bir başa həmin katiqoriyadan olan şəxslərə sosial yardımı ehtiva edirsə, digər tərəfdən isə müəyyən tələblər əsasında ünvanlanlılması nəzərdə tutulur.

Sosial müdafiə sahəsində vacib anlayışlardan olan sosial reabilitasiya, sosial inteqrasiya, reinteqrasiya, sosial xidmətlər, sosial proqramlar əhalinin layiqli həyatının formlaşmasında müəyyən təsirləri öxündə əks etdirir.

Sosial siyasətin təşkilinin ən mühüm kompenentlərindən biri sosial həsssas qruplara sosial xidmətlərin göstərilməsinin təşkilidir. Sosial xidmət anlayışının mahiyyətinə varılmasında dövətin "xidmət" konsepsiyasının dərk edilməsi lazımdır. Bu konsepsiyaya əsasən dövlətin ali məqsədi vətəndalara xidmət göstərməkdir. Ölkəmizdə sosial xidmətlər "Sosial xidmət haqqında Qanuna" əsasən həyata keçirilik. Sosial xidmətin təşkilində qanuna əsasən həssas və çətin həyat şəraitində olan qruplar aşağıdakılardır:

- Ahıl, əlilliyi olan şəxslər və xəstəliyin terminal mərhələsində olub eyni ərazi hüdülarında yaxın qohumları və ailə üzvləri yaşamayan şəxslər;
- İnsan alveri qurbanları;
- Əlilliyi olan, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar:
- Məişət zorakılığı qurbanları:
- Cinsi zorakılıq və cinsi istismara məruz qalan uşaqlar;
- Yaşayış yeri olmayanlar;

Hazırda ölkəmizdə sosial xidmət sahəsində 563 əlilliyi olan yetkinlik yaşında şəxs sosial xidmət müəssisəsində sosial xidmətlər almış, 362 gəncə peşə hazırlığı və reabilitasiya xidmətləri göstərilmişdir. 274 Ahıl şəxsə xidmətlər göstərilib.

Lakin sosial xidmət sahəsində bir sıra problemlər var. Bunlardan biri qanunlarda müəyyən boşluqların olması, sosial xidmətə ehtiyacı olan katiqoriyalar üçün daha çox xidmətlərə ehtiyac olduğu halda xidmət sferasının növlər və formalar baxımdan geniş olmasına baxmyaraq, onları əhatə edən fəaliyyətlərin kifayət qədər geniş olmaması, sosial xidmətləri göstərən şəxslərin peşəkarlıq səviyyəsinin artırılmasına ehtiyacın olması, sosial işin ölkəmizdə çox gənc olmasıdır.

Sosial xidmətlər ixtisaslaşmış idarə, müəssisə, təşkilatlar tərəfindən həyata keçirilir. Bu dövlət və qeyri-dövlət qurumları olmaqla iki yerə bölünür. Sosial xidmətlər aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

- Sosial-məişət;
- Sosial yardım;
- Evdə sosial xidmət;
- Stasionar sosial xidmət;
- Protezləşdirilmə, ortezləşdirilmə, onların hazırlanması;
- Reabilitasiya vasitələrinin təminatı;
- Sosial -tibbi, sosial-psixoloji, sosial-pedoqoji xidmətlərin təşkili;
- Qadın və uşaqların dəstəklənməsi;
- Miqrantlara dəstək xidmətlərinin təşkili [1, s 3].

Əlilliyi olan şəxslərin, veteranlar, qazilər, şəhid ailələri, uşaqlı sosial həssas ailələrin qeyri-hökümət təşkilarları ilə qarşılıqlı fəaliyyəti.

Sosial müdafiə yoxsulluğun qarşısının alınmasında mühüm rol oynayan sistemdir. Sosial siyasətin tərkib hissəsi olan sosial müdafiə sahəsində qarşıya çıxan bir sıra problemlər var. Bunlar sırasında sosial xidmət, məşğulluq, sosial təminat kimi məsələlər əhatə edilmişdir.

Ünvanlı dövlət sosial yardımı alanların daha yaxşı əmək fəaliyyətinə yönləndirilməsinin təmin edilməsi

Ünvanlı sosial yardım təyin olunan ailələrdə işləməyən şəxslərin peşə öyrənməyə, məşğullluğa yönləndirilməsi;

Əlilliyi olan şəxslərin ailələrinə dayə xidmətləri, kompleks səyyar xidmətlərin təşkili;

Pentensianar müəssisələrdən çıxanlarla sosial işlərin, inteqrasiya tədbirlərinin aparılması;

8. Telli, Azime," Azerbaycan'ın Enerji Diplomasisi", Ed: Çomak, H., Sancaktar, C., Yıldırım, Z. (2015), "Enerji Diplomasisi", İstanbul, Beta Yayıncılık, s.347-370.

9. Türkyılmaz, Oğuz (2015), "Enerji Politikaları Artan Bağımlılık Çıkmazında", TMMOB Şubat 201Sayı 200
10. http://enerjienstitusu.com/2016/03/24/analiz-tanapprojesi-turkiyeye-hem-ekonomik-hem-politik-fayda-sagliyor
11. http://www.ito.org.tr/itoyayin/0003993.pdf
12. http://www.asam.org.tr/tr/etkinlikgoster.asp?ID=12&kat1=4
13. www.turkbe.org.az/Egitim.htm;Agamaliyev,2003
14. http://www.tika.gov.tr/Dosyalar/Azerbaycan.doc

## AZƏRBAYCAN RESPUBLİKASI VƏ TÜRKİYƏ RESPUBLİKASI ARASINDA SİYASİ ƏMƏKDAŞLIQ

***Məmmədov Bəxtiyar***

### XÜLASƏ

Türkiyə 28 ilə yaxındır ki, Ermənistan tərəfindən beynəlxalq səviyyədə tanınmış torpaqlarının qanunsuz hərbi işğalı ilə bağlı Azərbaycanın ədalətli mövqeyini daim müdafiə edir. Sentyabrın 27-dən noyabrın 10-dək Azərbaycanın Ermənistanı məğlub etməsi ilə nəticələnən Ermənistana qarşı 44 günlük müharibədə Türkiyə möhkəm siyasi və mənəvi dəstək verdi.

28 ildir Ermənistanın qanunsuz işğalı altında olan Azərbaycanın tarixi-mədəni şəhəri Şuşada 2021-ci il iyunun 15-də Azərbaycan və Türkiyə liderləri arasında imzalanan Şuşa Bəyannaməsi iki qardaş xalqı rəsmən müttəfiq edib. Bu, iki qardaş xalq arasında Şuşa bəyannaməsi ilə yaranmış hərtərəfli və köklü münasibətlərin növbəti mərhələyə çıxarılmasının nümunəsidir. Hər iki ölkənin bütün dövlət qurumları Şuşa Bəyannaməsinin ruhu əsasında fəaliyyətlərini uyğunlaşdırmaq və sinxronlaşdırmaq üçün bir-biri ilə sıx əməkdaşlıq edir. Şuşa Bəyannaməsinin Azərbaycan və Türkiyə parlamentləri tərəfindən təsdiqlənməsi ona hər iki ölkənin milli qanunvericilik orqanına daxil edilmiş qanun statusu verdi.

İki dövlət arasında müxtəlif səviyyəli səfərlər ikitərəfli münasibətlərin inkişafına böyük töhfə verib. Bu çərçivədə 1994-2022-ci illər ərzində Azərbaycan Respublikasının prezidentləri Türkiyəyə 42-dən çox rəsmi və işgüzar səfər ediblər. Sonuncu səfər 28 may 2022-ci ildə Bakıda keçirilən TEKNOFEST festivalı çərçivəsində baş tutub. Bu müddət ərzində Türkiyə prezidentləri Azərbaycana 22 dəfədən çox səfər ediblər. Türkiyə Prezidentinin Azərbaycana sonuncu səfəri 2021-ci il oktyabrın 25-də Füzuli Beynəlxalq Hava Limanının açılışı çərçivəsində baş tutub.(13)

## ПОЛИТИЧЕСКОЕ СОТРУДНИЧЕСТВО МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И ТУРЕЦКОЙ РЕСПУБЛИКОЙ

***Мамедов Бахтияр***

### АННОТАЦИЯ

На протяжении почти 28 лет Турция постоянно отстаивала справедливую позицию Азербайджана в отношении незаконной военной оккупации Арменией его международно признанных земель. Турция оказала сильную политическую и моральную поддержку в 44-дневной войне против Армении с 27 сентября по 10 ноября, в результате которой Азербайджан разгромил Армению.

Шушинская декларация, подписанная между лидерами Азербайджана и Турции 15 июня 2021 года в Шуше, историческом и культурном городе Азербайджана, находящемся под незаконной оккупацией Армении в течение 28 лет, официально сделала два братских народа союзниками. Это пример перевода всеобъемлющих и глубоко укоренившихся отношений между двумя братскими народами на следующий этап, установленный Шушинской декларацией. Все государственные ведомства обеих стран тесно сотрудничают в целях гармонизации и синхронизации своей деятельности в духе Шушинской декларации. Одобрение Шушинской декларации парламентами Азербайджана и Турции придало ей статус закона, включенного в национальные законодательные органы обеих стран.

Визиты различного уровня между двумя странами внесли большой вклад в развитие двусторонних отношений. В этом контексте в течение 1994-2022 годов президенты Азербайджанской Республики совершили более 42 официальных и деловых визитов в Турцию. Последний визит состоялся 28 мая 2022 года в рамках фестиваля ТЕКНОФЕСТ, проходившего в Баку. За этот период президенты Турции посетили Азербайджан более 22 раз. Последний визит президента Турции в Азербайджан состоялся 25 октября 2021 года в рамках открытия международного аэропорта Физули (13).

## POLITICAL COOPERATION BETWEEN THE REPUBLIC OF AZERBAIJAN AND THE REPUBLIC OF TURKEY

***Mammadov Bakhtiyar***

## SUMMARY

For nearly 28 years, Turkey has been constantly defending the fair position of Azerbaijan regarding the illegal military occupation of its internationally recognized lands by Armenia. Turkey provided strong political and moral support in the 44-day war against Armenia from September 27 to November 10, which resulted in Azerbaijan's defeat of Armenia.

The Shusha Declaration signed between the leaders of Azerbaijan and Turkey on June 15, 2021 in Shusha, the historical and cultural city of Azerbaijan, which has been under the illegal occupation of Armenia for 28 years, officially made the two brotherly nations allies. This is an example of taking the comprehensive and deep-rooted relations between the two brotherly nations to the next stage, established by the Shusha Declaration. All government agencies of both countries work closely together to harmonize and synchronize their activities in the spirit of the Shusha Declaration. The approval of the Shusha Declaration by the parliaments of Azerbaijan and Turkey gave it the status of a law included in the national legislature of both countries.

Visits of various levels between the two countries have greatly contributed to the development of bilateral relations. In this context, during the years 1994-2022, the presidents of the Republic of Azerbaijan made more than 42 official and business visits to Turkey. The last visit took place on May 28, 2022 within the TEKNOFEST festival held in Baku. During this period, Turkish presidents visited Azerbaijan more than 22 times. The last visit of the President of Turkey to Azerbaijan took place on October 25, 2021, within the framework of the opening of the Fuzuli International Airport (13).

# QANUN QARŞISINDA BƏRABƏRLİK HÜQUQU

***Nuruzadə Elvin Samiq***
***BDU-nun II kurs magistrantı***
***elvin.nuruyev.777@mail.ru***

***Açar sözlər:*** bərabərlik, hüquq, qanun, vətəndaş, bəyannamə
***Ключевые слова:*** равенство, закон, закон, гражданин, декларация.
***Keywords:*** equality, law, rights, citizen, declaration

Bu gün demək olar ki, bütün konstitusiya və beynəlxalq müqavilələrdə bərabərlik prinsipi öz əksini tapıb. Bu prinsip müasir hüquq sistemlərində qanunun aliliyinin ən mühüm hissəsi kimi qiymətləndirilir.

Hər bir tarixi dövr və hər bir cəmiyyət özünəməxsus istehsal üslublarının və dəyərlərinin əks olunması nəticəsində bərabərlik haqqında fərqli anlayışları ehtiva etmişdir. Məsələn, qədim dövrlərdə vətəndaşlar arasında bərabərlikdən danışarkən, orta əsrlər üçün "Allah qarşısında bərabərlik", burjua inqilabından sonra "qanun qarşısında bərabərlik" və sənaye inqilabından sonra qanun qarşısında bərabərliyi tamamlayan sosial dövlətin məhsulu olan "imkanlar bərabərliyi"ni qeyd edə bilərik.

Bərabərlik uğrunda mübarizə və bu yolda atılan addımlar çətin və uzun bir macəradır. O vaxta qədər ucadan, bəyannamələrdə belə söylənilməmiş bir arzunu yazıb bəyan etməkdən daha çox şey baş verdi. Ancaq bu çətin səyahət bu araşdırmanın əhatəsinə daxil deyil və buna görə də bu prosesə daxil edilməyəcəkdir. Məqalə bərabərlik anlayışının hüquqi ölçüsü və inzibati məhkəmə qərarlarında əks olunan təcrübələr haqqındadır. Əgər bütün təsisatları və anlayışları ilə hüquq dövləti sistemi qurulmazsa, bərabərlik prinsipinin xoş bir mifdən artıq olması mümkün olmayacaq. Bu araşdırma üçün mühüm əhəmiyyət kəsb edən qanun qarşısında bərabərlik prinsipi hüquqi dövlətin əsas tələblərindən biri olmaqla yanaşı, həm də qanunun aliliyi sisteminin həyata keçirilməsini tələb edir.

İnsan hüquqlarının çərçivəsində qanun qarşısında bərabərlik hüququ qədər vacib və əsas olan bir neçə mövzu var. Konstitusiyalarda, beynəlxalq müqavilələrdə və dünya miqyasında cəmiyyətlərin kollektiv şüurunda təsbit olunmuş bu prinsip ədalətin dayandığı təməl kimi xidmət edir. Mədəniyyətlər və sivilizasiyalar arasında bütün fərdlərin qanun qarşısında bərabər rəftar hüququna malik olması anlayışı dərin rezonans doğurur və bu, insan ləyaqətinin və ədalətli cəmiyyətə can atmağın fundamental aspektini əks etdirir.

Qanun qarşısında bərabərlik hüququ müxtəlif beynəlxalq hüquqi sənədlərdə və dünyanın bir çox milli konstitusiyalarında təsbit edilmiş ədalət və insan hüquqlarının əsas prinsipidir. Bu, mahiyyət etibarı ilə o deməkdir ki, irqindən, etnik mənsubiyyətindən, cinsindən, dinindən, sosial statusundan və ya hər hansı digər xüsusiyyətlərindən asılı olmayaraq, bütün fərdlərin qanun qarşısında bərabər rəftar hüququ vardır. Bu prinsip ayrı-seçkiliyi qadağan edir və hər kəsin hüquq sistemi qarşısında eyni hüquq və müdafiəyə malik olmasını təmin edir.

Qanun qarşısında bərabərlik qanunların qərəzsiz və ədalətli şəkildə bütün fərdlərə tərəfdarlıq və qərəz olmadan tətbiq edilməsini tələb edir. O, ədalət mühakiməsinin ayrı-seçkilik və qərəzsiz həyata keçirilməsini və bütün şəxslərin hüquqi müdafiə vasitələrinə və lazımi prosedurlara çıxışına təminat verir. Bu prinsip qanunun aliliyini qorumaq və ədalətli və bərabərhüquqlu cəmiyyəti inkişaf etdirmək üçün vacibdir.

Bütövlükdə, qanun qarşısında bərabərlik hüququ demokratik cəmiyyətlərin təməl daşıdır və ədalətin, ədalətin və insan hüquqlarına hörmətin təşviqi üçün vacibdir.

**Tarixi aspekt**

Qanun qarşısında bərabərlik anlayışının hüquqi və fəlsəfi inkişafının minilliklərə qədər uzanan kökləri var. Qədim sivilizasiyalardan Maarifçilik mütəfəkkirlərinə qədər ədalətin

ixtiyari fərqlərə kor olması lazım olduğunun tanınmasına doğru tədricən təkamül olmuşdur. Magna Carta, Fransa İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi [1] və digər əsas sənədlər hüquqi bərabərliyin müasir konsepsiyalarının əsasını qoymuşdur.

**Hüquqi əsasları**

Qanun qarşısında bərabərlik hüququ həm beynəlxalq, həm də ölkədaxili çoxsaylı hüquqi sənədlərdə öz ifadəsini tapır. 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsi özünün 7-ci maddəsində bəyan edir ki, "Hamı qanun qarşısında bərabərdir və heç bir ayrı-seçkilik olmadan qanunla bərabər müdafiə olunmaq hüququna malikdir" [3]. Eynilə, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt və regional müqavilələr də bu prinsipi gücləndirir.

Milli səviyyədə konstitusiyalar adətən qanun qarşısında bərabərliyi təmin edən müddəaları ehtiva edir. Bu müddəalar dövlətin özbaşına hərəkətlərinə və ayrı-seçkilik praktikasına qarşı bir dayaq rolunu oynayır, fərdlərin öz hüquqlarını müdafiə edə bilmələrini və qərəzsiz hüquqi proseslər vasitəsilə hüquqlarını müdafiə edə bilmələrini təmin edir.

**Qanun qarşısında bərabərlik**

Qanun qarşısında bərabərlik təkcə yüksək ideal deyil; ədalət mühakiməsinin həyata keçirilməsinə dərin təsir göstərir. Öz mahiyyətində bu prinsip hüquq sistemlərinin mənşəyindən, statusundan və əqidəsindən asılı olmayaraq bütün fərdlərə ədalətli və qərəzsiz yanaşmasını tələb edir. O, irq, cins, din və ya hər hansı digər xüsusiyyətə görə bütün formalarda ayrı-seçkiliyi qadağan edir.

Qanun qarşısında bərabərliyi təmin etməklə, cəmiyyətlər öz hüquqi institutlarına etimadı təşviq edir və vətəndaşları arasında aidiyyət hissini gücləndirirlər. Fərdlər hüquq sistemi tərəfindən ədalətli davranıldığını dərk etdikdə, qanuna daha çox hörmət edirlər və vətəndaş həyatında fəal iştirak edirlər. Əksinə, bərabərsizlik və ədalətsizlik hüquqi mənzərəni bürüdükdə, sosial birlik pozulur və hüquq sisteminin legitimliyi şübhə altına alınır.

Şəxsi ideallarına baxmayaraq, qanun qarşısında tam bərabərliyə nail olmaq dünyanın bir çox yerlərində davamlı mübarizə olaraq qalır. Ayrı-seçkilik tətbiqləri, sistemli qərəzlər və institusional maneələr milyonlarla insanın bu fundamental hüququn həyata keçirilməsinə mane olmaqda davam edir. Etnik azlıqlar, yerli xalqlar və LGBTQ+ fərdləri [4] də daxil olmaqla, təcrid olunmuş icmalar tez-tez ədalət mühakiməsinə çatmaq və qanun qarşısında bərabər rəftar almaq üçün qeyri-mütənasib maneələrlə üzləşirlər.

Üstəlik, ayrı-seçkiliyin müxtəlif formalarının kəsişməsi bərabərsizliyi hərtərəfli həll etmək səylərini çətinləşdirir. Məsələn, qara dərili qadınlar həm cinslərinə, həm də irqlərinə görə mürəkkəb ayrı-seçkiliyə məruz qala bilərlər ki, bu da onların hüquq sistemində zəifliyini daha da artırır [2]. Bu kəsişən bərabərsizliklərin tanınması və aradan qaldırılması qanun qarşısında həqiqi bərabərliyə nail olmaq üçün vacibdir.

Çətinliklərə baxmayaraq, qanun qarşısında bərabərlik hüququnun həyata keçirilməsi istiqamətində irəliləyiş davam edir. Vətəndaş cəmiyyəti təşkilatları, insan haqları müdafiəçiləri və hüquq mütəxəssisləri hökumətlərin məsuliyyət daşımasında və bərabərlik və ədaləti təşviq edən hüquqi islahatların inkişafında mühüm rol oynayırlar. Sosial media və qlobal əlaqə ilə gücləndirilmiş ot kökləri hərəkatları hakimiyyətdə olanlardan ədalətlilik və hesabatlılıq tələb edən səsləri gücləndirir.

Eyni zamanda, insan hüquqlarına və qanunun aliliyinə hörmət mədəniyyətinin inkişaf etdirilməsi bərabərliyin çiçəkləndiyi cəmiyyətlərin yetişdirilməsi üçün vacibdir. Təhsil, ictimai maarifləndirmə kampaniyaları, etiraz və ayrı-seçkiliklə mübarizəyə yönəlmiş təşəbbüslər bu səyin mühüm komponentləridir. Fərdlərə öz hüquq və vəzifələri haqqında bilik verməklə, cəmiyyətlər hamı üçün ədaləti qorumaq üçün kollektiv öhdəliyi inkişaf etdirə bilər.

**Nəticə**

Qanun qarşısında bərabərlik hüququ ədalətli və ədalətli cəmiyyət axtarışında ümid işığı kimi dayanır. Bu prinsipi təcəssüm etdirir ki, hər bir fərd, vəziyyətindən asılı olmayaraq, qanun qarşısında bərabər rəftar və müdafiə hüququna malikdir. Bu hüququn müdafiəsi sistemli ədalətsizliklərin aradan qaldırılması, ayrı-seçkilik tətbiqlərinin ləğvi və insan hüquqlarına hörmət mədəniyyətinin təşviqi üçün birgə səylər tələb edir.

Müasir dünyanın mürəkkəbliklərini gəzərkən gəlin bərabərlik, ədalət və qanunun aliliyi prinsiplərinə sadiqliyimizi bir daha təsdiq edək. Qanun qarşısında bərabərlik hüququnu müdafiə etməklə biz nəinki hər bir insanın xas ləyaqətinə hörmətlə yanaşırıq, həm də daha ədalətli və mərhəmətli dünyanın əsasını qoyuruq.

## ƏDƏBİYYAT

1. Bakırcı K. (2012). Cinsiyet Ayrımcılığı Yasağı İlkesinin İstisnaları ve Objektif Haklı Nedenler, Seçkin Yayıncılık. Ankara.
2. Dutertre G. (2003). Avrupa İnsan Hakları Mahkemesi Kararlarından Örnekler. Avrupa Konseyi Yayınları, 291.
3. Gülmez M. (2010). İnsan Haklarında Ayrımcılık Yasaklı Eşitlik İlkesi. Çalışma ve Toplum Dergisi. 2. 217-265.
4. Байтин М.И. Сущность права (Современное нормативное правопонимание на грани двух веков). М., 2005.

## QANUN QARŞISINDA BƏRABƏRLİK HÜQUQU

*Nuruzadə Elvin*

## XÜLASƏ

Bu gün demək olar ki, bütün konstitusiya və beynəlxalq müqavilələrdə bərabərlik prinsipi öz əksini tapıb. Bu prinsip müasir hüquq sistemlərində qanunun aliliyinin ən mühüm hissəsi kimi qiymətləndirilir.

Hər bir tarixi dövr və hər bir cəmiyyət özünəməxsus istehsal üslublarının və dəyərlərinin əks olunması nəticəsində bərabərlik haqqında fərqli anlayışları ehtiva etmişdir. Məsələn, qədim dövrlərdə vətəndaşlar arasında bərabərlikdən danışarkən, orta əsrlər üçün “Allah qarşısında bərabərlik”, burjua inqilabından sonra “qanun qarşısında bərabərlik” və sənaye inqilabından sonra qanun qarşısında bərabərliyi tamamlayan sosial dövlətin məhsulu olan “imkanlar bərabərliyi”ni qeyd edə bilərik.

Bərabərlik uğrunda mübarizə və bu yolda atılan addımlar çətin və uzun bir macəradır. O vaxta qədər ucadan, bəyannamələrdə belə söylənilməmiş bir arzunu yazıb bəyan etməkdən daha çox şey baş verdi. Ancaq bu çətin səyahət bu araşdırmanın əhatəsinə daxil deyil və buna görə də bu prosesə daxil edilməyəcəkdir. Məqalə bərabərlik anlayışının hüquqi ölçüsü və inzibati məhkəmə qərarlarında əks olunan təcrübələr haqqındadır. Əgər bütün təsisatları və anlayışları ilə hüquq dövləti sistemi qurulmazsa, bərabərlik prinsipinin xoş bir mifdən artıq olması mümkün olmayacaq. Bu araşdırma üçün mühüm əhəmiyyət kəsb edən qanun qarşısında bərabərlik prinsipi hüquqi dövlətin əsas tələblərindən biri olmaqla yanaşı, həm də qanunun aliliyi sisteminin həyata keçirilməsini tələb edir.

## ПРАВО НА РАВЕНСТВО ПЕРЕД ЗАКОНОМ

***Нурузаде Элвин***

## АННОТАЦИЯ

Сегодня принцип равенства отражен практически во всех конституционных и международных договорах. Этот принцип считается наиболее важной частью верховенства права в современных правовых системах.

В каждый исторический период и каждое общество существовало различное понимание равенства как отражение его уникальных стилей производства и ценностей. Например, говоря о равенстве граждан в древности, мы можем упомянуть «равенство перед Богом» для средневековья, «равенство перед законом» после буржуазной революции и «равенство возможностей», являющееся продуктом социального государство, дополняющее равенство перед законом после промышленной революции.

Борьба за равенство и шаги, предпринятые на этом пути, – это трудное и долгое приключение. Произошло гораздо больше, чем просто было написано и провозглашено желание, которое до сих пор даже не произносилось вслух в декларациях. Однако это трудное путешествие выходит за рамки данного исследования и поэтому не будет включено в этот процесс. В статье речь идет о правовом измерении понятия равенства и практике отражения в решениях административных судов. Если система верховенства права со всеми ее институтами и концепциями не будет создана, принцип равенства не сможет стать более чем приятным мифом. Принцип равенства перед законом, который важен для данного исследования, является одним из основных требований правового государства, но также требует реализации системы верховенства права.

## RIGHT TO EQUALITY BEFORE THE LAW

***Nuruzade Elvin***

## SUMMARY

Today, the principle of equality is reflected in almost all constitutional and international treaties. This principle is considered the most important part of the rule of law in modern legal systems.

Each historical period and each society has contained different understandings of equality as a reflection of its unique production styles and values. For example, when talking about equality between citizens in ancient times, we can mention "equality before God" for the Middle Ages, "equality before the law" after the bourgeois revolution, and "equality of opportunity" which is the product of the social state that complements equality before the law after the industrial revolution.

The struggle for equality and the steps taken on this path is a difficult and long adventure. A lot more happened than writing and declaring a wish that had not even been spoken out loud until then in declarations. However, this difficult journey is not within the scope of this study and therefore will not be included in this process. The article is about the legal dimension of the concept of equality and the practices reflected in administrative court decisions. If the rule of law system with all its institutions and concepts is not established, it will not be possible for the principle of equality to be more than a pleasant myth. The principle of equality before the law, which is important for this study, is one of the main requirements of the legal state, but also requires the implementation of the rule of law system.

## PSİXOLOGİYA

# MÜHARİBƏ VƏ TERROR QURBANLARININ YAŞADIĞI PSİXOLOJİ PROBLEMLƏR

***İsaxanlı Aydan Firuddin qızı***
***ATU-nun II kurs magistrantı***
**aydan.isaxanli@gmail.com**

***Açar sözlər:*** müharibə, terror, qurban, psixoloji problem,posttravmatik stress pozuntusu.
***Ключевые слова:*** война, терроризм, жертва, психологическая проблема, посттравматическое стрессовое расстройство.
***Keywords:*** war, conspiracy, victim, psychological problems, post traumatic stress disorder.

Müharibə və terrorlar uzun illərdir ki, dünyada və ölkəmizdə günahsız insanların həyatına birbaşa təsir edən kütləvi qorxu və təşviş doğuran sosial problemlərdir. Hər bir müharibə fiziki, sosial, ekoloji və mənəvi sağlamlığa dərin və sağalmaz ziyanlara yol açaraq böyük sosial böhrana, travmaya səbəb olur (1). Müharibə və terror aktlarına məruz qalan insanlarda fiziki yaralanmalardan əlavə narahatlıq, gərginlik, depressiya, posttravmatik stress pozuntusu kimi psixososial təsirlər də risk altında olur. Bu hadisələr sadəcə müharibədə yaralanan insanlar üçün deyil, bütün toplum üçün sosial münasibətlər, iqtisadiyyat, həmçinin psixi sağlamlıq cəhətdən riskli olan hadisələrdir (2). Müharibə və terror aktlarının birbaşa, yaxud dolayı yolla məruz qalmalarından asılı olmayaraq insanların hər iki qrup insanların psixi problemlərinin şiddəti arasında heç bir əlaqə yoxdur (3). Beləliklə, müharibə travmatik hadisədir və hətta hadisələrdən məkan baxımından uzaq olan insanlar da birbaşa olaraq ona məruz qalırlar (4). Hərbi qulluqçuların orqanizmi çox vaxt onların iş və döyüş qabiliyyətini azaldan amillər kompleksinin təsirinə məruz qalır.

Xarakterin aksentuasiyası, emosional-iradə və ya sinir-psixi dayanıqsızlığın olması, psixofizioloji halların özününizamlama qabiliyyətinin inkişaf etməməsi, stressogen amillərin təsiri onlarda requlyator mexanizmlərin pozulmasına, davranış və fəaliyyətin dezadaptasiyasına gətirə bilir. Ürək-damar sisteminin fəaliyyəti yenidən qurulur, arterial təzyiq dəyişir, ürək döyüntülərinin sayı artır (5,6). Tədqiqatçıların araşdırmalarına görə, elə bu dövrdə hərbi xidmətə yeni gələnlər arasında müxtəlif etiologiyalı xəstəliklərin səviyyəsi artır. Hərbi xidmət tapşırıqlarının yerinə yetirilməsinə, hərbi-peşə fəaliyyəti amillərinin təsirinə və regionun coğrafi-iqlim şəraitinə adaptasiyanın formalaşmasında homeostazın qanunauyğun dəyişiklikləri baş verir. Bu zaman meydana çıxan mikrosirkulyasiya pozuntuları patologiyadan əvvəlki vəziyyətləri formalaşdıran və inkişaf edən xəstəliyin klinik mənzərəsini modifikasiya edən patogenetik mexanizmlərdən biridir. Hərbi qulluqçuların hərbi xidmət və döyüş fəaliyyətinin müxtəlif mərhələlərinə adaptasiya problemi, onun psixofizioloji xüsusiyyətləri sonadək öyrənilməmişdir (7).

Hərbi xidmət şəraitinin psixogen təsirini frustrasiyaedici kimi qiymətləndirib söyləyə bilərik ki, həmin şəraitə dezadaptasiya sinir-psixi dayanıqsızlıq əlamətləri ilə özünü büruzə verir. Hərbi qulluqçularda sinir-psixoloji dayanıqsızlıq – fərdin sinir-emosional gərginlik şəraitində fəaliyyəti zamanı öz iş qabiliyyətini, psixi funksiyaların stabilliyini saxlaya bilməməsi kimi anlaşılır. Hərbi xidmətə yeni gəlmiş hərbi qulluqçula-rın sinir-psixi pozuntularının böyük əksəriyyəti adaptasion xarakter daşıyır, yəni hərbi xidmət üçün xarakterik olan yeni həyat və fəaliyyət şəraitinə onların uyğunlaşmasındakı çətinliklərlə əlaqədardır (8).

Tarixi nöqteyi nəzərdən baxdığımız zaman, müharibə və terror aktlarının psixi sağlamlıq sahəsindəki təsirləri özünü Birinci Dünya Müharibəsindən sonra daha şiddətli göstərmişdir.

Bu vəziyyət, Vietnam savaşından qayıdan Amerikalı əsgərlərdə travmayla əlaqədar olaraq stress reaksiyalarının görülməsi nəticəsində "Vietnam sindromu" adlandırılmışdır. Müharibə və terror hadisələri beynəlxalq müqavilələr, insan haqları və demokratiyanın qorunması prinsiplərinə baxmayaraq şiddətini artırıb qlobal miqyasda bütün dünyaya təsir edərək qarşımızda böyük bir problem olaraq qalır. Mövcud vəziyyət sadəcə demokratiya, iqtisadiyyat, sülh kimi sahələrdə deyil, bütöv toplumun psixi sağlamlığı üzərində də istər qısamüddətli, istərsə də uzunmüddətli öz mənfi təsirini qoyur (9, 10).

Bu zaman dünyadakı şərtlər dəyişdikcə nəticədə terror hadisələri, müharibələr ön plana çıxaraq şəxsi və kütləvi travma mənbəyi olub, cəmiyyətin psixi sağlamlığını mənfi yöndə dəyişməyə davam edir (10). Zorakılıq hadisələrinin miqyasının bu qədər genişləməsi, bu hadisələrin yaşandığı ölkələrin aşağı gəlir səviyyəsinə malik olması və zorakılıq hadisələrindən ən çox cavan nəslin təsirlənməsi kimi faktorlar psixi sağlamlıq baxımından müxtəlif risklər arasındadır (11, 12).

Müharibə və terror hadisələrinin törətdiyi mənəvi dağıntılar, cəmiyyətin müxtəlif təbəqələrinə müxtəlif mənəvi ölçülərdə təsir edir. Həm təcili, həm də qalıcı travmatik təsirlər müharibə və terror hadisələrinin insanların psixi sağlamlığı üzərində kəskin stress pozuntusu və posttravmatik stress pozuntusu kimi iki formayla nəticələnir. Kəskin stress pozuntusu dedikdə; travmadan sonrakı stress simptomları: müharibə ilə əlaqəli hadisələri xatırladıqda kədərlənmə, narahat edici düşüncələr, xəyallar, diqqət konsentrasiyanın pozulması, yuxuya getməkdə çətinlik, əsəbilik, qəzəb partlayışları, hadisənin yenidən yaşanması ilə bağlı şiddətli qorxu halları, həyat keyfiyyətinin, eləcə də qayğı axtarışının azalması nəzərdə tutulur. Bu simptomlara qarşı erkən müdaxilə aparılmadıqda ciddi psixoloji pozuntuların ortaya çıxması qaçınılmazdır.

Sistematik araşdırma və meta analizdə müvafiq araşdırmalar edilmiş və müharibə və terror aktlarına məruz qalmış 15549 insan içərisində ən çox görülən psixi pozuntuların posttravmatik stress pozuntusu (31%), major depressiv pozuntu (25%) və ümumiləşdirilmiş təşviş pozuntusu (14%) olduğu müəyyən olunmuşdur. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) son 10 il ərzində müharibə və terror hadisələrindən təsirlənən hər beş şəxsdən birində (22%) depressiya, narahatlıq, təşviş pozuntusu, posttravmatik stress pozuntusu, bipolyar pozuntu və ya şizofreniya görülə biləcəyini vurğulamışdır (13).

Böyük terror hadisəsindən sonra aparılan digər araşdırmada hücumlarda fiziki olaraq yaralanan və yaralanmayan qrup şəxslərin hər ikisində posttravmatik stress pozuntusu, major depressiv pozuntu, aqorafobiya, ümumiləşmiş təşviş pozuntusu və panik pozuntu görülmüşdür. Hücumlarda yaralanan şəxslərdə, hadisələrdən sonrakı ikinci və on səkkizinci həftə ərzində posttravmatik stress pozuntusunun görülmə sıxlığı 44,1%-34%, major depressiv pozuntusunun görülmə sıxlığı 31,5%-23,7%, aqorafobiyanın görülmə sıxlığı 23,8%-20,7%, ümumiləşmiş təşviş pozuntusunun görülmə sıxlığı 13,4%-12,4%, panik pozuntunun görülmə sıxlığı 9,4%-11,3% dəyərində hesablanmışdır. Kontrol qrupda isə nəticələr: posttravmatik stress pozuntusunun görülmə sıxlığı 12,3% və 3,5%, major depressiv pozuntunun görülmə sıxlığı 8,5% və 5,4%, aqorafobiyanın görülmə sıxlığı 10,5% və 8,7%, ümumiləşmiş təşviş pozuntusunun görülmə sıxlığı 8,6% və 8,2%, panik pozuntunun görülmə sıxlığı isə 2,1% və 2,7% şəklində müəyyən olunmuşdur (14,15). Bu vəziyyət hər iki qrupun: həm eksperimental, həm də kontrol qrupların psixoloji sağlamlıq xidmətlərindən yararlanmalarının vacib olduğunu göstərir. Travmatik hadisələrdən sonra ən geniş yayılmış psixi pozuntular kəskin stress pozuntusu və posttravmatik stress pozuntusu olsa da, eləcə də yaranan digər komorbid pozuntulara da rast gəlmək olur.

Ən sıx rast gəlinən komorbid psixi pozuntulara komorbid depressiya, ümumiləşmiş təşviş pozuntusu, panik pozuntu, alkoqol asılılığı, sosial adaptasiya pozuntusu, ailə münasibətlərinin pozulması, intihar düşüncələrini misal göstərmək olar. Posttravmatik stress pozuntusuna depressiya simptomları da əlavə olunduqda aşağı gəlir səviyyəsi, işsizlik, sosial

izolyasiya, dəstəkverici sistemlərin yetərsiz olması və xronik fiziki xəstəliklər kimi problemlər pasientlərin psixoloji sağalmasını daha da ləngidərək xəstəliklə başa çıxma ehtimalını azaldır. I və II Qarabağ müharibəsində, eləcə də zaman-zaman atəşkəsin pozulması nəticəsində hər iki tərəf xeyli itki verib. Rəsmi açıqlamaya görə, II Qarabağ müharibəsində Azərbaycanın 2783 hərbi qulluqçusu həlak olub. Həlak olanlarla yanaşı, müharibədən müxtəlif dərəcəli xəsarətlərlə çıxanlar da var. Müharibədə fiziki xəsarət almasa da, onun fəsadını yaşayanlar insanlar da az deyil. Bu fəsadlardan biri posttravmatik stress pozuntusudur. Bu pozuntu hər yaş dövründə müşahidə olunur. Ən geniş yayılmış psixotravmatik faktorlara ağır somatik travmalar (9,4%), fiziki təzyiq (8,3%), başqasının ağır yaralanması və ya ölümünə şahid olma (7,1%) aiddir (15).

PTSP-nin klinik simptomları travmatik hadisənin yenidən yaşanması; yəni yaşanmış hadisə ilə bağlı arzu olunmayan davamlı xatirələr, "flashback"lər (hadisələrin sanki gerçəklikdə baş verməsinə bənzəyən parlaq təəssüratlar), dəhşətli (qorxulu, kabuslu) yuxugörmələr, yaşanmış hadisəni xatırladan obyekt, yaxud situasiyalara qarşı güclü emosional və ya fiziki reaksiyalar (yaşanmış hadisənin xatırlanması zamanı baş verən neqativ reaksiyalar, kədərlilik kimi emosional; tərləmə, taxikardiya kimi fiziki reaksiyalar) və s. Hallardan ibarətdir. Eyni zamanda çəkinmə və emosional donma: travma ilə assosiasiya olunan fəaliyyətdən, yerlərdən, fikirlərdən, hiss və danışıqlardan (söhbətlərdən) güclü, aşkar, düşünülmüş şəkildə çəkinmə, əvvəllər zövq verən fəaliyyətlərə qarşı marağın itməsi, digər insanlardan uzaqlaşma, özünütəcrid, emosiyaların ifadə edilməsində çətinlik hallarına da rast gəlinir. Yüksək oyanıqlıq halları; hərəkətlərin tormozlanması və ya ajitasiya, yuxuya getmənin, yaxud yuxuda qalmanın çətinləşməsi, tez qıcıqlanma, yaxud hiddətlənmə, diqqətin cəmlənməsində çətinliklər, oyaq qalma (ayıqlıq) səviyyəsinin artması, qorxu hissinin artması, psixotravmatik hadisənin unudulmasıdır (16).

Bununla yanaşı, başlanğıcda xəstəlik simptomları meydana çıxan fərdlərin 1/3-də növbəti 3 il ərzində bu simptomlar qalır və onlarda maddə (narkotik, psixoaktiv, alkoqol) sui-istifadəsi kimi ikincili problemlər yarada bilər (17). Bəzi hallarda posttravmatik stress pozuntusu intiharla nəticələnir. Azərbaycanda 36 qazi intiharı qeydə alınmışdır. Sanki bu, ABŞ-da "Vyetnam sindromu", Rusiyada "Əfqan sindromu" adı ilə tanış olan psixoloji problemdir, indi Azərbaycanda onun analoqu yaşanır (17,18). Bu vəziyyət travmatik hadisənin hansı dövründə müalicə təklif olunmalı və spontan sağalma baş verməyən şəxslər necə müəyyən olunmalıdırlar kimi suallar doğurur (19). Travmadan sonrakı ilk 2-4 həftə boyunca kəskin PTSP əlamətlərinin olması müalicənin başlanılması üçün vacib göstəricilərdən biridir (20).

İnsan həddən artıq qorxu, çarəsizlik və dəhşət yaşadığında sanki fiziki bütünlüyünü itirmiş kimi hiss edir və bu zaman meydana gələn pozuntu post-travmatik stress pozuntusu adlanır. Hadisəni təkrar-təkrar yaşaması- flashback, qorxulu yuxular görməsi, hadisəni xatırladığında aşırı gərginlik hissi, sıxılma, insanlardan uzaqlaşma və yadlaşma, yoldaş, dost və ailə münasibətlərində çətinliklə qarşılaşma, diqqət dağınıqlığı, tez özündən çıxma, əsəbilik halları, gələcəyə inamın itməsi, yüksək səsə qarşı həssaslıq, diqqət və düşüncə dağınıqlığı və s. pozuntuya misaldır (20,21). Bu göstəricilər stressin beyində yaratdığı təsirlə əlaqəlidir. İnsanda qorxu, çarəsizlik, dəhşət yaratmaq üçün planlanan psixoloji müharibənin nə qədər təhlükəli olduğu səbəb olduğu göstəricilərdən anlaşılır (22). Müharibənin içərisində aktiv şəkildə yer alan əsgərlər də müxtəlif travmatik təsirlərə məruz qalır. Bu təsirlər döyüş bölgəsinin xüsusiyyətləri, təhsil qəzaları, cinsi travmalar kimi risk faktorlardır (23).

Hərbi vəzifəsini yerinə yetirərkən cinsi travmaya məruz qalan döyüşçü mənəvi olaraq sarsıntı keçirməsi halı normaldır. Bu travma tipinə hərbi xidməti zamanı əsgərin öz iradəsindən asılı olmayaraq daxil olduğu hər cür cinsi travma aiddir. Bunlar; əsgərin cinsi əlaqəyə məcbur edilməsi, əsgər imtina etdiyi halda onun təhdid olunması, eyni zamanda cinsi əlaqəyə daxil olarsa ona yaxşı münasibət göstəriləcəyi vədinin verilməsi, əsgər alkoqolun təsirində ikən, yaxud yuxuda olarkən cinsi zorakılıq hallarının baş verməsi

hallarının olmasıdır. Burada cins, irq, etnik mənsubiyyət, cinsi orientasiya və digər mədəni dəyişənlər cinsi travmanın təsirini artıra bilər. Cinsi travmadan zərər çəkən qazilərdə görülə bilən psixoloji pozuntular digərlərinə nisbətən daha geniş yayılmışdır (24).

Nəticədə onlarda qəfil emosional reaksiyalar, hər zaman qəzəbli hisslər, depressiv hallar, emosional donuqluq, sevgi və ya xoşbəxtlik duyğularını yaşamaqda çətinlik çəkmə, yuxuya getmə və ya yuxunu davam etdirmədə çətinlik, narahat yuxular, yuxuda kabuslar görmə, diqqəti cəmləmək və davam etmədə çətinlik, yaddaş problemləri, cinsi travma təcrübələrini xatırladıqda məyus hiss etmək, spirt və ya asılılıq yaradan maddə qəbulu, özünü daima təhlükədə hiss etmə, sosial təcrid olunma, şəxsiyyətlərarası münasibətlərin dağılıb parçalanması, işəgötürənlərin, yaxud avtoritet olan şəxslərlə münasibətlərin pozulması, cinsi əlaqədə çətinliklər, xronik ağrılar, qida qəbulu pozuntuları və digər fiziki problemlər, sağlamlıq problemləri yarana bilir (25).

## ƏDƏBİYYAT


1. Musisi S, Kinyanda E. Long Term Impact of War, Civil War, and Persecution in Civilian Populations Conflict and Post-Traumatic Stress in African Communities. Front. Psychiatry, 2020, s. 11-20.
2. Wenzel T, Schouler OM, Stompe T. Editorial: long term impact of war, civil war and persecution in civilian populations. Front Psychiatry. 2021. 12-733493.
3. Uppsala Conflict Data Programme UCDP. Organized violence in 2019. 2020. https://ucdp.uu.se/ year/2019.
4. The UN Refugee Agency UNHCR. Forced displacement in 2019. Copenhagen: UN High Commissioner for Refugees [Internet]. 2020. Erişim Tarihi: 2 Şubat 2023.
5. Brück T, d'Errico M. Food security and violent conflict: introduction to the special issue. World Dev. 2019 117:167–71.
6. Tay AK, Riley A, Islam R, Welton-Mitchel C, Duchesne B, Waters V, et al. The culture, mental health and psychosocial wellbeing of Rohingya refugees: a systematic review. Epidemiol Psychiatr Sci. 2019 28(5):489–94.
7. Rubin, GJ, Wesselly S. The Psychological and Psychiatric Effects of Terrorisim Lessons From London. Psychiatric Clin North Am. 2013 36(3):339-350.
8. Vieira CM, Haas AD, Garcia DB, Roa-Diaz ZM, Minder B, Gamba M, etal. Mental health of migrants with pre-migration exposure to armed conflict: a systematic review and meta-analysis. Lancet Public Health. 2022 7:e469–81.
9. Uwishema O, Sujanamulk B, Abbass M, Fawaz R, Jawed A, Aboudib K, et al. Russia-Ukraine conflict and COVID-19: a double burden for Ukraine's healthcare system and a concern for global citizens, Postgrad Med J 2022 98(1162):569-571.Maslach C, Jackson SE, Leiter M. The Maslach Burnout Inventory Manual. 1997.
10. Chaaya C, Thambi VD, Sabuncu, Ö, Abedi R, Osman AOA, Uishema O, et al. Ukraine – Russia crisis and its impacts on the mental health of Ukrainian young people during the COVID-19 pandemic. Ann Med Surg (Lond). 2022 79:104033.
11. Cai H, Bai W, Zheng Y, Cheung T, Su Z, Jackson T, et al. International collaboration for addressing the mental health crisis among child and adolescent refugees during the Russia-Ukraine war. Asian J Psychiatr.2022 72:103109.
12. Bryant RA, Schnurr PP, Pedlar D. Mental Health Research and Innovation Collaboration in military and veteran mental health. Addressing the mental health needs of civilian combatants in Ukraine. Lancet Psychiatry. 2022 9(5):346–347.
13. World Health Orgnization. Scaling-up mental health and psychosocial services in war-affected regions: best practices from Ukraine. Wold Health Organization. [Internet]. 2022. Erişim Tarihi: 22 Ocak 2023. Erişim Adresi: https://www.who.int/news-room/feature-

stories/detail/scaling-up-mental-health-and-psychosocial-services-in-war-affected-regions--best-practices-from-ukraine.
14. Ferrando L, Galea S, Corton ES, Mingote C, Camba EG, Liria AF et all. Long-term psychopathology cahnges among the injured and members of the community after a massive terrorist attack. Eur Psychiatry. 2011 26(8):513-517.
15. Neria Y, Gross R, Olfson M, Gameroff MJ, Wickramaratne P, Das A, et all. Posttraumatic stress disorder in primary care one year after the 9/11 attacks. Gen Hosp Psychatry. 2006 28(3):213-222.
16. Jacobsen MH, Norman C, Nguyen A, Brackbill RM. Longitidunal Dterminants of depression amanog World Trade Center Health Registery enrollles, 14-15 years after the 9/11 attacks. J Affect Disord. 2018 15(229):483-490.
17. Gibert L, Verdonk C, Tarquinio C, Falissard B, Wissam El-Hage, Trausselard M. 2015 Paris terrorist attacks: Care guidance for the massive influx of psychologically traumatized civilian casualties. Helping victims to develop their capacity to create a safe and protective environment by leveraging social resources like family, and inner resources like mindfulness should optimize global resilience. J Trauma Dissociation. 2020 4(1):pp.100079.
18. Morina N, Stam K, Pollet TV, Priebe S. Prevelenace of Deprression and posttraumatic stress disorder in adult civilian survivors of war who stay in war-afflicted regions. A systematic review and meta-anlysis of epidemiological studies. J Affect Disord. 2018 15(239):328-338.
19. U.S Department of Veterans Affairs. PTSD: National Center for PTSD. 2023.
20. Boscarino JA, Adams RE, Galea S. Alcohol use in New York after the terrorist attacks: A study of the effects of sychological trauma on drinking behavior. Addict Behav. 2006 32:6060-621.
21. Kerridge BT, Khan MR, Rehm J, Sapkota A. Terrorism, çivil war and related violence and substance use disorders morbidity and mortality: A global analysis. J Epidemiol Glob Health. 2014 4(1):61-72.
22. Pfefferbaum B, Tucker P, North CS, Slaughter HJ, Nitiema P. Children of terrorism survivors: Physiological reactions seven years foloowing a terrorist incident. Compr Psychiatry. 2014 55(4):749-754.
23. Abiola T, Udofia O, Sheikh tl, Yusuf DA. Fear of future terrorism: Asssociated psychiatric burden. Asian J Psychiatr. 2018 38:53-56.
24. Rubin GJ, Wessely S. The Psychological and Psychiatric Effects of Terrorism. Psychiatr Clin North Am. 2013 36(3):339-50.

## MÜHARİBƏ VƏ TERROR QURBANLARININ YAŞADIĞI PSİXOLOJİ PROBLEMLƏR

***İsaxanlı Aydan***

### XÜLASƏ

Dünyada və ölkəmizdə uzun ildən bəri böyük əhali kütləsinə təsir edən müharibə və terror əməliyyatları, insanlar tərəfindən yaranmış sosial problemlərdir. Bu əməliyyatlar, məsum insanların həyatlarına birbaşa təsir edərək böyük qorxu, narahatlıq və dəhşət hissləri yaradır. Hər münaqişə, hər müharibə, fiziki, sosial, ətraf mühit və mental sağlamlıq cəhətdən dəhşətli problemlərə səbəb olaraq böyük sosial kriz və travma yaradır. Müharibə və terror əməliyyatlarına məruz qalan şəxslər, təşviş pozuntusu, depresiya və posttravmatik stress pozuntusu, həmçinin fiziki zədə riski altındadırlar. Bu hadisələr, sosial həyat, iqtisadiyyat və sağlamlıq kimi bir çox sahədə müxtəlif problemləri əhatə edir və bunlar yalnız birbaşa təsir olunanlar üçün deyil, bütün cəmiyyət üçün belədir. Müharibə və terror

əməliyyatlarının effektlərinə birbaşa və ya uzaq məsafədən məruz qalmanın problemləri arasında bir əlaqə yoxdur. Yəni, hadisələrə hətta birbaşa məruz qalmayan insanlarda da travmatik mental problemlərə rast gəlinir. Bu məqalədə, müharibə və terror əməliyyatlarına məruz qalan insanların psixoloji problemləri müasir məlumatların işığı altında təhlil etmək məqsədilə tərtib edilmişdir.

## ВОЗНИКШИЕ ПСИХОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ У ЖЕРТВ ВОЙНЫ И ТЕРРОРИЗМА

***Айдан Исаханлы***

## АННОТАЦИЯ

Длительные войны и террористические операции, которые в течение многих лет затрагивают большую часть населения во всем мире и в нашей стране, являются социальными проблемами, созданными людьми. Эти операции непосредственно влияют на жизни невинных людей, вызывая огромные чувства страха, беспокойства и ужаса. Каждый конфликт, каждая война приводят к серьезным проблемам в физическом, социальном, экологическом и психическом планах, создавая значительные социальные кризисы и травмы. Люди, подвергнутые воздействию войн и террористических операций, подвержены риску развития анксиозных расстройств, депрессии, посттравматического стрессового расстройства и физических повреждений.

Эти события затрагивают различные аспекты жизни, такие как социальная сфера, экономика и здравоохранение, оказывая влияние не только на прямых пострадавших, но и на всё общество. Нет прямой связи между воздействием войн и террористических операций, независимо от того, прямого или дальнего, и серьезностью психических проблем. Другими словами, даже люди, не прямо подвергшиеся этим событиям, могут столкнуться с травматическими психическими проблемами. Эта статья направлена на анализ психологических проблем людей, подвергшихся воздействию войн и террористических операций, в свете современной информации.

## PSYCHOLOGİCAL PROBLEMS EXPERİENCED BY VİCTİMS OF WAR AND TERRORISM

***İsakhanli Aydan***

## SUMMARY

Wars and terrorist operations, which have been affecting large populations worldwide and in our country for many years, are social problems created by humans. These operations directly impact the lives of innocent people, causing immense feelings of fear, anxiety, and horror. Every conflict, every war, results in severe problems in terms of physical, social, environmental, and mental health, creating a significant social crisis and trauma. Individuals exposed to wars and terrorist operations are at risk of experiencing anxiety disorders, depression, post-traumatic stress disorder, and physical harm.

These events encompass various problems in areas such as social life, economy, and health, affecting not only those directly impacted but the entire society. There is no direct correlation between exposure to the effects of wars and terrorist operations, whether direct or distant, and the severity of mental health problems. In other words, even individuals not directly exposed to these events may experience traumatic mental health issues. This article aims to analyze the psychological problems of individuals exposed to wars and terrorist operations in the light of contemporary information.

# MOBBİNQİN SƏBƏBLƏRİ VƏ ONUN CƏMİYYƏTƏ VƏ İNSANLARA TƏSİRİ

***Yılmaz Seray Erdal qızı***
***BDU-nun II kurs magistrantı***
***sserayy18@hotmail.com***

***Açar sözlər: :*** mobbinq, psixoloji zorakılıq, təqib, psixoloji təzyiq
***Ключевые слова:*** моббинг, психологическое насилие, преследование, психологическое давление
***Key words:*** mobbing, psychological violence, harassment, psychological pressure.

Mobbinq sözü latınca "mobile vulgus" dan gəlir. Psixoloji və emosional zorakılıq, təzyiq, mühasirə, təqib, narahatlıq və sıxıntı deməkdir. İş yerində bəzən bir şəxs, bəzən də bir qrup həmkarı sistemli şəkildə işçiyə uzun müddət psixoloji və emosional təzyiq göstərir və nəticədə işçinin özünə inamının və özünə dəyər verməsinin, aşağı düşməsinə səbəb olur. Reputasiyasına xələl gətirməsi, ruh halının pisləşməsi ile sonda şəxs qurbana çevrilir [13].

İş həyatında və təşkilatlarda şərtlərin daim dəyişdiyi qloballaşan dünyada iqtisadi, demoqrafik və sosial şərtlər iş mühitində texniki və struktur dəyişikliklərə səbəb olduğundan rəqabətin artması; fərdin iş mühitindəki münasibətlərini çətinləşdirir və bu vəziyyət yeni problemlər ilə yanaşı sağlamlıq risklərinin görünməsinə səbəb olur. İş sağlamlığı tədqiqatlarında çox istifadə edilməyən fiziki, bioloji və kimyəvi risklərə əlavə olaraq, son illərdə naməlum psixososial risklər artmaqdadır ve onlara daha tez-tez rast gəlinir. Mobbing, şəxslərin iş həyatında qarşılaşsalarda, müxtəlif səbəblərdən gündəmə gətirilə bilməyən, çox da üzə çıxarılmayan bir problemdir.

Mobbing iş yerində gərgin və ziddiyyətli mühit yaradan, işin dinçliyini pozan bütün psixoloji səbəblərdən yaranır və işçilərin iş səmərəliliyinə və məmnunluğuna mənfi təsir göstərir. Mobbinq vəziyyəti birbaşa və ya dolayısı ilə edilən planlı, hesablanmış, şüurlu, aqressiv davranışlar, haqsız ittihamlar, insituasiyalar, eyhamlar, şayiələr və təqib yolu ilə nüfuzdan salma, alçaldıcı, emosional sui-istifadə və təcavüzə səbəb olan zərərli davranışları özündə ehtiva edir [7, s.61-71].

Mobbinq; bir iş yerindəki işçilər və ya işəgötürənlərin təhqiredici, qeyri-etik, əxlaqa uyğun gəlməyən, sistemli söz və davranışlarla başqa şəxsi və ya şəxsləri incitmək; bir sözlə, başqalarına qarşı psixoloji zorakılıq tətbiq etdikləri bir prosesdir. Mobbinq tətbiq etməkdə məqsəd adətən iş mühitində istəmədikləri insanları yormaq, onlara hər cür təzyiq göstərmək, və onların uğur qazanmasının qarşısını almağı hədəfləməkdir. Mobbinqlə məşğul olanlar hədəf aldıqları insanlara qarşı hədə-qorxu siyasəti tətbiq etməklə onların müqavimətini qırmaq və işdən çıxmalarına səbəb olmaq məqsədi güdür [5, s.7, 2, s.318].

Mobbinqin Yaranma Səbəbləri

Mobbinq ümumiyyətlə təcavüzkarın psixoloji quruluşundan, qurbanın psixoloji quruluşundan, işlədiyi qurumdan və ya sosial dəyərlərdən və mühakimələrdən yarana bilər. Mobbinq bir insanın ruhuna hücumdur və qurbanın hörmət edilməyən biri olması nəzərdə tutulur. Qurbanı iş mühitindən uzaqlaşdırmaq məqsədi daşıyan dedi-qodular və zərərçəkənin şirkət daxilində nüfuzuna xələl gətirməyi hədəfləyən davranışlar mobbinqi ortaya qoyur [15].

Təşkilatlarda mobbinqin bir çox səbəbi ola bilər. Misal, mobbinqdən əvvəl baş vermiş hər hansı bir şəxsiyyətlərarası münaqişə ile başlaya bilər. Daha sonra güclü insan qarşı tərəfi hədəf alaraq psixoloji zorakılığa başlayır. Qurban təslim olmaqdan imtina etdiyinə və nəzarətə müqavimət göstərdiyinə görə, təcavüzkar qəzəbli və kobud olur və hərəkətə keçir. Onun üçün indi yeganə məqsəd onu narahat edən hədəfi etdiyinə peşman etmək, öz eqosunu təmin etmək, iş yerindən uzaqlaşdırmaq, mümkünsə onu işdən çıxartmaqdır.

Mobbinq muhiti iki tərəfi əhatə edir və bəzi amillərin təsiri altında meydana çıxır. Burada tərəflərin yəni həm təcavüzkarın, həm də qurbanın şəxsi xüsusiyyətlərine elave olaraq iş yerinin korporativ şəxsiyyəti, iyerarxiyası və s. kimi sosial amillərin təsir etdiyi bir prosesdir. Leymanna görə təşkilatlarda təşkilati və idarəetmə problemləri ile yanaşı zəif liderlik şərtləri mobbing muhitinin yaranmasına gətirib çıxarır [4, s.251-275].

Mobbinq tətbiq edənlərin törətdiyi mobbinqin səbəblərinə nəzər saldıqda belə görünür ki mobbinq təcavüzkarları normal davranırlar, mükəmməl və yaxşı görünürlər, ancaq əslində öz həqiqi şəxsiyyətlərini gizlədirlər, Qurbana qarşı yönəltdikləri alçaldıcı davranışlarla özlərini ucaldırlar, onlar öz yerlərini qoruyur və güclərini artırırlar. Ümumiyyətlə diqqətə ac, tərifə son dərəcə ehtiyacı olan və başqalarını mobbing etməklə öz çatışmazlıqlarını, şişirdilmiş eqoları ilə ört-basdır etməyə çalışan insanlardır [11].

Mobbingə məruz qalan şəxslərdən qaynaqlanan mobbinqin səbəbləri araşdırıldığında isə, qurbanların çox fərqli xüsusiyyətlərə sahib olmaq əvəzinə onlar çoxluqla yüksək performansa malik olduğu vəziyyətlərdə, ümumiyyətlə yüksək idealları olan, çalışqan və dürüst, mobbinq tətbiq edənlərin irəliləyişlərinin qarşısının alınması üçün uğurlarına həsəd apardıqları, iş itkisi qorxusu olan, onlara dəstəyin olmadığı və münaqişəyə girə bilməyən insanlardır [8, s.71].

Mobbingə səbəb olan inzibati problemlər isə, vəziyyətə məhəl qoymamaq, göz yummaq, görməzlikdən gəlmək, kimi amillərdən qaynaqlanır. İşçi iqtidar qarşısında qurban və aciz qalır. Həddindən artıq iyerarxik quruluş, mobbinqdən əmək intizamını və səmərəliliyini artırmaq üçün bir vasitə kimi istifadə etmək, zəif rəhbərlik, münaqişələrin idarə edilməsinin xüsusiyyətləri və qeyri-adekvatlığı, komanda işinin olmaması, təhsil fərqlərinin nəzərə alınmaması, yanlış idarəetmə, stresli və monoton iş yeri muhiti, rəhbərliyin mobbinqin mövcudluğunu qəbul etməməsi, yanlış kadr seçimi; qeyri-etik, əxlaqa uyğun gəlməyən təcrübələr kimi müxtəlif təşkilati səbəbləri mobbing mühitini yaradan amillərə aid etmək olar. (2).

Mobbinq niyə edilir?

Mobbinqin niyə baş verdiyini dəqiq başa düşmək çətin olsa da, buna kömək edə biləcək bir neçə əsas amil var. Bunlara aşağıdakılar daxil ola bilər:

Səlahiyyətdən sui-istifadə: Hakimiyyətdə olan birinin səlahiyyətindən sui-istifadə etməsi başqalarının özlərini təhlükəsiz hiss etmədiyi bir mühit yarada bilər. Bu kimi güc dinamikası ədalətsiz hədəflənməyə və zorakılıq hisslərinə gətirib çıxara bilər ki, bu da mobbingə səbəb olur [17].

Dominantlığın qurulması: Zəhərli iş yoldaşı və ya menecer nəzarət və ya təsir əldə etməyə çalışırsa, onlar üstünlük təşkil etmək üçün mobbinq taktikalarından istifadə edə bilərlər.

Etibarsızlıq: İnsanlar bir-birinə güvənmədikdə, ədalətsiz olaraq bir-birlərini hədəfə ala bilərlər. Qısqanclıq və inciklik hissləri burada mühüm rol oynaya bilər.

Rəqabət: Mobbinq işçinin başqa bir işçi ilə birbaşa rəqabətdə olduğunu hiss etdiyi zaman baş verə bilər. Burada mobbinq həmkarlar arasında “üstünlük əldə etmək” məqsədi daşıyan hücum formasıdır.

Ayrı-seçkilik: Təəssüf ki, mobbinq qurbanları tez-tez cinsinə, cinsi oriyentasiyasına, yaşına, dininə və ya irqinə görə hədəfə alınırlar.

Mobbinqin Fərdlərə və Cəmiyyətə Təsirləri

Təşkilatlarda, xüsusən də işçi özünü dəyərli hiss etmirsə, düşmən və ya təhlükəli mühitlə üzləşirsə, iş perspektiv təmin etmirsə və ya işçinin şəxsi xüsusiyyətlərinə uyğun gəlmirsə, psixoloji ağrı və narahatlıq mənbəyi ola bilər. İş mühiti işçilərin öz vəzifələrini yerinə yetirdiyi sistemlər, vəziyyətlər və şərtlərdən ibarətdir. Zəhərli mühitlər bütün orqanizmə zərər verən xərçəng kimi fəaliyyət göstərir və iş performansının azalmasına səbəb olan mənfi təcrübələr verir. Zəhərli davranışlar şirkətin imicinə xələl gətirməklə yanaşı, işçilər

arasında özünəinamın aşağı olmasına, yüksək dövriyyəyə, işdən yayınmaya və məhsuldarlığın azalmasına səbəb olmaqla təşkilat xərclərini də artıra bilər. Biznesin idarə edilməsi etik və əxlaqi müzakirələri əhatə etməli və biznes fəaliyyətinin düzgün inkişafı üçün iş mühitinin vacibliyini dərk etməlidir [1, s.10 -13, 9, s.233].

Sui-istifadə bir çox psixoloji və davranış pozğunluqlarına səbəb ola və ya ağırlaşdıra bilər. Şiddətli vəziyyətlərin əksəriyyəti səssizcə yaşanır ki, bu da sui-istifadə və psixoloji zərər arasındakı əlaqənin həqiqi biliyinə əhəmiyyətli dərəcədə mane olur. Həm işini itirmək qorxusu, həm də bəzi təşkilatların strukturunda təqiblərin bayağılaşdığı üçün onun vurduğu zərəri hər kəs görsə də, təqib görünməz olur. Psixoloji zərərin dərəcəsi işçinin aldığı dəstəkdən və onun fərdi dözümlülük qabiliyyətindən asılıdır [7, s.61-71].

Mobbinq prosesində ən çox əziyyət çəkən şəxs mobbinqin qurbanıdır. Qəsdən və davamlı psixoloji zorakılıq getdikcə artır. Mobbinqdən asılı olaraq kumulyativ təsirlər və zərərlər yaranırkən, qurban həm sosial həm də iqtisadi itkilərə məruz qala bilər. Birinci mərhələdə onun sosial imici zədələnir, zaman keçdikcə sosial çevrəsində və ailəsində belə şəxs tənhalığa sürüklənir [10-14]. Mühitdən kənarlaşdırılma hissi, özünü günahlandırma psixologiyası psixosomatik pozğunluqların başladığı yerdir. Həyat keyfiyyəti pisləşən şəxs; qorxaq, utancaq və tərəddüdlü bir psixologiya görülür. Belə olan halda qurban hər sahədə özünə inamını itirir və çaşqın, yöndəmsiz, qorxan, utanan və utancaq olur. Bu vəziyyət təkcə iş mühitində deyil, şəxsiyyətlərarası münasibətlərdə də davam edir. İnsan sosial mühitlərdən qaçmağa, görüşləri unutmağa, qohumluq əlaqələrini kəsməyə başlayır. Qurban tez-tez evə yorğun gəlir, həddindən artıq emosional reaksiyalar göstərir və heç bir səbəb olmadan aqressivləşə bilər. Özünü kifayət qədər təhlükəsiz hiss etməmə, yanlış məlumatlandırılma, başqaları tərəfindən hörmətsizlik və ya ədalətsiz rəftara məruz qalma, yuxusuzluq, xroniki yorğunluq və tükənmişlik hissi, gərgin ailə-evlilik münasibətləri, alçaldılma/pozulma hissi, insan kimi rəftar edilmədiyi hissi, iştahsızlıq, daimi baş ağrıları, depressiya, tantrums, unutqanlıq, əsəbilik, ağlama, heç kimin onu başa düşmədiyi hissi, yaşamaq istəyinin itməsi, həyatdan həzz ala bilməmək və hətta sıx sıx intihar düşüncələri fikirleşmeye başlamaq kimi bütöv bu fikirlərə qapılma iş yerindəki psixoloji zorakılığın qurbana təsiri nəticəsində yarana bilər [3, s.165-184].

Mobbinq sosial təsirlərə də malikdir. Əmək və məhsuldarlığın itirilməsi və təcrübəli kadrların itirilməsi nəticəsində yaranan iqtisadi təsirlərlə yanaşı, qanuni proses səbəbindən əlavə xərclər də baş verə bilər. İşçi məmnuniyyətinin azalması, komanda ruhun itirilməsi, həm iş keyfiyyətinin, həm də iş yerinin etibarının azalması ilə nəticələnir [16]. Mobbingə göz yuman rəhbərlik getdikcə öz işçilərinin etibarını itirmək riski ilə yanaşı, əsas məhsuldar kadrları da itirmək ehtimalı ilə üzləşməyə məcbur edəcəkdir.

Təşkilatlarda Mobbinqin qarşısını necə almaq olar?

Təşkilatınızda mobbinqin qarşısının alınması sağlam, inklüziv və məhsuldar iş mühitinin təşviqi üçün vacibdir. Dəstəkləyici və hörmətli mədəniyyət yaratmaq üçün fəal addımlar atmaq mobbing riskini minimuma endirməyə və işçilərin özlərini dəyərli və təhlükəsiz hiss etmələrinə kömək edə bilər [6, s.7]. Təşkilatınızda mobbinqin qarşısını almaq üçün bəzi strategiyalar bunlardır:

Aydın siyasət və təlimatlar hazırlayın: İş yerində təqib, zorakılıq və mobbinqlə mübarizə aparan hərtərəfli siyasətlər hazırlayın və həyata keçirin. Bu siyasətlər mobbinqin nə olduğunu aydın şəkildə müəyyənləşdirməli, hesabat vermə və araşdırma prosesini təsvir etməli və mobbinq davranışı ilə məşğul olanlar üçün nəticələri müəyyən etməlidir. Müntəzəm təlimlər keçirməklə və məlumatların asanlıqla əldə olunmasını təmin etməklə işçilərin bu siyasətlərlə tanış olmasını təmin edin.

Açıq ünsiyyəti təşviq edin: İşçilərin narahatlıqlarını ifadə etmək və qarşılaşa biləcəkləri hər hansı bir problemi müzakirə etmək üçün rahat hiss etdikləri açıq ünsiyyət mədəniyyətini təşviq edin. Dəstəkləndiklərini və dinləndiklərini hiss etmələri üçün işçilərlə müntəzəm

olaraq yoxlayın. Anonim hesabat üçün kanalların yaradılması da işçiləri qisas qorxusu olmadan narahatlıqlarını bildirməyə təşviq edə bilər.

Müsbət iş mədəniyyətini təşviq edin: Müxtəlifliyə, inklüzivliyə və qarşılıqlı hörmətə dəyər verən bir mühit yaradın. İşçilərin bir-biri ilə əlaqə saxlamasına və güclü əlaqələr qurmasına kömək edən komanda qurma fəaliyyətlərini və sosial tədbirləri təşviq edin. Həmkarları ilə nəzakət və hörmətlə rəftar etməyin vacibliyini vurğulayaraq müsbət davranışı və əməkdaşlığı tanıyın və mükafatlandırın.

Menecerləri və nəzarətçiləri hazırlayın: Menecerləri və nəzarətçiləri iş yerində mobbinqi tanımaq və həll etmək bacarığı ilə təchiz edin. Onları münaqişələrin həlli, ünsiyyət və emosional zəkada öyrədin. Onlara mobbingə səbəb ola biləcək vəziyyətlərə müdaxilə etmək və təqiblərə məruz qala biləcək işçiləri dəstəkləmək üçün səlahiyyət verin [12].

İş yerinin dinamikasına nəzarət edin: Mobbinq əlamətlərini və ya yarana biləcək potensial problemləri müəyyən etmək üçün mütəmadi olaraq iş mühitini və işçilər arasında dinamikanı qiymətləndirin. Rəy toplamaq və iş yeri mədəniyyəti haqqında fikir əldə etmək üçün işçilər arasında sorğular keçirin, fokus qruplarına ev sahibliyi edin və ya təkbətək müzakirələrdə iştirak edin.

Dərhal və qətiyyətli tədbirlər gör: Əgər mobbinq aşkar edilərsə və ya bildirilərsə, vəziyyəti həll etmək üçün tez və müvafiq tədbirlər gör. Hərtərəfli araşdırma aparın, hədəflənən şəxsə dəstək verin və günahkarları öz hərəkətlərinə görə məsuliyyətə cəlb edin. Mobbinqlə mübarizəyə sadiqliyin nümayiş etdirilməsi təşkilatda bu cür davranışa yol verilmədiyinə dair aydın mesaj göndərəcək.

## ƏDƏBİYYAT

1. Çalışma ve Sosyal Güvenlik Bakanlığı Çalışma Genel Müdürlüğü, İşyerlerinde Psikolojik Taciz (Mobbing), Bilgilendirme Rehberi, Ankara, Mayıs 2013, s.10-13
2. ERDOĞAN, Gülnur, Mobbing İş Yerinde Psikolojik Taciz, TBB Dergisi, Sayı:83, 2009, s.318
3. Leyman, H. (1996). The Content and development of mobbing at work. European Journal Of Work And Organizational Psychology. 5(2), 165-184
4. Leyman, H. ve Gustafsson, A. (1996). mobbing at work and the development of post travmatik stress disorder. European Journal Of Work And Organizational Psychology. 5(2), 251-275
5. TINAZ, Pınar, İşyerinde Psikolojik Taciz (Mobbing), Beta Yayınları, İstanbul, 2006, s.7
6. Türkiye İşveren Sendikaları Konfederasyonu, Psikolojik Taciz (Mobbing) İle Mücadelede İşletme Rehberi, 5 Mart 2012, Yayın No: 321, s.7
7. Whitney Van den Brande, Elfi Baillien, Hans De Witte,Tinne Vander Elst, Lode Godderis, İş yerində zorakılıq prosesində iş stressorlarının, mübarizə strategiyalarının və mübarizə resurslarının rolu: hərtərəfli modelin sistematik nəzərdən keçirilməsi və inkişafı.Aqqressiya və Zoraki Davranış, Cild 29, İyul-Avqust 2016, s. 61-71
8. ZAPF, Dieter; "Organisational Work Group Related and Personal Causes of Mobbing/Bullying at Work", International Journal of Manpower. Vol. 20 Issue 1/2. 1999, s.71.
9. ZIKIC, Srdjan, PAUNKOVIC, Jane, CVETKOVIC, Aleksandra; "The Organizational Structure Affects the Occurrence of Mobbing", Megatrend University,Advances in Fiscal, Political and Law Science, Zajecar, Serbia, 2013,s.233.
10. https://cms.galenos.com.tr/Uploads/Article_23527/BTD-13-1.pdf
11. https://draganarakin.com/blog-en/why-do-individuals-resort-to-psychological-terror-at-work-mobbing/

12. https://www.allvoices.co/blog/what-is-workplace-mob-bing#:~:text=Mobbing%20has%20numerous%20negative%20effects,PTSD)%20in%20the%20targeted%20individual.
13. https://www.dbe.com.tr/tr/kurumsal/11/mobbing/
14. https://www.doktortakvimi.com/blog/mobbing-nedenleri
15. https://www.longdom.org/open-access/psychological-intimidation-at-workplace-mobbing-16153.html
16. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC10124815/
17. https://www.personio.com/hr-lexicon/mobbing-at-work-group-bullying/

## MOBBİNQİN SƏBƏBLƏRİ VƏ ONUN CƏMİYYƏTƏ VƏ İNSANLARA TƏSİRİ

***Yılmaz Seray***

**XÜLASƏ**

Məqalədə mobbinqlə bağlı müxtəlif mövzularda məlumatlar yer alır. Mobbinq anlayışı, mobbinq anlayışının yaranma səbəbləri, mobbinq iştirakçıların məqsədləri və xüsüsiyyətləri, mobbinqin hansı amillərin təsiri ilə baş verdiyi, mobbinqin fərdlərə və cəmiyyətə sosial, psixoloji, bioloji, iqtisadi aspektlərdən təsiri, təşkilatlarda mobbinqin qarşısının alınması üsulları kimi mövzular qeyd olunur.

## ПРИЧИНЫ МОББИНГА И ЕГО ВЛИЯНИЕ НА ОБЩЕСТВО И ЛЮДЕЙ

***Йылмаз Серай***

**РЕЗЮМЕ**

В статье содержится информация на различные темы, связанные с моббингом. Понимание мобинка, причины создания понятия мобинк, цели и характеристики участников мобинка, влияние мобинка на какие факторы, влияние мобинка на человека и общество из социальных, психологических, биологических, экономических наук. Кроме того, отмечены такие вопросы, как методы противодействия моббингу в организациях.

## CAUSES OF MOBBING AND ITS IMPACT ON SOCIETY AND PEOPLE

***Seray Yilmaz***

**SUMMARY**

The article contains information on various topics related to mobbing. The understanding of mobbinq, the reasons for the creation of the mobbinq concept, the purposes and characteristics of the mobbinq participants, the effects of mobbinq on what factors, the effects of mobbinq on individuals and society from social, psychology, biology, economic sciences. In addition, issues such as methods of countering mobbing in organizations are noted.

# РОЛЬ ПСИХОЛОГИЧЕСКОГО СОПРОВОЖДЕНИЯ В ПОМОЩИ БОЛЬНЫМ ШИЗОФРЕНИЕЙ

***Проф. Рена Гадирова***
***Амрахлы Сеидбяйли Фидан Рафаэль***
***магистрант 2 курса БГУ***
***fidan.amrakhli@gmail.com***

***Ключевые слова:*** шизофрения, КПТ, психоанализ
***Açar sözlər:*** şizofreniya, KDT, psixoanaliz
***Key words:*** schizophrenia, CBT, psychoanalysis

На сегодняшний день, для пациентов страдающих шизофренией первостепенным способом лечения является фармакотерапия. Значимость психотерапии на данный момент раскрыта не полностью. И конечно же невозможно устранить бред или галлюцинации при помощи психотерапии, однако содержание подобных состояний может стать полезным для понимания символического содержания бессознательного пациента. Даже если психотерапия играет не решающую роль в исцелении от заболевания, то ее роль в качестве сопровождения значительна. Психотерапия с больными шизофренией проводится обычно в периоды ремиссии. Психотерапевтическое сопровождение помогает предотвратить отчуждение пациентов, не выключаться от общества, сохранять семейные и дружеские отношения, экологично относиться к своему заболеванию. Как правило, психотерапия сопровождает медикаментозное лечение. Во время пребывание в стационаре, чаще всего применяется краткосрочная терапия, ее цель – предоставить поддержку для пациента во время обострения. Помимо краткосрочной терапии, применяется также долгосрочная терапия. Долгосрочная терапия состоит из трех уровней:

- Налаживание контактов с окружающими: пантомима, диалоги, арт-терапия.
- Формирование приемлемого поведения в обществе: моделирование сцен из жизни, диалоги, свободная беседа.
- Работа над восприятием болезни: групповая психотерапия.

Считается, что когнитивно-поведенческая терапия является наиболее эффективным для больных шизофренией. Давайте разберемся, каковы причины этого утверждения. Нарушения мыслительных процессов у больных шизофренией исследовала Зейгарник. Было выявлено, что чаще всего у больных шизофренией возникают проблемы с такими мыслительными операциями как с классификациями, обобщениями, аналогиями и т.д. Подобного родя нарушения приводят к нарушениям восприятия. Таким образом возникают ложные убеждения и галлюцинации. Когнитивно-поведенческая терапия помогает пациентам пересмотреть свои взгляды на симптомы, изменить отношение к болезни, уменьшить стресс, изменить свое поведение, прогнозировать и организовывать свое время и выстраивать гармоничные отношения с близкими людьми.

Несмотря на то, что клинические исследования показывают эффективность этого метода, Кокрейн провел исследования по специализированному регистру пациентов с шизофренией, которые получали когнитивно-поведенческую терапию. Из 5992 участников, только 82 пациента показали долговременное улучшение состояния их психического здоровья.

Давайте разберемся в причинах таких низких показателей, ведь в теории этот метод вполне эффективен. Как оказалось, в ряде случаев пациенты бросают терапию в силу того, что ожидания родственников и пациентов не соответствуют реальности,

хотя необходимое количество посещений ранжируется между 15-30. А другой причиной является позиция самого пациента, ведь психотерапия невозможна без намерения пациента исцелиться и желания работать над собой. Психотерапевт, конечно, показывает путь и обеспечивает пациента необходимыми инструментами, однако применение – остается за пациентом.

Согласно практике американского психиатра и автора нескольких учебных пособий – Хаймана Спотница, еще одним эффективным методом для психологического сопровождения пациентов больных шизофренией является современный психоанализ. Несмотря на то, что в психоаналитическом мире долгое время отвергалась польза психоанализа среди больных, профессиональные случаи самого Спотница приводили его к совершенно противоположным выводам. Психоанализ долгое время не видел среди кандидатов, с которыми вели работу, больных шизофренией. Это объясняется влиянием фрейдовских предубеждений на этот счет. Доктор Блейлер, отмечал, что с помощью психоанализа полное излечение невозможно, но возможно улучшение на более длительное время. Но тогда, речь шла о попытке излечения больных только психоанализом, без медикаментозного вмешательства. Следует отметить, что в этой статье мы рассматриваем психоанализ как дополнительное психологическое сопровождение медикаментозному лечению.

На психоаналитические взгляды по шизофрении повлияла ревизия теории либидо. Агрессия у больных шизофренией сливается с энергией эротического побуждения. В 1908 году, во время одной из «Психологических Вечерних сред» в доме Фрейда, обсуждалась именно эта тема. Теоретические достижения и клинические наблюдения внесли значительные изменения в психоаналитический подход к шизофреническим пациентам. По мнениею Альфреда Адлера, пациенты считались необучаемыми именно из-за агрессивных побуждений, что создавало невозможные условия для их лечения.

Теодор Рейк в 1927 году, привел в пример шизофреническую тенденцию направлять агрессивные импульсы против себя. Со стороны одного из пациентов, во время деперсонализации было сказано: «Вместо того, чтобы знать, что ты хочешь убить кого-нибудь другого, ты уничтожаешь самого себя» - то есть, уничтожаешь свое эго.

Доктор Григори Зильбург, описывая психоанализ одной пациентки, которая страдала параноидной шизофренией, выделяет ядро ее психоза как раннюю инфантильную конверсию. Была обнаружена враждебность, которая предназначалась ее родителям, которую пациентка направляла против себя. Травматическая фрустрация, перенесенная в пятилетнем возрасте, выплескивала огромную энергию и усиливала ее враждебность.

Первое поколение психоаналитиков считали, что пациенты, страдающие от шизофрении не поддаются психоаналитическому воздействию. В качестве барьера отмечалась ненависть направленная к аналитику и противостояние его воздействию. Однако, сегодня ненависть признается большой терапевтической силой. В таком случае, ненависть привязывает шизофренического пациента к его трансферному объекту.

Обязательные предосторожности от эксплозивного поведения создаются тремя путями:

- Контролируется степень напряжения, которому подвергается пациент.
- Вместо «To act on» - «отыгрывание вовнутрь», создаются условия для вербализации своих агрессивных побуждений.
- Пациенту помогают разрешать непосредственные препятствия к вербальной разгрузке этих побуждений.

В случае, когда негативный трансфер устанавливается и тормозится вербальная коммуникация, аналитик переходит к разрешению этого сопротивления, вызывая оппозицию пациента отыгрывать вовнутрь. И тогда импульсивное поведение обескураживается посредством отношений аналитика.

Последовательность психоаналитического вмешательства можно выделить в схеме ниже:

1. Развивается и анализируется нарциссический трансфер.
2. Изучаются попытки пациента войти в контакт с аналитиком, его историю и разрешается вопрос как необходимо контролировать интенсивность сопротивления.
3. Признается и анализируется контртрансферное сопротивление.
4. Развивается и изучается объектный трансфер.
5. Прорабатывается объект-трансферное сопротивление.
6. Разрешается сопротивление к окончанию лечения.

Очевидно, что лечение подобного рода не легко предпринять. Основная задача терапия – понять агрессивные побуждения в организации личности пациента и их влиянии на его здесь и сейчас функционирование в аналитических отношениях.

Напоследок, хотелось бы поделиться фразой Карла Густава Юнга: «В случае шизофрении, чувства возможно не уничтожаются, а своеобразно перемещаются и блокируются». И тогда целью психоанализа является разблокировать эти чувства и создать безопасные условия для их экспрессии.

## ЛИТЕРАТУРА

1. Б.В. Зейгарник Психопатология, Москва 1986, 400 с.
2. Х. Спотниц Современный психоанализ шизофренического пациента. Теория техники, США, 2004 – 257 с.
3. Дж. Боулби Создание и разрушение эмоциональных связей. США, 2005, 180 с.
4. Ненси Маквиллиямс, Психоаналитическая диагностика 1994, 300 с.
5. З. Фрейд, Пять историй болезни, Австрия, 1911, 300 с

# РОЛЬ ПСИХОЛОГИЧЕСКОГО СОПРОВОЖДЕНИЯ В ПОМОЩИ БОЛЬНЫМ ШИЗОФРЕНИЕЙ

***Амрахлы Сеидбяйли Фидан Рафаэль***

## АННОТАЦИЯ

В данной статье говорится о двух методах психотерапии, которые применимы по отношению к пациентам, страдающим шизофренией. Помимо КПТ, эффективным методом также является психоанализ. Конечно, по структуре, психоанализ запрашивает большего времени и углубленности. Но несмотря, на это хотелось бы, чтобы сегодня в психиатрических больницах применялись оба метода психотерапии, которые могут помочь пациентам в уменьшении психотических эпизодов и большего понимания себя.

# ŞİZOFRENİYA XƏSTƏLƏRİNƏ PSİXOLOJİ DƏSTƏKİN ROLU.

***Əmrahlı Seyidbəyli Fidan Rafael***

## XÜLASƏ

Bu məqalə şizofreniyadan əziyyət çəkən xəstələrə tətbiq oluna bilən iki psixoterapiya üsullarından bəhs edir. CBT ilə yanaşı, psixoanaliz də təsirli bir üsuldur. Təbii ki, psixoanaliz daha çox vaxt və dərinlik tələb edir. Ancaq buna baxmayaraq, bu gün

psixiatriya xəstəxanalarında xəstələrə psixotik epizodları azaltmaqda və daha çox özünü dərk etməkdə kömək edə biləcək hər iki psixoterapiya metodunun tətbiqini görmək effektiv olardı.

## ROLE OF PSYCHOLOGICAL SUPPORT IN HEALING PATIENTS WITH SCHIZOPHRENIA

***Amrahli Seyidbayli Fidan Rafael***

## SUMMARY

This article talks about two methods of psychotherapy that are applicable to patients suffering from schizophrenia. In addition to CBT, psychoanalysis is also an effective method. Of course, in structure, psychoanalysis requires more time and depth. But despite this, it would be desirable to see both methods of psychotherapy used in psychiatric hospitals today, which can help patients in reducing psychotic episodes and gaining greater self-understanding.

# HEMODİALİZ MÜALİCƏSİ ALAN XRONİKİ BÖYRƏK ÇATIŞMAZLIĞI XƏSTƏLƏRİNDƏ DEPRESSİYA VƏ TƏŞVİŞ SƏVİYYƏSİ

***Səlimli Cəmilə Ceyhun qızı***
***ATU-nin II kurs magistrantı***
***selimlicemile18@gmail.com***

***Açar sözlər:*** hemodializ müalicəsi, xroniki böyrək çatışmazlığı, depressiya, təşviş.
***Ключевые слова:*** лечение гемодиализом, хроническая почечная недостаточность, депрессия, тревога.
***Key words:*** hemodialysis treatment, chronic renal failure, depression, anxiety.

Xroniki xəstəlik orqanlarda və onun funksiyalarında normadan kənarlaşan, uzun illər müalicə tələb edən, insanın həyatına bir çox cəhətdən təsir edən uzunmüddətli xəstəlikdir (8). Xroniki böyrək xəstəliyi böyrəklərdə müxtəlif səbəblərdən daimi və artan funksiya itkisi ilə meydana gələn bir vəziyyətdir (16). Xəstəlik irəlilədikcə qan təzyiqinin yüksəlməsi, ürəkbulanma, halsızlıq, kilo itkisi, bədəndə şişkinlik, nəfəs darlığı, yuxusuzluq, qusma, qaşınma kimi digər orqanların təsirlənməsi ilə bağlı şikayətlər yarana bilər. Xroniki xəstəlik insanlarda psixi pozğunluqlarla qarşılaşma ehtimalını artırır (10).

Xroniki böyrək xəstəliyi beş mərhələdən ibarətdir. Bu mərhələ böyrəklərin qandan zərərli maddələri süzmə sürətini bildirən glomerular filtrasiya dərəcəsi adlı ölçüyə əsaslanır. Xəstəliyin ilkin mərhələləri birinci və ikinci mərhələlər olduğu halda, bu mərhələləri üçüncü və dördüncü mərhələlər izləyir və xroniki böyrək çatışmazlığının son mərhələsi beşinci mərhələ hesab olunur. Bu proses zamanı böyrək öz funksiyalarını yerinə yetirə bilmir. Son mərhələ böyrək xəstəliyi diaqnozu qoyulan xəstələrin ilk reaksiyaları kədər, çarəsizlik və ümidsizlik olarkən, sonra inkar və daha sonra isə qəbul edilmədir (9). Xəstəliyin əvvəlki mərhələlərində böyrək funksiyasının itirilməsini ləngitməyə yönəlmiş müalicələr tətbiq edilərkən, beşinci mərhələ zamanı hemodializ, böyrək transplantasiyası zəruri olur (16). Çox zaman xəstəlik sonuncu mərhələyə gələnə qədər hər hansısa bir əlamət müşahidə edilmir. Dördüncü mərhələ, hətta 5-ci mərhələyə qədər xəstələrin bir çoxunda simptomlar özün göstərmir.

Xroniki böyrək çatışmazlığı böyrək funksiyasının zədələnməsi ilə geri dönməz funksiya itkisidir. Bu xəstəlik bütün orqan və sistemlərə təsir göstərən ciddi bir xəstəlikdir. Xroniki böyrək çatışmazlığı diaqnozu qoyulan bir xəstədə istifadə edilən müalicə üsulları hemodializ, peritondializ və böyrək transplantasiyasıdır (14). Diaqnoz qoyulduğu ilk zamanlarda xəstələrdə aqressiya müşahidə edilir, lakin zaman keçdikcə xəstəliyin qəbul edilməsi müşahidə olunur. Xəstəlik qəbul edildiyi zaman istifadə edilən müalicə üsulları daha effektiv olur.

Peritondializ müalicəsində bir torba içərisində məhlul olur və xəstənin qarnına yerləşdirilən kateter vasitəsi ilə gündə 4 dəfə 40 dəqiqə olmaq şərti ilə qarın boşluğuna verilir. Xəstənin evdə özünün edə biləcəyi bu metodla qandakı zəhərli maddələr və artıq maye qarın pərdəsi vasitəsi ilə uzaqlaşdırılır.

Böyrək transplantasiyası isə xroniki böyrək çatışmazlığı üçün ən yaxşı müalicə seçimidir. Böyrək transplantasiyası böyrək çatışmazlığı olan xəstələr üçün edilən əməliyyatdır. Sağlam böyrəklər, tullantı məhsullarını və toksinləri süzmək, qırmızı qan hüceyrələrinin istehsalını stimullaşdıran eritropoetin ifrazı, qan təzyiqini idarə etməyə kömək edən renin ifrazı və bir çox başqa funksiyaları yerinə yetirir. Böyrəklər yaxşı işləmədiyi zaman bədənin həyati funksiyalarına təsir edir və ürək, ağciyər və sümüklərdə bir sıra problemlər yaradır. Xroniki böyrək çatışmazlığında dializ həyat qurtaran bir seçim ola bilər, lakin cihaz sağlam böyrəyin bütün funksiyalarını əvəz edə bilməz. Araşdırmalar göstərir ki, uğurlu böyrək transplantasiyası dializlə müqayisədə daha yaxşı müalicə üsuludur. Lakin hər zaman böyrək transplantasiyası mümkün olmadığı üçün dializdən istifadə edilir.

Hemodializ xəstənin funksiyasını yerinə yetirə bilməyən böyrəyinin yerinə xəstədən alınan qanın xarici aparatın köməyi ilə orqanizm üçün toksiki maddələrdən təmizlənərək xəstəyə qaytarılması prosesidir. Tədqiqatlar göstərir ki, hemodializin peritondializlə müqayisədə bir sıra üstünlükləri və mənfi cəhətləri var. Hemodializ zamanı tullantı maddələr bədəndən tez və müvəffəqiyyətlə çıxarılarkən, dializ mühiti xəstənin digər xəstələrlə əlaqələr qurmasına imkan verir və sosiallaşmağı asanlaşdırır. Həftədə iki və ya üç dəfə tətbiq olunur və xəstəxanaya yerləşdirmə tələbi daha az olur. Peritondializlə müqayisədə qarına aid fəsadlar yoxdur. Ancaq hemodializ seansları arasında maye-elektrolit və metabolik dəyişikliklər səbəbiylə dializdən sonra xəstə özünü yaxşı hiss edir, lakin növbəti seansa qədər yavaş-yavaş təkrar pisləşməsinin nəticəsi olaraq narahatlıqlar hiss edilməyə başlanır. Onun mənfi cəhətlərinə əlavə olaraq müalicə zamanı iynələrdən istifadə edilməsi qeyd edilir. İynələrdən istifadə edilməsi xəstələri narahat edə bilər. Peritondializlə müqayisədə daha geniş çeşiddə mayelərin və qidaların qəbulunda məhdudiyyətlər var.

Xroniki böyrək çatışmazlığı olan xəstələr hemodializ müalicəsi ilə ömürlərini uzatmaq istərkən, eyni zamanda hemodializin çətin tərəflərinin öhdəsindən gəlməyə çalışırlar. Hemodializ müalicəsi zamanı xəstələr aşağı yaşam məmnuniyyəti ilə həyatlarına davam edirlər. Bu zaman xəstə şəxslərin bir çoxu yaxşı həyat yaşamağa qarşı olan ümidlərini itirirlər. Müalicə zamanı yaşanan ağrılar gözləntilərdən daha çox olarsa özünə zərər verməyə yönəlik davranışlar müşahidə edilə bilər. Hemodializ xroniki böyrək çatışmazlığı üçün müalicə üsulu olsa da, xəstələrin həyatında bir çox şeyi dəyişdirə və həyat tərzini poza bilər (2). Hemodializ müalicəsi xəstənin qalan böyrək funksiyalarından və qida rasionunda olan zülalın miqdarından asılı olaraq həftədə 2-3 dəfə 4-6 saat müddətində tətbiq edilir. Hemodializ prosesi xəstələrdən hər həftə mütəmadi olaraq seansa getməyi və müalicə üçün ayrılan vaxtda gündəlik işlərini təxirə salmağı tələb edir. Bu səbəbdən bu xəstələr fiziki, sosial, psixoloji və iqtisadi dəyişikliklərlə birlikdə depressiya yaşaya bilərlər (11). Hemodializ çatışmazlığı bu xəstələrdə xəstələnmə və ölüm hallarının artmasına səbəb olur. Hemodializ evdə və ya xəstəxana çarpayısında müvafiq cihaz və avadanlıqlarla həyata keçirilə bilər (1).

Hemodializ müalicəsi zamanı halsızlıq, yorğunluq, qusma, qaşıntı, ağrı müşahidə edilə bilər. Bu halların yaşanması xəstənin funkisonallağının azalmasına, fiziki və sosial fəaliyyətinin məhdudlaşmasına səbəb olur. Hemodializ müalicəsi xəstələrdə bəzi fiziki və psixososial çətinliklərə səbəb olur. Bu vəziyyət depressiya və təşviş kimi bəzi psixoloji pozuntularla qarşılaşma ehtimalını artırır, eyni zamanda onların həyat keyfiyyətinə mənfi təsir göstərir, insanların ölüm qorxusu yaşamasına və işini itirməsinə səbəb olur. Hemodializ müalicəsi alan xəstələr sosial ətrafı ilə olan münasibətlərində də müəyyən problemlər yaşaya bilərlər. Bütün xroniki xəstəliklərdə görünə bilən xüsusiyyətləri ilə yanaşı, hemodializ xəstələrinin özünəməxsus xüsusiyyətləri də görünür. Xəstələr müalicə səbəbi ilə həftədə orta hesabla 3 gün xəstəxanaya getməli olurlar. Beləliklə müalicə qrupu dializ aparatından və ailələrindən asılı vəziyyətə gəlirlər. Bundan əlavə onlar məhdudlaşdırıcı bir pəhriz proqramı saxlayırlar. Psixososial baxımdan qiymətləndirildikdə xəstələrin fiziki disfunksiyası, müalicə xərclərinə görə maddi çətinliklər, ailə nizamının pozulması ilə bağlı problemlər yaşadığı görülür (12). Bu fiziki və psixososial stresslərə məruz qalan xəstələrdə psixi pozuntulara, xüsusilə depressiya və təşviş pozuntularına tez-tez rast gəlindiyi bildirilmişdir. Hemodializ xəstələrində depressiya səviyyəsi artdıqca, təşviş səviyyəsi də artır. Ədəbiyyatda depressiya və təşviş səviyyəsinin müsbət korrelyasiya göstərdiyi tədqiqatlar var (5).

Bütün xroniki tibbi xəstəliklərin inkişafında və müalicəsində depressiya çox mühüm rol oynayır. Xəstə depressiya səbəbi ilə ümidsiz hiss edərək müalicəyə uyğunlaşmaqda çətinlik çəkə bilər və ya həyati profilaktik tədbirlərə məhəl qoymaya bilər. Bundan əlavə, depressiyya yaşayan xəstələrin iştah itkisi və qidalanma əksikliyi nəticəsində hiss edilən enerji çatışmazlığı, həm fiziki həm də psixi sağlamlığa mənfi təsir göstərərkən, depressiyanın dərinləşməsinə də səbəb ola bilər.

Depressiya böyrək funksiyasının itirilməsi ilə birlikdə başlanğıcda sahib olduqları tibbi narahatlığın yaşatdığı çətinliklərdən qaynaqlanır. Kədərli əhval-ruhiyyə, maraq və iştahsızlıq, yuxu pozğunluğu, dəyərsizlik, günahkarlıq və intihar düşüncələri, konsentrasiyanın pozulması və funksionallıqda geriləmə kimi simptomlar bu xəstələrdə depressiyanın xəbərçisi ola bilər (9). Depressiya insanın özünü dərin bir kədər içində hiss etdiyi, gələcəklə bağlı pessimist düşüncələrin olduğu, bəzən isə intihar cəhdlərinin olduğu bir haldır. Aparılan araşdırmalar göstərdi ki, xroniki böyrək çatışmazlığı xəstələrinin sağlamlığının daim təhlükə altında olması, davamlı olaraq xəstəxanaya getmələri, fiziki cəhətdən müəyyən problemlərin yaşanması, ailə və yaxın mühitində yaranan problemlər səbəbi ilə hemodializ xəstələrində depressiya sıx müşahidə edilir. Ədəbiyyatda dializ xəstələrində ən çox rast gəlinən psixi problem olaraq qəbul edilən depressiya adətən fiziki vəziyyətin pisləşməsi ilə əlaqələndirilir. Depressiyanın olması mübarizə gücünə təsir edir, xəstəliyin gedişatına mənfi təsir edir və ömrünü qısaldır (4). Depressiv olmayan hemodializ xəstələri, depressiv olan hemodializ xəstələri ilə müqayisədə xəsəliyi qəbul edib, xəstəxanaya yerləşdiriləməyə daha müsbət baxırlar. Son mərhələdə böyrək çatışmazlığı diaqnozu qoyulmuş və bir ildən çox hemodializ müalicəsi alan xəstələrdə depressiya səviyyəsi daha yüksəkdir (13). Depressiya həm immunitet sistemininə mənfi təsir edərək, həm də mübarizə istəyinin azalması ilə xəstəliyin gedişatına mənfi təsir göstərir. Xəstələr əhval-ruhiyyə, davranış və düşüncə məzmunu baxımından qiymətləndirilməli və konsultasiyaya göndərilməlidir. Hemodializ xəstələrində depressiya səviyyələrini araşdırmaq üçün aparılan tədqiqatlarda dializ xəstələrində depressiyanı ölçməkdə çətinliklərə baxmayaraq, xəstələrdə ciddi depressiya aşkar edilmişdir.

Xroniki böyrək xəstəliyi və buna uyğun olaraq tətbiq edilən hemodializ müalicəsi insanlarda depressiya ilə yanaşı təşviş də yaradır. Xəstəliyin gedişi və gələcəyi ilə bağlı qeyri-müəyyənlik, müalicə prosesində baş verə biləcək fəsadlarla bağlı hər hansı narahatlıq insanlarda təşvişin formalaşmasına səbəb ola bilər. Edilən araşdırmalarda xroniki xəstəliyi olan insanlarda təşvişə tez-tez rastlandığı qeyd olunur (3). Təşviş səviyyəsi yüksək olan xəstələr hemodializ müalicəsinin tələblərinə tolerantlıq göstərə bilmirlər. Bu zaman dərmanlardan düzgün istifadə edilməməsi, xəstəxana işçilərinə qarşı qəzəbin olması, pəhriz proqramına əməl edilməməsi kimi hallar müşahidə edilir.

Təşviş ürək döyüntüsü, həddindən artıq tərləmə, mədə narahatlığı, baş ağrısı kimi hisslərlə müşayiət oluna bilər. Bununla belə, təşvişin əlamətləri fərddən fərdə dəyişir (15). Təşviş xəstənin həyat keyfiyyətinə birbaşa təsir göstərir. Bu səbəblə xəstənin narahatlığı effektiv şəkildə idarə edilməli və müdaxilələrdən sonra xəstənin reaksiyaları və müdaxilələrin müvəffəqiyyəti qiymətləndirilməlidir.

Xəstəyə ən asan çatan və ən çox xəstə ilə birlikdə olan tibb bacısının yanaşması həm xəstə baxımının, həm də tibb bacısı peşəsinin effektivliyinin artırılması baxımından həyati əhəmiyyət kəsb edir. Hemodializ xəstələrinin həftədə 2-3 dəfə 4-6 saat dializ aparatına qoşulması tibb bacılarının xəstələrlə tez-tez və sıx təmasda olmasına səbəb olur. Bu səbəbdən tibb bacıları xəstələrin bio-psixososial qiymətləndirilməsində və risklərin müəyyən edilməsində əsas rola malikdirlər (5). Tibb işçilərindən biri olan tibb bacılarının depressiyadan əziyyət çəkən xəstələrə kömək edə bilməsi üçün əvvəlcə depressiyanın əlamətlərini və bu əlamətlərlə necə mübarizə aparılacağını bilməsi lazımdır. Aparılan bir araşdırmada tibb bacılarının depressiv xəstələrə etdikləri dəstəkləyici təsirlərin vasitəsilə onların müalicəyə olan müsbət baxışlarının artdığı müşahidə edilmişdir(6).

Xroniki xəstəliklər üçün xüsusilə vacib olan ailə üzvlərinin dəstəyi xəstənin təkcə fiziki və emosional fəaliyyətini təmin etmir, həm də xəstəni həkimin tövsiyələrinə tam əməl etməyə və sağlam davranışlar qəbul etməyə təşviq edə bilər. Ailə üzvlərinin, dostların və səhiyyə işçilərinin dəstəyi xəstələrin xroniki xəstəliyə uyğunlaşmasında mühüm amil hesab olunur.

## ƏDƏBİYYAT

1. Akpolat, T., Utaş, C. (2007). Diyaliz Hakkında Genel Bilgiler,Hemodiyaliz 324-330.
2. Arat, Z. (2006) Hemodiyaliz hasta ve yakınlarında tükenmişlik sendromu, hasta yakınlarının yaşam kalitelerinin değerlendirilmesi ve etkileyen faktörler. Yüksek Lisans Tezi, *Başkent Üniversitesi Sağlık Bilimleri Enstitüsü*, Ankara, s.8-9.
3. Ateşçi, F. Ç., Karadağ, F., Oğuzhanoğlu, N. K. (2000).Bir Üniversite Hastanesi Yatan Hastalarında Psikiyatrik Bozuklukların Dağılımı, *Anadolu Psikiyatri Dergisi,* 1(3), 148-156.
4. Cimilli, C. (1994). "Hemodiyalizin Psikiyatrik Yönleri", *Türk Nefroloji, Diyaliz ve Transplantasyon Dergisi,* 3(3), 88-92.
5. Çelik, H.C., Acar, T. (2007). Kronik Hemodiyaliz Hastalarında Depresyon ve Anksiyete Düzeylerinin Çeşitli Değişkenlere Göre İncelenmesi, *Fırat Tıp Dergisi,* 12(1), 23-27.
6. Demirkıran F, Terakye G. Compliance of depressed patiance of theirdrug theraphy and effect of supportive nursing ınterventions on compliance. Kriz Dergisi,2001;9(2): 29-39
7. Dönmez ÇF, Yılmaz M. Diyaliz Hastaları ile Nefroloji Hemşireleri için Ölüm Kavramının Anlamı ve Ölümle Baş Etmede Nefroloji Hemşiresinin Rolü. Psikiyatri Hemşireliği Dergisi, 2012, 3(3): 141-147.
8. Eds.Durna Z, Akın S. *Nobel Tıp Kitabevleri*, İstanbul, 2012; s.573.
9. Levy, J., Morgan, J., Brown, E., (2002). Hemodiyaliz, *Oxford Diyaliz El Kitabı*, (Çev., Uslan, İ.), içinde (74-82), İstanbul: Nobel Tıp Kitapevleri.
10. Mete, H. E. (2008). "Kronik Hastalık ve Depresyon", *Klinik Psikiyatri,* 11(3), 3-18
11. Özdemir A.A. Hemodiyaliz tedavisi gören kronik böbrek yetmezliği hastalarının tedavilerinin toplumsal cinsiyet yaklaşımı ile değerlendirilmesi. Doktora Tezi, *Başkent Üniversitesi Sağlık Bilimleri Enstitüsü*, Ankara, 2016, s. 22.
12. Özçürümez, G., Tanrıverdi, N., Zileli, L. (2003). Kronik Böbrek Yetmezliğinin Psikiyatrik ve Psikososyal Yönleri, *Türk Psikiyatri Dergisi*, 14(1), 72-80.
13. Tokalak, İ., Kut, A., Sözen, F., Akman, B., Özdemir, F.N. (2006). Son Dönem Böbrek Hastalarının Kısa Sağlık Anketi ile Ruhsal Değerlendirilmesi. *Türkiye Aile Hekimliği Dergisi*, 10(1), (14-19).
14. Topbaş E. Kronik böbrek hastalığının önemi, evreleri ve evrelere özgü bakımı. *Nefroloji Hemşireliği Dergisi*. 2015(1): 53-59.
15. Türkçapar, H. (2004). Anksiyete bozukluğu ve depresyonun tanısal ilişkileri. *Klinik Psikiyatri*, 4, 12-16.
16. Weiner, D.E. (2007). Causes and Consequences of Chronic Kidney Disease: Implications for Managed Health Care, *Journal of Managed Care Pharmacy,* 13 (3) (suplement), 1-9

## HEMODİALİZ MÜALİCƏSİ ALAN XRONİKİ BÖYRƏK ÇATIŞMAZLIĞI XƏSTƏLƏRİNDƏ DEPRESSİYA VƏ TƏŞVİŞ SƏVİYYƏSİ

***Səlimli Cəmilə***

## XÜLASƏ

Xroniki böyrək çatışmazlığı çox qısa müddətdə inkişaf edir və müalicə olunmasına baxmayaraq qısa zaman ərzində böyrək funksiyasının mütərəqqi pisləşməsi və geri dönməzliyi müşahidə edilir. Xroniki böyrək çatışmazlığı olan xəstələrə Peritondializ, böyrək transplantasiyası və hemodializ müalicəsi tətbiq edilir. Ən yaxşı müalicə seçimi böyrək transplantasiyasıdır. Lakin transplantasiyasının edilməsi hər zaman mümkün olmadığı üçün peritondializ və hemodializdən geniş istifadə edilir. Hemodializ müalicəsi səbəbi ilə xəstələr həftədə ortalama 3 dəfə xəstəxanaya getməli olurlar.

Bu zaman ərzində xəstələrin fiziki disfunksiya, müalicə xərclərinə görə maddi çətinliklər yaşadığı görülür. Beləliklə onlar dializ aparatından və ailələrindən asılı hala gəlirlər. Həmçinin xəstələr fiziki və psixososial stresslərə məruz qalırlar. Bunun nəticəsində xəstələrdə psixi pozuntulara, xüsusilə depressiya və təşviş pozuntularına tez-tez rast gəlinir.

Depressiya və təşviş səviyyəsində fərqlər olduğu halda xəstələrə bu məsələlərlə bağlı psixoloji yardımın göstərilməsi və həyat keyfiyyətinin yaxşılaşdırılması üçün təşəbbüslərin göstərilməsi əhəmiyyətlidir.

## УРОВЕНЬ ДЕПРЕССИИ И ТРЕВОГИ У ПАЦИЕНТОВ С ХРОНИЧЕСКОЙ ПОЧЕЧНОЙ НЕДОСТАТОЧНОСТЬЮ, ПОЛУЧАЮЩИХ ГЕМОДИАЛИЗ

***Салимли Джамиля***

**АННОТАЦИЯ**

Хроническая почечная недостаточность развивается в очень короткие сроки, и, несмотря на лечение, в течение короткого периода времени наблюдается прогрессирующее и необратимое ухудшение функции почек. Больных с хронической почечной недостаточностью лечат перитондиализом, трансплантацией почки и гемодиализом. Лучшим вариантом лечения является трансплантация почки. Однако, поскольку трансплантация не всегда возможна, широко используются перитондиализ и гемодиализ. В связи с лечением гемодиализом пациентам приходится обращаться в больницу в среднем 3 раза в неделю. За это время видно, что пациенты испытывают финансовые трудности из-за физической дисфункции и затрат на лечение. Таким образом, они становятся зависимыми от диализного аппарата и своих семей. Пациенты также подвергаются физическому и психологическому стрессу. В результате у пациентов часто возникают психические расстройства, особенно депрессия и тревожные расстройства.

При наличии различий в уровне депрессии и тревоги важно оказывать пациентам психологическую помощь по этим вопросам и предлагать инициативы по улучшению качества жизни.

## DEPRESSION AND ANXIETY LEVEL IN CHRONIC RENAL FAILURE PATIENTS RECEIVING HEMODIALYSIS TREATMENT

***Salimli Jamila***

**SUMMARY**

Chronic renal failure develops in a very short time, and despite treatment, progressive and irreversible deterioration of kidney function is observed in a short period of time. Patients with chronic kidney failure are treated with Peritondialysis, kidney transplantation and hemodialysis. The best treatment option is a kidney transplant. However, since transplantation is not always possible, peritondialysis and hemodialysis are widely used. Due to hemodialysis treatment, patients have to go to the hospital on average 3 times a week. During this time, it is seen that patients experience financial difficulties due to physical dysfunction and treatment costs. Thus, they become dependent on the dialysis machine and their families. Patients are also exposed to physical and psychosocial stress. As a result, patients often experience mental disorders, especially depression and anxiety disorders.

When there are differences in the level of depression and anxiety, it is important to provide psychological help to patients regarding these issues and to provide initiatives to improve the quality of life.

# MÜNDƏRİCAT

## SOSİOLOGİYA VƏ SOSİAL İŞ

***Əzizli Anar.*** K.Marks və F.Engelsin şəhərlərin sosial-ekoloji vəziyyəti ilə bağlı elmi-nəzəri yanaşmaları ........ 3
***Məmmədova Zeynəb.*** Əlilliyi olan gənclərlə iş üzrə beynəlxalq təcrübə ........ 8
***Asini Cümşüd.*** Müasir dövürdə ailə zorakılığının sosial problemləri ........ 12
***Şekiliyev Ümman.*** Ailənin sosial institut kimi öyrənilməsinin səciyyəvi xüsusiyyəti ........ 16
***Əzizli Anar.*** Şəhərlərin tarixi təkamülü prosesi ........ 20
***Гурбанова Айдан.*** Эйджизм – глобальная проблема старения ........ 27
***Амирова Айлен.*** Формы социальной работы с мигрантами ........ 31
***İmanova Gözəl.*** Sosial xidmət proqramında sosial müdafiə məsələlərinə yeni çağırışlar ........ 35
***İsmayılova Günel.*** Yetkinlik yaşına çatmayanların və gənclərin formalaşmasında ailənin rolu ........ 39
***Mürşüdov Sarif.*** İdarəetmə prosesində informasiya sisteminin rolu ........ 43
***Rüstəzadə Vüsalə.*** Natamam ailənin şəxsiyyətin formalaşmasına təsiri ........ 48
***Məmmədova Mədinə.*** Sosial sahədə müasir dövlət xidmətlərinin təşkili ........ 51
***Əliyeva Nəzrin.*** Sosial sahədə səmərəli dövlət xidmətlərinin təşkili ........ 56
***Cavadova Sevda.*** Yoxsulluğa qarşı qlobal mübarızə: xarici ölkələrin təcrübəsi ........ 62
***Mürşüdov Sarif.*** Müəssisənin idarə olunmasında rəqəmsallaşma anlayışı ........ 66
***Rzayeva Xədicə.*** Covid-19 pandemiyasının sosial münasibətlərə təsiri ........ 71
***Məsmalıyev Əlixan.*** Azərbaycanda sosial dövlət kimi müasir xidmətlərin təşkili ........ 77
***Mehdiyeva Aytən.*** Sosial xidmətlərin göstərilməsində kompleks yanaşmalar ........ 81
***Гурбанова Айдан.*** Психологическая и социальная адаптация к пенсионному возрасту ........ 85
***Cabbarova Dərya.*** Cinayət törətmiş şəxslərin cəza müddəti bitdikdən sonra cəmiyyətə yenidən inteqrasiyası ........ 89
***Rüstəmov Ayxan.*** Ahılların hüquqlarının qorunmasının və sosial müdafiəsinin aktuallığı ........ 94
***Bayramova Ləman.*** Sosial xidmətin tarixi və əhatə dairəsi ........ 100
***Əhmədov Asəf.*** Azərbaycanda sosial siyasət sahəsində problemlər və həlli istiqamətləri ........ 106

## POLİTOLOGİYA

***Məmmədov Bəxtiyar.*** Müasir dövrdə Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq ........ 112

***Əfəndiyeva Səadət, Babayev Vüsal.*** Azərbaycan-Türkiyə münasibətlərində enerji layihələri və Bakı-Tbilisi-Ceyhan boru kəməri ........ 119

***Nuruzadə Elvin.*** Demoqrafik siyasət qlobal siyasət kimi ........ 124

***Gülməmmədova Arzu.*** Böyük dövlətlərin müdaxilələri türk dövlətlərinin inteqrasiyasına əngəl olan əsas amil kimi ........ 129

***Məmmədov Bəxtiyar.*** Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında siyasi əməkdaşlıq ........ 134

***Nuruzadə Elvin.*** Qanun qarşısında bərabərlik hüququ ........ 140

## PSİXOLOGİYA

***İsaxanlı Aydan.*** Müharibə və terror qurbanlarının yaşadığı psixoloji problemlər...... 144

***Yılmaz Seray.*** Mobbinqin səbəbləri və onun cəmiyyətə və insanlara təsiri ........ 150

***Рена Гадирова, Амрахлы Сеидбяйли Фидан.*** Роль психологического сопровождения в помощи больным шизофренией ........ 155

***Səlimli Cəmilə.*** Hemodializ müalicəsi alan xroniki böyrək çatışmazlığı xəstələrində depressiya və təşviş səviyyəsi ........ 159

SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 35
(II HİSSƏ)

Təsisçi: fəlsəfə üzrə elmlər doktoru, prof. **Qızılgül Yasin qızı Abbasova**
Kompüter dizaynı – fəlsəfə üzrə fəlsəfə doktoru **Vüsalə Kərəm qızı Musayeva**

Yığılmağa verilmişdir: 25.02.2024

Nəşriyyat direktoru: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operatorlar: Həmidə Bağırova, Nurdan Məmmədova

Çapa imzalanmışdır: 25.02.2024
Format: 60 ×84 1/8
Şərti çap vərəqi – 10,3
Sifariş № 45
Tiraj – 100 nüsxə

“Füyuzat” nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850 98 69